

# İXRACYÖNLÜ SƏNAYENİN İNKİŞAFI: SƏNAYELƏŞMƏ SİYASƏTİ VƏ İNFRASTRUKTUR TƏCHİZATLARI

RESPUBLİKA ELMİ KONFRANSININ

## MATERİALLARI

10 - 11 oktyabr

NAXÇIVAN - 2024

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

# İXRACYÖNLÜ SƏNAYENİN İNKİŞAFI: SƏNAYELƏŞMƏ SİYASƏTİ VƏ İNFRASTRUKTUR TƏCHİZATLARI

## RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI

*Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 29 noyabr 2023-cü il tarixli 04 saylı qərarı ilə nəşr edilib.*

NAXÇIVAN - 2025

**BAŞ REDAKTOR**
**Elbrus İSAYEV** – *Naxçıvan Dövlət Universitetinin rektoru*

**ELMİ REDAKTORLAR**

**Cavadxan QASIMOV** – *Naxçıvan Dövlət Universitetinin "Beynəlxalq ticarət və Menecment" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Teymur ABBASOV** – *Naxçıvan Dövlət Universitetinin "Mühasibat və maliyyə" kafedrasının müdiri, iqtisad elmləri doktoru, dosent*

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ**

**Nazim ƏHMƏDOV** – *iqtisad elmləri doktoru, professor*

**Əşrəf ƏLƏKBƏROV** – *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Elton İBRAHİMOV** – *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Flora KƏRİMOVA** – *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

***"İxracyönlü sənayenin inkişafi: sənayeləşmə siyasəti və infrastruktur təchizatları"***
***Respublika Elmi konfransının materialları.***

*10-11 oktyabr 2024-cü il. Naxçıvan Dövlət Universitetinin Nəşriyyatı, Naxçıvan, 2025, 187 s.*

*"İxracyönlü sənayenin inkişafı: sənayeləşmə siyasəti və infrastruktur təchizatları" Respublika Elmi konfransının materialları milli təhsil sistemimizin keçmiş olduğu inkişaf yolunun öyrənilməsi, təhsilin inkişaf dinamikasının mərhələli şəkildə təhlil olunması, təhsilin keyfiyyətinin artırılması, yeni informasiya mədəniyyətinin formalaşdırılması, informasiya texnologiyalarının tədris prosesinə inteqrasiyasının təmin edilməsi, təhsilin informasiyalaşdırılması prosesinin elmi təminatının və informasiya texnologiyalarına əsaslanan müasir təlim üsullarının hazırlanması haqqında araşdırmaları əhatə edir. Konfrans materialları geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

© NDU nəşriyyat, 2025

# MÜNDƏRİCAT

Bulqeyis Novruzova. İxracyönlü sənaye sahəsinin potensial inkişaf istiqamətləri........ 6

Sevinc Cabbarova. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatın inkişafında güzəştli biznes formalarından istifadə........ 13

Rəsul Ələkbərov. Muxtar respublika sənayesi üzrə rəqabətqabiliyyətli məhsulların ixraca yönəldilməsi problemləri və təkmilləşdirilməsi yolları........ 18

Həsən Məmmədov. Naxçıvan Muxtar Respublikasının davamlı inklüziv inkişafında Şərur Sənaye Məhəlləsinin rolu........ 24

Mahir Zeynalov, Gülnur Zeynallı. Naxçıvan Muxtar Respublikasında sənaye sektorunda sahibkarlığın inkişafı və tənzimlənməsi istiqamətləri........ 30

Müjkan Məmmədzadə. Müharibələrin iqtisadiyyata təsiri........ 37

Emil Bağırlı. Türkiyədə 1980 sonrası iqtisadi liberallaşma və onun iqtisadi təsirləri........ 45

Rahibə Əbdülhəsənova. Sənaye müəssisələrinin qlobal bazarda rəqabət üstünlüyü qazanması üçün tələb olunan əsas infrastruktur təchizatları........ 50

Şəhla Abbasova. Yüngül sənaye sektorunda ixracyönlü istehsalın inkişaf perspektivləri........ 58

Röya Əmirova. İxracyönümlü istehsal sahələrinin artırılmasında dövlət-özəl tərəfdaşlığının (ppp) rolu........ 63

Nəsrin Əliyeva. İxracyönlü istehsalda texnoloji yeniliklər və innovativ həllər........ 69

Mehriban Həsənova. Auditin inkişafında kompüter texnologiyalarında istifadə olunan universal metodikanın üstünlükləri........ 75

Lətif Zeynallı, Əbdülrəhim Dadaşov. Qeyri-neft sektoru üzrə ixracın makroiqtisadi inkişafa təsirinin qiymətləndirilməsi........ 82

Zahid Qənbərov. Böyük ipək yolu Naxçıvanda logistika imkanları........ 93

Nuriyyə İbrahimova. İxracyönlü sənayenin inkişafı: perspektivlər və çağırışlar........ 101

Cavanşir Burhanzadə, Ənvər İsmayıllı. Azərbaycanın post-konflikt ərazilərinin nəqliyyat-logistika infrastrukturunun cənub-qərbi və cənubi Asiya ölkələrinin əlaqələndirilməsində rolu: Bakı-Naxçıvan-Qars dəmiryolu xətti........ 103

Məhsəti Əsgərova. İxracyönlü sənaye və innovasiyalar: rəqabət üstünlüyünün formalaşması........ 112

Müjdə Məmmədova. İxracyönlü sənayenin davamlı inkişafında infrastrukturun rolu........ 114

Tələt Əlizadə. İxracyönlü sənaye: qlobal bazar tələblərinə uyğunlaşma strategiyaları........ 116

Famil Rüstəmov. Azərbaycan Respublikasında ixracyönlü qida sənayesinin inkişafı və idxal əvəzləyici qida məhsulların istehsalının artırılması istiqamətləri........ 118

Mövlan İsmayılov. Dövlət və Bələdiyyə maliyyəsi və bazar münasibətləri şəraitində onların rolu........ 125

Emil Bağırlı. İxracyönlü sənayeləşmə strategiyalarının iqtisadi artıma təsirinin qiymətləndirilməsi: Türkiyə nümunəsində........ 127

Əbdülhüseyn Zamanov, Rafik Qasımzadə. Qloballaşma şəraitində Naxçıvan iqtisadi rayonunda bərpa olunan enerji mənbələrinin inkişafı ölkəmizin milli iqtisadiyyatına yeni güc qatacaq........ 132

Əbdülhüseyn Zamanov, Murad Tahirov. Naxçıvan MR nəqliyyat logistikasının iqtisadi inkişafda rolu........ 137

Səmədağa Rizvanlı, Xasmurad İsmayılzadə. Ölkəmizdə neft-qaz iqtisadiyyatının stimullaşdırılmasının əsas perspektiv istiqamətləri........ 142

Əsmər Əliyeva. Azərbaycanın Türk Dövlətləri ilə sənaye məhsulları üzrə xarici ticarət əlaqələri........ 151

Leyla Əfrasiyabzadə. Azərbaycanın Türkiyə, Qazaxıstan və Özbəkistan ilə kənd təsərrüfatı məhsulları üzrə xarici ticarət əlaqələri........ 159

Nəsimi Əsədzadə. İxracyönlü sənayedə data analitikasının rolu........ 165

Nərmin Mirzəzadə. İxracın iqtisadi artıma təsirinin təhlili........ 171

Arzu Safarlı. The oretical justifica. Ions for the industrialization policy in the national economy of Azerbaijan........ 178

Gunel Isayeva. Prospects of special type of entrepreneurship in tourism sector in Nakhchivan Autonomous Republic........ 184

# İXRACYÖNLÜ SƏNAYE SAHƏSİNİN POTENSİAL İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Bulqeyis NOVRUZOVA**
*bulqeyis@yahoo.com*
*Naxçıvan Dövlət Universiteti*

***Xülasə***

*Bu gün dünyada yaradılan əlavə dəyərdə xidmət sektorunun payının sürətlə artmasına baxmayaraq, sənaye iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün əsas stimullaşdırıcı amil olaraq qalır. Ona görə müasir dövrdə ölkədə sənayeləşmə prosesinin sürətləndirilməsinə rəvac verəcək müvafiq elmi araşdırma və tədqiqatların aparılması aktuallaşmaqdadır. Dünya təcrübəsi göstərir ki, sənayenin inkişafı daxili bazarın həcmindən asılı olmayaraq idxaləvəzləyici yanaşmadan ixracyönlü istehsal modelinə keçidi tələb edir. Bu, onunla əlaqədardır ki, xüsusilə, kiçik iqtisadiyyatlarda daxili bazara hesablanmış istehsal həcmi maya dəyəri xərclərinin azaldılmasına imkan vermir və daxili tələbatda uzun müddət yüksək artım tempinin təmin edilməsi mümkün olmur. Azərbaycanda da ixrac məhsullarının istehsalının artırılması dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkənin daxili tələbat və yüksək artım potensialına malik ixrac imkanları sənaye istehsalının strukturunun təkmilləşdirilməsini və sənayenin diversifikasiyası isə bir sıra ənənəvi istehsal sahələri ilə yanaşı, ənənəvi olmayan, yeni istehsal sahələrinin qurulmasını tələb edir. Bu baxımdan, ölkədə mövcud sənaye və texnologiyalar parklarının fəaliyyətinin gücləndirilməsi, yeni sənaye parklarının və sənaye məhəllələrinin yaradılması, xüsusi iqtisadi zonaların fəaliyyətə başlaması və regionların sənaye potensialının artırılması istiqamətləri ətraflı araşdırılmalı, hər bir bölgənin və iqtisadi rayonun rəqabət üstünlükləri nəzərə alınmaqla, yeni regional inkişaf mərkəzlərinin, xüsusi iqtisadi zonaların, prioritet sahələr üzrə ərazi-istehsal klasterlərinin və yerli xammala əsaslanan yeni sənaye müəssisələrinin yaradılması, ixracyönlü qeyri-neft sektorunun inkişafı məqsədi ilə dövlət və özəl sektor arasında əməkdaşlığın inkişafı diqqət mərkəzində olmalıdır. Məqalədə ixracyönlü sənaye sahəsinin potensial inkişaf istiqamətləri ilə bağlı ölkədə olan mövcud şərait və iqtisadi mühit öyrənilmiş və müvafiq nəticə və təkliflər irəli sürülmüşdür.*
***Açar sözlər:*** *ixracyönlü sənaye, ixracyönlü istehsal, ixrac məhsulları istehsalı, ixrac potensialı, sənaye*

Bu gün dünyada sənayenin inkişafı əksər dövlətlərin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biridir. Buna görədir ki, dünya ölkələrində ümumi daxili məhsul istehsalında önəmli xüsusi çəkiyə malik olan sənayenin inkişafına irihəcmli investisiyalar qoyulur və innovativ yeniliklər tətbiq edilir.

Təbii ki, Azərbaycan da bu proseslərdən kənarda qalmamağa çalışır. Məlumdur ki, ölkə iqtisadiyyatı ilk növbədə sənaye istehsalından asılıdır.

Qeyd edək ki, 1848-ci ildə dünyada ilk dəfə Bakıda sənaye üsulu ilə neft hasilatına başlanılması nəticəsində ölkəmizdə sənayenin inkişafının təməli qoyulmuş və ötən dövr ərzində bu sahədə zəngin ənənələr formalaşmışdır. Hazırda Azərbaycan dövlətinin bu ənənələrə söykənən sənayeləşmə siyasəti müasir texnologiyalar əsasında sənaye zonalarının fəaliyyətə başlamasına təkan vermiş və innovativ əsaslarla tikilən sənaye

müəssisələri və kompleksləri güclü ixracyönümlü sənaye potensialı yaratmışdır. Son illər ölkədə yaradılan sənaye müəssisələri ən yüksək standartlara cavab verir.

Bu gün ölkə sənayesinin strukturunda qeyri-neft sənayesinin artım tempinin yüksəlməkdə olduğunu görmək olar. Başqa sözlə, rəqabətədavamlı istehsal və emal müəssisələrinin yaradılması, yerli istehsalın stimullaşdırılması, sahibkarlara güzəştli maliyyə yardımı mexanizmlərinin gücləndirilməsi, habelə sənaye potensialının möhkəmləndirilməsi istiqamətində görülən işlər inkişaf dinamikasını qeyri-neft sektorunun xeyrinə dəyişməkdədir.

Azərbaycanda 2023-cü ildə ÜDM-də sənayenin payı 40,5 faiz olmuş, sənaye müəssisələri və fərdi sahibkarlar tərəfindən 66,6 milyard manatlıq məhsul istehsal edilmişdir ki, bunun da 90,9 faizi sənaye məhsulu istehsalı, 9,1 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına olmuşdur. Eyni zamanda qeyri-neft sektorunda məhsul istehsalı üzrə n8 faiz artım müşahidə olunmuşdur. Onu da qeyd edək ki, ötən il qeyri-neft məhsullarının ixracı ondan əvvəlki ilə nisbətən 5,2 faiz artaraq 3 milyard 33,7 milyon dollar olmuşdur [4].

Hazırda, hər bir ölkənin sabit iqtisadi inkişafında sənaye potensialının rolu böyükdür. Bu baxımdan, qeyri-neft sənayesinin ənənəvi istehsal sahələrinin (kimya sənayesi, metallurgiya, maşınqayırma, elektrotexnika, elektronika, yüngül sənaye, yeyinti sənayesi və s.) inkişaf etdirilməsi və ixrac imkanlarının artırılması ilə yanaşı, rəqabətqabiliyyəti yüksək olan yenilərinin yaradılması Azərbaycan iqtisadiyyatının inkişafının başlıca şərtlərindəndir. Son illər fəaliyyətə başlayan sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların işinin səmərəli təşkili ölkəyə sərmayə axını, ixracın genişlənməsi və yeni iş yerlərinin yaradılması proseslərinin sürətlənməsinə rəvac verir.

Haliyədə ölkədə fəaliyyət göstərən sənaye parklarının sayı 7-yə, sənaye məhəllələrinin sayı isə 5-ə çatdırılmışdır. Bu da onu göstərir ki, sənaye parkları və sənaye məhəllələri iqtisadi cəhətdən özünü doğruldur və buna görə də onların regionlarda yaradılması istiqamətində işlər uğurla davam etdirilir.

Bu tərəqqi, innovativ inkişaf, əlbəttə ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasından da yan keçməmişdir. Hazırda, muxtar respublikanın sosial-iqtisadi həyatında, o cümlədən əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması əsas prioritetlərdən birinə çevrilmişdir.

Prezidentin Naxçıvanın yeni yüksəlişinin yol xəritəsini müəyyənləşdirdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi məqsədilə hazırlanmış Təfsilatlı Tədbirlər Planında Naxçıvanda azad iqtisadi zonanın yaradılması muxtar respublikanın inkişaf konsepsiyasının ana maddəsidir. Bu, Dövlət Proqramının mövcud reallıqlar bölməsində regionun xarici dövlətlərlə sərhəddə yerləşməsi nəzərə alınmaqla bölgədə vergi və gömrük güzəştləri müəyyən edilməklə rəqabətqabiliyyətli ticarət qovşağının yaradılması imkanının dəyərləndirilməsi deməkdir [1].

Muxtar respublikaya investisiyaların cəlb edilməsi və bu investisiyaların artırılması hərtərəfli inkişaf üçün vacibdir. İqtisadiyyatın prioritet sahələri üzrə investisiya layihələrinin hazırlanması bəndinə uyğun olaraq investisiya qoyulması prioritet olan sahələr, o cümlədən inşaat materialları, şüşə tutumlar, baramaçılıq və ipəkçilik, səhiyyə, dini və ənənəvi turizm, yaşıl enerji, kənd təsərrüfatı məhsulları tədarükü və emalı, günəş

panelləri, avtomobil və texnikalar üçün ehtiyat hissələri, pivot suvarmada istifadə olunan metal konstruksiyalar, boyalar üçün xammal, soda, natrium xlorid, gil xammalı, teşenit yatağından xarici və daxili divarların üzlənməsi üçün təbii daş bloklar, çini və saxsı qablar, efir yağı, üzvi gübrə, bitumlu membran, corab, sabun, dəftər və qələm istehsalı üzrə sahələr müəyyənləşdirilmişdir [2].

İqtisadi inkişafın müasir mərhələsində mühüm məqsədlərdən biri idxalın məhdudlaşdırılması və bu əsasda yerli məhsul istehsalının stimullaşdırılması, nəticə etibarilə, ixracyönümlü məhsul istehsalının həcminin artırılmasından ibarətdir. Təsdiq olunan sənəddə Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların digər bazarlara ixracını təşviq etmək məqsədilə logistik dəstək verilməsi, həmçinin sənaye parkının və məhəlləsinin yaradılması ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsi də qeyd olunmuşdur.

Bu istiqamətdə muxtar respublikada logistik şirkətin yaradılması nəzərdə tutulmuş, Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlamasının təmin edilməsi istiqamətində müvafiq işlər görülmüşdür. Belə ki, Şərur Sənaye Məhəlləsində 2023-cü ilin əvvəlinədək cəmi 3 istehsal sahəsi fəaliyyət göstərirdisə, artıq sənaye məhəlləsində ayaqqabı, tikili mallar, Avropa qapıları, mebel, kağız kisə, karton tara istehsalı sahələri olmaqla, 7 sahibkarlıq sahəsi fəaliyyət göstərir. Bitki yağı, unlu qənnadı məmulatları, qəlyan tütünü istehsalı sahələrinin qurulması istiqamətində işlər davam etdirilir. Bununla yanaşı, Şərur Sənaye Məhəlləsinin boş qalan ərazisində tekstil müəssisənin qurulması və sahibkarlıq subyektləri tərəfindən daxil olan 20 layihə üzrə işlər aparılmaqdadır.

Yaxın vaxtlarda Naxçıvan Muxtar Respublikasında istehsal edilən məhsulların ixrac coğrafiyasının şaxələndirilməsi istiqamətində ilkin olaraq muxtar respublikada istehsal edilən ixrac potensiallı məhsulların müəyyənləşdirilməsi, məhsulların vahid reyestr və rəqəmsal kataloqunun hazırlanması, eyni zamanda ölkə daxilində və xaricində keçirilən beynəlxalq sərgilərdə, müxtəlif ölkələrdə olan ticarət evlərində Naxçıvanda istehsal edilən məhsulların nümayişinin təşkil olunması, həmçinin xarici tərəfdaşların tapılması istiqamətində işlərin aparılması nəzərdə tutulmuşdur.

Artıq bu istiqamətdə potensial ixrac bazarlarında baş verən tendensiyalar öyrənilir, ixrac potensiallı məhsulların bu bazarlara çıxarılması istiqamətində araşdırma aparılır, sahibkarların müraciətləri əsasında ixracla bağlı müvafiq məlumatlar verilir. İxracyönlü potensial sənaye sahələri üzrə layihələrin hazırlanması və layihələrə investisiyaların cəlb edilməsi bəndinə əsasən ilkin olaraq sənaye sahələri müəyyənləşdirilir, layihələrin hazırlanması istiqamətində işlər aparılır. Eyni zamanda "AZPROMO" tərəfindən tətbiq edilən "Microsoft Bİ" interaktiv vizualizasiya məlumat proqramının tətbiqi də nəzərdə tutulmuşdur.

Bu gün ölkəmizdə sənaye zonalarında sahibkarlıq subyektinin inkişafı üçün tam əlverişli investisiya mühiti yaradılmışdır ki, bu da istər yerli, istərsə də xarici sahibkarlar üçün cəlbediciliyi daha da artırır. Ümumilikdə, sənaye zonaları ölkədə həyata keçirilən genişmiqyaslı sənayeləşmə siyasətinin ən uğurlu modellərindəndir. Bu model sənaye zonalarının ildən-ilə daha çox uğur qazanmasına imkan yaradır. Fəaliyyətə başladığı dövrdən sənaye parkları və məhəllələrində ümumilikdə 6,7 milyard manatdan çox özəl investisiya qoyulmuş və 11 mindən artıq daimi iş yeri açılmışdır. Dəyəri 12,1 milyard

manatdan artıq olan məhsul istehsal edilmişdir ki, bunun da 3,8 milyard manatdan çox hissəsi ixrac olunmuşdur.

İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, indiyədək sənaye zonalarında istehsal olunan məhsullar 70-dən artıq ölkəyə ixrac edilmişdir. 2015-ci ildən 2024-ci ilin birinci rübünün sonunadək sənaye zonalarında 12,7 milyard manatlıq məhsul satışı həyata keçirilmişdir ki, bunun da 4,1 milyard manatlıq hissəsi ixrac olunmuşdur. Həmçinin cari ilin birinci rübündə sənaye zonalarında 640,3 milyon manatlıq satış həyata keçirilmişdir ki, onun da 223,6 milyon manatlıq hissəsi ixracın payına düşür. Bu dövrdə sənaye zonalarının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 14,6, ixracında isə 28,2 faiz təşkil etmişdir [4].

Təqdirəlayiqdir ki, hazırda qeyri-neft sektoru iqtisadiyyatımızın təxminən 65 faizini təşkil edir. Burada mühüm element kimi yüksək standartlara cavab verən milli məhsulların və malların istehsal şəbəkəsinin genişləndirilməsini, ixracyönümlü malların çeşidinin artırılmasını və qeyri-neft ixracının coğrafiyasının şaxələndirilməsini və həcminin yüksəldilməsini, yeni xarici əmtəə bazarlarına çıxışın təmin olunmasını göstərmək olar.

Bununla yanaşı, real iqtisadi proseslərdə sənaye parklarının iqtisadi-təşkilati mexanizmlərinin tətbiqi zamanı onların səmərəliliyinə nail olunması məsələləri mühüm əhəmiyyət kəsb edir. Həmin proseslərdə sənaye parklarında istehsalın strukturunun təkmilləşdirilməsi, yüksək texnologiyalar və innovasiyalar hesabına məhsuldar mexanizmlərin tətbiqinin təmin olunması, daha çox rəqabətqabiliyyətli və ixracyönlü sənaye məhsullarının istehsalının təşkil edilməsi vacib məsələlər kimi xarakterizə olunurlar.

Ümumiyyətlə, sənaye parkları və məhəllələri, aqroparklar kimi mütərəqqi mexanizmlər qeyri-neft sənayesinin intensiv inkişafına, bu sahədə sahibkarlığın daha əlverişli şərtlərlə dəstəklənməsinə, ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, ölkəyə valyuta axınının, investisiyaların artmasına, neft-qaz amilindən asılılığın daha da azaldılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafına, sənayedə yüksəkixtisaslı kadrların artmasına yeni imkanlar açır. Sənayenin müasirləşməsi, qeyri-neft sektorunun şaxələndirilməsi sahəsində məqsədyönlü islahatlar, yeni mexanizmlərin tətbiqi, rəqabətqabiliyyətli və innovativ sənaye məhsulları istehsalı müəssisələrinin yaradılması ölkədə yüksəkkeyfiyyətli və ixracyönümlü məhsul istehsalının artmasına, ixrac potensialının yüksəlməsinə rəvac verəcək şərtlərdir.

Nəticə olaraq qeyd edək ki, Azərbaycanda ixrac məhsullarının istehsalının artırılması dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkənin daxili tələbat və yüksək artım potensialına malik ixrac imkanları sənaye istehsalının strukturunun təkmilləşdirilməsini və sənayenin diversifikasiyası isə bir sıra ənənəvi istehsal sahələri ilə yanaşı, ənənəvi olmayan, yeni istehsal sahələrinin qurulmasını tələb edir. Bu baxımdan, ölkədə mövcud sənaye və texnologiyalar parklarının fəaliyyətinin gücləndirilməsi, yeni sənaye parklarının və sənaye məhəllələrinin yaradılması, xüsusi iqtisadi zonaların fəaliyyətə başlaması və regionların sənaye potensialının artırılması istiqamətləri ətraflı araşdırılmalı, hər bir bölgənin və iqtisadi rayonun rəqabət üstünlükləri nəzərə alınmaqla, yeni regional inkişaf mərkəzlərinin, xüsusi iqtisadi zonaların, prioritet sahələr üzrə ərazi-istehsal klasterlərinin və yerli xammala əsaslanan yeni sənaye müəssisələrinin yaradılması,

ixracyönlü qeyri-neft sektorunun inkişafı məqsədi ilə dövlət və özəl sektor arasında əməkdaşlığın inkişafı diqqət mərkəzində olmalıdır.

## ƏDƏBİYYAT

1. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 iyun 2023-cü il, № 3910
2. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” müasir Naxçıvanın yeni yüksəlişinin yol xəritəsi. http://neconomy.gov.az/ru/metbuat-xidmeti/xeberler/naxcivan-muxtar respublikasinin-sosial-iqtisadi-inkisafina-dair-2023-2027-ci-iller-ucun-dovlet-proqrami-muasir-naxcivanin-yeni-yukselisinin-yol-xeritesi
3. “Sənaye parkları haqqında nümunəvi Əsasnamə”, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli Fərmanı
4. 2024-cü ilin yanvar-may aylarında sənaye istehsalı haqqında *https://www.stat.gov.az/news/index.php?lang=az&id=5896*
5. İsgəndərova, A. Qeyri-neft sektorunun strukturunun genişləndirilməsində sənaye parklarının rolunun artırılması istiqamətləri, Bakı Biznes Universiteti, *https://uploads.cbar.az/assets/d0c54bb6acd3ee778d9d92712.pdf*
6. Sənayedə yeni metodların tətbiqinin əhəmiyyəti https://azertag.az/ xeber/ senayede_yeni_metodlarin_tetbiqinin_ehemiyyeti-1700353
7. Sənayeləşmə siyasətinin uğurlu modeli: sənaye zonaları https://www.azerbaijan-news.az/index.php/az/posts/detail/senayelesme-siyasetinin-ugurlu-modeli-senaye-zonalari-1715463789

## SUMMARY

**Bulgeyis Novruzova**

## POTENTIAL DEVELOPMENT DIRECTIONS OF THE EXPORT-ORIENTED INDUSTRY

Despite the rapid increase in the share of the service sector in the added value created in the world today, the industry remains the main stimulating factor for the development of all sectors of the economy. Therefore, in modern times, conducting relevant scientific research and studies that will facilitate the acceleration of the industrialization process in the country is becoming more and more important. World experience shows that the development of the industry requires a transition from an import-substitution approach to an export-oriented production model, regardless of the size of the domestic market. This is due to the fact that, especially in small economies, the volume of production calculated for the domestic market does not allow to reduce costs, and it is not possible to ensure a long-term high growth rate of domestic demand. Increasing the production of export products in Azerbaijan is one of the priority directions of the state's economic policy. The country's domestic demand and export opportunities with high growth potential require the improvement of the structure of industrial production and the diversification of the industry requires the establishment of new non-traditional production areas along with a number of traditional production areas. In this regard, strengthening the activity of the existing industrial and technology parks in the country, creating new industrial parks and industrial districts, starting the operation of special economic zones and increasing the industrial potential of the regions should be investigated in detail, taking into account the competitive advantages of each region and economic region, new regional development centers, The focus should be on the creation of special economic zones, territorial-production clusters on priority areas and new industrial enterprises based on local raw materials, development of the export-oriented non-oil sector, and the development of cooperation between the public and private sectors. In the article, the current conditions and economic environment in the country related to the potential development directions of the export-oriented industry were studied, and relevant conclusions and proposals were put forward.

***Key words:*** *export-oriented industry, export-oriented production, production of export products, export potential, industry*

## РЕЗЮМЕ

**Булгейис Новрузова**

## РОТЕНЦИАЛЬНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ЭКСПОРТООРИЕНТИРОВАННОЙ ОТРАСЛИ

Несмотря на стремительный рост доли сферы услуг в создаваемой сегодня в мире добавленной стоимости, промышленность остается основным стимулирующим фактором развития всех отраслей экономики. Поэтому в современное время все большее значение приобретает проведение соответствующих научных исследований и исследований, которые будут способствовать ускорению процесса индустриализации в стране. Мировой опыт показывает, что развитие отрасли требует перехода от импортозамещающей модели производства к экспортно-ориентированной модели независимо от размера внутреннего рынка. Это связано с тем, что, особенно в малых экономиках, объемы производства, рассчитанные на внутренний рынок, не позволяют снизить себестоимость и не удается обеспечить долгосрочные высокие темпы роста внутреннего спроса. Увеличение производства экспортной продукции в Азербайджане является одним из приоритетных направлений экономической политики государства. Внутренний спрос и экспортные возможности страны с высоким потенциалом роста требуют улучшения структуры промышленного производства, а диверсификация промышленности требует создания новых нетрадиционных производств наряду с рядом традиционных производственных направлений. С этой точки зрения усиление деятельности существующих в стране индустриальных парков и технопарков, создание новых индустриальных парков и промышленных округов, запуск особых экономических зон и повышение промышленного потенциала регионов должны быть детально исследованы с учетом конкурентных преимуществ каждого региона и экономического района, новых региональных центров развития, особое внимание надо выделят на создании особых экономических зон, территориально-производственных кластеров на приоритетных территориях и новых промышленных предприятий на базе местного сырья, а также развитии сотрудничества государственного и частного секторов с целью развития экспортно-ориентированного ненефтяного сектора. В статье изучены текущие условия и экономическая среда в стране, связанные с потенциальными направлениями развития экспортно-ориентированной отрасли, а также выдвинуты соответствующие выводы и предложения.

***Ключевые слова:*** *экспортоориентированное производство, производство экспортной продукции, экспортный потенциал, промышленность*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİYYATIN İNKİŞAFINDA GÜZƏŞTLİ BİZNES FORMALARINDAN İSTİFADƏ

**Sevinc CABBAROVA**

Azərbaycan Respublikasının innovasiya yönümlü sosial-iqtisadi inkişaf meyli bir sıra kəmiyyət və keyfiyyət xüsusiyyətləri ilə müşahidə olunacaqdır. Belə ki, ilkin olaraq, milli iqtisadiyyatın ənənəvi sahələrinin məhsul istehsalının həcminin artmasına, ÜDM-in yüksəlməsinə əməli təsir edəcəkdir. İkincisi, innovasiya tədbirlərinin genişlənməsi və tətbiqi iqtisadiyyatda əmək məhsuldarlığının artımına, istehsal olunan məhsulların, göstərilən xidmətlərin rəqabət qabiliyyətinin güclənməsinə təkan verəcəkdir. Üçüncüsü, yeni iqtisadi sistemin formalaşması daha çox bilik iqtisadiyyatına və yüksək texnologiyalara əsaslanacaqdır ki, bu da ölkənin beynəlxalq bazarlardakı mövqeyini möhkəmlədəcəkdir. Bilik iqtisadiyyatı və yüksək texnologiyalar isə, elm, təhsil, səhiyyə, informasiya-kommunikasiya-texnologiyaları və infrastruktur sahələrinin fəaliyyətində ciddi irəliləyişlərin əldə olunmasını təmin edəcəkdir. Qəbul olunan konsepsiya əsasən innovasiya ssenarisinə uyğun olmaqla, həm ənənəvi iqtisadiyyat sahələrində rəqabət qabiliyyətini, həm də yenicə formalaşmağa başlayan elm tutumlu, yüksək biliklərə arxalanan sahələrdə inkişafı təmin etməklə, hər iki sahədə mövcud olan ciddi kənarlaşmaların, fərqlərin tədricən aradan qaldırılmasına istiqamətlənməlidir. Burada əsas istiqamətin insan kapitalının təkmilləşməsinə, istehsal və xidmət sahələrində yüksək texnologiyalardan istifadə nəticəsində innovasiya amilinin iqtisadi inkişafın başlıca mənbəyinə təkan verəcək modelin yaradılmasına yönəlmişdir [2, s.21].

Regionların sosial-iqtisadi cəhətdən tarazlı inkişafında, bu ərazilərdə aqrar, sənaye və digər iqtisadiyyat sahələrinin inkişafı üçün real imkanlar mövcuddur. Bu amili keçmiş sovetlər dövründəki təcrübə də sübut edir. Mövcud ərazilərin inkişafı üçün maddi-texniki, maliyyə, peşəkar kadr potensialını bir araya gətirmək, son texnoloji, innovasiya resurslarından səmərəli istifadə etmək, yerli işgüzar tənzimləmə və nəzarət mexanizminin hüquqi bazasını təkmilləşdirmək vacib məsələlərdəndir. Həyata keçirilən tədbirlər regional inkişafdakı disbalansı aradan qaldırmalı, sənaye və digər iqtisadiyyat sahələrinin inkişafı baxımından bir müəssisənin yaradılmasında yalnız bir region deyil, zərurət yarandıqca bir neçə regionun ərazisindən istifadə edilməsi (ərazi, xammal, resurs təminatı və s.) məqsədəuyğundur. Digər tərəfdən, iqtisadi inkişafla bağlı regional kordinasiyanın gücləndirilməsi də zəruridir. Ölkədə daxili və xarici bazarlar üçün tələb olunan məhsulların istehsalında regionlarda fəaliyyət göstərən müəssisələrin stimullaşdırılması, burada biznes mühitinin daha geniş inkişafı üçün tədbirlərin həyata keçirilməsi konsepsiyanın müsbət icrası baxımından mühüm rol oynayır [1, s.35].

Texnopark vahidinin əsas strukturu mərkəzdir. Adətən, texnoparkın strukturunda aşağıdakılar təqdim olunur:

1) innovasiya-texnoloji mərkəzi;
2) tədris mərkəzi;
3) məsləhət mərkəzi;
4) informasiya mərkəzi;
5) marketinq mərkəzi;

6) sənaye zonası.

Bundan əlavə, bu struktura maliyyə-sığorta mərkəzi, mühasibat-audit mərkəzi, eləcə də strateji-tədqiqat mərkəzi də əlavə olunur. Texnopark strukturları kiçik və orta biznesin inkişafına xidmət edir. Güzəştli sahibkarlığın bütün formaları və dövlət dəstəyi bazar şəraitində biznesin peşəkarcasına aparılması səviyyəsinin inkişafına və yüksəldilməsinin sürətlənməsinə yönəldilmişdir. Qeyd etmək lazımdır ki, texnoparkların ən inkişaf etdiyi ölkələr ABŞ, Hindistan, Çin və s. ölkələrdir. Bu mərkəzdən hər biri xüsusi xidmətlər dəsti, məsələn, mütəxəssislərin yenidən hazırlanması, müəyyən texnologiyalar üzrə informasiyanın verilməsi, hüquqi məsləhətlər və s. xidmətlər göstərir. Texnoparkda yerləşən elmi-texniki firmalar elmtutumlu məhsul bazarına daha tez uyğunlaşırlar və texnoparkın üstünlüklərindən güzəştli istifadə edərək fəal inkişaf edirlər. 2020-ci ildə həmin sahələrdə texnopark strukturlarının yaranması müasir qloballaşan dünyada, iqtisadiyyatın inkişafının hazırkı mərhələsində elm və biznesin qarşılıqlı fəaliyyətinin obyektiv qanunauyğunluğudur. Biznes inkubatorların, texoparkların, texnopolislərin və s. daxil olduğu bu strukturlar elmi işlərin, biznes planların sürətlə və birbaşa tətbiq edilməsi məqsədilə sahibkarlıq fəaliyyəti ilə yenicə məşğul olanlara, alimlərə, mühəndislərə və s. xidmət göstərmək vəzifəsini yerinə yetirir.

Azərbaycan iqtisadi modelinə daha məqsədəuyğun modellər aşağıdakılardır:

- Regional texnoparklar;
- İnnovasiya mərkəzləri; Texnopolislər.

Regional texnoparkların yaradılmasında əsas məqsəd müasir elmin prioritet sahələri üzrə elmi-texniki potensialın iqtisadi proseslərə cəlb olunması və elmi tədqiqatların kommersiya reallaşdırılması yolu ilə bu sahələrin gələcək inkişafına investorların cəlb olunması sayılır. İnnovasiya mərkəzinin açılmasının əsas məqsədi Naxçıvan MR-da texnoloji istiqamətin geniş spektrli üzrə innovasiya proseslərinin aktivləşməsi sayıla bilər. Naxçıvan MR-da texnopolis yaratmaqla istehlak təyinatlı yüksək texnoloji məhsulların buraxılışı üzrə xarici şirkətlərlə birgə müəssisələr yaratmaq əsasında fəaliyyət göstərmək olardı. İnnovativ təşkilatların yaradılmasında məqsəd Naxçıvan iqtisadiyyatına istehlak mallarının istehsalı üzrə müasir texnologiyaların cəlb olunmasını və əhalinin rifah halının yaxşılaşdırılması deməkdir. Bunun ilkin şərtləri kimi əlverişli coğrafi mövqe, istehsal infrastrukturunun kifayət qədər inkişaf səviyyəsi, zəngin mineral resursların mövcudluğunu, iqtisadi və siyasi sabitliyi göstərmək olar. Bütün bunlar Naxçıvan MR-na xas olan xüsusiyyətlərdir.

Güzəştli biznes formaların effektiv inkişafı üçün ən mühüm şərtlər müvafiq qanunvericilik bazasının işlənib hazırlanması və potensial partnyorlar üçün güzəştlər sisteminin tətbiqi sayılır. Azərbaycanda texnoparkların yaradılmasının qanunvericilik bazası mövcuddur. Belə ki, Azərbaycan Respublikası Prezidenti ölkədə qəbul edilmiş bir sıra strateji proqramların və layihələrin reallaşmasında, həmçinin sosial-iqtisadi inkişafın yeni mərhələsində prioritet vəzifələrin yerinə yetirilməsində xüsusi iqtisadi zonaların (texnoparkların) mühüm rol oynaya biləcəyini qeyd edərək 2007-ci il martın 6-da "Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında" fərman imzalanmışdır. 2009-cu il 14 aprel tarixində qəbul edilmiş "Xüsusi iqtisadi zonalar haqqında" Qanun Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların (texnoparkların)

yaradılması və idarə edilməsi ilə bağlı hüquqi və iqtisadi münasibətləri tənzimləyir, həmin zonalarda sahibkarlıq fəaliyyətinin təşkili qaydalarını müəyyən edir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" – müasir Naxçıvanın yeni yüksəlişinin yol xəritəsi.

Son illər ərzində regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası nəticəsində, demək olar ki, bölgələrin siması dəyişib. Bu tərəqqi, innovativ inkişaf, əlbəttə ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasından da yan ötməyib. Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvanın qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar açıb. Hazırda bu imkanlardan istifadə edilməklə muxtar respublikanın sosial-iqtisadi həyatında, o cümlədən əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması əsas prioritetlərdən birinə çevrilib.

Bu isə, öz növbəsində, Naxçıvanın sosial-iqtisadi inkişafı ilə əlaqədar kompleks proqramların hazırlanması və icrasının davam etdirilməsi zərurəti yaradıb. Məhz bütün bunları nəzərə alan Prezident cənab İlham Əliyev iyunun 5-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncam imzalayaraq müasir Naxçıvanın yeni yüksəlişinin yol xəritəsini müəyyənləşdirib.

Prezidentin müəyyənləşdirdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" məhz yeni mərhələdə müəyyən vəzifələrin reallaşdırılması prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşmə mənbələrini, regionun sosial-iqtisadi inkişafı sahəsində əldə olunacaq hədəf göstəricilərini özündə ehtiva edir.

Təsdiq olunan yeni Dövlət Proqramının həyata keçirilməsi məqsədilə hazırlanmış Təfsilatlı Tədbirlər Planında Naxçıvan Muxtar Respublikası İqtisadiyyatı qarşısına da bir sıra mühüm vəzifələr qoyulub.

Təfsilatlı Tədbirlər Planında Naxçıvanda azad iqtisadi zonanın yaradılması muxtar respublikanın inkişaf konsepsiyasının ana maddəsidir. Bu Dövlət Proqramının mövcud reallıqlar bölməsində regionun xarici dövlətlərlə sərhəddə yerləşməsi nəzərə alınmaqla bölgədə vergi və gömrük güzəştləri müəyyən edilməklə rəqabətqabiliyyətli ticarət qovşağının yaradılması imkanının dəyərləndirilməsi deməkdir.

Muxtar respublikaya investisiyaların cəlb edilməsi və bu investisiyaların artırılması hərtərəfli inkişaf üçün vacibdir. Bu baxımdan Tədbirlər Planında nəzərdə tutulan yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər görülməsi mühüm əhəmiyyətə malik olduğundan gələn il Naxçıvan Muxtar Respublikasında yerli və xarici investorların (sahibkarların) iştirakı ilə İnvestisiya Forumu keçirilməsi planlaşdırılır. Həmçinin "İnvest in Nakhchivan" veb səhifəsinin hazırlanması məqsədilə səhifənin eskizi, predmetə uyğun olaraq əsas şərtlər toplusu hazırlanmış və yaxın zamanda dövlət satınalmalarının vahid internet portalında müsabiqəsi elan olunacaqdır.

İqtisadiyyatın prioritet sahələri üzrə investisiya layihələrinin hazırlanması bəndinə uyğun olaraq investisiya qoyulması prioritet olan sahələr, o cümlədən inşaat materialları, şüşə tutumlar, baramaçılıq və ipəkçilik, səhiyyə, dini və ənənəvi turizm, yaşıl enerji, kənd təsərrüfatı məhsulları tədarükü və emalı, günəş panelləri, avtomobil və texnikalar üçün ehtiyat hissələri, pivot suvarmada istifadə olunan metal konstruksiyalar, boyalar üçün

xammal, soda, natrium xlorid, gil xammalı, teşenit yatağından xarici və daxili divarların üzlənməsi üçün təbii daş bloklar, çini və saxsı qablar, efir yağı, üzvi gübrə, bitumlu membran, corab, sabun, dəftər və qələm istehsalı üzrə sahələr müəyyənləşdirilib. Sentyabrın əvvəlində "Naxçıvan Saray"da Türkiyə Respublikasının iş adamları ilə keçirilən işgüzar görüşdə həmin sahələrin təqdimatı olub.

Təfsilatlı Tədbirlər Planında sənaye parkının və məhəlləsinin yaradılması ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsi də qeyd olunub. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən aidiyyəti qurumların nümayəndələrindən ibarət komissiya yaradılıb. Ötən müddət ərzində sənaye parkının yaradılması istiqamətində iş aparılıb, nəticədə, Naxçıvan-Sədərək avtomagistralının sol tərəfində Naxçıvan şəhərinin inzibati ərazisinə aid əkin üçün tam yararsız olan 310 hektar ərazi Sədərək və Şərur rayonlarının sərhədlərində yerləşən 1500 hektar sahəni əhatə edən bələdiyyə və dövlət mülkiyyətinə məxsus əkin üçün qismən yararsız ərazilər müəyyən edilib. Həmçinin komissiya tərəfindən Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin sənaye parkının tikilməsi üçün müəyyənləşdirdiyi ərazilərə baxış keçirilməsi planlaşdırılır.

Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlamasının təmin edilməsi istiqamətində müvafiq işlər görülüb. Şərur Sənaye Məhəlləsində 2023-cü ilin əvvəlinədək cəmi 3 istehsal sahəsi fəaliyyət göstərirdi. Artıq sənaye məhəlləsində ayaqqabı, tikili mallar, Avropa qapıları, mebel, kağız kisə, karton tara istehsalı sahələri olmaqla, 7 sahibkarlıq sahəsi fəaliyyət göstərir. Bitki yağı, unlu qənnadı məmulatları, qəlyan tütünü istehsalı sahələrinin qurulması istiqamətində işlər davam etdirilir. Bununla yanaşı, Şərur Sənaye Məhəlləsinin boş qalan ərazisində tekstil müəssisənin qurulması və sahibkarlıq subyektləri tərəfindən daxil olan 20 layihə üzrə işlər aparılmaqdadır.

Naxçıvan Muxtar Respublikasında istehsal edilən məhsulların ixrac coğrafiyasının şaxələndirilməsi istiqamətində ilkin olaraq muxtar respublikada istehsal edilən ixrac potensiallı məhsullar müəyyənləşdiriləcək, məhsulların vahid reyestr və rəqəmsal kataloqu hazırlanacaqdır. Eyni zamanda ölkə daxilində və xaricdə keçirilən beynəlxalq sərgilərdə, müxtəlif ölkələrdə olan Ticarət evlərində Naxçıvanda istehsal edilən məhsulların nümayişi təşkil olunacaq, həmçinin xarici tərəfdaşların tapılması istiqamətində işlər aparılacaqdır.

Naxçıvan MR-da fəaliyyət göstərən sahibkarlıq subyektlərinə 1 milyon 77 min manat güzəştli kredit verilib.

2024-cü ilin ilk 6 ayı ərzində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlar 22 layihə üzrə Sahibkarlığın İnkişafı Fondunun (SİF) güzəştli kreditlərindən yararlanıblar. Belə ki, sahibkarların layihələrinin maliyyələşdirilməsinə SİF tərəfindən ümumilikdə 1 milyon 77 min manat güzəştli kredit ayrılıb. Kreditdən yararlanmış sahibkarlıq subyektləri muxtar respublika ərazisində sənaye, turizm, kənd təsərrüfatı, akvakultura, ictimai iaşə kimi iqtisadiyyatın müxtəlif sahələri üzrə fəaliyyət göstərirlər. Layihələrin icrası nəticəsində 40 yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Qeyd edək ki, 2023-cü ilin fevral ayından etibarən İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun güzəştli kredit mexanizmi Naxçıvanda fəaliyyət göstərən sahibkarlıq subyektlərini də əhatə edir. Güzəştli biznes formaların effektiv inkişafı regionda nisbətən az müddətdə ÜDM-da elmtutumlu məhsulların payının artmasına yerli istehsal heyətin yüksək texnologiyalı sferaya cəlb olunmasına, rəqabət qabliyyətli məhsullarla

dünya bazarına çıxmaq üçün əlverişli şəraitin yaradılmasına və beynəlxalq keyfiyyət standartına keçidin sürətlənməsinə kömək edəcəkdir. Həmin səviyyəyə insanla müyyən tələbat səviyyəsi, onun qabiliyyəti, biliyi, bacarığı; texnoloji istehsal üsulu, ictimai iqtisadi münasibətlər; mülkiyyət, bölüşdürmə, mübadilə, milli, siyasi, hüquqi və s. mənəvi sərvətlər aləmi; elm, təhsil, mədəniyyət, dinin daxil edildiyi ideologiya aid olunur [3, s.11].

## ƏDƏBİYYAT

1. Alıyev, İ.H., Məmmədov, Y.Ə. "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasının nəzəri-metodoloji əsasları". Bakı: 2012. «Avropa», 90 s.
2. Tağıyev, A.H., Əmirov, İ.B. İnnovasiya menecmenti. Bakı: 2010. "Təknur", 192 s.
3. Tağıyev, A.H. İnnovasiya. (5 saylı broşura), Bakı: 2012. "Təknur", 54 s.
4. Гармашова, Е.П. Развитие теории инновационных процессов, Молодой Ученый, 2011, №2, Т.1, с.90-94
5. Глущенко, И.И. Формирование инновационной политики и стратегии предприятия. М.: 2009. ППРО, 280 с.
6. Гусейнова, А.Д. Информационно-аналитическая сис-тема «Наука и инновации» / Материалы V Международной научно-практической конференции. К.: 2006. УкрІНТЕІ, с.76-78
7. Теория инновационной экономики: учебник. Под редакцией - Белокрыловой, О.С. Ростов: 2009. Феникс, 376 с.
8. www.nstat.gov.az

# MUXTAR RESPUBLİKA SƏNAYESİ ÜZRƏ RƏQABƏTQABİLİYYƏTLİ MƏHSULLARIN İXRACA YÖNƏLDİLMƏSİ PROBLEMLƏRİ VƏ ONLARIN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

**Rəsul ƏLƏKBƏROV**
*resulalakberov@hotmail.com*
*Naxçıvan Dövlət Universiteti*

***Xülasə***

*Beynəlxalq iqtisadi əlaqələrin inkişaf etməsi və genişlənməsi bir neçə strateji istiqamətlərə arxalanır ki, onlara ixrac potensialının formalaşması və inkişafı, həmçinin bölgü sistemini cəlb etməklə ixracın strukturunun tədricən dəyişməsi, yəni dövlət tərəfindən verilən dotasiyaya (maliyyələşdirməyə) və bir sıra başqa tədbirlər vasitəsilə hazır məhsul ixracının həvəsləndirilməsi aiddir. Qloballaşma şəraitində beynəlxalq iqtisadi əlaqələrin inkişaf etdirilməsi əsaasən 3 istiqamətdə həyata keçirilir. Onlara aşağıdakılar aiddir:*

✓ *xaricdən gətirilən keyfiyyətli məhsullara davam gətirmək üçün ölkə iqtisadiyyatında rəqabətqabiliyyətli məhsulların istehsalının dəstəklənməsi;*

✓ *Azərbaycanın milli sahibkarlığının inkişaf etdirilməsi və onların məhsullarının dünya bazarlarına çıxarılmasının təmin etdirilməsi;*

✓ *rəqabətə davam gətirən məhsulların istehsal olunub dünya bazarına çıxışı üçün bir sıra təşkili, hüquqi və maliyyə dəstəklərinin formalaşdırılması.*

*Xaricdən gətirilən keyfiyyətli məhsulları davam gətirmək üçün ölkə iqtisadiyyatında rəqabətqabiliyyətli məhsullar istehsalı dəstəklənməlidir. İstehsal olunan məhsulun keyfiyyətinin artırılması, onun rəqabət qabiliyyətliliyinin yüksəldilməsi üçün cürbəcür rəqabət strategiyalarından istifadə oluna bilər. Lakin konkret müəssisə üçün rəqabət strategiyası təsadüfi seçilməməli və hərtərəfli düşünülmüş kompleks yanaşmaya əsaslanmalıdır.*

***Açar sözlər:*** *rəqabətqabiliyyətli, sənaye, investisiya, ixrac, xərclər*

Rəqabətqabiliyyətli məhsulların ixraca yönəldilməsi problemləri, ixrac etməyi seçən şirkətlərin üzləşdiyi ümumi problemlər və onların müvafiq həlləri verilmişdir. Mal və xidmətlərin ixracı, əhatə dairəsini genişləndirmək və mənfəətlərini artırmaq istəyən şirkətlər üçün gəlirli bir iş ola bilər. Bununla belə, uğurlu ixraca mane ola biləcək bir sıra böyük problemlər var. Bu problemlər logistik problemlərdən tənzimləyici maneələrə qədər dəyişə bilər və sözügedən ölkədən və sənayedən asılı olaraq dəyişə bilər.

İxrac üçün ən mühüm problemlərdən biri beynəlxalq ticarəti tənzimləyən mürəkkəb qaydalar və tələblər şəbəkəsində naviqasiyadır. Gömrük rüsumları və vergilərdən tutmuş məhsulun təhlükəsizliyi və etiketləmə standartlarına qədər, ixracatçıların aşmalı olduğu çoxsaylı hüquqi və tənzimləyici maneələr var. Bu qaydalara əməl edilməməsi baha başa gələn cərimələr, gecikmələr və hətta hüquqi tədbirlərlə nəticələnə bilər. Nəticə etibarı ilə, bir çox şirkətlər bu qaydalara əməl olunmasını təmin etmək üçün əhəmiyyətli vaxt və resurslar ayırmalıdırlar ki, bu da kiçik biznes üçün giriş üçün əsas maneə ola bilər.

İxracın digər əsas problemi malların və xidmətlərin sərhədlərdən daşınması ilə bağlı logistik çətinliklərdir. Buraya mürəkkəb təchizat zəncirlərində naviqasiya, gömrük və

sərhəd nəzarəti prosedurları ilə məşğul olmaq, etibarlı nəqliyyat və logistika tərəfdaşları tapmaq daxil ola bilər. Bu çətinliklər, gecikmələrin və ya fasilələrin əhəmiyyətli maliyyə nəticələrinə səbəb ola biləcəyi tez xarab olan və ya zamana həssas malları olan sənaye şirkətləri üçün xüsusilə kəskin ola bilər. Nəticədə, bir çox ixracatçı məhsullarının vaxtında və etibarlı çatdırılmasını təmin etmək üçün mürəkkəb logistika və təchizat zəncirinin idarəetmə sistemlərinə investisiya qoymalıdır.

**1. Nəqliyyat xərcləri**

Nəqliyyat xərcləri ixracatçılar üçün ciddi problemdir. Malların bir yerdən digər yerə daşınması xərcləri məhsulun ümumi dəyərinin əhəmiyyətli hissəsini təşkil edə bilər. Bu, xüsusilə uzaq bazarlara ixrac edən şirkətlər üçün doğrudur. Daşınmanın dəyəri yanacağın qiymətləri, məsafə və nəqliyyat növü kimi müxtəlif amillərdən təsirlənə bilər. Bu xərcləri azaltmaq üçün bir çox ixracatçılar hava, dəniz və quru kimi müxtəlif nəqliyyat növlərindən istifadə edirlər. Onlar həmçinin nəqliyyat xərclərini azaltmaq üçün təchizat zəncirlərini optimallaşdırmağa çalışırlar. Məsələn, onlar daşınmaların sayını azaltmaq və daha səmərəli nəqliyyat rejimlərindən istifadə etmək üçün daşımaları birləşdirə bilərlər.

**2. Sərhəd nəzarəti və paylama qanunları ilə təcrübəsizlik**

Gömrük rəsmiləşdirilməsi, gözlənilməz tariflər, yerli qaydalara və qaydalara uyğunluğun yoxlanılması - bunlar mallar bazara çıxmazdan əvvəl yarana biləcək problemlərdən yalnız bir neçəsidir. Sərhəddən malların tez və təhlükəsiz şəkildə daşınmasını asanlaşdırmaq üçün ticarətə uyğunluq və gömrük hüququ üzrə məsləhətçilərin xidmətlərindən istifadə edin. Sağlam mühakimə ixracınızın gömrükdə saxlanması kabusundan qaçmağa kömək edə bilər.

Ən çox yayılmış üç paylama üsulu birbaşa ixrac, lisenziyalaşdırma və ortaqlıqlar-birgə müəssisələrdir. Hədəf ölkə sizin üçün seçə bilər. Hindistanın ticarət bazarına baxışda müəyyən sənaye sahələrində xarici mülkiyyət və investisiyalar üçün sərt məhdudiyyətlər var. Digər ölkələrdə xarici şirkətləri yerli firmalarla tərəfdaşlıq etməyə və ya ölkədə istehsal etməyə təşviq edən "yerli al" tələbləri kimi proteksionist qanunlar var.

**3. İnflyasiya dərəcələri**

İnflyasiya da ixraca təsir edə bilər. Yüksək inflyasiya səviyyəsi istehsalın maya dəyərini artıra və ixracın rəqabət qabiliyyətini azalda bilər. İxracatçılar öz məhsullarını xarici alıcılar üçün daha az cəlbedici etmək üçün daha yüksək xərcləri ödəmək üçün qiymətlərini artırmalı ola bilər. İnflyasiya dərəcələrinin təsirini aradan qaldırmaq üçün ixracatçılar materiallarını yerli mənbələrdən əldə etməyi və ya qiymətləri sabitləşdirmək üçün təchizatçılarla uzunmüddətli müqavilələr bağlamağı nəzərdən keçirə bilərlər. Onlar həmçinin rəqabət qabiliyyətini qorumaq üçün daha aşağı inflyasiya ilə yeni bazarları kəşf edə bilərlər.

Bütövlükdə, valyutanın dəyişməsi və inflyasiya dərəcələri kimi iqtisadi amillər ixracatçılar üçün problemlər yarada bilər. Bu amilləri yaxından izləmək və müvafiq strategiyaları həyata keçirməklə ixracatçılar riskləri azalda və xarici bazarlarda rəqabət qabiliyyətini saxlaya bilərlər.

**4. Valyuta məzənnələrində maliyyə riski**

İstehsal olunan məhsulların qiymətləri daha proqnozlaşdırıla bilsə də, onlar mənfəət və ya qazanc itkisinə səbəb ola biləcək valyuta məzənnələrində mənfi risklərdir. Ümumiyyətlə, daha sabit biznesə malik olan ölkədən ixracın daha sabit və ya proqnozlaşdırıla bilən maliyyə sistemlərinə malik olacağı ehtimalı olsa da, nəzərə alınmalı olan yüksək risk səviyyəsi hələ də var. İstehsalçılar iqtisadi və siyasi dəyişikliklər əsasında gözlənilməz ola biləcək valyuta məzənnəsinin təkamülünü nəzərə almalıdırlar.

İxracatçılar valyutanın dəyişməsi səbəbindən çətinliklərlə üzləşirlər. Valyutaların dəyəri tez-tez dəyişir, bu da ixracatçıların xarici bazarlarda mallarının dəyərini proqnozlaşdırmaqda çətinlik yaradır. Daha zəif valyuta ixracı daha əlverişli edə bilər, güclü valyuta isə ixracı daha bahalı edə bilər. İxracatçılar qiymətlərini tənzimləmək və rəqabət qabiliyyətini saxlamaq üçün valyuta dəyişmələrini yaxından izləməlidirlər.

Valyuta məzənnəsinin dəyişməsi riskini azaltmaq üçün ixracatçılar forvard müqavilələri və ya valyuta opsionları kimi hedcinq strategiyalarından istifadə edə bilərlər. Bu strategiyalar ixracatçılara gələcək əməliyyatlar üçün valyuta məzənnələrini bağlamaq imkanı verir, valyuta dəyişmələrinin təsirini azaldır.

**5. Gömrük prosedurları**

Gömrük prosedurları ixracatçılar üçün digər mühüm problemdir. Hər bir ölkənin öz gömrük qaydaları var ki, bu da mürəkkəb və çox vaxt apara bilər. İxracatçılar öz məhsullarının etiketləmə, qablaşdırma və sənədlərlə bağlı tələbləri özündə əks etdirən bu qaydalara uyğun olmasını təmin etməlidirlər. Bu qaydaları idarə etmək üçün bir çox ixracatçı beynəlxalq ticarətdə ixtisaslaşmış gömrük brokerləri və ya ekspeditorlarla işləyir. Bu peşəkarlar məhsulların gömrük qaydalarına uyğun olmasını təmin etməyə kömək edə bilər və gömrük rəsmiləşdirilməsi prosesini sürətləndirə bilər.

Yekun olaraq, logistika və təchizat zənciri məsələləri ixracatçılar üçün əhəmiyyətli problemlər yarada bilər. Bu çətinliklərin öhdəsindən gəlmək üçün ixracatçılar təchizat zəncirini optimallaşdırmalı və beynəlxalq ticarətdə ixtisaslaşmış peşəkarlarla işləməlidirlər.

**6. Müxtəlif işçi qüvvəsinin olmaması**

Məhsul təyinat nöqtəsinə çatmış ola bilər, lakin oyun hələ bitməyib. Mallar bölgədə dövriyyəyə başladıqdan sonra nasaz avadanlıqların ödənişi kimi problemlər yarana bilər. Bundan əlavə, Əqli Mülkiyyət (ƏM) qanunları sarsıntılı və ya çatışmayan ola bilər. Məsələn, Çində ƏM hüquqları rəsmi olaraq tanınsa da, nəzərə alınmalı kövrək hüquqi çərçivələr və müəllif hüquqları pozuntuları var.

Xaricdəki ölkələrlə iş görmək müəyyən etimad tələb edir. Xarici bazarda rəqabət üstünlüyü daha yaxşı qorumaq üçün regional ekspertlər və məsləhətçilər tapın və müxtəlif, təcrübəli işçi qüvvəsinə sərmayə qoyun. Əgər komanda üzvlərinizdən bəziləri hədəf bazarınızla mədəni əlaqələri bölüşsələr, bazara daxil olmaq daha asandır. Bu bilik potensial tərəfdaşları təhqir edən və ya Inc. məqaləsindəki bu mədəni uyğunsuzluq nümunəsi kimi istehlakçıları çaşdıran utancverici səhvlərdən qaçmağa kömək edə bilər:

Biznes mədəniyyəti və uyğunluq təcrübəsiz şirkətlər üçün çətin olur – hətta günahsız səhvlər ciddi hüquqi nəticələrə səbəb ola bilər. Şirkətlər ABŞ-da mülki və ya cinayət cəzalarına məruz qala bilər, digər ölkələr isə sənədləşmə səhvləri keçmiş şirkətləri qadağan

edə bilər. Təchizatçı müxtəlifliyi sertifikatı nədir və biznesin faydaları nələrdir? Uyğunluq komandanızın dil, mədəniyyət və tənzimləmə mühitini yaxşı bildiyinə əmin olun. Mürəkkəbliyə görə, kiçik və orta şirkətlər tez-tez daxili təlimlərə investisiya qoymaq əvəzinə üçüncü tərəf logistika provayderlərinə etibar edirlər.

Muxtar Respublikada ixrac potensialının inkişafına respublikanın BƏB-dəki üstünlüklərinə uyğun şəkildə ixtisaslaşması, istehsal olunan məhsulların rəqabətliliyyətliliyinin yüksəldilməsi, milli ixracatçıları stimullaşdıran şəraitin yaradılması, istehsalda yüksək texnologiyalardan istifadə, ixracın strukturunun optimallaşdırılması və digər amillər hesabına təmin etmək mümkündür. İxrac potensialının daxili məzmunu və mürəkkəb quruluşu çoxlu sayda amillərin təsiri altında formalaşır. Belə ki, bunlara ETT, istehsal fondlarından istifadənin yaxşılaşdırılması, işçi qüvvəsinin təkmilləşdirilməsi, yeni və daha faydalı istehsal resurslarının aşkarı və istifadəsi, istehsal vasitələrinin keyfiyyətinin yüksəldilməsi, beynəlxalq iqtisadi inteqrasiyanın inkişafı və s. daxildir. Bu amillər birbaşa deyil, ixrac potensialını təşkil edən ayrı-ayrı tərkib elemetlərinə təsir etməklə ixrac potensialından istifadənin genişləndirilməsinə səbəb olur.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Konstitusiyası
2. https://azerbaijan.az/related-information/276
3. https://shippingandcommodityacademy.com/blog/what-are-the-major-problems-for-export/https://blog.thomasnet.com/risks-in-exporting-manufactured-goods-and-how-to-avoid-them
4. Əhmədov, N. "Sürətlə inkişaf edən və modernləşən Naxçıvan İqtisadiyyatı", Naxçıvan: 2008, 383 s.
5. Regionların İnkişafIna Dair Dövlət Proqramları (2021)

**SUMMARY**

**Rasul Alakbarov**

**PROBLEMS OF EXPORTING COMPETITIVE PRODUCTS FOR THE INDUSTRY OF THE AUTONOMOUS REPUBLIC AND WAYS TO IMPROVE THEM**

The development and expansion of international economic relations relies on several strategic directions, including the formation and development of export potential, as well as the gradual change in the structure of exports by involving the distribution system, that is, the encouragement of finished product exports through subsidies (financing) provided by the state and a number of other measures. belongs to. In the conditions of globalization, the development of international economic relations is carried out mainly in 3 directions. They include the following:

◎ supporting the production of competitive products in the country's economy in order to continue the quality products imported from abroad;

◎ Developing the national entrepreneurship of Azerbaijan and ensuring the export of their products to world markets;

◎ organizing a number of legal and financial supports for the production and access of competitive products to the world market.

The production of competitive products in the country's economy should be supported in order to continue the quality products imported from abroad.

Various competitive strategies can be used to increase the quality of the manufactured product and increase its competitiveness. However, the competitive strategy for a specific enterprise should not be chosen randomly and should be based on a comprehensive, well-thought-out approach.

***Key words**: competitiveness, industry, investment, exports, costs, inflation*

**РЕЗЮМЕ**

**Расул Алекбаров**

**ПРОБЛЕМЫ ЭКСПОРТА КОНКУРЕНТОСПОСОБНОЙ ПРОДУКЦИИ ДЛЯ ПРОМЫШЛЕННОСТИ АВТОНОМНОЙ РЕСПУБЛИКИ И ПУТИ ЕЕ СОВЕРШЕНСТВОВАНИЯ**

Развитие и расширение международных экономических связей опирается на несколько стратегических направлений, среди которых формирование и развитие экспортного потенциала, а также постепенное изменение структуры экспорта за счет задействования системы распределения, то есть стимулирования экспорта готовой продукции через к ним относятся субсидии (финансирование), предоставляемые государством, и ряд других мер. В условиях глобализации развитие международных экономических отношений осуществляется преимущественно по 3 направлениям. Они включают в себя следующее:

◎ поддержка производства конкурентоспособной продукции в экономике страны в целях продолжения качественной продукции, импортируемой из-за границы;

◎ Развитие национального предпринимательства Азербайджана и обеспечение экспорта своей продукции на мировые рынки;
◎ организация ряда юридических и финансовых мер поддержки производства и выхода конкурентоспособной продукции на мировой рынок.

Необходимо поддержать производство конкурентоспособной продукции в экономике страны, чтобы продолжить импорт качественной продукции из-за границы. Для повышения качества выпускаемой продукции и повышения ее конкурентоспособности могут использоваться различные конкурентные стратегии. Однако конкурентная стратегия конкретного предприятия не должна выбираться случайно и должна основываться на комплексном, продуманном подходе.

***Ключевые слова:*** *конкурентоспособность, промышленность, инвестиции, экспорт, затраты*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DAVAMLI İNKLÜZİV İNKİŞAFINDA ŞƏRUR SƏNAYE MƏHƏLLƏSİNİN ROLU

**Həsən MƏMMƏDOV**
*hasan_1961@ mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

***Xülasə***

*Məqalə, Şərur Sənaye Məhəlləsi timsalında Naxçıvan Muxtar Respublikasının Davamlı inklüziv inkişafına həsr edilmişdir. Məqalədə davamlı inklüziv inkişafın nəzəri məsələlərindən bəhs edilir və göstərilir ki, Qloballaşma şəraitində beynəlxalq təşkilatlar, inkişaf etmiş qabaqcıl cəmiyyətlər davamlı inkişafı inklüziv istiqamətdə aparılması ilə əlaqəli bacarıqlarını genişləndirməyə səy göstərirlər. Eyni zamanda qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi sahələrin davamlı inkişafında qəbul edilən inklüziv siyasət istiqamətində həyata keçirilən optimal və səmərəli qərarların qəbulu mühüm əhəmiyyətə malikdir. Burada Şərur Sənaye Məhəlləsinin yaradılmasının zəruriliyi və onun iqtisadi əhəmiyyətindən bəhs edilir. Şərur Sənaye Məhəlləsinin məqsəd və vəzifələri göstərilir. Sənaye məhəlləsinin yaradılması özəl sektorun inkişafına dövlət dəstəyinin bariz nümunəsi kimi qiymətləndirilir. Tədqiqat nəticəsində belə nəticəyə gəlinir ki, Şərur Sənaye Məhəlləsi investisiya layihələrinin reallaşdırılması hesabına sahibkar müəssisələrin davamlı gəlir əldə etməsinə imkan yaradacaq, muxtar respublika iqtisadiyyatının davamlı inklüziv inkişafı üçün təkan verəcəkdir.*

**Açar sözlər:** *Şərur Sənaye Məhəlləsi, inklüziv inkişaf, infrastruktur, sənaye, transaksiyon*

## Giriş

Müasir dövrdə, iqtisadiyyatın davamlı inkişafı şəraitində inklüziv inkişafın həyata keçirilməsi ölkə iqtisadiyyatı qarşısında duran ən mühüm və əhəmiyyətli məsələlərdən biridir. Davamlı inklüziv inkişaf sivilizasiyanın inkişafı ilə əlaqədar qlobal problem kimi dünyanın qabaqcıl ölkələrinin inkişaf proqramlarına daxil edilib. Qloballaşma şəraitində beynəlxalq təşkilatlar, inkişaf etmiş qabaqcıl cəmiyyətlər davamlı inkişafı inklüziv istiqamətdə aparılması ilə əlaqəli bacarıqlarını genişləndirməyə səy göstərirlər. Hazırda qabaqcıl dövlətlərin inkişaf kriteriyalarında inklüziv inkişafın mövcudluğu parametrləri əsas inkişaf meyarlarından biri və başlıcası hesab edilir. İnklüziv inkişaf meyarı hər bir sivil cəmiyyətdə həyata keçirilən mükəmməl sosial-iqtisadi islahatlarla birbaşa bağlıdır. Bazar iqtisadiyyatının inkişaf etdiyi müasir dövrdə davamlı inkişafa malik dövlətlərin hamısı inklüziv inkişafın təmin olunması istiqamətində ciddi və inamlı fəaliyyət proqramları qəbul etməkdədirlər. Həyata keçirilən sosial-iqtisadi proqramlar, innovativ texnologiyaların immitasiya edilərək ölkəyə cəlb olunması, təkrar istehsalın genişləndirilməsi məqsədi ilə istehsal və idarəetmə sahələrinə innovasiyaların tətbiqi ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlarla birbaşa əlaqədardır.

Hazırki dövrdə ölkəmiz davamlı inklüziv inkişaf quruculuğu yönündə inamla irəliləyir və inklüziv cəmiyyət quruculuğu istiqamətində xeyli nailiyyətlər əldə edir. Ölkəmizin qazandığı nailiyyətlər, artıq beynəlxalq təşkilatların qlobal hesabatlarında öz əksini tapmışdır. Sevindirici haldır ki, davamlı inklüziv inkişaf istiqamətində dünya miqyasında ölkəmizin reytinqinin yüksəlməsi Azərbaycanda, o cümlədən, onun ayrılmaz

tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi sahələrin düzgün və səmərəli idarəedilməsi istiqamətində innovativ yeniliklərin tətbiq olunması nəticəsində mümkün olmuşdur [5].

**1. Muxtar respublikada sosial-iqtisadi sahələrin davamlı inkişafında inklüziv siyasət**

Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi sahələrin davamlı inkişafında qəbul edilən inklüziv siyasət istiqamətində həyata keçirilən optimal və səmərəli qərarların qəbulu mühüm əhəmiyyətə malikdir. Muxtar respublikada davamlı inklüziv inkişafın başlıca meyarlarından biri digər sosial-iqtisadi sahələrlə yanaşı, ölkədə istehsal olunan ümumi daxili məhsulun struktur vahidlərinin kəmiyyət və keyfiyyətcə göstərici parametrlərinin artımı ilə üzvü bağlıdır. Ümumi daxili məhsulun strukturunda ön mövqedə sənaye məhsullarının istehsal həcminin artımı dayanır. Son illərdə sənayenin innovativ inkişafı istiqamətində muxtar respublikada çox böyük, müxtəlif istiqamətli nailiyyətlər əldə edilmişdir. On il bundan əvvəlki dövrlə müqayisədə muxtar respublikada sənaye məhsullarının istehsal həcmi on dəfədən çox artmış, bu müddət ərzində emal müəssisələrinin fəaliyyəti genişlənmiş, innovativ texnologiyaya əsaslanan sənaye müəssisələrinin sayı xeyli yüksəlmişdir. Muxtar respublika aqrar regiondan inkişaf edən sənaye bölgəsi kimi fəaliyyətini davam etdirməkdədir.

Muxtar respublikada sahibkarlığın inkişafı ilə əlaqədar həyata keçirilən məqsədyönlü tədbirlər, sahibkarlara göstərilən dəstək və dövlət qayğısı hesabına ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi 92 faizə yüksəlmiş, sənaye məhsulları istehsalının 95-96 faizi isə bu sektorun payına düşmüşdür. Ölkəmizdə dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini mütərəqqi texnika və yüksək texnologiyalara əsaslanan sənayenin davamlı inklüziv inkişafı və diversifikasiyası təşkil edir. Muxtar respublikada sənayenin davamlı inkişafını təmin etmək məqsədilə ayrı-ayrı sənaye sahələrinin texnologiyalar əsasında yenilənməsi və sənayenin qeyri-neft sektorunda ixrac yönümlü sənaye sahələrinin diversifikasiyasının həyata keçirilməsi istiqamətində ardıcıl məqsədyönlü tədbirlər hazırlanır.

Əsrlərdən bəri miras qalan ənənəvi sənaye sahələri ilə yanaşı, müasir dövrün tələblərinə uyğun yeni istehsal sahələri, o cümlədən, sənaye parkları və sənaye məhəllələri kimi prioritet sahələr yaradılır. Azərbaycan Respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli Fərmanı ilə ölkəmizin sənaye əhəmiyyətli müxtəlif ərazilərində sənaye məhəllələrinin yaradılmasına təkan verilmiş və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli Qərarı ilə təsdiq edilmiş "Sənaye məhəllələri haqqında" nümunəvi əsasnaməyə əsasən ölkəmizdə Sənaye məhəllələri fəaliyyətə başlamışdır [10].

Uğurlu iqtisadi siyasətin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun inzibati ərazi bölgüsündə Şərur Sənaye Məhəlləsi inşa edilməyə başlamışdır. Şərur rayonu muxtar respublikanın digər rayonlarına nisbətən iqtisadi cəhətdən daha yaxşı inkişaf etmiş bölgəsi olduğundan, istehsal və sosial infrastruktur obyektləri digər bölgələrə nisbətən burada daha təkmil inkişaf etdiyindən, həmçinin, bu bölgə kifayət qədər əmək ehtiyatları

ilə təmin olunduğundan, məhz, bu ərazidə Sənaye Məhəlləsinin yaradılması daha çox perspektivli hesab edilmişdir [9].

**2. Şərur Sənaye Məhəlləsinin yaradılmasında başlıca məqsəd**

Şərur Sənaye Məhəlləsinin yaradılmasında başlıca məqsəd sənayenin müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin dəstəklənməsi, sənaye əhəmiyyətli qeyri-neft sektorunun davamlı inkişafı, sənaye və sənaye təyinatlı xidmət sferalarında fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlığın tərəqqisi üçün optimal şəraitin yaradılması, region əhalisinin istehsal və xidmət sferasında məşğulluğun artırılması və iqtisadi fəal əhalinin mobilliyinin təmin olunmasına şərait yaratmaqdır. Ümumiyyətlə, "Sənaye Məhəlləsi" anlayışı iqtisadi kateqoriya olmaqla, yaradılan bölgədə əhali tələbatına uyğun, müxtəlif təyinatlı sənaye məhsulları istehsalı və mütərəqqi xidmət metodlarından istifadə etməklə, əhaliyə mədəni xidmət göstərən sahibkarlıq subyektlərinin istifadə etdikləri inzibati ərazi vahididir. Sahibkarlığın inkişafı baxımdan, xüsusi əhəmiyyət daşıyan, belə ərazilər inkişaf etmiş infrastruktura malik olduğundan iqtisadi fəaliyyət zamanı təsərrüfat subyektlərinin transaksiyon məsrəflərinin minimuma endirilməsinə, kompakt fəaliyyət göstərdiklərindən korporativ əməkdaşlığın və kooperasiya əlaqələrinin yaxşılaşdırılmasına şərait yaradır.

Şərur Sənaye Məhəlləsi dövlət mülkiyyəti əsasında yaradılır və dövlət tərəfindən idarə olunduğundan, bu ərazidə formalaşan sənaye sahələrinin kompleks inkişafı dövlət tərəfindən tənzimlənəcəkdir. İqtisadi siyasətin bu istiqamətdə həyata keçirilməsi kiçik sahibkarlığın inkişafına və özəl mülkiyyətdə olan təsərrüfat strukturlarının dinamik artımına şərait yaradacaqdır.

Mütərəqqi innovativ texnologiyalarla, müasir dünya standartları əsasında yaradılan, belə sənaye məhəllələri təkcə iqtisadi baxımdan deyil, eyni zamanda məşğulluğun təmin olunması, yeni, daimi iş yerlərinin açılması, region əhalisinin sosial-iqtisadi tələbatlarının ödənilməsi baxımdan da mühüm sosial əhəmiyyətə malikdir.

**3. Şərur Sənaye Məhəlləsinin iqtisadi əhəmiyyəti**

Şərur sənaye məhəlləsində region əhalisinin zəruri tələbatına uyğun 6 vahid istehsalat korpusunun yaradılması nəzərdə tutulmuşdur. Burada ilk növbədə müxtəlif çeşidli corab istehsalı, məktəb-ofis ləvazimatları, müxtəlif növ bitki yağları, kağız-torbalar istehsalı sahələri yaradılması qərara alınmışdır. Qeyd etmək lazımdır ki, həmin məhsullara olan istehlak tələbi hazırda idxal hesabına ödənilir. Sənaye məhəlləsinin fəaliyyətə başlaması ilə analoji məhsulların idxalı azalacaq, rəqabət qabiliyyətinin artması hesabına ixrac potensialı yüksələcəkdir. Dünyanın qabaqcıl dövlətlərinin çoxillik təcrübəsi, belə deməyə əsas verir ki, cəmiyyətin davamlı iqtisadi inkişafı, əsas etibarilə elm və kapital tutumlu texnologiya proseslərinin iqtisadi tələbatlara istiqamətlənməsi hesabına yaranan innovativ texnologiya əsasında formalaşır.

İnnovasiya yönümlü istehsalda başlıca məqsəd yeni məhsulun yaradılması, onun yeni daşınma üsulları ilə bazara yeridilməsi, mütərəqqi satış metodları ilə reallaşdırılması və kütləvi istehsalın yenidən, yeni texnologiya əsasında davam etdirilməsi olduğundan sənaye məhəlləsində də yeni texnologiyaların cəlb edilməsi hesabına rəqabətqabiliyyətli yeni məhsulun istehsalı və reallaşdırılması istiqamətində sahibkarlıq fəaliyyətinin həyata

keçirilməsi nəzərdə tutulur. Sənaye məhəlləsinin yaradılması özəl sektorun inkişafına dövlət dəstəyinin bariz nümunəsidir. Burada əlverişli infrastrukturların təşkili, mövcud prosedurların maksimum sadələşdirilməsi, cəlbedici güzəştlər mexanizminin tətbiqi, elektron xidmətlərin mövcudluğu, idarəetmə aparatı tərəfindən təqdim olunan xidmətlər və layihələrin özünü ödəmə imkanları daxili və xarici investisiyaların cəlb edilməsi üçün şərait yaradacaqdır. Şərur Sənaye Məhəlləsinin ərazisində inkişaf etmiş, müasir tələblərə cavab verən infrastruktur, sosial, mədəni, kütləvi iaşə, mühəndis-kommunikasiya obyektləri kompleksi yaradılaraq sahibkarların xidmətinə veriləcəkdir. Əlverişli investisiya mühitinin yaradılması məqsədilə sənaye məhəlləsinin ərazisində investisiyalar üçün vergi və gömrük sahəsində bir sıra güzəştlər də nəzərdə tutulur. Belə ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, sənaye məhəlləsində fəaliyyət göstərəcək rezidentlər yeddi il müddətində mənfəət, torpaq, əmlak vergilərindən, eləcə də, ərazidə istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsalı məqsədilə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğular əlavə dəyər vergisindən azad ediləcəkdir. Şərur Sənaye Məhəlləsində investorlar üçün vaxtaşırı stimullaşdırıcı xidmətlər paketi təqdim olunacaqdır. Sənaye məhəlləsində həyata keçirilən məqsədyönlü tədbirlər xidmət keyfiyyətinin yüksəldilməsinə, sahibkarların informasiya təminatının yaxşılaşdırılmasına şərait yaradacaq, nəticədə sahibkarın iqtisadi fəaliyyəti elmi əsaslara söykənəcəkdir.

**Nəticə və təkliflər**

Muxtar respublikanın davamlı inklüziv inkişafı üçün sənaye sahəsində dövlətin makroiqtisadi siyasətinin əsas məqsədi sənaye sahələrində istehsal proseslərinin modernləşdirilmək, idarəetmə strukturunun beynəlxalq standartların tələbinə uyğun təkmilləşdirmək və səmərəli iş metodlarını tətbiq etməklə sənaye məhsulları istehsalının kəmiyyət və keyfiyyətcə artımına nail olmaqdan ibarətdir. Bu məqsədə müvafiq, aşağıdakı vəzifələrin həyata keçirilməsi qənaətbəxş hesab edilə bilər:

- sənayedə mövcud olan, fiziki və mənəvi cəhətdən aşınmış avadanlıq, maşın və mexanizmlərin yeni, innovativ texnologiya məhsulları ilə ən qısa zamanda əvəzlənməsini təmin etmək;
- SWOT təhlil metodundan istifadə etməklə istehsal olunan sənaye məhsullarının rəqabətqabiliyyətliliyinin artırılmasına nail olmaq;
- ixracyönümlü sənaye məhsulları istehsalının stimullaşdırılmasını həyata keçirmək;
- sənayedə davamlı inklüziv inkişafın təmin olunması məqsədi ilə bu sahələrə xarici investisiya cəlb olunmasına şərait yaratmaq;
- innovasiya yönümlü fəaliyyətin genişlənməsinə və emal sənayesində müxtəlif fəaliyyət növlərinin yaradılmasına rəvanc verən motivasiya tədbirləri görmək.

Yuxarıdakıları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, Şərur Sənaye Məhəlləsi investisiya layihələrinin reallaşdırılması hesabına sahibkar müəssisələrin davamlı gəlir əldə etməsinə imkan yaradacaq, muxtar respublika iqtisadiyyatının davamlı inklüziv inkişafı üçün təkan verəcəkdir.

## ƏDƏBİYYAT

1. az.wikipedia.org
2. Əhmədov, N. Daim inkişafda olan Naxçıvan sənayesi. Bakı: 2020. Xəbər, 11 iyun, №92, s.14
3. Hacıyev, İ. Davamlı və dinamik inkişaf. Respublika: 2020. 26 yanvar, №16, s.6
4. Hacıyev, İ. Naxçıvan MR-in ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan. "Əcəmi" nəşriyyatı poliqrafiya birliyi. S. 272
5. https://azertag.az
6. in.nakhchivan.az
7. İsmayılov, K. Naxçıvanda böyük enerji potensialı yaradılıb. Respublika: 2021. 10 iyun №119, s.17
8. Qasımov, E. Naxçıvan MR iqtisadiyyatının ərazi təşkili və inkişafının coğrafiyası. Bakı: 2011. "Təhsil", s.192
9. nuhçıxan.az/news/iqtisadiyyat25137
10. www.statistika.nmr.az

## SUMMARY

**Hasan Mammadov**

## SUSTAINABLE INCLUSIVE DEVELOPMENT OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC (SHARUR INDUSTRIAL NEIGHBORHOOD)

The article is dedicated to the Sustainable Inclusive Development of the Nakhchivan Autonomous Republic on the example of the Sharur Industrial District. The article discusses the theoretical issues of sustainable inclusive development and shows that in the context of globalization, international organizations, developed advanced societies are trying to expand their skills related to inclusive development. At the same time, it is noted that the adoption of optimal and effective decisions in the direction of inclusive policy in the sustainable development of socio-economic spheres in the Nakhchivan Autonomous Republic is important. It discusses the need for the establishment of the Sharur Industrial District and its economic significance. The goals and objectives of the Sharur Industrial District are indicated. The establishment of the industrial district is considered a clear example of state support for the development of the private sector. As a result of the study, it is concluded that the implementation of investment projects in the Sharur Industrial District will allow entrepreneurs to generate sustainable income, will give impetus to the sustainable inclusive development of the economy of the autonomous republic.

***Key words:*** *Sharur Industrial District, inclusive development, infrastructure, industry, transactio*

## РЕЗЮМЕ

**Хасан Маммадов**

## УСТОЙЧИВОЕ ИНКЛЮЗИВНОЕ РАЗВИТИЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ (ШАРУРСКИЙ ПРОМЫШЛЕННЫЙ РАЙОН)

Статья посвящена устойчивому инклюзивному развитию Нахчыванской Автономной Республики на примере Шарурского промышленного района. В статье рассматриваются теоретические вопросы устойчивого инклюзивного развития и показано, что в условиях глобализации международные организации, развитые передовые общества пытаются расширить свои навыки, связанные с инклюзивным развитием. В то же время отмечается важность принятия оптимальных и эффективных решений в направлении инклюзивной политики устойчивого развития социально-экономических сфер Нахчыванской Автономной Республики. Обсуждается необходимость создания Шарурского промышленного района и его экономическое значение. Указаны цели и задачи Шарурского промышленного района. Создание промышленного района считается ярким примером государственной поддержки развития частного сектора.

В результате исследования делается вывод, что реализация инвестиционных проектов в Шарурском промышленном районе позволит предпринимателям получать устойчивый доход, даст импульс устойчивому инклюзивному развитию экономики автономной республики.

***Ключевые слова**: щарурский промышленный район, инклюзивное развитие, инфраструктура, промышленность, трансакцион*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SƏNAYE SEKTORUNDA SAHİBKARLIĞIN İNKİŞAFI VƏ TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

**Mahir ZEYNALOV**
*Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu*

**Gülnur ZEYNALLI**
*gulnurgxc@gmail.com*
*Azərbaycan Kooperasiya Universiteti*

***Xülasə***

*Məqalədə Naxçıvan Muxtar Respublikasında yerli sənayenin və bu sektorda sahibkarlığın inkişafı, biznesin tənzimlənməsi məsələlərindən bəhs olunur. Habelə regionda ixracyönümlü sənayenin inkişafı üçün daha əlverişli biznes mühitinin yaradılmasının, sahibkarlığın dövlət tərəfindən dəstəklənməsinin və səmərəli tənzimlənməsinin rolu, əhəmiyyəti əsaslandırılır. Naxçıvan MR-da sənayenin və sahibkarlığın inkişafı meyilləri, biznesə dövlət dəstəyi mexanizmləri təhlil edilir, ixracyönümlü yerli sənaye istehsalının genişləndirilməsi üzrə təklif və tövsiyələr verilir.*

***Açar sözlər:*** *Naxçıvan MR, sənaye, sahibkarlıq, biznes, regionlar*

## Giriş

Naxçıvan MR-da sənaye iqtisadiyyatın əsas aparıcı sahələrindəndir. Yerli sənayenin dirçəldilməsi isə bilavasitə sahibkarlığın inkişaf templərindən və meyillərindən asılıdır. Biznes mühiti nə qədər əlverişli olarsa, sahibkarlıq nə qədər təşəkkül taparsa, bir o qədər də ixracyönlü sənayenin inkişafına, insan resurslarından səmərəli istifadə edilməsinə, yeni iş yerlərinin yaradılmasına, yerli əhalinin rifahının yüksəldilməsinə nail olmaq mümkündür. Ümumiləşdirilmiş formada desək, regionda iqtisadi artım iqtisadiyyatın digər sahələri ilə yanaşı həm də sənaye sektorunda səmərəli sahibkarlıq fəaliyyəti və onun tənzimlənməsi ilə bağlıdır.

## Naxçıvan MR-da sənayenin inkişafı xüsusiyyətləri

Naxçıvan Muxtar Respublikasında ixracyönlü sənayenin, sənaye parkının yaradılması, Şərur Sənaye Məhəlləsinin fəaliyyətə başlamasının təmin edilməsi, regionda istehsal olunan məhsulların ixrac coğrafiyasının şaxələndirilməsi, ixracyönlü potensial sənaye sahələri üzrə layihələrin hazırlanması və layihələrə investisiyaların cəlb edilməsi istiqamətində iş aparılması, əlverişli biznes mühitinin yaradılması "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın əsas məqsəd və prioritet istiqamətlərindəndir.

"Sənaye parkları (məhəllələri) qeyri-neft emal sənayesinin inkişafını, yerli və xarici investisiyaların cəlb edilməsini sürətləndirir, müasir texnoloji sahələrin inkişafına, yeni rəqabətqabiliyyətli məhsul istehsalına, iqtisadiyyatın modernləşməsinə və innovativ iqtisadiyyatın formalaşmasına, qeyri-neft ixracının artırılmasına təkan verir" [Hüseynov, 2023, s.117].

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli 831 nömrəli Fərmanına əsasən Şərur Sənaye Məhəlləsi yaradılmışdır. Məqsəd burada sənaye sektorunda mikro, kiçik və orta sahibkarların dəstəklənməsi, sənayenin davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahələrində məşğulluğunun artırılmasıdır. Hazırda, sənaye məhəlləsində tikinti işləri aparılır. Burada 39 rezident qeydiyyatdan keçib, bunlardanda 26-ı fəaliyyət göstərir. Sənaye məhəlləsinə investisiyaların cəlb olunması üşün 5 il ərzində 18 sahibkarlıq subyektinə 24 investisiya təşviqi sənədi verilmişdir. Nəticədə idxal olunan 78 milyon manat dəyərində avadanlığa gömrük və vergi güzəştləri tətbiq olunub. Bunlarla yanaşı, dövlət dəstəyi ilə yolu ilə burada istehsal olunan məhsulların tanıdılması üçün bir sıra xarici ölkələrdə nümayiş etdirilmişdir.

"Qeyd olunan sənaye zonaları sahibkarlar üçün də cəlbedici və əlverişlidir. Çünki onlar üçün əlverişli investisiya mühiti təklif edilir, hətta dövlətin hesabına hazır infrastrukturla təmin olunurlar" [Zeynalov, 2023, s.15].

Naxçıvanda biznesin inkişafı üçün yaxşı potensial imkanlar - təbii ehtiyatlar və xammal bazası, ixracın stimullaşdırılmasına və əlverişli investisiya mühitinin yaradılmasına dövlət dəstəyi mexanizmləri, xarici ticarət üçün əlverişli iqtisadi coğrafi mövqe, müasir infrastruktur, beynəlxalq hava limanı, enerji təminatı, rəqabətqabiliyyətli insan resursları mövcuddur. Bura mühüm enerji və nəqliyyat dəhlizlərinə yaxınlıq, xüsusilə, Zəngəzur dəhlizi vasitəsilə Orta Dəhlizlə logistik bağlantı imkanalarını da əlavə etmək olar. Bunlarla yanaşı regionun rəqabətqabiliyyətli turizm potensialını, xarici investisiyaların cəlb olunması imkanlarını, dövlət–özəl tərəfdaşlığı modelinin tətbiqinin səmərəsini, mövcud xidmət mexanizmlərini (dövlət, maliyyə və bank xidmətləri), regionun enerji təchizatı və kommunikasiya xətlərinin dayanıqlığını, ixracyönlü sənaye sahələrinin inkişafı perspektivlərini qeyd etmək olar.

"Mövcud istehsal potensialından səmərəli istifadə etməklə davamlı inkişafın təmin edilməsi, dünya iqtisadiyyatına inteqrasiya, xarici kapitalın, mütərəqqi texnologiyanın ölkə iqtisadiyyatına cəlb edilməsi, sosial və ekoloji problemlərin həlli sahəsində də kifayət qədər müvəffəqiyyətlər qazanmışıq. Regionların sosial-iqtisadi inkişafı sahəsində dövlət proqramlarının yerinə yetirilməsi nəticəsində Azərbaycan sosial-iqtisadi inkişaf sahəsində böyük uğurlara imza atmışdır"[Nuriyev, 2023, s.108].

Bunlarla yanaşı, beynəlxalq və regional bazarlara çıxmaq üçün istehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılması, müqayisəli üstün sahələrin müəyyənləşdirilməsi və inkişaf etdirilməsi vacibdir. Nəzərə almaq lazımdır ki, indiki halda regionun ixrac bazarlarının coğrafi diversifikasiyası məhduddur. Ölkənin digər əraziləri ilə birbaşa quru nəqliyyat əlaqəsinin olmaması da ciddi problemdir. Bununla belə, dövlət xidmətlərinə əlçatanlıq səviyyəsinin yüksəldilməsi, daha əlverişli biznes mühitini formalaşdıran zəruri təşviq müxanizmlərinin təkmilləşdirilməsi, biznesin maliyyəyə çıxış imkanlarının artırılması, kənd təsərrüfatı ilə bağlı emal sənayesinin inkişaf etdirilməsi vacib amillərdir.

"Düşünülmüş dövlət siyasətinin uğurla reallaşdırılması nəticəsində sənayenin bütün sahələrinin inkişafına şərait yaranmışdır. Son illər ərzində sənaye strukturunda tədricən optimallaşdırılma proseslərinin aparılması emal sektorunun bütün sənayedəki payının artmasına şərait yaratmışdır" [Əliyev, 2019, s.164].

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda 11 prioritet istiqamət və Naxçıvanda "2024-cü il üçün 4 əsas istiqamət - aqrar sahə, turizm, nəqliyyat-logistika, yaşıl enerji, həmçinin yeni iş yerlərinin, əlavə dəyər yaradan sahələrin maliyyələşdirilməsi, sənaye, o cümlədən emal sənayesi və real sektorun digər sahələri əsas prioritet istiqamətlərdir.

Statistik göstəricilərə əsasən, son 20 ilə yaxın vaxt ərzində Naxçıvan Muxtar Respublikasında ÜDM-in sahə strukturunda ciddi dəyişikliklər baş vermiş, sənayeninin xüsusi çəkisi 2 dəfədən çox artaraq yerli iqtisadiyyatda aparıcı sahəyə çevrilmişdir. Belə ki, 2004-cü ildə ÜDM-də sənayenin payı 10,6% təşkil etdiyi halda, sonrakı illərdə artaraq 2022-ci ildə 25,7%-ə yüksəlmişdir (Cədvəl 1). *(Naxçıvan DSK, 2024).*

**Cədvəl 1.** *Naxçıvan MR-da ümumi daxili məhsulun sahə strukturu, faizlə*

| **Göstəricilər** | **2004** | **2010** | **2015** | **2020** | **2021** | **2022** |
|---|---|---|---|---|---|---|
| **Sənaye** | **10,6** | **18,3** | **28,7** | **27,6** | **27,1** | **25,7** |
| Tikinti | 29,4 | 19,0 | 21,7 | 19,3 | 19,1 | 18,0 |
| Kənd təsərrüfatı | 32,4 | 14,3 | 11,4 | 12,4 | 12,9 | 13,4 |
| Nəqliyyat | 8,4 | 2,5 | 1,7 | 1,5 | 1,6 | 1,7 |
| İnformasiya və rabitə | 0,8 | 2,5 | 1,5 | 1,5 | 1,6 | 1,6 |
| Ticarət, avtomobillərin təmiri | 14,5 | 24,4 | 23,4 | 26,3 | 25,9 | 26,6 |
| Yaşayışın təşkili və ictimai iaşə | 0,2 | 0,8 | 0,6 | 0,2 | 0,1 | 0,1 |
| Sosial və digər xidmətlər | 3,7 | 15,3 | 9,3 | 9,0 | 8,8 | 9,0 |
| Məhsula və idxala xalis vergilər | 0,0 | 2,9 | 1,7 | 2,2 | 2,9 | 3,9 |

**Mənbə:** *Naxçıvan MR Dövlət Statistika Komitəsi.* https://nstat.gov.az/macros. 29.09.2024

**Naxçıvan MR-da biznes mühiti və sahibkarlığın inkişafı**

Naxçıvan Muxtar Respublikasında biznes və sahibkarlıq fəaliyyəti üçün yaxşı imkanlar var. Dövlət müxtəlif iqtisadi alətlər vasitəsilə biznesi dəstəkləyir və onun inkişafında maraqlıdır. Bu proses dövlət tərəfindən həm tənzimlənir, həm də stimullaşdırılır.

"Ölkədə iqtisadi siyasətin hədəfi biznes və investisiya mühitinin daha da yaxşılaşdırılmasından, idarəetmə və şəffaflıq sahəsində islahatların davam etdirilməsindən, iqtisadi şaxələndirmənin dərinləşdirilməsindən və qeyri-neft emal sənayesinin, xüsusilə aqrar-emal kompleksinin prioritet inkişafının təmin edilməsindən ibarətdir. Hökumətin sənaye siyasətində yüksək əlavə dəyər yaradan emal sənaye sahələrinin inkişafı prioritet təşkil etməkdədir" [Hüseynov, 2023, s.18].

Son illər Naxçıvan Muxtar Respublikasında sahibkarlara dəstək məqsədilə bir sıra mühüm addımlar atılıb ki, bu da biznes mühitinin yaxşılaşdırılmasına xidmət edir. Belə ki, vergi nəzarəti tədbirləri minimuma endirilib, 2023-cü ildə səyyar vergi yoxlamalarının sayı əvvəlki ilə nisbətən 9 dəfəyədək, operativ vergi nəzarəti tədbirlərinin sayı isə 4 dəfədən çox azaldılıb, vergi orqanının təşəbbüsü ilə səyyar vergi yoxlaması və operativ vergi nəzarəti aparılmayıb. Bunlarla yanaşı, Naxçıvan MR-da Sahibkarlığın İnkişafı Fondunun fəaliyyətinin yenidən təşkili, aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət

Müşahidə Şurasının yaradılması, güzəştli kreditlərin real sektora yönləndirilməsinin təşviqi, kredit bazarı iştirakçıları ilə səmərəli, şəffaf əməkdaşlıq tədbirləri kimi biznes üçün əhəmiyyət kəsb edən addımlar atılıb.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun biznesin maliyyə əlçatanlığının artırılması istiqamətində fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Naxçıvanın iqtisadi artımına təsir edən biznes layihələrinin dəstəklənməsi siyasəti və həmin layihələrə ayrılan güzəştli kreditlərin həcminin artırılması davam etdirilməlidir. Yerli sahibkarlar real sektora və prioritet sahələrlə bağlı layihələrini Sahibkarlığın İnkişafı Fondunun güzəştli kreditləri hesabına maliyyələşdirmə imkanlarından istifadə etməlidirlər. Bu, dövlət-özəl sektor əməkdaşlığının səmərəli formalarından biridir. Artıq belə əməkdaşlığın müsbət nəticələri də özünü göstərir. Sahibkarlar öz fəaliyyətlərini genişləndirirlər, biznesin inkişafına maliyyə cəlb olunur, yeni istehsal və xidmət sahələri yaradılır, iş yerləri açılır. Fondla sahibkarlar arasında münasibətlərdə müsbət dinamika müşahidə olunur. Belə ki, vaxtı keçmiş kreditlərin məbləği 2024-cü il yanvarın 1-nə 16 milyon idisə, iyulun 1-nə 10,1 milyon manat və yaxud 63,5% azalmaqla 5,8 milyon manata düşüb. Nəticədə Fondun ehtiyatlarının qalıq məbləği 2,4 dəfə artaraq 6,7 milyon manatdan 16,1 milyon manata çatıb. Həmçinin 2024-cü ilin 6 ayında vaxtı keçmiş kredit vəsaitinin ödənilməsi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 25,4 dəfə çoxdur. Bu isə fondla biznes strukturlarının etibarlı qarşılıqlı tərəfdaşlığı üçün imkanları artaran amildir.

"Yeni qeyri-neft ixracı strategiyasında qarşıya qoyulan əsas məqsəd ixracın daha çox mənfəət gətirməsi, regionlarımızın ixraca qoşulması, ixracın coğrafiyasının şaxələndirilməsi və ixraca daha çox KOB subyektələrinin cəlb olunmasıdır" [Qasımlı, 2021, s.170].

Naxçıvan MR-da sahikarlıq fəaliyyəti dövlət tərəfindən dəstəklənir, stimullaşdırırılır. Belə dəstək formalarından biri də dövlət tərəfindən biznesin güzəştli şərtlərlə maliyyələşdirilməsidir. 2023-cü ilin fevral ayından etibarən İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun (SİF) güzəştli kredit mexanizmi Naxçıvanı əhatə edir. 2023-cü ildə bu fond Naxçıvan Muxtar Respublikasında sənaye, turizm, kənd təsərrüfatı, logistika və ictimai iaşə kimi iqtisadiyyatın müxtəlif sahələri üzrə 27 sahibkarlıq subyektinin layihələrinin maliyyələşdirilməsinə 2.2 milyon manat güzəştli kredit verib. Nəticədə, sahibkarlar həm biqneslərini genişləndirmək imkanları qazanıblar, həm də 86 yeni iş yeri yaradacaqlar.

2024-cü ilin yanvar-avqust ayları ərzində Naxçıvan MR-da fəaliyyət göstərən sahibkarlara Sahibkarlığın İnkişafı Fondu (SİF) tərəfindən 30 layihəyə güzəştli kreditlər təqdim edilib. Sahibkarların layihələrinin maliyyələşdirilməsinə SİF tərəfindən ümumilikdə, 1,5 milyon manat güzəştli kredit ayrılıb. Kredit alan sahibkarlıq subyektləri muxtar respublika ərazisində sənaye, turizm, kənd təsərrüfatı, akvakultura, ictimai iaşə kimi iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərir. Qeyd edilən layihələr üzrə 41 yeni iş yeri açılacaq. Bu tip dövlət dəstəyi siyasəti regionun iqtisadi potensialını reallaşdırması və insan resurslarından daha səmərəli istifadə üçün yeni imkanlar açır [SİF, 2024].

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən, "iqtisadi artım qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməli, dövlət və özəl əməkdaşlığı gücləndirilməlidir. Yenilikçiliyə malik özəl sektorda aktivlik daha da canlandırılmalı, qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun payı artırılmalıdır" [AMP, 2021].

Naxçıvan MR-da Ümumi Daxili Məhsulda özəl sektorun payı 2022-ci ildə 87,6%, sənayedə 91,4% təşkil etmişdir ki, bu da ölkə üzrə orta göstəricidən (müvafiq olaraq 83,5 və 88,8%) yüksəkdir. Hansı ki, 2006-cı ildə sənayedə özəl sektorun xüsusi çəkisi 79,8%, 2010-cu ildə 88,6% təşkil edib, hətta 2015-ci ildə 96,2%-ə yüksəlib. Bu isə Naxçıvan MR-da sənayedə özəl sektorun rolunun yüksək olmasından və əhəmiyyətindən xəbər verir (Cədvəl 2). [Naxçıvan DSK, 2024].

**Cədvəl 2.** *Naxçıvan MR-da ÜDM-də özəl sektorun payı, faizlə*

| Göstəricilər | 2006 | 2010 | 2015 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul-cəmi | 85,2 | 86,4 | 87,3 | 88,3 | 88,4 | 87,6 |
| Sənaye | 79,8 | 88,6 | 96,2 | 93,9 | 92,9 | 91,4 |
| Tikinti | 85,7 | 94,7 | 80,7 | 86,9 | 89,8 | 89,6 |
| Kənd təsərrüfatı | 98,2 | 97,9 | 98,4 | 98,4 | 98,5 | 98,4 |
| Nəqliyyat | 74,0 | 89,7 | 88,8 | 92,7 | 85,0 | 81,2 |
| İnformasiya və rabitə | 74,6 | 85,0 | 82,9 | 77,3 | 72,8 | 71,4 |
| Topdan və pərakəndə ticarət | 99,8 | 99,8 | 99,9 | 99,8 | 99,8 | 99,8 |
| Yaşayışın təşkili və ictimai iaşə | 92,6 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Sosial və digər xidmətlər | 9,5 | 29,0 | 29,5 | 27,8 | 26,5 | 24,6 |

**Mənbə:** *Naxçıvan MR Dövlət Statistika Komitəsi.* https://nstat.gov.az/macros. 29.09.2024

**Nəticə**

Naxçıvan MR-da azad iqtisadi zonanın yaradılması ticarət və logistika imkanlarının artırılmasına, ixracyönümlü yerli sənayenin genişləndirilməsinə mühüm töhfə verə bilər. Habelə sənaye istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslərə müddətli vergi və digər güzəştlərin verilməsi, sosial sığorta ödənişlərinin tam və ya qismən dövlət tərəfindən subsidiyalaşdırılması özəl sektorun inkişafını stimullaşdıra biləcək mexanizmlərdir. Sənaye sektoruna yerli və xarici investisiyaların cəlb edilməsi üçün əlverişli investisiya mühiti formalaşdırılmalıdır. Sahibkarların sənayedə müasir innovativ texnologiyaları tətbiq etmələri üçün stimullaşdırılması və bu sahəyə güzəştli kreditlərin verilməsi faydalı olardı. Sahibkarlığın İnkişafı Fondu Naxçıvanın iqtisadi artımına təsir edən layihələri dəstəkləməklə yanaşı biznesin maliyyə əlçatanlığının artırılması istiqamətində fəaliyyətini davam etdirməlidir.

Ölkədə fəaliyyət göstərən aparıcı bankların, sığorta şirkətlərinin Naxçıvan MR-da filialları açılmalıdır ki, sahibkarların bank və sığorta xidmətlərinə çıxışı daha da asanlaşsın. Həmçinin ölkədə tətbiq olunan müasir dövlət xidmətlərinin Naxçıvan MR-da da tətbiq olunması, dövlət xidmətlərinə əlçatanlığın artırılması, rəqabət mühitinin sağlamlaşdırılması, dövlətin bir sıra istehsal və xidmət sahələrinin özəlləşdirilməsi mühüm amillərdir.

Xüsusi sənaye zonasının (məhəllə və parkların) yaradılması yolu ilə yerli xammal bazası əsasında yeni sənaye sahələrinin (tikinti materialları, qida məhsulları istehsalı və s.) qurulması və mövcud sənaye müəssisələrinin fəaliyyətinin, hasilat və emal sənayesinin genişləndirilməsi mümkündür.

Naxçıvan MR-da iqtisadiyyatın və sənayenin inkişafı üçün əsas prioritet hədəflərdən biri də əlverişli biznes mühitinin formalaşdırılmasıdır. Məhz əlverişli biznes mühiti, səmərəli dövlət tənzimlənməsi Naxçıvan Muxtar Respublikasının investisiya cəlbediciliyini artıracaq, ixracyönümlü yerli sənaye istehsalının genişləndirilməsini və inkişafının sürətləndirilməsini təmin edəcəkdir.

## ƏDƏBİYYAT

1. AMP (2021). "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://president.az/az/articles/view/50474
2. Əliyev, T.N. Klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf. Monoqrafiya. Bakı: 2019. "Elm və Bilik", 536 s.
3. Hüseynov, T.H. Azərbaycanda sənayeləşmə reallıqlar va perspektivlər. Monoqrafiya. Bakı: 2023. "Apostrof-A" MMC, 484 s.
4. Qasımlı, V.Ə. "İqtisadi artım". Dərslik. Bakı: 2021. "AzPrint" MMC Nəşriyyatı, 234 s.
5. Nuriyev, Ə.X. (2023). "İqtisadiyyatın idarə edilməsinin müasir problemləri və perspektivləri" mövzusunda, "Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi"nə həsr olunmuş respublika elmi konfransı. ETN İqtisadiyyat İnstitutu və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, 23-24 noyabr 2023-cü il, 459 s.
6. Naxçıvan DSK 2024, Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatları. https://nstat.gov.az/macros. 29.09.2024.
7. SİF (2024). Naxçıvanda fəaliyyət göstərən bizneslər maliyyələşdirilir. Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu (SİF). https://edf.gov.az/az/news/2742. 28.09.2024
8. Zeynalov, M.H. (2023). "İqtisadiyyatın idarə edilməsinin müasir problemləri və perspektivləri" mövzusunda, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş respublika elmi konfransı. ETN İqtisadiyyat İnstitutu və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, 23-24 noyabr 2023-cü il, 459 s.

**SUMMARY**

In the scientific article spoke about the local industry and entrepreneurship development in this sphere in the Nakhchivan Autonomous Republic, also issues of business regulation. Including here also based the importance of creation more suitable business environment for development of export-oriented industry, state support of entrepreneurship and the role of effective regulation in the region. Here also analyzed the industry in Nakhchivan AR, the tendencies of entrepreneurship development and state support mechanisms for business, and are given suggestions and recommendations on the expansion of export-oriented domestic industrial production.

***Key words:*** *Nakhchivan AR, industry, entrepreneurship, business, regions*

**РЕЗЮМЕ**

В статье рассматриваются вопросы развития местной промышленности и предпринимательства в данном секторе, а также регулирования бизнеса в Нахчыванской Автономной Республике. Также обосновываются роль и значение создания более благоприятной бизнес-среды для развития экспортноориентированной промышленности региона, государственной поддержки и эффективного регулирования предпринимательства. Анализируются тенденции развития промышленности и предпринимательства в Нахчыванской АР, механизмы государственной поддержки бизнеса, выдвигаются предложения и рекомендации по расширению экспортоориентированного местного промышленного производства.

***Ключевые слова:*** *Нахчыванская АР, промышленность, предпринимательство, бизнес, регионы*

# MÜHARİBƏLƏRİN İQTİSADİYYATA TƏSİRİ

**Müjkan MƏMMƏDZADƏ**
*mujkan@mail.ru*
*Hərbi Elmi-Tədqiqat İnstitutu*

***Xülasə***

*Məqalədə, müharibələrin iqtisadiyyata təsirindən bəhs olunur. Dünyada baş verən müharibələrin tarixi, məhv olmuş insanlar, dağılmış kənd və şəhərlər, cəmiyyətə dəymiş iqtisadi ziyan-bunların statistikası hamıya məlumdur. Müharibələrin başlanma səbəblərini hər dövlət istədiyi kimi izah etmişdir. Lakin bir ümumi səbəb təkzib edilməzdir: müharibə aparan təcavüzkar dövlət özgə torpaqlarını, o cümlədən həmin ərazinin yeraltı və yerüstü sərvətlərini ələ keçirməklə guya öz xalqına xoşbəxtlik gətirmək istəmişdir. Əslində isə yeni müharibə üçün əsas yaradılmışdır. Son dövrlərdə müşahidə edilənlər bir həqiqəti üzə çıxarır - hərbi qüdrət, silahların müasirliyi, hətta hərbi kontingentin sayı belə müharibələrin taleyinə həlledici təsirini itirməkdədir. Hərbi qarşıdurmalarda nəticələr daha fərqli komponentlərlə müəyyənləşməkdədir. Məsələn, iqtisadi təzyiq və ya sanksiyalaşdırılmış təsirli rıçaqlar müasir müharibələrdə önəmli vasitəyə çevrilmək üzrədir. Məqalədə, Rusiya-Ukrayna, Fələstin-İsrail müharibəsinin dünya iqtisadiyyatına təsirindən, Qarabağ müharibəsinin Azərbaycan iqtisadiyyatına ziyanından bəhs olunur. Dünya iqtisadiyyatında baş verəcək dəyişikliklərin Azərbaycana təsirinə gəldikdə, iqtisadçılar neftin qiymətinin qalxmasını ölkəmiz üçün müsbət hal adlandırıb. Çünki bizim əsas gəlirimiz neftdəndir və bu münaqişə ilk növbədə neftin qiymətinə təsir edəcək. Mövcud gəlirlərimizin həcmində ikinci yerdə vergi və gömrük məsələləri dayanır. Hazırda, bildiyimiz kimi, Azərbaycan Gürcüstanla əlaqələri genişlənmək üçün addımlar atır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi "Yaşıl enerji dəhlizi" layihəsinin sürətlənməsi alternativ enerjilərin satışına gətirib çıxaracaq. Bu da bizim üçün müsbət haldır. Azərbaycan bundan istifadə edərək öz gəlirlərini artıra bilər və neftin nə zamansa ucuzlaşması iqtisadiyyatımıza ciddi təsirlər göstərməz. Onu da qeyd edək ki, İsrail dünyada yüksək hərbi texnologiya istehsalı ilə tanınan ölkədir. Ona görə müharibənin fəsadları nəticəsində dünya bazarlarında hərbi texnikaların, avadanlıqların qiymətlərində artım müşahidə oluna bilər. Bu durum Azərbaycanın da hərbi sənayesinə təsir göstərəcək. Bu sahədə qardaş Türkiyənin Azərbaycan üçün ön planda olacağını düşünüləndi.*

***Açar sözlər:*** *müharibə, iqtisadiyyat, iqtisadi sanksiyalar*

Bəşəriyyətin qarşısında duran ən kəskin qlobal problemlərdən biri müharibə və sülh problemidir. Dövlətlər arasında müharibələr min illər boyu davam etmişdir. Bunun nəticəsində isə bir çox nəsillərin böyük zəhmətlərinin nəticələri məhv olmuşdur. Dünyada baş verən müharibələrin tarixi, məhv olmuş insanlar, dağılmış kənd və şəhərlər, cəmiyyətə dəymiş iqtisadi ziyan-bunların statistikası hamıya məlumdur. Müharibələrin başlanma səbəblərini hər dövlət istədiyi kimi izah etmişdir. Lakin bir ümumi səbəb təkzib edilməzdir: müharibə aparan təcavüzkar dövlət özgə torpaqlarını, o cümlədən həmin ərazinin yeraltı və yerüstü sərvətlərini ələ keçirməklə guya öz xalqına xoşbəxtlik gətirmək istəmişdir. Əslində isə yeni müharibə üçün əsas yaradılmışdır.

Son dövrlərdə müşahidə edilənlər bir həqiqəti üzə çıxarır - hərbi qüdrət, silahların müasirliyi, hətta hərbi kontingentin sayı belə müharibələrin taleyinə həlledici təsirini itirməkdədir. Hərbi qarşıdurmalarda nəticələr daha fərqli komponentlərlə müəyyənləşməkdədir. Məsələn, iqtisadi təzyiq və ya sanksiyalaşdırılmış təsirli rıçaqlar müasir müharibələrdə önəmli vasitəyə çevrilmək üzrədir. Bununla yanaşı, beynəlxalq dəstək, informasiya cəbhəsində üstünlüyün təmin olunması, daxili siyasi sabitliyin və birliyin formalaşdırılması qələbənin əsas formulu qismində çıxış edir. Bu komponentlər müasir hibrid müharibənin gedişini və nəticələrini müəyyənləşdirir.

Qələbə güclü iqtisadiyyata əsaslanır. Məsələn, Rusiya ilə Ukraynanın iqtisadi gücü arasında müqayisə apardıqda, təbii ki, birincinin üstünlüyünü görməmək mümkün deyil. Bununla belə, hazırda Rusiyanın yaşadığı ən böyük problemlər məhz iqtisadi müstəvidədir. Qərbin tətbiq etdiyi sanksiyaların miqyasının günü-gündən böyüməsi Rusiyanı çıxılmaz duruma salıb. Ölkə KİV-i açıq şəkildə etiraf edir ki, müharibədən öncə müəyyən sanksiyaların olacağı proqnozlaşdırılsa da, hazırkı durum gözlənilməz idi. Yəni sanksiyaların miqyası daha böyük, xarakteri isə daha sərtdir. Beynəlxalq maliyyə şəbəkələrinə çıxışı bağlanmış, hesabları bloklanmış, hətta aktivləri belə dondurulmuş Rusiya gözləmədiyi seytnot vəziyyətinə düşüb.

Rusiyadan daha zəif iqtisadiyyata malik Ukrayna, demək olar ki, maliyyə çətinliyi yaşamır. Qərb ölkələrinin verdiyi açıq maliyyə dəstəyi, eləcə də hərbi, humanitar yardımlar Kiyevin Rusiya qarşısında dirəniş göstərməsini təmin etməkdədir. Öz çıxışlarında tez-tez bu mövzuya müraciət edən Prezident Zelenski yardımların davamlı olacağını qətiyyətlə bildirir. Təbii ki, bu qətiyyəti onda yaradan isə beynəlxalq dəstəkdir.

Fələstin İsrail müharibəsi nəinki həmən ölkələrə, həm də dünya iqtisadiyyatına təsirsiz ötüşmədi. Belə ki, Asiyada müharibə başlayan kimi bahalaşma, tələbatın yüksələcəyi haqqında proqnozlar özünü doğrultdu. Belə ki, müharibənin ilk günündəki real göstəricilərə baxsaq, ABŞ fond füçersləri düşüb, xam neft, qızıl və xəzinə istiqrazları isə bahalaşıb, neftin qiyməti bir barel üçün dörd dollardan çox artıb və hətta 88,76 dollarıdək yüksəlib.

Ümumiyyətlə, Fələstin və İsrail arasında müharibə davam edəcəyi təqdirdə dünya iqtisadiyyatına daha hansı təsirləri göstərə bilər? İqtisadçıların fikrincə, neftin qiymətindəki artımları ciddi hesab etmək doğru olmaz. "Brent" markalı neftin bir bareli hazırda 88 dollara təklif olunsa da bu, davamlı deyil. Müharibənin dünya iqtisadiyyatına təsirləri hələlik hiss edilmir. Nəzərə alsaq ki, region vacib olsa belə, müharibə aparan ölkələrin dünya iqtisadiyyatında payı yüksək deyil. İsrail innovativ məhsul istehsalı və ixracı baxımından fərqlənən ölkələrdən olsa da, ümumən dünya iqtisadiyyatında payı yüksək olmadığından ona yüksək təsirini görməyəcəyik.

Təbii ki, növbəti mərhələdə müharibənin təsirləri onun hansı coğrafiyada yayılmasından asılı olacaq. Əgər müharibəyə digər ölkələr də qoşularsa və əhatə dairəsi genişlənərsə, o halda dünya iqtisadiyyatına təsirlər gözlənilir. Eyni zamanda neftin dünya bazarlarında qiyməti də daha çox arta bilər. Amma müharibə Fələstin və İsrail arasında, lokal formada davam edərsə, strateji məhsulların qiymətlərinə ciddi təsir edəcəyi proqnozlaşdırılmır.

Ölkə olaraq hər iki dövlət özü bu əməliyyatların fəsadlarını çəkəcək. Xüsusilə, HƏMAS-ın yerləşdiyi coğrafiya üçün ciddi fəsadları qaçılmazdır. Enerji təchizatında

problemlər digər istehsal sahələrini, təchizat sistemlərini də sıradan çıxardır. Bu da öz növbəsində, ərzaq təminatında ciddi problemlər yaradacaq. Eyni zamanda, neftin qiymətinin yüz dolları aşması da yaxın müddətdə gözləniləndir. Bu, Fələstin-İsrail münaqişəsinin ən optimal ssenarisində belə proqnozlaşdırılır. Bu prosesin uzun müddət davam etməsi, digər ölkələrin də müharibəyə qoşulması ehtimalının böyük olduğunu nəzərə alsaq, o zaman vəziyyət dəyişir. Yəni hazırda biz müharibənin iqtisadi nəticələrini yalnız neft qiymətlərində görürüksə, miqyas böyüyərsə, sözün həqiqi mənasında ölkələrin ərzaq təhlükəsizliyində problemlər hiss ediləcək. İsrail kənd təsərrüfatı məhsulları ilə bir çox ölkələri təchiz edir, ixracatçıdır.

Səudiyyə Ərəbistanı və ABŞ-nin müharibəyə müdaxiləsi baş verərsə, neftin 120 dollara qədər bahalaşması qaçılmaz olacaq. Hətta vəziyyət daha da gərginləşəcəyi təqdirdə, neft 150 və daha yüksək qiymətə təklif edilə bilər ki, bu da neft tarixinin ən yuxarı səviyyəsi olacaq. Neftin bahalaşması isə yenidən dünya iqtisadiyyatı üçün arzuolunmaz vəziyyət yaradacaq, inflyasiyanı sürətləndirəcək, istehsal olunan bütün məhsulların maya dəyərinə təsir edəcək, iqtisadiyyata ziyan vuran ciddi faktora çevriləcək. Ona görə prosesləri hazırkı məqamda dəqiq, birmənalı qiymətləndirmək çox çətindir. Amma böyük ehtimal ki, İsrail məsələni birdəfəlik həll etmək istəyir, prosesi tam nəzarətə götürənə qədər müharibəni davam etdirəcək.

Dünya iqtisadiyyatında baş verəcək dəyişikliklərin Azərbaycana təsirinə gəldikdə, iqtisadçılar neftin qiymətinin qalxmasını ölkəmiz üçün müsbət hal adlandırıb. Çünki bizim əsas gəlirimiz neftdəndir və bu münaqişə ilk növbədə neftin qiymətinə təsir edəcək. Mövcud gəlirlərimizin həcmində ikinci yerdə vergi və gömrük məsələləri dayanır. Hazırda bildiyimiz kimi, Azərbaycan Gürcüstanla əlaqələri genişlənmək üçün addımlar atır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi "Yaşıl enerji dəhlizi" layihəsinin sürətlənməsi alternativ enerjilərin satışına gətirib çıxaracaq. Bu da bizim üçün müsbət haldır. Azərbaycan bundan istifadə edərək öz gəlirlərini artıra bilər və neftin nə zamansa ucuzlaşması iqtisadiyyatımıza ciddi təsirlər göstərməz.

Onu da qeyd edək ki, İsrail dünyada yüksək hərbi texnologiya istehsalı ilə tanınan ölkədir. Ona görə müharibənin fəsadları nəticəsində dünya bazarlarında hərbi texnikaların, avadanlıqların qiymətlərində artım müşahidə oluna bilər. Bu durum Azərbaycanın da hərbi sənayesinə təsir göstərəcək. Bu sahədə qardaş Türkiyənin Azərbaycan üçün ön planda olacağını düşünüləndi.

44 günlük Vətən Müharibəsi, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi Ermənistan üçün də ciddi iqtisadi problemlər yaratdı. İkinci Qarabağ müharibəsi nəticəsində Ermənistan nəinki 3,8 milyard dollardan çox hərbi texnika itirdi, həmçinin Ermənistan enerji, kənd təsərrüfatı və maliyyə sahələrində də ciddi problemlərlə üzləşib. Beləliklə, İrəvan 36 su elektrik stansiyasından 30-na nəzarəti itirib ki, bu da işğal olunmuş ərazilərin enerji tələbatının 53%-ni və Ermənistanın enerji təchizatının 7%-ni təmin edir. Bundan əlavə, 90 min hektar əkin sahəsinə qənaət edilib ki, bu da Ermənistanın yerli tələbatının 25 faizini ödəyir.

Təsadüfi deyil ki, Qarabağ müharibəsinin iqtisadi nəticələrini araşdırarkən qeyd etməliyik ki, işğal zamanı Ermənistan iqtisadiyyatı Azərbaycan ərazisində yaradılmış qanunsuz fəaliyyətdən əldə edilən gəlirlər hesabına formalaşıb. Bu bir faktdır ki, Qarabağ

hələ işğaldan əvvəl sənaye müəssisələrinin tərkibinə və inkişaf səviyyəsinə görə keçmiş SSRİ-nin iqtisadi rayonları arasında dördüncü yeri tuturdu.

Birinci Qarabağ müharibəsi zamanı Ermənistan Azərbaycan sərhədinin 360 km-də Azərbaycan ərazisinin 20%-ni işğal edib və Füzuli rayonunun Horadiz qəsəbəsindən Zəngilana qədər Azərbaycan-İran sərhədinin 198 km-ni nəzarətə götürüb. 50 minə yaxın azərbaycanlının yaşadığı 2 şəhər, 1 qəsəbə, 53 kənd ələ keçirilib, 890 şəhər, kənd və qəsəbə ermənilər tərəfindən işğal edilib. 150 min yaşayış evi, 7 min ictimai bina, 693 ümumtəhsil məktəbi, 2300 kilometr su xətti, 1500 kilometr elektrik xətti, 280 min hektar meşə, 200 min hektar əkin sahəsi, 464 tarixi abidə zəbt edilib. Bundan başqa, Azərbaycanın bütün civə, obsidian və perlit ehtiyatları, tikinti və bəzək materiallarının 35-60 faizi, meşə fondunun 23,8 faizi, su ehtiyatlarının 7,8 faizi və s. 30 ilə yaxındır ki, işğal altında idi. Burada 2 qoruq, 3 müqəddəs ərazi, 3 böyük su anbarı vardı.

Qarabağın yeni müstəqillik qazanmış Azərbaycan üçün iqtisadi əhəmiyyəti təbii sərvətlər, infrastruktur və coğrafiya baxımından böyük idi. Dövrün mənzərəsini rəqəmlərlə ifadə etsək, kənd təsərrüfatı məhsullarının cəmi 14,3 faizi, üzümün 31,5 faizi, ətin 14,5 faizi, südün 17,1 faizi, yunun 17,3 faizi, mal-qaranın 15,1 faizi, 19 faizi və qoyun və keçilərin 2 faizi bu rayonların payına düşüb.

Maldarlıqda Laçın, Ağdam və Füzuli rayonlarında, qoyunçuluqda isə Laçın, Ağdam, Kəlbəcər, Füzuli və Cəbrayıl rayonlarında yüksək göstəricilər olmuşdur.

Dünya Bankı və Birləşmiş Millətlər Təşkilatı kimi beynəlxalq qurumların Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərinə vurduğu ziyanı hesablamaq və rəsmi İrəvana təzminat tələb etmək üçün aydın metodologiyası var. Zərərin qiymətləndirilməsi prosesinə beynəlxalq ekspertlərin cəlb edilməsi məbləğin daha dəqiq hesablanmasını təmin edəcək.

Yuxarıda qeyd edildiyi kimi, transformasiya prosesinin ilk illərində Ermənistanla müharibə, Rusiyanın Azərbaycana nəqliyyat embarqosu, Çeçenistan müharibəsi səbəbindən iki mühüm neft kəmərindən istifadə edə bilməməsi kimi siyasi və hərbi problemlər iqtisadi göstəricilərə və inflyasiyaya mənfi təsir göstərmişdir. 1992-1994-cü illərdə artmışdır, 4 rəqəmə yüksəlmişdir.

Ermənistanın Azərbaycan torpaqlarının 20%-ni işğal etməsi nəticəsində təxminən bir milyon Azərbaycan vətəndaşı - əhalinin 12%-i işğal olunmuş torpaqları tərk etməli olmuşdu. Bir milyona yaxın insanın işğal olunmuş torpaqlardan köçmək məcburiyyətində qalması ölkədə məşğulluq problemini artıran mühüm amil idi.

Proqnozlardan 1991-94-cü illərdə Ermənistanla müharibənin dövlət maliyyəsində yaratdığı neqativləri görmək mümkündür. Bu dövrdə dövlət xərclərinin ÜDM-ə nisbəti 55%-ə, dövlət maliyyələşdirmə kəsirlərinin ÜDM-ə nisbəti isə 15%-ə yüksəlmişdir.

Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səyləri bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi, iqtisadi, sosial və hərbi sahələrdə nəzərəçarpan tərəqqi əldə edib. Azərbaycanımız son illərdə dünyanın ən sürətlə inkişaf edən ölkəsidir. Cənubi Qafqazın lider dövlətidir. Ölkəmizin əldə etdiyi bütün tarixi nailiyyətlər Prezident İlham Əliyevin qətiyyəti, uzaqgörən siyasəti və yorulmaz fəaliyyəti ilə bağlıdır.

44 gün içində Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni və şanlı tarixi yazıldı. Əlbəttə, Azərbaycan tarixində bir çox şərəfli anlar olub, xalqımızın qürur mənbəyinə çevrilmiş hadisələr yaşanıb. Amma bu qələbə Ali Baş Komandanın başçılığı ilə Azərbaycan Ordusunun zəfər yürüşü, torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizdə xüsusi əhəmiyyətə malikdir.

Cənab Prezident müsahibələrinin birində Qarabağla əlaqədar mühüm məsələləri qeyd etməklə yanaşı Azərbaycanın iqtisadi gücünə də toxunub. Müsahibə zamanı ölkə başçısının da vurğuladığı kimi, baxmayaraq ki, bu il ümumi daxili məhsulumuz aşağı düşüb, indiyədək geriləmə 4 faizdən aşağı olub. Bəzi başqa ölkələrlə müqayisədə bu, pis nəticə deyil. Lakin qeyri-neft sənayesinə gəldikdə, artım var. Bu, onu göstərir ki, sənaye, biznes imkanları, turizm, innovasiya sektoru və kənd təsərrüfatı, əlbəttə ki, pandemiyadan əvvəl sürətlə inkişaf edirdi. Ölkə başçısı xüsusi olaraq vurğulayıb ki, ərazilərimizin geri qaytarılması kənd təsərrüfatımızın inkişafına yeni təkan verəcək.

Azərbaycandan fərqli olaraq isə iqtisadi böhran içində boğulan Ermənistan artıq hər gün yeni-yeni problemlərlə üzləşməkdədir. Türkiyə və Azərbaycanla sərhədlərin bağlı olması, Gürcüstanla əvvəlki kimi xoş münasibətin olmaması, korrupsiya və rüşvətxorluğun geniş vüsət alması bu ölkəni məhvə sürükləyib. Qarabağ münaqişəsi uzun illər həll olunmadığına görə Türkiyə və Azərbaycanın Ermənistanla sərhədləri bağlı olması Ermənistanı regionda hazırlanan nəhəng infrastruktur layihələrindən uzaq qalmasına səbəb olub. Ermənistan iqtisadiyyatı koronavirus səbəbindən onsuz da çətinliklər yaşayarkən Qarabağdakı münaqişənin yenidən alovlanması ilə daha da çətin bir duruma düşdü. Bu hərbi qarşıdurmanın hər günü işğalçı ölkəni labüd iqtisadi fəlakətə bir az daha yaxınlaşdırdı. Ermənistan Azərbaycanla resurs müharibəsinə və silahlanma yarışına hazır deyildi. Ermənistan Azərbaycana qarşı ciddi müharibə aparmaq üçün nə hərbi, nə də iqtisadi imkanları yox idi. Ölkə başçımızın 2020-ci ilin oktyabrın 25-də Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində keçirdiyi operativ müşavirədə dediyi kimi, əgər Ermənistana kənardan silah və siyasi dəstək olmasaydı onlar bizim torpaqlarımızı işğal altında saxlaya bilməzdi. Ümumiyyətlə, Azərbaycanın qarşısında heç kim dura bilməz.

Beləliklə, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin mənfi təsiri onun iqtisadiyyatının bütün sahələrində də özünü göstərəcək. "Fitch Ratings" təşkilatının 2020-ci ilin oktyabr ayında verdiyi proqnozlara əsasən, Ermənistan iqtisadiyyatında artım tempinin cari ildə neqativ zonada olacağı, ortamüddətli dövrdə isə aşağı olaraq qalacağı proqnozlaşdırılır. Buna əsas səbəb kimi COVID-19 pandemiyasının təsiri ilə ölkədə iqtisadi aktivliyin aşağı düşməsi və Qarabağ münaqişəsinin yenidən başlanılması göstərilir. Ortamüddətli dövrdə isə Beynəlxalq Valyuta Fondu iqtisadi artım tempinin 2019-cu ilə nəzərən daha aşağı səviyyədə olacağını proqnozlaşdırıb və bunu iqtisadi artımın öz potensial səviyyəsinə yaxınlaşması ilə izah edib.

Dünyanın hansı regionunda olmasından asılı olmayaraq, müharibə iqtisadiyyata, istehsal sahələrinə təsir göstərir. İki ölkə arasında aparılan müharibədə həmişə iqtisadiyyatı zəif olan tərəf məğlub olur. Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatından üçqat, müdafiə büdcələri baxımdan isə dördqat üstündür. Belə ki, Azərbaycanın müdafiə büdcəsi 2,3 milyard ABŞ dolları, Ermənistanınkı isə 658 milyon ABŞ dollarıdır. Azərbaycanda həm müharibədən öncə, həm də müharibə dövründə milli valyutanun məzənnəsi eyni qalıb. Ermənistanda inflyasiya artımı ilə paralel milli valyuta külli miqdarda ucuzlaşıb. Qeyd

olunan bir neçə misal deməyə əsas verir ki, müharibə Azərbaycan iqtisadiyyatına təsir etsə də, ölkəmiz bu itkiləri qarşılamaq gücündədir. Azərbaycanın kifayət qədər xarici ehtiyatı var. Artıq Azərbaycan 10-dan çox Avropa dövlətinə neft-qaz ixrac edir, ona görə də Azərbaycan üçün iqtisadi ziyanın öhdəsindən gəlmək ciddi problem deyil. Amma Ermənistan müharibənin yıxıcı təsirindən canını qurtara bilməyəcək. Artıq Ermənistanda vətəndaşlar həyatın bütün sahələrində müharibənin acısını hiss edir və bunun getdikcə böyüyərək işğalçı dövləti fəlakətə sürükləyəcəyi qaçılmazdır.

Ölkə başçısı müsahibələrində dəfələrlə qeyd etmişdir ki, Ermənistan hökumətinə mesajlar göndərilmişdir ki, onlar işğala son qoyduğu təqdirdə Azərbaycan Qarabağda müxtəlif sosial və iqtisadi layihələri icra edə bilər. Bu mesajlar Minsk qrupunun həmsədrləri vasitəsilə Ermənistanın əvvəlki prezidentlərinə göndərilmişdir və onlar bunları rədd etmişdir. Ərazilərin azad edilməsi ilə əlaqədar kənd təsərrüfatımızda inkişaf artıq özünü göstərir. İşğaldan azad edilmiş torpaqlar, oradakı faydalı qazıntılar, su və meşə resursları Azərbaycanın iqtisadi gücünü daha da artıracaq.

## ƏDƏBİYYAT

1. Mehdiyev, A. "Azərbaycanın Dünya İqtisadiyyatına İnteqrasiyasının Reallıqları", Ekspert, No.7-8, 2001, 26 s.
2. https://oxu.az/siyaset/felestin-israil-muharibesi-neft-ve-herbi-texnika-bahalasir-erzaq-teminati-tehlukede-serh-foto
3. https://www.poscrib.com/articles/i-ve-ii-qarabag-munaqisesinin-azerbaycan-iqtisadiyyatina-tesiri-IcwNOqbP90Ox_00R9zR8Tw

## SUMMARY

The article talks about the impact of wars on the economy. The history of wars in the world, destroyed people, destroyed villages and cities, economic damage to society - these statistics are known to everyone. The reasons for the outbreak of wars have been explained by each state as it wishes. But one common reason is undeniable: the warring aggressor state wanted to bring happiness to its own people by seizing other people's lands, including the underground and surface resources of that area. In fact, the basis for a new war was created. What has been observed in recent times reveals one truth - military power, modernity of weapons, even the number of military contingents are losing their decisive influence on the fate of wars. In military conflicts, the results are determined by different components. For example, economic pressure or sanctioned leverage is about to become an important tool in modern warfare. The article talks about the impact of the Russia-Ukraine, Palestine-Israel war on the world economy, and the damage of the Karabakh war on the economy of Azerbaijan. As for the impact of the changes in the world economy on Azerbaijan, economists called the increase in the price of oil a positive thing for our country. Because our main income is from oil, and this conflict will primarily affect the price of oil. Tax and customs matters are in the second place in terms of our current income. As we know now, Azerbaijan is taking steps to expand its relations with Georgia. As President Ilham Aliyev also noted, the acceleration of the "Green Energy Corridor" project will lead to the sale of

alternative energies. This is a positive thing for us. Azerbaijan can use this to increase its income, and the price of oil will not have serious effects on our economy. It should also be noted that Israel is a country known in the world for the production of high military technology. Therefore, as a result of the consequences of the war, an increase in the prices of military equipment and equipment can be observed in the world markets. This situation will affect the military industry of Azerbaijan. It was thought that brotherly Turkey would be in the foreground for Azerbaijan in this field.

***Key words:*** *war, economy, economic sanctions*

## РЕЗЮМЕ

В статье говорится о влиянии войн на экономику. История войн в мире, уничтоженные люди, разрушенные деревни и города, экономический ущерб обществу – эта статистика известна каждому. Причины начала войн объяснялись каждым государством по своему усмотрению. Но одна общая причина неоспорима: воюющее государство-агрессор хотело принести счастье своему народу, захватив чужие земли, в том числе подземные и наземные ресурсы этой территории. Фактически была создана основа для новой войны. Наблюдаемое в последнее время обнаруживает одну истину – военная мощь, современность вооружения, даже численность воинских контингентов теряют решающее влияние на судьбу войн. В военных конфликтах результаты определяются разными компонентами. Например, экономическое давление или санкционированные рычаги давления вот-вот станут важным инструментом в современной войне. В статье говорится о влиянии российско-украинской, палестино-израильской войны на мировую экономику, а также ущербе карабахской войны на экономике Азербайджана. Что касается влияния изменений в мировой экономике на Азербайджан, то экономисты назвали повышение цен на нефть положительным моментом для нашей страны. Потому что наш основной доход – это нефть, и этот конфликт в первую очередь повлияет на цену нефти. На втором месте по нашим текущим доходам находятся налоговые и таможенные вопросы. Как мы теперь знаем, Азербайджан предпринимает шаги по расширению отношений с Грузией. Как также отметил Президент Ильхам Алиев, ускорение реализации проекта «Зеленый энергетический коридор» приведет к продаже альтернативных источников энергии. Для нас это положительный момент. Азербайджан может использовать это для увеличения своих доходов, а цена на нефть не окажет серьезного воздействия на нашу экономику. Следует также отметить, что Израиль – страна, известная в мире производством высоких военных технологий. Поэтому в результате последствий войны на мировых рынках можно наблюдать рост цен на военную технику и технику. Эта ситуация повлияет на военную промышленность Азербайджана. Считалось, что на переднем плане для Азербайджана в этой области будет братская Турция.

***Ключевые слова:*** *война, экономика, экономические санкции*

# TÜRKİYƏDƏ 1980 SONRASI İQTİSADİ LİBERALLAŞMA VƏ ONUN İQTİSADİ TƏSİRLƏRİ

**Emil BAĞIRLI**
*emilbagirli@gmail.com*
*Orhcid ID: 0009-0009-8303-6239*
*Azərbaycan Dövlət İqtisad Universiteti*

***Xülasə***

*Bu məqalədə ixracyönümlü sənayeləşmə strategiyalarının Türkiyə Cumhuriyyətində iqtisadi inkişafa təsirləri nəzəri perspektivlər və empirik sübutlarla inteqrasiya edilərək araşdırılır. Klassik və neoklassik ticarət nəzəriyyələrinə əsaslanaraq, bu strategiyalar məhsuldarlığı, texnoloji yenilikləri və iqtisadi genişlənməni təşviq etmək üçün müqayisəli üstünlük və ixtisaslaşmadan istifadə edir. İxracyönümlü böyümə şirkətləri beynəlxalq rəqabətlə üz-üzə qoyaraq, səmərəlilik artımlarını, texnoloji irəliləyişləri və qlobal bazarlara daha geniş çıxışı təşviq edir. Tədqiqat Türkiyə kimi yeni sənayeləşmiş ölkələrin təcrübələrinə diqqət yetirir. Bu ölkələr ixracyönümlü sənayeləşməni dəstəkləyən siyasətləri həyata keçirmiş və sürətli iqtisadi böyümə ilə həyat səviyyəsinin yüksəlməsinə nail olmuşlar. Bu nümunəvi ölkələr göstərir ki, hökumətlərin infrastruktur investisiyaları, xarici birbaşa investisiya (FDI) stimulları və texnoloji yeniliklər vasitəsilə ixracyönümlü sənayelərə dəstəyi rəqabət qabiliyyətini və uzunmüddətli iqtisadi göstəriciləri artıra bilər. Lakin, məqalə bu cür böyümə strategiyaları ilə əlaqəli çətinlikləri də vurğulayır. Qlobal tələbatın dəyişməsi və əmtəə qiymətlərinin dəyişkənliyi kimi xarici şoklara qarşı həssaslıq böyüməni əngəlləyə bilər, bu hal Argentina və Braziliya kimi Latın Amerikası ölkələrində müşahidə olunmuşdur. Bundan əlavə, ixracyönümlü böyümə gəlir bərabərsizliyini artıra bilər, çünki fərqli sektorların işçiləri arasında faydalar qeyri-bərabər paylanır. Məqalə, həm ixrac, həm də daxili bazara sərmayələrin daxil olduğu balanslı inkişaf yanaşmasının vacibliyini vurğulayır və işini itirən işçiləri dəstəkləmək üçün sosial təhlükəsizlik şəbəkələrinin tətbiq olunmasının zəruriliyini qeyd edir.*

***Açar sözlər:*** *ixrac, artım, Türkiyə, investisiya*

Türkiyə də daxil olmaqla bir çox inkişaf etməkdə olan iqtisadiyyatların iqtisadi inkişafında əsas rol oynamışdır. İxrac artımını sənaye genişlənməsinin və iqtisadi inkişafın təməl prinsipi kimi qəbul edən bu strategiya, 1980-ci illərin əvvəllərindən etibarən Türkiyənin iqtisadi trayektoriyasına əhəmiyyətli təsir göstərmişdir. İYS strategiyaları xüsusilə sürətlə sənayeləşən Şərqi Asiya iqtisadiyyatlarında ilkin uğur nümayiş etdirdiyi halda, Türkiyə nümunəsi bu yanaşmanın həm imkanlarını, həm də məhdudiyyətlərini ortaya qoyur. Bu məqalədə Türkiyənin İYS strategiyalarını qəbul etməsinin incəliklərinə toxunaraq, onların iqtisadi böyümə üzərində uzunmüddətli təsirlərini araşdırır və əsas makroiqtisadi məlumatlar və vizual təmsillərlə dəstəklənmiş empirik təhlil təqdim edirik. İxracyönümlü sənayeləşmə, daxili istehsalı qlobal bazarla inteqrasiya etməyi hədəfləyən model olaraq, idxalı əvəz edən sənayeləşmə (İƏS) kimi digər modellərdən fərqlənir. Daxili sənayeləri beynəlxalq rəqabətdən qorumaq əvəzinə, İYS bu sənayeləri qlobal miqyasda rəqabət aparmağa təşviq edir və ixracı əsas böyümə mühərriki kimi istifadə edir. Türkiyə

üçün bu dəyişiklik 1980-ci illərin əvvəllərində baş verdi. O zaman ölkə yüksək inflyasiya, aşağı böyümə və sürətlə artan xarici borc böhranı kimi ciddi iqtisadi tarazlıqsızlıqlar ilə mübarizə aparırdı. Hökumət, Turgut Özalın rəhbərliyi altında, ticarət liberallaşmasına yönəlmiş radikal dəyişikliklər həyata keçirmiş, tarifləri azaltmış və Türk lirəsini devalvasiya edərək ixracın daha rəqabətli olmasını təmin etdi və iqtisadiyyatı daha çox bazara yönümlü və ixrac mərkəzli etmək məqsədilə bir sıra struktur islahatları tətbiq etmişdir. Material və Metodlar Bu tədqiqatda Türkiyənin ixracyönümlü sənayeləşmə strategiyalarının iqtisadi inkişafa təsirini qiymətləndirmək üçün keyfiyyət yanaşmasından istifadə edir. Məqalədəki nəticələr, Dünya Bankı, Türkiyə Statistika Qurumu (TurkStat) və Türkiyə Respublikasının Mərkəzi Bankı kimi müxtəlif mənbələrdən əldə edilən makroiqtisadi məlumatların təhlilinə əsaslanır. İxracyönümlü sənayeləşmə (İYS) ilə iqtisadi inkişaf arasındakı əlaqəni anlamaq üçün ÜDM artımı, ixrac səviyyələri, ticarət balansları və sənaye sektorunun fəaliyyət göstəriciləri kimi əsas indikatorlar nəzərdən keçirilir. Analiz, 1980-ci illərdən bəri Türkiyənin iqtisadi siyasətlərinin tarixi icmalı ilə dəstəklənir və bu çərçivədə ölkənin ixrac mərkəzli böyümə modelini asanlaşdıran struktur islahatlarına xüsusi diqqət yetirilir. Əldə olunan nəticələr Bu analiz nəticələri göstərir ki, Türkiyənin ixracyönümlü sənayeləşmə strategiyası iqtisadi böyüməni əhəmiyyətli dərəcədə sürətləndirmişdir. Xüsusən 1980-ci ildən sonrakı dövrdə ölkə sürətli ÜDM artımını təcrübə etmişdir [Boratav, K. 2002, s.125]. Ölkənin idxal əvəzləyici sənayeləşmədən (İES) ixracyönümlü sənayeləşməyə (İYS) keçməsi iqtisadi inkişafında kritik bir dönüş nöqtəsi olmuşdur ki, bu da müxtəlif makroiqtisadi göstəricilərlə təsdiqlənir. İxrac performansı ilk 1980-ci illərdə İYS qəbul edildikdən bəri Türkiyənin ixracı əhəmiyyətli dərəcədə artmışdır. 1980-ci ildə ümumi ixrac cəmi yalnız 2,9 milyard dollar olub ki, bu da ÜDM-nin 5%-dən azını təşkil edirdi. 2020-ci ilə qədər bu rəqəm 169 milyard dollardan çox olmuşdur və ÜDM-nin təxminən 25%-ni əhatə etməkdədir. Bu spektakulyar artım, Türkiyənin qlobal bazarlara inteqrasiya etmək və ixrac qabiliyyətini artırmaq üçün apardığı səylərin müvəffəqiyyətini əks etdirir [Acar, M. 2021, s.33]. İxracın tərkibi də zamanla dəyişmişdir. Türkiyənin sənayeləşməsinin ilkin mərhələlərində ixrac əsasən pambıq və tütün kimi aşağı dəyərli kənd təsərrüfatı məhsulları idi. Lakin, ölkənin sənaye bazası genişləndikcə, ixracın tərkibi tekstil, maşınqayırma və avtomobillər kimi daha yüksək dəyərli istehsal məhsulları ilə müxtəlifləşmişdir [Kara, G., və Bayram, K. 2018, s.56]. 2000-ci illərə gəldikdə, Türkiyə dayanıqlı istehlak mallarının, o cümlədən elektronika və avtomobil hissələrinin əhəmiyyətli ixracatçısına çevrildi ki, bu da İYS-nin ölkənin iqtisadi əsasını kənd təsərrüfatından sənayəyə müvəffəqiyyətlə keçirdiyini göstərir. ÜDM Artımı İxrac mərkəzli böyüməyə keçid Türkiyənin ÜDM artım tempinə də əhəmiyyətli təsir göstərmişdir. 1980-ci ildən 2020-ci ilə qədər Türkiyə iqtisadiyyatı orta illik 4,5% artım nisbətinə malik olmuşdur ki, bu da 1970-ci illərin daha yavaş artım sürətləri ilə müqayisədə olduqca yüksəkdir. Ticarətin liberallaşması, özəlləşdirmələr və maliyyə sektorunun liberallaşması kimi struktur islahatları yerli sərmayəni stimullaşdırmış və xarici kapitalı cəlb etmişdir ki, bu da iqtisadi böyüməni daha da artırmışdır. Türkiyənin iqtisadi artımı tamamilə xətti cizgidə hərəkət etməsə də, maliyyə böhranları və dalğalanmalara məruz qalsa da, ümumi tendensiya İYS-nin uzunmüddətli davamlı iqtisadi böyüməyə mühüm töhfə verdiyini göstərir. Struktur Dəyişiklikləri Türkiyənin ixracyönümlü sənayeləşmə (İYS) strategiyası iqtisadiyyatda əhəmiyyətli struktural dəyişikliklərə səbəb olmuşdur. Məhz İYS-nin əsas məqsədlərindən biri də, istehsalın aşağı məhsuldarlığa malik

sektorlardan, məsələn, kənd təsərrüfatından daha yüksək məhsuldarlığa malik sənaye sektorlara keçididir [Yılmaz, B., və Yıldırım, E. 2021, s.228]. Türkiyənin halında, kənd təsərrüfatının ümumi ÜDM-dən olan payı 1980-ci ildən bəri əhəmiyyətli dərəcədə azalmış, sənaye və xidmətlərdən olan pay isə artmışdır. Məsələn , 1980-ci ildə kənd təsərrüfatı ÜDM-nin təxminən 25%-ni təşkil edirdisə, 2020-ci ildə bu rəqəm 5%-dən də aşağı düşmüşdür. Eyni zamanda, sənaye sektorunun ÜDM-yə töhfəsi artmış, istehsal sektoru iqtisadiyyatda getdikcə mərkəzi bir rol oynamışdır. İYS strategiyası tekstil, avtomobil, elektronika və maşınqayırma kimi sahələrin inkişafını asanlaşdırmışdır ki, bunlar da indi vacib ixrac sektoru olmuşdur. Türkiyənin qlobal dəyər zəncirlərinə, xüsusən də avtomobil və elektronika sənayesindəki inteqrasiyası, ölkənin texnoloji transferlərdən və artan məhsuldarlıqdan faydalanmasına imkan tanımışdır [Çetin, M. 2021, s.286]. İstehsal strukturundakı bu dəyişiklik İYS strategiyasının mühüm bir nəticəsidir və Türkiyənin, əsasən, kənd təsərrüfatı iqtisadiyyatından daha müxtəlif və sənayeləşmiş bir iqtisadiyyata keçməsinə şərait yaratmışdır. Xarici birbaşa investisiyalar İxracyönümlü Sənayeləşmənin (İS) əsas üstünlüklərindən biri Xarici Birbaşa İnvestisiyaları (XBİ) stimullaşdırma bacarığıdır. Çünki beynəlxalq şirkətlər ixracyönümlü iqtisadiyyatlarda fəaliyyət göstərmək istəyirlər. Türkiyənin İS-ni qəbul etməsi, xarici mülkiyyətlə bağlı məhdudiyyətlərin aradan qaldırılması, vergi stimullarının təqdim edilməsi və infrastrukturu yaxşılaşdırmaq kimi XBİ-ni cəlb etməyə yönəlmiş siyasətlərlə müşayiət olunmuşdur. Nəticədə, 1980-ci ildən bəri Türkiyəyə olan XBİ axınları əhəmiyyətli dərəcədə artmışdır [Harrison, A. 2019, s.50]. 1980-ci ildə Türkiyə yalnız 18 milyon dollar XBİ cəlb etmişdirsə, artıq 2007-ci ildə bu rəqəm 22 milyard dollar zirvəsinə qədər yüksəlmişdir. O zamandan bəri XBİ səviyyələri, əsasən daxili və qlobal iqtisadi şərtlər səbəbindən, dalğalanmalar yaşasa da, Türkiyə istehsal, pərakəndə satış və maliyyə xidmətləri kimi sahələrdə xarici sərmayələr üçün əsas məkan olaraq qalmaqdadır [Özel, I. 2020, s.323]. XBİ axını Türkiyənin sənaye bazasının modernləşməsinə, məhsuldarlığın artmasına və texnologiya və biliklərin transferinin asanlaşmasına kömək etmişdir. Müzakirə bu araşdırmanın nəticələri göstərir ki, Türkiyənin ixracyönümlü sənayeləşmə (İS) strategiyasının son dörd onillikdə iqtisadi artım və struktur transformasiyasının əsas drayveri olduğunu göstərir. İxrac artımını və qlobal inteqrasiyanı prioritetləşdirərək, Türkiyə öz sənaye bazasını genişləndirməyi, ixrac profilini müxtəlifləşdirməyi və uzunmüddətli iqtisadi artımı davam etdirməyi bacarmışdır. Lakin İS strategiyası həm də müəyyən çətinliklər və məhdudiyyətlər yaratmışdır. Həqiqətən də, İYS Türkiyənin iqtisadi artımına kömək etsə də, ölkəni qlobal iqtisadiyyatın zəifliklərinə məruz qoymuşdur. İxracdan asılılıq, Türkiyəni qlobal tələbdəki dəyişikliklər, valyuta məzənnələrinin dalğalanması və əmtəə qiymətlərindəki dəyişikliklər kimi xarici şoklara yüksək həssas edir. Məsələn, 2008-ci ilin qlobal maliyyə böhranı və ardınca baş verən Avropa iqtisadiyyatlarının yavaşlaması, Türkiyənin ixrac performansına əhəmiyyətli təsir etmiş, milli valyutanın ucuzlaşması nəticəsində yaranan inflyasiya müşaiyətində ÜDM ressesiyasına səbəb olmuşdur. Analizimizi daha da dərinləşdirsək, Türkiyənin ixrac səbəti, tekstil və avtomobillər kimi orta texnologiyalı mallara cəmləşmişdir ki, bu da digər inkişaf etməkdə olan bazarlarla güclü rəqabətə məruz qalır. Dəyər zəncirində yüksəlmək üçün cəhdlər olsa da, Türkiyənin yüksək texnologiyalı ixrac məhsullarına keçidi bəzi digər inkişaf etməkdə olan iqtisadiyyatlardan daha yavaş olmuşdur. Bu, uzunmüddətli ixrac artımı və məhsuldarlıq artımı üçün potensialı məhdudlaşdırır. Başqa bir çətinlik isə, 1990-

cı illərdən bəri Türkiyənin iqtisadiyyatında davam edən cari hesab defisitləridir. İxrac artımı ticarət balansını yaxşılaşdırmağa kömək etsə də, enerji və kapital mallarının yüksək idxal səviyyələri, böyük cari hesab defisitlərinə səbəb olmuşdur. Bu defisitlər, Türkiyənin xarici maliyyələşdirməyə asılılığını artıraraq, kapital axını reversiyalarına və maliyyə qeyri-sabitliyinə qarşı həssaslığını artırmışdır. Bütün problemlərə baxmayaraq Türkiyədə həyata keçirilən İxracyönümlü Sənayeləşmə Strategiyalarının nəticələrinin müsbət olduğunu söyləyə bilərik. Ölkə 40 il ərzində teksil və kənd təsərrüfatına əsslanan iqtisadiyyatdan, qlobal dəyər zəncirlərinə sahib olan sənayeləşmiş ölkəyə çevrilmişdir. Hətta məişət elektronikası kimi orta texnologiyalı sahələrdə Avropanın liderinə çevrilmişdir. Ölkəmiz başda olmaqla məhz digər inkişaf etməkdə olan ölkələr üçün Türkiyənin təcrübəsi qarşılarındakı inkişaf planlarını həyata keçirmək üçün mühim əsas ola bilər.

## ƏDƏBİYYAT

1. Acar, M. (2021). Export-led growth: Evidence from Turkey. Journal of Economic Policy Research, 15(1), p.29-44
2. Boratav, K. (2002). The Turkish economy in the 1980s: A structural transformation. Middle Eastern Studies, 38(1), 117-135
3. Çetin, M. (2021). Globalization and economic development in Turkey: An analysis of export-oriented growth. Turkish Economic Review, 8(3), p.275-295
4. Erdoğan, A. (2017). Economic reform in Turkey: Challenges and opportunities. International Journal of Economic Studies, 4(2), p.107-120
5. Harrison, A. (2019). Turkey's economic transformation: Lessons from the past. Economic Policy Journal, 10(1), p.43-58
6. Kara, G., & Bayram, K. (2018). The impact of export-oriented industrialization on economic growth in Turkey. Journal of Business and Economics, 12(2), p.55-70
7. Özel, I. (2020). Regional disparities and export-led growth in Turkey: A critical assessment. Southeast European and Black Sea Studies, 20(3), p.311-329
8. Sözeri, S. (2018). The role of foreign direct investment in Turkey's economic growth. Journal of Economic Development, 43(4), p.73-90
9. TurkStat. (2023). Turkey Statistical Institute: National Economic Indicators
10. Yılmaz, B., & Yıldırım, E. (2021). The dynamics of export-led growth in Turkey: An empirical analysis. International Journal of Emerging Markets, 16(2), p.217-233

**SUMMARY**

**ECONOMIC LIBERALIZATION IN TURKEY AFTER 1980 AND ITS ECONOMIC EFFECTS**

This paper examines the effects of export-oriented industrialization strategies on economic development in Republic of Turkey through integrating theoretical perspectives and empirical evidence. Grounded in classical and neoclassical trade theories, such strategies leverage comparative advantage and specialization to drive productivity, technological innovation, and economic expansion. By exposing firms to international competition, export-oriented growth encourages efficiency gains, technological advancements, and greater access to global markets. The study highlights the experiences of countries like Turkey, which implemented policies fostering export-driven industrialization, leading to rapid economic growth and improved living standards. These case studies illustrate how governments' support for export-oriented industries through infrastructure investment, foreign direct investment (FDI) incentives, and technological innovation can enhance competitiveness and long-term economic performance. However, the paper also acknowledges the challenges associated with such growth strategies. Vulnerability to external shocks, including global demand fluctuations and commodity price volatility, can hinder growth, as seen in Latin American countries like Argentina and Brazil. Additionally, export-driven growth can exacerbate income inequality, with benefits unevenly distributed among workers in different sectors. The paper emphasizes the importance of a balanced development approach that includes both export and domestic market investments, along with the implementation of social safety nets to support displaced workers.

# SƏNAYE MÜƏSSİSƏLƏRİNİN QLOBAL BAZARDA RƏQABƏT ÜSTÜNLÜYÜ QAZANMASI ÜÇÜN TƏLƏB OLUNAN ƏSAS İNFRASTRUKTUR TƏCHİZATLARI

**Rahibə ƏBDÜLHƏSƏNOVA**
*abdulhasanovarahiba@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*
*Orcid İD: 0009-0003-8702-7766*

***Xülasə***

*Bu məqalədə sənaye müəssisələrinin qlobal bazarda rəqabət üstünlüyü qazanması üçün tələb olunan əsas infrastruktur təchizatları Azərbaycan nümunəsində təhlil edilir. Rəqabətqabiliyyətli sənaye yaratmaq üçün inkişaf etmiş nəqliyyat, logistika, enerji və texnoloji infrastrukturların rolu və əhəmiyyəti vurğulanır. Azərbaycanın iqtisadi potensialının artırılması məqsədilə hökumət tərəfindən həyata keçirilən əsas layihələr və tədbirlər müzakirə edilir. Məqalə, həmçinin bu infrastruktur təchizatlarının qlobal bazarda Azərbaycanın mövqeyinin gücləndirilməsi üçün əhəmiyyətini nəzərdən keçirir.*

***Açar sözlər:*** *rəqabət üstünlüyü, sənaye müəssisələri, Azərbaycan, infrastruktur təchizatı, qlobal bazar*

## Giriş

Qloballaşma prosesi ölkələr arasında iqtisadi əlaqələri daha da sıxlaşdırmaqda davam edir. Bu kontekstdə sənaye müəssisələrinin rəqabət qabiliyyətini artırmaq və qlobal bazarda dayanıqlı mövqe qazanmaq hər bir ölkənin qarşısında duran mühüm məsələlərdən biridir. Müasir iqtisadiyyatın əsas tələblərindən biri rəqabətqabiliyyətli sənaye sektorunun yaradılmasıdır və bu, inkişaf etmiş infrastruktur təchizatının mövcudluğundan asılıdır. Azərbaycanın sənaye potensialını reallaşdırması və beynəlxalq bazarlarda öz mövqeyini gücləndirməsi üçün əsas infrastruktur təchizatlarının formalaşdırılması və optimallaşdırılması vacibdir. Bu məqalədə Azərbaycanın sənaye müəssisələrinin qlobal bazarda rəqabət üstünlüyü qazanması üçün tələb olunan əsas infrastruktur təchizatları təhlil edilir və onların yerli iqtisadiyyata təsiri müzakirə olunur.

## I. Nəqliyyat və logistika infrastrukturu

Qlobal bazarda rəqabət üstünlüyü əldə etmək üçün sənaye müəssisələrinin istehsal etdiyi məhsulların sürətli, səmərəli və dayanıqlı şəkildə dünya bazarlarına çatdırılması mühüm əhəmiyyət kəsb edir. Bu, nəqliyyat və logistika infrastrukturunun səviyyəsindən birbaşa asılıdır. Yüksək keyfiyyətli nəqliyyat və logistika sisteminə sahib olan ölkələr və şirkətlər məhsullarını qlobal bazara daha effektiv şəkildə çıxara bilirlər. Malların vaxtında təhvil verilməsi, xammalın operativ şəkildə istehsal sahələrinə çatdırılması və təchizat zəncirlərinin səmərəli idarə edilməsi rəqabətqabiliyyətliliyin artırılmasında əsas faktorlardan biridir. Azərbaycanın coğrafi mövqeyi, mövcud nəqliyyat infrastrukturu və həyata keçirilən strateji layihələr bu kontekstdə xüsusi əhəmiyyətə malikdir.

Azərbaycanın Şərq və Qərb arasında strateji yerləşməsi onun nəqliyyat və logistika imkanlarının inkişafı üçün böyük potensial yaradır. Avropa və Asiya arasında körpü rolunu oynayan Azərbaycan, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişdiyi nöqtədə yerləşir. Bu coğrafi üstünlük Azərbaycanı beynəlxalq ticarət və logistika üçün əhəmiyyətli mərkəzə çevirir. Belə bir strateji mövqe yerli sənaye müəssisələrinin xammal tədarükü və məhsul ixracını daha sürətli və səmərəli şəkildə həyata keçirməsinə imkan yaradır.

2017-ci ildə istismara verilən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti Azərbaycanın logistika infrastrukturu üçün mühüm əhəmiyyət kəsb edir. Bu dəmir yolu vasitəsilə Azərbaycan, Türkiyə və Gürcüstan arasında birbaşa əlaqə qurulmuşdur. Bu xətt, Çin və Mərkəzi Asiya ölkələrindən Avropa bazarlarına malların daha qısa müddətdə çatdırılmasını təmin edir. BTQ, həm də Azərbaycanın tranzit ölkə kimi rolunu gücləndirir, ölkəyə xarici investisiyaların cəlb edilməsinə və iqtisadi inkişafın sürətlənməsinə kömək edir.

Bu layihənin sənaye müəssisələri üçün faydası, xüsusilə yük daşımalarında maliyyə və vaxt xərclərinin azaldılmasıdır. Müəssisələr məhsullarını daha sürətli şəkildə Avropa və Yaxın Şərq bazarlarına çatdıra bilir, bu da onların qlobal bazarlarda rəqabət qabiliyyətini artırır.

Azərbaycanın nəqliyyat və logistika sahəsində başqa bir mühüm elementi Bakı Beynəlxalq Dəniz Ticarət Limanıdır. Bu liman Xəzər dənizində yerləşir və onun vasitəsilə Azərbaycan həm qonşu ölkələrlə, həm də digər regionlarla ticarət əlaqələrini gücləndirir. Bakı limanı, əsasən, Mərkəzi Asiya ölkələrindən gələn yüklərin Avropa bazarlarına çıxarılmasında əsas rol oynayır. Bu liman vasitəsilə həyata keçirilən yük daşımaları həm dəniz, həm də dəmir yolu xətləri ilə birləşdirilərək inteqrasiya olunmuş logistika zənciri formalaşdırılır.

Bu limanın modernləşdirilməsi və logistika imkanlarının genişləndirilməsi, sənaye müəssisələrinin mallarını dünya bazarlarına daha sürətli və ucuz şəkildə çatdırmasına imkan verir. Bu isə sənaye sektorunun rəqabət üstünlüyünü gücləndirir.

Şimal-Cənub Nəqliyyat Dəhlizi Azərbaycanın tranzit imkanlarını daha da genişləndirən başqa bir strateji layihədir. Bu dəhliz vasitəsilə Rusiya, Azərbaycan və İran arasında nəqliyyat əlaqələri qurulur. Hindistan və digər Cənubi Asiya ölkələrindən gələn malların Rusiya və Avropa bazarlarına çıxarılması üçün daha qısa və ucuz marşrut yaradılmışdır. Azərbaycan bu dəhlizdə mühüm tranzit ölkə rolunu oynayır, bu isə yerli sənaye müəssisələrinin beynəlxalq ticarətdə iştirakını artırır.

Nəqliyyat infrastrukturunun inkişafı ilə yanaşı, logistika və anbar xidmətlərinin də yüksək səviyyədə olması rəqabətqabiliyyətlilik baxımından vacibdir. Müasir sənaye müəssisələrinin tələb etdiyi səmərəli təchizat zənciri idarəetməsi, məhsulların vaxtında təhvil verilməsinə və çatdırılma müddətinin minimuma endirilməsinə yönəlib. Azərbaycanda bu sahədə ciddi addımlar atılmaqdadır. Müasir anbar sistemlərinin qurulması və logistika xidmətlərinin genişləndirilməsi sənaye müəssisələrinin xammal təchizatı və məhsul paylanmasını sürətləndirməyə imkan verir.

Müasir nəqliyyat və logistika infrastrukturu yalnız fiziki əlaqələrin qurulması ilə kifayətlənmir. Rəqəmsal texnologiyaların inkişafı ilə bərabər, avtomatlaşdırılmış logistika idarəetmə sistemləri də rəqabət üstünlüyünün artırılmasında mühüm rol oynayır.

Azərbaycanın nəqliyyat sektorunda rəqəmsallaşma prosesləri sürətlənmişdir. Gömrük əməliyyatlarının sadələşdirilməsi, rəqəmsal nəqliyyat idarəetmə sistemlərinin tətbiqi və yüklərin izlənməsi kimi yeniliklər logistikanın səmərəliliyini artırır.

Bu texnologiyalar, xüsusilə sənaye müəssisələrinin beynəlxalq bazarlara çıxışında logistika problemlərini aradan qaldırmağa kömək edir. Daha dəqiq planlama, yük daşımalarının optimallaşdırılması və əməliyyatların avtomatlaşdırılması istehsal proseslərinin sürətləndirilməsinə və xərclərin azaldılmasına imkan yaradır.

Azərbaycan hökuməti logistika və nəqliyyat sahəsində investisiyaları təşviq etmək üçün müxtəlif güzəştlər tətbiq edir. Xüsusilə, sənaye müəssisələrinin nəqliyyat xərclərini azaltmaq məqsədilə vergilər və gömrük rüsumlarında tətbiq olunan güzəştlər bu sahənin inkişafını stimullaşdırır. Hökumət tərəfindən dəstəklənən müxtəlif logistika parkları və sənaye zonaları yaradılaraq, müəssisələrin logistika xidmətlərindən daha effektiv istifadə etməsi təmin olunur.

Nəqliyyat və logistika infrastrukturu sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması üçün əsas təməl elementlərdən biridir. Azərbaycan hökuməti bu sahənin inkişafına mühüm diqqət yetirərək, beynəlxalq tranzit marşrutları, dəmir yolu və dəniz limanları kimi iri infrastruktur layihələrini həyata keçirir. Bu, sənaye müəssisələrinin dünya bazarına çıxışını sürətləndirməklə yanaşı, onların xərclərini azaldır və rəqabət üstünlüyünü artırır. Logistika xidmətlərinin rəqəmsallaşması və avtomatlaşdırılması isə Azərbaycan sənayesinin daha da müasirləşməsinə və qlobal bazarlarda güclü mövqe tutmasına imkan yaradır.

**II. Enerji infrastrukturu**

Sənaye müəssisələrinin davamlı və rəqabətqabiliyyətli fəaliyyət göstərməsi üçün enerji infrastrukturunun mövcudluğu və inkişafı müstəsna əhəmiyyət kəsb edir. Bu infrastruktur müəssisələrin dayanıqlı enerji təchizatı ilə təmin edilməsinə, əməliyyat xərclərinin optimallaşdırılmasına və istehsal proseslərinin effektivliyinə birbaşa təsir göstərir. Azərbaycanın zəngin təbii resursları, xüsusilə neft və təbii qaz sahəsindəki potensialı, ölkənin enerji təhlükəsizliyini təmin edən mühüm faktorlardandır. Eyni zamanda, bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi də Azərbaycanın sənaye sektorunun dayanıqlığını artıran əsas sahələrdəndir.

Azərbaycan zəngin enerji resurslarına malik olan bir ölkə kimi dünya enerji bazarında mühüm yer tutur. Ölkənin neft və qaz yataqları sənaye müəssisələrinin enerji ilə təminatını asanlaşdırır və bu sahədə güclü infrastrukturun qurulmasına imkan yaradır. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" çərçivəsində Azərbaycanın neft və qaz ehtiyatlarının beynəlxalq şirkətlər tərəfindən işlənməsi ölkə iqtisadiyyatına böyük təsir göstərmişdir. Bu, enerji sektorunda müasir texnologiyaların tətbiqi və dünya bazarına inteqrasiya üçün möhkəm təməl yaratmışdır.

Azərbaycanın əsas enerji infrastruktur layihələrindən biri Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməridir. Bu layihə vasitəsilə Azərbaycanın neft ehtiyatları Qərb bazarlarına ixrac edilir. BTC, Azərbaycan üçün böyük strateji və iqtisadi əhəmiyyətə malikdir. Sənaye müəssisələri üçün enerji xərclərinin optimallaşdırılması və stabil enerji təchizatının təmin edilməsi məqsədilə neft ixracı ölkənin iqtisadi mövqeyini gücləndirir və genişmiqyaslı infrastruktur inkişafını stimullaşdırır.

Azərbaycanın təbii qaz ehtiyatlarının Avropa bazarına çıxarılmasını təmin edən Cənub Qaz Dəhlizi də mühüm infrastruktur layihəsidir. Bu dəhliz həm Azərbaycanın enerji təhlükəsizliyini təmin edir, həm də Avropa ölkələri üçün alternativ enerji təchizat mənbəyi rolunu oynayır. Cənub Qaz Dəhlizi ilə ötürülən qaz həcmləri sənaye sektorunda enerji tələbatının ödənilməsi üçün geniş imkanlar yaradır. Bu isə sənaye müəssisələrinin istehsal proseslərində enerji təchizatına etibarını artırır və onların fəaliyyətini sabitləşdirir.

Sənaye müəssisələrinin dayanıqlı fəaliyyəti üçün fasiləsiz enerji təchizatı kritik əhəmiyyət daşıyır. Enerji təchizatında hər hansı bir fasilə, istehsal proseslərinə və müəssisələrin rəqabətqabiliyyətliliyinə mənfi təsir göstərə bilər. Azərbaycanın neft və qaz ehtiyatlarına malik olması sənaye sektorunun enerji təchizatına olan ehtiyacını təmin etməkdə böyük rol oynayır. Məhz bu səbəbdən, Azərbaycan sənaye müəssisələri regionda enerji ilə bağlı böyük üstünlüklərə malikdir.

Enerji təchizatının etibarlılığı və aşağı qiymətli resurslarla təmin olunması, yerli müəssisələrin beynəlxalq bazarda rəqabət aparma qabiliyyətini gücləndirir. Ölkədə qurulan müasir elektrik stansiyaları, təbii qazın istehsalatda istifadəsi və elektrik enerjisinin istehsalı üçün infrastruktur layihələri sənaye müəssisələrinə stabil enerji təchizatını təmin edir.

Neft və qaz resurslarına malik olan Azərbaycan üçün bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi uzunmüddətli enerji strategiyasının əsas prioritetlərindən biridir. Qlobal miqyasda iqlim dəyişikliyi və ekoloji standartların sərtləşdirilməsi fonunda, bərpa olunan enerji mənbələrinin istifadəsi zərurətə çevrilmişdir. Azərbaycan hökuməti bərpa olunan enerji sektorunu inkişaf etdirmək və enerjidən səmərəli istifadəyə yönəlmiş müxtəlif layihələr həyata keçirir.

Azərbaycanın Xəzər dənizi sahillərində külək enerjisi istehsalı üçün böyük potensial mövcuddur. Külək enerjisindən istifadə həm ekoloji cəhətdən təmiz enerji təminatı yaradır, həm də sənaye müəssisələrinin enerji mənbələrinin diversifikasiyasına kömək edir. Azərbaycan hökuməti külək enerjisi sahəsində müxtəlif pilot layihələr həyata keçirməkdədir və bu sektorun inkişafı sənaye müəssisələrinin karbon izi azaldılmış enerji mənbələrinə keçidini dəstəkləyir.

Azərbaycan günəş enerjisi potensialına da malikdir. Xüsusilə, ölkənin cənub bölgələrində yüksək günəş radiasiyası enerji istehsalı üçün əlverişli şərait yaradır. Günəş enerjisindən istifadənin genişləndirilməsi sənaye müəssisələrinin enerjiyə olan tələbatını təbii və ekoloji cəhətdən təmiz mənbələrdən qarşılamağa imkan verir. Bu həm də istehsal xərclərinin azaldılmasına kömək edir.

Sənaye müəssisələrinin qlobal bazarda rəqabət üstünlüyü qazanması yalnız enerji təchizatının mövcudluğuna deyil, həm də bu enerjidən səmərəli istifadə edilməsinə bağlıdır. Enerji səmərəliliyi müasir sənaye müəssisələri üçün əsas göstəricilərdən biridir. Azərbaycan hökuməti enerji səmərəliliyinin artırılması üçün müxtəlif təşəbbüslər həyata keçirir. Bu təşəbbüslər çərçivəsində müəssisələr enerjidən qənaətli şəkildə istifadə etmək və texnoloji yeniliklərdən faydalanmaq üçün təşviq edilir.

Enerjidən daha effektiv istifadənin təmin edilməsi üçün texnoloji avtomatlaşdırma və ağıllı enerji idarəetmə sistemləri tətbiq olunur. Müasir texnologiyalar sayəsində sənaye müəssisələri istehsal proseslərində enerji israfını minimuma endirə və enerji xərclərini

optimallaşdıra bilirlər. Bu texnologiyalar rəqabət üstünlüyü qazanmaq üçün xərclərin azaldılmasına və məhsuldarlığın artırılmasına xidmət edir.

Azərbaycanın enerji sektorunda əldə etdiyi uğurların əsas səbəblərindən biri dövlət tərəfindən həyata keçirilən genişmiqyaslı investisiya layihələridir. Enerji infrastrukturunun modernləşdirilməsi və genişləndirilməsi sənaye müəssisələrinin enerji təchizatına olan tələbatını daha yaxşı qarşılamağa imkan verir. Azərbaycan hökuməti həm yerli, həm də xarici investisiyaların cəlb edilməsi ilə enerji sektorunda böyük layihələr həyata keçirir. Bu isə sənaye müəssisələrinin rəqabət üstünlüyünü artıran əsas amillərdəndir.

Azərbaycan dövləti sənaye müəssisələrinə enerji təchizatı sahəsində müxtəlif dəstək mexanizmləri tətbiq edir. Xüsusilə, bərpa olunan enerji sektorunda fəaliyyət göstərən müəssisələrə dövlət tərəfindən vergi güzəştləri, subsidiyalar və digər maliyyə dəstəkləri təqdim edilir. Bu dəstək tədbirləri sənaye sektorunda enerji təchizatının sabitliyini təmin etməklə yanaşı, müəssisələrin qlobal bazarda daha rəqabətqabiliyyətli olmasına xidmət edir.

Azərbaycanın enerji infrastrukturu yerli sənaye müəssisələrinin qlobal bazarda rəqabət üstünlüyü əldə etməsində mühüm rol oynayır. Ölkənin zəngin neft və qaz ehtiyatlarına malik olması sənaye müəssisələrini stabil və ucuz enerji ilə təmin edir. Bununla yanaşı, bərpa olunan enerji mənbələrinin inkişafı və enerji səmərəliliyinin artırılması Azərbaycan sənayesinin ekoloji tələblərə cavab verməsinə və rəqabət gücünü artırmasına şərait yaradır. Enerji infrastrukturuna yatırılan investisiyalar və dövlətin bu sahədə tətbiq etdiyi dəstək mexanizmləri Azərbaycan sənaye müəssisələrinin beynəlxalq bazarda daha da möhkəmlənməsinə imkan yaradır.

## III. Texnoloji infrastruktur və innovasiya

Sənaye müəssisələrinin qlobal bazarda rəqabət üstünlüyü qazanmasında texnoloji infrastrukturun və innovasiyaların inkişafı əvəzolunmaz rol oynayır. Müasir dövrdə texnologiya və innovasiya sürətlə dəyişən sənaye proseslərinin əsas hərəkətverici qüvvəsinə çevrilib. Bu baxımdan, texnoloji infrastrukturu inkişaf etdirmək və yeni texnologiyaların tətbiqini genişləndirmək rəqabət qabiliyyətliliyini artıran əsas faktorlardan biridir. Azərbaycanın sənaye müəssisələri üçün texnologiya və innovasiya sahəsində irəliləyişlər ölkənin iqtisadi inkişafına və qlobal bazarda mövqeyinin güclənməsinə töhfə verir.

Süni intellekt (AI) və avtomatlaşdırma sistemləri Azərbaycan sənayesində getdikcə daha geniş şəkildə tətbiq olunmağa başlanıb. Bu texnologiyalar müəssisələrə istehsal proseslərini daha sürətli və dəqiq idarə etməyə, həmçinin xərcləri azaltmağa imkan verir. AI-nın təchizat zənciri idarəçiliyi, keyfiyyət nəzarəti və müştəri ehtiyaclarının proqnozlaşdırılmasında istifadəsi rəqabətqabiliyyətli olmağı təmin edir.

İnnovasiyaların inkişafı və texnoloji yeniliklərin sənaye müəssisələrində tətbiqi üçün güclü startap ekosistemi zəruridir. Azərbaycanda innovasiya sahəsində həyata keçirilən islahatlar və startapların dəstəklənməsi sənaye müəssisələrinin yeni texnologiyalardan faydalanmasına və rəqabət qabiliyyətlərini artırmasına şərait yaradır.

Azərbaycanda innovativ sahibkarlığın inkişafı üçün xüsusi texnoparklar və inkubasiya mərkəzləri yaradılıb. Məsələn, Yüksək Texnologiyalar Parkı (YTP) ölkədə texnoloji startapların və innovativ şirkətlərin formalaşmasına və inkişafına dəstək verir. Bu

texnoparklar sənaye müəssisələrinə texnoloji həllər təklif edir və yeni innovativ məhsulların yaranmasına şərait yaradır. YTP kimi platformalar texnologiya transferini və startapların sənaye müəssisələri ilə əməkdaşlığını dəstəkləyir.

Azərbaycan hökuməti innovasiya sahəsinin inkişafı üçün müxtəlif təşəbbüslər həyata keçirir. "Startap Azərbaycan" kimi təşəbbüslər vasitəsilə yeni texnoloji layihələrə maliyyə dəstəyi verilir, innovasiya mərkəzləri və inkubatorlar yaradılır. Bu cür təşəbbüslər yerli texnoloji startapların inkişafını stimullaşdırır və onların sənaye müəssisələrinə inteqrasiya olunmasına şərait yaradır.

Texnoloji infrastrukturun inkişafında rəqəmsal iqtisadiyyatın genişləndirilməsi mühüm rol oynayır. Rəqəmsal iqtisadiyyat, sənaye müəssisələrinin daha geniş bazarlara çıxışı və rəqabət qabiliyyətlərinin artırılması üçün zəruri platformalar yaradır. Azərbaycanda rəqəmsal texnologiyaların tətbiqi və elektron ticarətin inkişafı, sənaye müəssisələrinin həm daxili, həm də xarici bazarlara çıxış imkanlarını genişləndirir.

Elektron ticarət platformalarının inkişafı sənaye müəssisələrinin məhsullarını qlobal bazarlara çatdırmasına imkan verir. Azərbaycan bu sahədə son illərdə ciddi irəliləyişlər əldə etmişdir. E-hökumət xidmətlərinin rəqəmsallaşdırılması və onlayn ticarət platformalarının genişlənməsi yerli sənaye müəssisələrinin beynəlxalq bazarlara inteqrasiyasını asanlaşdırır. Bununla yanaşı, elektron ticarət vasitəsilə müəssisələr logistika və paylama proseslərini daha səmərəli şəkildə idarə edə bilirlər.

Texnoloji infrastrukturun və innovasiyaların inkişafı üçün ixtisaslı kadrların hazırlanması vacibdir. Azərbaycanda texnoloji yeniliklərin tətbiqi, yeni texnologiyaların sənaye müəssisələrində effektiv istifadəsi üçün rəqəmsal savadlılıq və texnoloji biliklərə malik kadrların hazırlanması əsas prioritetdir.

Azərbaycan hökuməti təhsil sektorunda texnoloji və innovativ sahələrin inkişafı üçün müasir təhsil proqramları və innovasiya mərkəzləri yaradır. Ali təhsil müəssisələrində texnologiya və mühəndislik sahəsində təhsil alan tələbələrə innovativ təcrübə qazanmaq və startap ekosistemində iştirak etmək üçün imkanlar yaradılır. Bu, sənaye müəssisələrinin texnoloji biliklərə malik ixtisaslı işçi qüvvəsi ilə təmin olunmasına töhfə verir.

Peşə təhsili sahəsində rəqəmsal bacarıqların inkişaf etdirilməsi sənaye müəssisələri üçün vacibdir. Müasir texnologiyaların istifadəsi ilə peşə təhsili müəssisələrində təlimlər təşkil edilir və ixtisaslı mütəxəssislər yetişdirilir. Bu, sənaye sektorunda texnoloji yeniliklərə uyğunlaşma və rəqabət üstünlüyü əldə etmə prosesini sürətləndirir.

Texnoloji infrastrukturun əsasını güclü İT infrastrukturu təşkil edir. Sənaye müəssisələrinin fəaliyyətini optimallaşdırmaq, məlumatları səmərəli şəkildə idarə etmək və innovativ həlləri tətbiq etmək üçün müasir İT texnologiyalarının tətbiqi vacibdir. Azərbaycanın İT infrastrukturu bu sahədə inkişaf etməkdədir və sənaye müəssisələrinə texnologiya əsaslı həllər təklif edir.

Azərbaycanda məlumat mərkəzlərinin və bulud texnologiyalarının inkişafı sənaye müəssisələrinə böyük həcmli məlumatların saxlanılması və işlənməsində üstünlüklər yaradır. Data mərkəzləri məlumatların təhlükəsizliyini təmin edir və müəssisələrə əməliyyatlarını daha çevik və səmərəli idarə etməyə imkan verir. Bulud texnologiyaları isə müəssisələrin məlumatlarını hər yerdən idarə etməsini təmin edir və əməkdaşlıq imkanlarını genişləndirir.

Müasir texnoloji infrastrukturun əsas komponentlərindən biri kibertəhlükəsizlikdir. Sənaye müəssisələrinin rəqəmsal fəaliyyətləri zamanı məlumatların qorunması və kibertəhlükəsizlik sahəsində tədbirlərin gücləndirilməsi zəruridir. Azərbaycan bu sahədə qabaqcıl texnologiyalar tətbiq edərək sənaye müəssisələrinin məlumatlarını qorumaq və təhlükəsizlik risklərini minimuma endirmək üçün tədbirlər görür.

Texnoloji infrastruktur və innovasiya Azərbaycan sənaye müəssisələrinin qlobal bazarda rəqabət üstünlüyü əldə etməsində mühüm rol oynayır. Rəqəmsallaşma, startap ekosistemi, innovasiyaların tətbiqi və İT infrastrukturunun genişləndirilməsi sənaye müəssisələrinə rəqabət qabiliyyətini artırmaq, istehsal proseslərini avtomatlaşdırmaq və beynəlxalq bazarlara çıxışı genişləndirmək imkanı verir. Azərbaycanın texnoloji potensialı və dövlət dəstəyi bu sahədə sənaye sektorunun gələcək inkişafına təkan verir.

**Nəticə**

Azərbaycanın sənaye müəssisələrinin qlobal bazarda rəqabət üstünlüyü əldə etməsi üçün güclü infrastruktur təchizatı həlledici rol oynayır. Nəqliyyat və logistika infrastrukturunun inkişafı məhsulların dünya bazarlarına səmərəli şəkildə çatdırılmasına, enerji infrastrukturu isə müəssisələrin fasiləsiz və dayanıqlı enerji ilə təmin olunmasına şərait yaradır. Neft, qaz və bərpa olunan enerji mənbələrinin inkişafı sənaye müəssisələrinə stabil və əlverişli enerji resursları təqdim edərək onların rəqabət qabiliyyətini artırır.

Texnoloji infrastruktur və innovasiya isə müasir sənaye proseslərinin avtomatlaşdırılması, rəqəmsallaşdırılması və yeni texnologiyaların tətbiqi ilə istehsalın səmərəliliyini artırır. Rəqəmsallaşma və startap ekosisteminin gücləndirilməsi, İT infrastrukturunun genişləndirilməsi və rəqəmsal savadlılıq ölkənin sənaye potensialını artırır və onun qlobal bazarda möhkəmlənməsinə kömək edir.

Azərbaycanın bu üç əsas infrastruktur sahəsində atdığı addımlar və dövlətin dəstək tədbirləri, sənaye müəssisələrinin beynəlxalq rəqabətə davam gətirərək, dünya bazar larında mövqelərini gücləndirməsinə şərait yaradır. Texnologiya və innovasiya əsaslı inkişaf Azərbaycan sənaye müəssisələrinin daha dinamik, çevik və səmərəli olmasına töhfə verir. Bu infrastruktur sahələrinin gücləndirilməsi Azərbaycanın sənaye sektorunun qlobal bazarda uğurlu mövqeyini möhkəmləndirir və davamlı inkişafını təmin edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Azərbaycanın İqtisadi İnkişaf Strategiyası. Bakı: 2021. İqtisadiyyat Nazirliyi Nəşriyyatı, s.15-35
2. Həsənov, R. Azərbaycanın Enerji İnfrastrukturunun gələcək inkişafı və təsirlər. İqtisadi Tədqiqatlar Mərkəzi, Bakı: 2020. s.54-78
3. Mamedov, A. Nəqliyyat və logistika sistemlərinin qlobal rəqabətə təsiri. Bakı Dövlət Universiteti Nəşriyyatı, Bakı: 2019. s.92-115
4. Aliyev, F. Sənaye 4.0 və Azərbaycanda Rəqəmsallaşma Perspektivləri. İqtisadi İslahatlar üzrə Elmi-Tədqiqat İnstitutu, Bakı: 2022, s.36-59
5. Yüksək Texnologiyalar Parkı (YTP). İnnovasiya və Startapların İnkişafına Dəstək Proqramı. Bakı: 2021. YTP Nəşriyyatı, s.22-45
6. Quliyev, E. İT İnfrastrukturunun Sənaye Müəssisələrinə Təsiri: Azərbaycan Nümunəsi. Azərbaycan Texniki Universiteti Nəşriyyatı, Bakı: 2021. s.78-101
7. OECD. (2020). Digitalisation and Industry 4.0: Opportunities for Azerbaijan. OECD Publishing, s.110-137
8. Azərbaycan Respublikası Energetika Nazirliyi. Enerji Siyasəti və İnnovasiya Texnologiyaları. Bakı: 2020. Energetika Nazirliyi Nəşriyyatı

# YÜNGÜL SƏNAYE SEKTORUNDA İXRACYÖNLÜ İSTEHSALIN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Şəhla ABBASOVA**
*sehla.abbasova.2018@mail.ru*
*Gəncə Dövlət Universiteti*

***Xülasə***

*Yüngül sənaye sektoru emal sənayesinin tərkibində məşğulluq, istehsal və ixracat göstəricilərində müəyyən paya malik olsa da hazırda Azərbaycan iqtisadiyyatında çox kiçik xüsusi çəkiyə malikdir. Daxili və xarici iqtisadi konyukturda baş verən ani dəyişikliklərə çox həssas olan bu sahə digər sektorlara da əhəmiyyətli dərəcədə təsir göstərir. Böhran dövrlərində iqtisadiyyatın yumşaq nöqtəsini təşkil edən yüngül sənaye, inkişaf və iqtisadi artım dövründə ən böyük potensaila malik sahələrdən birinə çevrilir. Ona görə də bu sektorda rəqabətqabiliyyətlilik və onun davamlılığı böyük əhəmiyyət kəsb edir. Dünya təcrübəsi göstərir ki, yüngül sənaye sektoru təmin etdiyi məşğulluq imkanları, istehsal prosesində yaratdığı əlavə dəyər və beynəlxalq ticarətdəki əhəmiyyəti ilə iqtisadi inkişaf prosesində mühüm rol oynayır. XVIII əsrdə inkişaf etmiş ölkələrin sənayeləşmə prosesində iz qoymuş toxuculuq sənayesi bu gün inkişaf etməkdə olan ölkələrin inkişafında da oxşar funksiyanı yerinə yetirir. Yüngül sənaye sektoru inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində yaratdığı əlavə dəyər göstəricilərinə və yüksək texnologiyaların digər istehsal sahələrinə sürətlə nüfuz etməsinə baxmayaraq, dünyanın ticarət dövriyyəsində tutduğu öncül mövqelərini hələ də qoruyub saxlayır.*

***Açar sözlər:*** *yüngül sənaye, rəqabət, ixrac, qeyri-neft sektoru*

## Giriş

1960-cı illərin ikinci yarısından etibarən intensivlik qazanmış ixracyönümlü artım modellərini iki kateqoriyada nəzərdən keçirmək olar. Birinci kateqoriyadakı modellərə görə, ixracın artımı ilə iqtisadi artımın müsbət və xətti əlaqəsi olduğu nəzəriyyəsinə əsaslanaraq, ixracda müəyyən bir artım səviyyəsinə nail olunduqda, ölkənin dünya bazarlarında nisbi üstünlüyü iqtisadi artımla bağlı müəyyən məhsullar əldə ediləcək və beləliklə, iqtisadi inkişaf məqsədlərinə nail olunacaqdır. İkinci kateqoriyadakı modellərdə ixracın artması ilə tələbdən irəli gələn tədiyə balansı məhdudiyyətlərinin müəyyən qədər aradan qaldırıla biləcəyi və buna görə də yüksək ixrac göstəricilərinin yüksək artım səviyyələri gətirə biləcəyi kimi xarakterizə olunur [4, s.21].

Bilindiyi kimi, ixracın iqtisadi artımın və inkişaf prosesinin hərəkətverici qüvvəsi olduğu fikri bir çox tədqiqatçılar tərəfindən uzun illərdir qəbul edilir. Əslində, ixracyönümlü artım, ixracın və xarici ticarətin ölkənin iqtisadi artımında və inkişafında əsas rol oynadığı strateji baxımdan vacib qiymətləndirilir. Son illər dünyada ixracyönümlü inkişaf strategiyasına doğru tendensiya müşahidə olunur. Bu tendensiyanın əsas mahiyyəti ondan ibarətdir ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr bu strategiyanın potensialından və real faydalarından bəhrələnmək istəyirlər. İlk növbədə ixracda görülən artım istehsal, məşğulluq və istehlakda artım yaradır. Bundan əlavə, ixrac sektorları daxili bazarın genişlənməsinə təkan verməklə yanaşı, istehlak bazarlarında məhsulların

qiymətinin aşağı salınmasına da imkan yaradır. Başqa sözlə desək, ixrac sektoru ölkəyə maya dəyəri daha az olan və bol istehsal amillərindən intensiv istifadə olunan məhsullar üzrə ixtisaslaşmağa və müqayisəli üstünlüklər əsasında ticarət etməyə imkan verir. Bu vəziyyət həm də resurslardan səmərəli istifadəni şərtləndirir. Beynəlxalq rəqabət şirkətləri müasir texnologiyaya uyğunlaşmağa və keyfiyyətli məhsul istehsal etməyə məcbur etməklə bu səmərəliliyi daha da artırır.

**Mövcud vəziyyət**

Müasir dövrdə hər bir dövlətin iqtisadi rəqabət imkanlarını yüksəldən və onun inkişafına və təsir edən ən mühüm meyarlardan biri iqtisadi sahələrin daxili və xarici bazarlarda potensial imkanları və yaratdığı əlavə dəyərdən ibarətdir. Hazırda dünyanın bir çox ölkəsində yüngül sənaye sektoru qeyd olunan xüsusiyyətləri özündə ehtiva etiyi üçün prioritet sahələrdən hesab olunur. Ənənəvi istehsal prosesi ilə yüngül səanye sektoru əmək tutumlu istehsal strukturuna sahib olmaqla xüsusilə inkişaf etməkdə olan ölkələr üçün istehsal həcmi, məşğulluq və xarici ticarət gəlirinin yüksəldilməsi baxımından geniş potensiala malikdir. Məhz bunun üçün bir çox ölkənin sənayeləşmə strategiyasında yüngül sənaye sektoru mühüm yer tutur.

Son 20 ildə Azərbaycanın sənayesində əsas diqqəti respublika əhalisinin əsas tələbatının ödənilməsinə, sahənin strukturunun yenidən qurulmasına, təyinatlı yarım sahələrin inkişafına yönəldilməlidir. Bu zaman dünya bazarında rəqabətqabiliyyətli məhsulun çeşidini genişləndirmək və keyfiyyətini artırmaq lazımdır.

| Məmulatlar | 2010 | 2015 | 2020 | 2022 | 2023 | 2010-cu illə müqayisədə 2023-ci ildə |
|---|---|---|---|---|---|---|
| Toxuculuq materialları və məmulatları | 42.785,2 | 32.866,7 | 182.123,6 | 246.682,8 | 195.456,0 | 4,5 dəfə |
| Emal olunmamış gön, aşılanmış dəri, təbii xəz, onlardan hazırlanan məmulatlar | 11.798,5 | 12.184,9 | 8.400,1 | 13.149,0 | 8.466,1 | 71,7 |
| Emal olunmamış gön (xəzdən başqa) və aşılanmış dəri | 11.775,5 | 12.179,0 | 8.333,2 | 13.025,6 | 8.323,7 | 70,6 |
| Dəri məmulatları, yol ləvazimatları, çantalar və analoji mallar | 23,0 | 5,9 | 66,9 | 123,3 | 142,3 | 6,1 dəfə |
| Təbii və süni xəz, onlardan hazırlanan məmulatlar | - | - | - | 0,1 | 0,1 | - |
| Ayaqqabı, baş geyimləri, çətirlər, çəliklər, lələklər, süni güllər | 33,1 | 150,2 | 876,7 | 584,5 | 698,5 | 21,1 dəfə |

**Cədvəl 1.** *Azərbaycan Respublikasından 2015-2023-cü illər ərzində ixrac olunmuş yüngül sənaye məhsullarının dinamikası*
*(Min ABŞ dolları)*

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistikası rəsmi veb saytı www.stat.gov.az. Cədvəl müəllif tərəfindən tərtib olunmuşdur*

Araşdırmalardan məlum olur ki, Azərbaycan iqtisadiyyatında keçmiş ittifaq dövründə ən qabaqcıl istehsal sahələrindən olan yüngül sənaye sektoru son illər yenidən dövlətimizin tərəfindən icra olunan iqtisadi inkişaf proqramları və həyata keçirilən iqtisadi siyasət nəticəsində yenidən inkişaf mərhələsinə qədəm qoymuşdur. Doğrudur, əldə olunan nəticələr strateji yol xəritəsində müəyyən olunmuş göstəricilərə tam uyğun olmasa da, yenə də, nəzərə çarpacaq irəliləyişin olduğu danılmazdır. Bu inkişaf ölkəmizdən ixrac olunan əmtəələrin strukturunda da öz əksini tapmışdır. Belə ki, 2010-2023-cü illəri əhatə edən statistik məlumatların təhlili göstərir ki, müvafiq dövrdə Toxuculuq materialları və məmulatları ixracı 4,5 dəfə, ayaqqabı, baş geyimləri, çətirlər, çəliklər, lələklər, süni güllərin ixracında isə unikal səviyyədə 21,1 dəfə artış qeydə alınmışdır. Bu göstərici ölkəmizin dünya bazarlarına neft məhsulları xaricində digər məhsulların ixracının artırılması istiqamətində mühüm qiymətləndirilməlidir.

Tədqiqatlar göstərir ki, yüngül sənaye sektoru dünyanın ticarət dövriyyəsində mühüm yer tutur.Ümumdünya Ticarət Təşkilatının hazırladığı statistik məlumatlara görə, 2021-ci ildə toxuculuq və hazır geyim sektoru dünya ticarətinin 4%-ni təşkil etmişdir. Dünya ticarətində trikotaj məmulatlarının ən çox ixrac edildiyi ilk 20 ölkədən 11-ə ixrac artmış , 9-a isə ixrac azalmışdrı. İxracın yüksək sürətlə artdığı ölkələr 75,3%, başqa ifadə ilə desək 96,8 milyon dollar artmışdır.

Dünya iqtisadiyyatında baş verən son tendensiyalar bütövlükdə iqtisadiyyatın və eləcə də onun tərkib hissəsi olan sənaye sahəsinin inkişafına çox ciddi təsir göstərməkdədir. Qloballaşma və inteqrasiyalaşma, elm və texnikanın genişmiqyaslı istifadəsini zəruri edən yeni tip iqtisadi dəyişiklikləri qaçılmaz edir. Bu isə öz növbəsində sənaye sahəsinin struktur-dinamik xüsusiyyətlərinə xüsusi diqqət və müəyyən strateji istiqamət tələb edərək, iqtisadiyyatın sənaye sahəsinin strukturunun yenidən formalaşdırılmasında sturktur siyasətinə diqqəti artırmağı tələb edir. Ölkə iqtisadiyyatının müasir inkişaf mərhələsində sənaye sektorunun strukturunun təkmilləşdirilməsinin prioritetlərini neft sənayesinin alternativlərinin artırılması və rəqabətqabiliyyətli istehsalın davamlı inkişafı təşkil etməlidir. Təsadüfi deyil ki, daxili bazarda rəqabət mühitinin formalaşdırılması cəmiyyətin rifah səviyyəsinin artırılmasına, iqtisadi resursların ölkəyə rəqabət üstünlüyü qazandıra biləcək əmtəə və xidmətlərin istehsalına istiqamətləndirilməsinə gətirib çıxarır. Bazar mexanizmlərinin rəqabətli şəraitdə qurulması, rifahın maksimumlaşdırılması, xərclərin minimumlaşdırılması, iqtisadiyyatın mütləq və nisbi üstünlük baxımından lider mövqeyə nail olması üçün fundamental əhəmiyyət kəsb edən kriteriyalardır.

İxracyönümlü inkişaf strategiyasının imkanlarından faydalanmaq istəyən bir çox ölkə bu strategiyaya uyğun iqtisadi siyasət tətbirləri həyata keçirnəyə başlamışdır. Yaponiya, Cənubi Koreya, Sinqapur və Tayvan kimi Uzaq Şərq ölkələrinin qısa müddətdə əldə olunan iqtisadi yüksəliş onların ixracın təşviqi siyasətlərinin doğruluğu ilə bilavasitə bağlıdır. Müəyyən mənada klassik iqtisadçıların irəli sürdüyü azad ticarət doktrinası və ticarətin inkişafının lokomotiv mövqeyi bir çox dövlətlərin ixracyönümlü artım modellərinə yönəlməsinə səbəb olmuşdur. İqtisadi artım və inkişaf prosesində ixracın rolunu mikro əsaslarla qiymətləndirmək mümkündür. Bu gün bir çox ölkənin iqtisadiyyatı araşdırıldığında ixracın əsasını tekstil sektorunun təşkil etdiyi görülür [5, s.26].

Bütün sahələrdə olduğu kimi yüngül sənaye sektorunda da rəqabət amili ən mühüm şərtlərdən biri kimi qəbul olunur. Bu sahə üzrə rəqabət qabiliyyəti yüksək olan ölkələr bir mənalı olaraq daha çox mənfəət əldə edirlər [1, s.39]. Toxuculuq sənayesi digər tərəfdən rəqabət sistemi ilə ayaqlaşa bilməyən və geri çəkilən ölkələr üçün iflasa uğrayan bir sektora çevrilir. Bu o deməkdir ki, həmin ölkələr tekstil məmulatlarına olan ehtiyaclarını xaricdən idxal hesabına ödəmək məcburiyyətində qalırlar. Nəticədə, rəqabət qabiliyyəti yüksək olan ölkələr bu ölkələrə öz məhsullarını ixrac etməklə vəziyyəti öz xeyrinə çevirmə imkanına malik olurlar. Azad rəqabət sistemində rəqabətə tab gətirən və mövcudluğunu qoruyub saxlayan ölkələr yüksək real gəlirlə insanların sosial rifahını yaxşılaşdırır və həyat keyfiyyətinin yüksəlməsinə nail olurlar. Rəqabət sistemi ilə ayaqlaşan ölkələrdə eyni zamanda daha keyfiyyətli məhsul istehsal etmək üçün yeni texnologiyaların tətbiqinə yaranmış ehtiyac bu ölkələrin dayanıqlı inkişafına təkan verməklə daha operativ və bilikli texniki kadrlara ehtiyacının qarşılanmasına fokslanmış təhsil sisteminin inkişafına da müsbət təsir göstərir.

İnkişaf edən rəqabət sistemində hər bir ölkə öz brendlərinə sahib olmağa başladılar. Bunun nəticəsində yüngül sənaye sektorunun inkişaf etdiyi ölkələrdə pərakəndə ticarət sektorları tekstil bazarlarının daxildə inkişaf etmiş və pərakəndə satış ilə adından söz etdirən istehsalçılar mərhələli şəkildə öz filiallarını xaricə köçürməklə ixraca geniş zəmin yaratmışlar. Pərakəndə sektorunun xaricdə yayılması və inkişafı ilə ölkələr öz imici və prestijlərini artırıb, adlarını bu bazarda daha da tanıtmağa nail olurlar. Pərakəndə ticarətin inkişafı xərclərə qənaət, texnoloji inkişaflar və kommersiya səmərəliliyini də intensivləşdirir.

**Nəticə**

Hazırda, yüngül sənaye xammalı hesab olunan kənd təsərrüfatı məhsullarının ölkəmizdə istehsalına təsərrüfat subyektlərinin yüksək maraq göstərdiyini söyləmək olmaz. Buna səbəb fermerlərin kifayət qədər mənfəət qazanmamaları və istehsal olunan xammalın satışı ilə bağlı qarşılaşdıqları çətinliklərdir. Lakin son illər dövlətimizin pambıq və ipək istehsalını təşviq etmək məqsədilə sahibkarlara verdiyi subsidiyalar, güzəştli kreditlər və təminatlı satışla bağlı yaratdığı imkanlar neqativ vəziyyətin müsbətə doğru dəyişməsinə səbəb olmuşdur. Bu baxımdan dünyanın inkişaf etmiş ölkələrini nəzərə almaq bizim üçün faydalı olardı. İnkişaf etmiş ölkələrin təcrübəsini araşdırdıqda görürük ki, onlarda kənd təsərrüfatının inkişafını tekstil sektoru ilə paralelliyinə üstünlük verirlər. Kapital baxımından heç bir problemi olmayan bu ölkələrdə toxuculuq xammalının istehsalında bazar iqtisadiyyatının şərtlərindən bir qədər uzaqlaşaraq dövlət dəstəyinə üstünlük verirlər. Bu qabaqcıl təcrübələrin geniş aspektdə təhlili və tətbiqi, hesab edirik ki, Azərbaycanda yüngül sənaye sektorunun inkişaf perspektivi üçündə əhəmiyyətli ola bilər. Yüngül sənaye sektorunda əldə olunacaq müsbət nəticələr öz növbəsində ölkəmizin beynəlxalq bazarlarda neft məhsulları xaricində alternativlərini bir qədər də artmasına imkan verəcəkdir.

## ƏDƏBİYYAT


1. Abdullayev, Z., Bağırova, Z.Ə. "Sənayenin mahiyyəti və təşkilinin prinsipləri", Bakı: 2010
2. Aras, G. Avrupa Birliği ve Dünya Pazarlama Uyum Açısından Türk Tekstil ve Konfeksiyon Sektörünün Rekabet Yeteneği, İstanbul: 2006, Mart Matbaası
3. Aslanov, Z.Y., Nuriyev, M.N., Əfəndiyev, E.M. Yüngül sənaye məhsullarının standartlaşdırılması və sertifikatlaşdırılması: Dərslik. Bakı: 2014. İqtisad Universiteti
4. Hazır Giyim Sektöründe Marka Ve Markalaşmanın Önemi, Uludağ İhracatçı Birlikleri Genel Sekreterliği, Haziran, 2017
5. Əliyeva, Ş. "Azərbaycanda Sənaye sahələrinin modernləşdirilməsi problemləri və prespektivləri", Bakı: 2010
6. www.stat.gov.az

# İXRACYÖNÜMLÜ İSTEHSAL SAHƏLƏRİNİN ARTIRILMASINDA DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞININ (PPP) ROLU

**Röya ƏMİROVA**
*roya.amirova@fhn.gov.az*
*Azərbaycan Dövlət İqtisad Universiteti*

***Xülasə***

*Dövlət-özəl tərəfdaşlıq (PPP) ixracyönümlü istehsal sənayelərinin, xüsusən də inkişaf etməkdə olan iqtisadiyyatların inkişafında mühüm rol oynayır. Bu tədqiqat sənayenin rəqabət qabiliyyətinin artırılmasında, qlobal bazara çıxışın genişləndirilməsində və iqtisadi artımın təşviqində PPP-lərin təsirini araşdırır. Həm dövlət, həm də özəl sektorun təcrübəsindən və resurslarından istifadə etməklə, PPP-lər qeyri-adekvat infrastruktur, kapitala məhdud çıxış və texnoloji boşluqlar kimi əsas problemləri həll edə bilər. Tədqiqat ixracyönümlü istehsalın genişləndirilməsi üçün vacib olan nəqliyyat, enerji və rəqəmsal şəbəkələr də daxil olmaqla kritik infrastrukturun inkişafına kömək edən uğurlu PPP modellərini vurğulayır.Bundan əlavə, PPP-lərin tənzimləyici maneələri aradan qaldırmağa, prosesləri sadələşdirməyə, texnologiya transferi və birgə Tədqiqat və İnkişaf (R&D) təşəbbüsləri vasitəsilə innovasiyaları təşviq etməyə necə kömək edə biləcəyini araşdırılır. PPP-lərin arxasında duran maliyyə mexanizmlərini təhlil edərək, məqalə uzunmüddətli uğurun təmin edilməsində ortaq risklərin və mükafatların rolunu vurğulayır. Bu nəticəyə gəlinir ki, dövlət-özəl əməkdaşlığın gücləndirilməsi ixracyönümlü sənayelərin davamlı inkişafı üçün vacibdir və hökumətlər özəl investisiyaları cəlb etmək üçün dəstəkləyici siyasət çərçivələrini həyata keçirməlidirlər.*

***Açar sözlər:*** *Dövlət-özəl tərəfdaşlıq (PPP), ixracyönümlü istehsal, sənaye rəqabət qabiliyyəti*

## Giriş

Dövlət-Özəl Tərəfdaşlıq (PPP) bütün dünyada hökumətlər üçün, xüsusən də inkişaf etməkdə olan və keçid dövrünü yaşayan ölkələrdə iqtisadi artımı və rəqabət qabiliyyətini gücləndirmək üçün vacib alətə çevrilmişdir. PPP-lərin öz potensiallarını nümayiş etdirdiyi mühüm sahələrdən biri ixracyönümlü istehsalın artırılmasıdır. Dövlət və özəl sektorun resurslarını və təcrübələrini birləşdirərək, PPP-lər ölkənin ixrac imkanlarını, xüsusən də iri miqyaslı investisiyalar, innovasiyalar və səmərəliliyin təkmilləşdirilməsi tələb edən sektorlarda əhəmiyyətli dərəcədə artıra bilər. Bu məqalə əsas üstünlükləri, mexanizmləri və uğurlu nümunə araşdırmalarını vurğulayaraq, ixracyönümlü istehsal sahələrinin artırılmasında PPP-nin rolunu araşdırır.

1. İxracyönümlü istehsalda PPP modeli Dövlət-Özəl Tərəfdaşlıq özəl sektorun ənənəvi olaraq hökumətin məsuliyyəti olan dövlət xidmətlərinin göstərilməsi və ya infrastrukturun inkişafında iştirak etdiyi əməkdaşlıq müqavilələridir. İxracyönümlü istehsal kontekstində PPP-lər dövlət və özəl qurumlar arasında riskləri, resursları və faydaları bölüşdürməklə beynəlxalq ticarət üçün kritik əhəmiyyət kəsb edən sənaye sahələrinin inkişafına imkan verir [1, s.1]. İxracyönümlü sənayelər beynəlxalq bazarlar üçün əmtəə və xidmətlər istehsalına, ölkələri valyuta gəlirləri ilə təmin etməyə, ticarət balanslarını yaxşılaşdırmağa və daha yüksək iqtisadi artıma diqqət yetirirlər. Bu

sənayelərin inkişafı infrastruktura, texnologiyaya, logistikaya və insan kapitalına - PPP-lərin uğurlu olduğu sahələrə əhəmiyyətli investisiyalar tələb edir [2, s.37]. İxracyönümlü istehsalda PPP-nin əsas üstünlükləri aşağıdakılardan ibarətdir;

2. Kapitala və investisiyaya giriş - istehsal, kənd təsərrüfatı və texnologiya kimi ixracyönümlü sənayelər çox vaxt infrastruktur yaratmaq, istehsal potensialını artırmaq və beynəlxalq rəqabət qabiliyyətini təmin etmək üçün əhəmiyyətli maliyyə resursları tələb edir. PPP-lər hökumətin təkbaşına maliyyələşdirə bilməyəcəyi irimiqyaslı ixrac istehsalı layihələrini dəstəkləmək üçün özəl sektorun kapitalını səfərbər etmək mexanizmini təmin edir. Özəl sektor investisiyalarından istifadə etməklə, PPP-lər ixrac-emal zonalarının, xüsusi iqtisadi zonaların, nəqliyyat infrastrukturunun (limanlar, dəmir yolları və hava limanları) tikintisini və ixrac fəaliyyətlərini dəstəkləyən enerji layihələrini maliyyələşdirə bilər;

3. İnnovasiya və səmərəlilik - Özəl şirkətlər yüksək rəqabətli qlobal bazarlarda çox vaxt kritik olan tərəfdaşlığa yenilik və əməliyyat səmərəliliyi gətirir. Özəl sektorun innovasiya və yeni texnologiyaların tətbiqi qabiliyyəti istehsal proseslərini təkmilləşdirir, xərcləri azaldır və ixrac mallarının keyfiyyətini artırır. Bunun müqabilində dövlət sektoru bu innovasiyaların inkişafını təmin edən tənzimləyici dəstəyi, siyasət çərçivələrini və bazara çıxışı təmin edir. Texnologiyanın mənimsənilməsinin beynəlxalq standartlara cavab verməsi üçün mühüm əhəmiyyət kəsb etdiyi kənd təsərrüfatı kimi sənaye sahələrində PPP-lər ixracyönümlü istehsalın rəqabət qabiliyyətini artıran müasir əkinçilik texnikalarının, daha yaxşı məhsul idarəetmə sistemlərinin və səmərəli təchizat zəncirlərinin tətbiqini asanlaşdıra bilər.

4. Risk Paylaşımı - İxracyönümlü sənayelər bazar dəyişkənliyi, ticarət siyasətindəki dəyişikliklər və dəyişən qlobal tələb daxil olmaqla müxtəlif risklərə məruz qalır. PPP-lər bu risklərin dövlət və özəl sektorlar arasında bölüşdürülməsinə imkan verir və hər iki tərəfin müstəqil şəkildə həyata keçirildiyi təqdirdə çox riskli ola biləcək layihələrdə iştirakını asanlaşdırır. Hökumətlər özəl firmaların üzləşdiyi investisiya risklərini azaltmaq üçün zəmanətlər, təşviqlər və ya subsidiyalar təklif edə bilər, özəl şirkətlər isə istehsalı idarə etmək üçün lazım olan təcrübə və kapitalı təmin edir [3, s.118].

5. İnfrastrukturun inkişafı - PPP-lərin ixracyönümlü istehsala verdiyi ən mühüm töhfələrdən biri mühüm infrastrukturun inkişafıdır. Effektiv nəqliyyat və logistika sistemləri, enerji təchizatı və rabitə şəbəkələri qlobal bazarlarda rəqabət aparmaq istəyən sənayelər üçün həyati əhəmiyyət kəsb edir. PPP-lər limanların, magistral yolların və rəqəmsal infrastrukturun tikintisini sürətləndirə, malların istehsal sahələrindən beynəlxalq bazarlara daşınması üçün tələb olunan xərcləri və vaxtı azalda bilər. Məsələn, Şərqi Afrikada PPP-lər ixrac-emal zonalarının inkişaf etdirilməsində və kənd təsərrüfatının, xüsusən də bağçılıqda ixracın dəstəklənməsi üçün nəqliyyat infrastrukturunun təkmilləşdirilməsində mühüm rol oynamışdır. Bu tərəfdaşlıqlar qlobal bazarlara etibarlı çıxışı təmin etməklə regionun beynəlxalq tələbatı ödəmək qabiliyyətini artırıb.

6. İxracyönümlü İstehsalda PPP mexanizmləri - PPP mexanizmləri sektordan və layihənin xarakterindən asılı olaraq dəyişir. Mövcud Tik-İşlət-Transfer (BOT) modeli özəl sektor mülkiyyət hüququnu dövlət sektoruna keçirməzdən əvvəl müəyyən müddət ərzində ixrac emalı zonası və ya logistika mərkəzi kimi infrastruktur layihəsini qurur və idarə edir. Dövlət özəl şirkətlərə ixrac sektoru üçün vacib olan limanlar və ya hava limanları kimi dövlət infrastrukturunu idarə etmək və saxlamaq hüququ verir. Bunun müqabilində özəl

operator obyektin təkmilləşdirilməsinə sərmayə qoyur və gəliri hökumətlə bölüşür. Dövlət və özəl sektorlar birlikdə ixraca yönəlmiş istehsal obyekti kimi bir layihəyə sərmayə qoyurlar. Hər iki tərəf öz sərmayələri və rolları əsasında mənfəət və öhdəlikləri bölüşür.

**İxracyönümlü istehsalatda PPP-nin nümunələri**

*Banqladeş Tikiş Sənayesi.* Banqladeş dünyanın aparıcı geyim ixracatçılarından biridir və sektor ölkənin ÜDM-ə əhəmiyyətli dərəcədə töhfə verir. Sənayenin böyüməsi tekstil parklarına, enerji təchizatına və nəqliyyat infrastrukturuna investisiyaları asanlaşdıran PPP təşəbbüsləri ilə dəstəklənib. PPP vasitəsilə hökumət istehsal xərclərini azaldan və ixrac həcmini yaxşılaşdıran logistika və enerji həlləri təqdim edərək ixrac emal zonalarının səmərəliliyini artırmaq üçün özəl firmalarla əməkdaşlıq edir [4].

*Şərqi Afrikanın bağçılıq sektoru.* Şərqi Afrikada PPP-lər çiçəklər, meyvələr və tərəvəzlər kimi bağçılıq məhsullarının ixracının artırılmasında mühüm rol oynamışdır. Mütərəqqi suvarma sistemlərinin, soyuducu anbarların və təkmilləşdirilmiş nəqliyyat şəbəkələrinin tətbiqi – hökumətlər və özəl investorlar arasında tərəfdaşlıq yolu ilə – fermerlərə istehsalı genişləndirməyə və beynəlxalq bazarların keyfiyyət standartlarına cavab verməyə imkan verdi [5].

*Rusiya ixracyönümlü lokallaşdırmanın inkişafı.* Rusiyada PPP-lərdən sənaye əməkdaşlığının genişləndirilməsi və ixracyönümlü istehsalın inkişafı üçün istifadə edilmişdir. Bu tərəfdaşlıqlar qlobal dəyər zəncirləri ilə inteqrasiya edən, regional iqtisadi inkişafı təşviq edən və maşınqayırma, avtomobil və enerji kimi sektorlarda ixrac qabiliyyətini artıran yerli təchizat zəncirlərinin qurulmasına kömək edir [6, s.280].

*Azərbaycanda PPP fəaliyyətinin əsas sahələri.* Azərbaycanda Dövlət-Özəl Tərəfdaşlıq (PPP) son illərdə artan diqqət mərkəzindədir, çünki ölkə öz infrastrukturunu modernləşdirməyə və dövlət xidmətlərini təkmilləşdirməyə çalışır. PPP-lərdən Azərbaycanın yol şəbəkələrinin, limanlarının və hava limanlarının modernləşdirilməsi üçün istifadə olunur. Məsələn, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi infrastruktur layihələri və böyük magistral yol layihələri bu cür tərəfdaşlıqlar vasitəsilə əlaqəni və ticarət potensialını artırmaq üçün başlanmışdır. Azərbaycanın zəngin enerji ehtiyatlarını nəzərə alaraq, PPP-lər neft, qaz və bərpa olunan enerji layihələrini dəstəkləmək üçün istifadə edilmişdir. Hökumət enerji infrastrukturunu modernləşdirmək, enerji səmərəliliyini artırmaq və ölkənin enerji kompleksində bərpa olunan enerjinin rolunu artırmaq üçün özəl firmalarla əməkdaşlıq edir. Azərbaycan səhiyyə müəssisələrini və təhsil müəssisələrini təkmilləşdirmək üçün PPP-ləri araşdırır. Bu sektorlardakı layihələr xidmətlərin keyfiyyətinin artırılmasına, səhiyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsinə, məktəblərin və universitetlərin müasirləşdirilməsinə yönəlib. Son illərdə Azərbaycan PPP-ləri dəstəkləmək üçün qanunvericilik bazasını inkişaf etdirir. Ölkədə həm dövlət, həm də özəl tərəfdaşlar üçün qaydaları və vəzifələri əks etdirən "Dövlət-özəl tərəfdaşlıq haqqında" Qanun təqdim edilib. Bu qanun PPP sazişlərinin şəffaflığını artırmaq və daha çox beynəlxalq investisiya cəlb etmək məqsədi daşıyır [7]. Azərbaycanın coğrafi mövqeyi onu regional nəqliyyat dəhlizləri üçün mühüm mərkəzə çevirir. Kəmər və Yol Təşəbbüsü (BRI) kimi təşəbbüslərin bir hissəsi olaraq PPP-lər ölkənin Avropa və Asiya arasında nəqliyyat qovşağı kimi rolunu artırmaq üçün dəmir yolları, avtomobil yolları və logistika mərkəzlərinin inkişafında istifadə olunur. Azərbaycanın öz iqtisadiyyatını neft və qaz

sektorundan uzaqlaşdırmaq cəhdləri turizm, kənd təsərrüfatı, logistika və istehsalat kimi qeyri-neft sektorlarında PPP-lər üçün münbit zəmin yaradır. Beləliklə, PPP-lər Azərbaycanın iqtisadiyyatını gücləndirməyə və iqtisadiyyatın əsas sektorlarını modernləşdirməyə yönəlmiş uzunmüddətli inkişaf strategiyasında böyük rol oynamaqdadır. Nəticə Dövlət-Özəl Tərəfdaşlıq dünyanın bir çox yerlərində ixracyönümlü istehsalın artırılması üçün mühüm alətə çevrilib. Resursları birləşdirmək, riskləri bölüşmək və səmərəliliyi artırmaqla PPP ölkələrə ixrac imkanlarını genişləndirməyə, iqtisadiyyatlarını şaxələndirməyə və qlobal ticarət şəbəkələrinə daha dərindən inteqrasiya etməyə imkan verir. Qlobal rəqabət gücləndikcə, ixrac sektorlarının inkişafında PPP-lərin rolunun genişləndirilməsi iqtisadi artımın kilidini açmaq və beynəlxalq bazarlarda rəqabət üstünlüyünü təmin etmək üçün əsas olacaqdır. Hökumətlər bu tərəfdaşlıqların davamlılıq, iş yerlərinin yaradılması və infrastrukturun inkişafı da daxil olmaqla daha geniş inkişaf məqsədlərinə uyğun olmasını təmin edərək, PPP-lərin inkişafı üçün əlverişli mühit yaratmağa davam etməlidir. Yaxşı strukturlaşdırılmış PPP-lər vasitəsilə dövlətlər getdikcə bir-biri ilə bağlı olan dünyada uzunmüddətli iqtisadi uğurun əsasını yarada bilərlər.

## ƏDƏBİYYAT

1. 50-62. 5. Pfisterer, S., de Boer, D., Mudde, H., van Dijk, M. P., & van Tulder, R. (2009). The effectiveness of public-private partnerships in East African export-oriented horticulture. Journal of Agribusiness in Developing and Emerging Economies, 3(2), 134- 153. https://doi.org/10.1108/20440831211261868
2. Asian Development Bank. (n.d.). Public-private partnership handbook. Asian Development Bank. https://www.adb.org/publications/public-private-partnership-handbook
3. Azərbaycan Respublikasının Milli Məclisi. "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: 2022. Azərbaycan
4. Hong, S. (2012). New challenges to the export-oriented growth model. China & World Economy, 20(4), 24-39. https://doi.org/10.1111/j.1749-124X.2012.01283.x
5. Malyshev, D. P., & Bakumenko, O.A. (2019). Public-private partnership: A mechanism of the Russian export-oriented localization development. The European Proceedings of Social & Behavioural Sciences, 632-642. https://doi.org/10.15405/epsbs.2019.03.63
6. Tretiak, A., Tretiak, V., Sakal, O., Kovalenko, A., Tretiak, N., & Shtogryn, H. (2020). The valueadded chain in the mechanism of public-private partnership for rural development. Agricultural and Resource Economics: International Scientific E-Journal, 6(3), 69-84.https://doi.org/10.51599/are.2020.06.03.04 4. Majumdar, T. (2020). Public-private partnerships in Bangladesh garment industries: From the perspective of performance improvement and sustainability. Journal of Management and Humanity Research,

## SUMMARY

The role of Public-Private Partnership (PPP) in boosting export-oriented manufacturing sectors Amirova Roya Mammadali Academy of the Ministry of Emergency Situations of the Republic of Azerbaijan Baku, Azerbaijan roya.amirova@fhn.gov.az Abstract: Public-private partnerships (PPPs) play an important role in the development of exportoriented manufacturing industries, especially in emerging economies. This study examines the impact of PPPs on enhancing industry competitiveness, expanding global market access and promoting economic growth. By leveraging the expertise and resources of both the public and private sectors, PPPs can overcome key challenges such as inadequate infrastructure, limited access to capital and technology gaps. The study highlights successful PPP models that have helped develop critical infrastructure, including transport, energy and digital networks, which are essential for expanding export-oriented production. In addition, PPPs can help overcome regulatory barriers, streamline processes, aid technology transfer and collaborative Research and Development (R&D), exploring how they can help stimulate innovation through their initiatives. Analysing the financial mechanisms behind PPPs, the paper underlines the role of shared risks and rewards in ensuring long-term success. It concludes that strengthening public-private co-operation is essential for the sustainable development of export-oriented industries and that governments should implement supportive policy frameworks to attract private investment.

***Keywords:*** *Public-Private Partnership (PPP), export-oriented manufacturing, industrial competitiveness*

## РЕЗЮМЕ

Роль государственно-частного партнерства (ГЧП) в развитии экспортноориентированных отраслей обрабатывающей промышленности Амирова Роя Мамедали Академия Министерства по чрезвычайным ситуациям Азербайджанской Республики Баку, Азербайджан roya.amirova@fhn.gov.az Аннотация: Государственно-частные партнерства (ГЧП) играют важную роль в развитии экспортно-ориентированных отраслей обрабатывающей промышленности, особенно в странах с развивающейся экономикой. В данном исследовании рассматривается влияние ГЧП на повышение конкурентоспособности отрасли, расширение доступа на мировые рынки и стимулирование экономического роста. Используя опыт и ресурсы как государственного, так и частного секторов, ГЧП позволяет преодолеть такие ключевые проблемы, как неадекватная инфраструктура, ограниченный доступ к капиталу и технологические пробелы. В исследовании освещаются успешные модели ГЧП, которые помогли развить важнейшую инфраструктуру, включая транспорт, энергетику и цифровые сети, необходимые для расширения экспортноориентированного производства. Кроме того, ГЧП может помочь преодолеть регуляторные барьеры, оптимизировать процессы, содействовать передаче технологий и совместным исследованиям и разработкам (НИОКР), изучая, как они могут стимулировать инновации с помощью своих инициатив. Анализируя

финансовые механизмы, лежащие в основе ГЧП, авторы документа подчеркивают роль разделения рисков и вознаграждений в обеспечении долгосрочного успеха. Делается вывод о том, что укрепление государственно-частного сотрудничества необходимо для устойчивого развития экспортно-ориентированных отраслей и что правительствам следует проводить поддерживающую политику для привлечения частных инвестиций.

***Ключевые слова:*** *Государственно-частное партнерство (ГЧП), промышленная конкурентоспособность*

# İXRACYÖNÜMLÜ İSTEHSALDA TEXNOLOJİ YENİLİKLƏR VƏ İNNOVATİV HƏLLƏR

**Nəsrin ƏLİYEVA**
*nesrin.lyv06@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*
*ORCİD İD: 0009-0002-3108-4094*

***Xülasə***

*İxracyönümlü istehsal, qlobal bazarlarda rəqabət gücünü artırmaq və iqtisadi inkişafı sürətləndirmək üçün texnoloji yeniliklərə və innovativ həllərə əsaslanır. Texnologiyanın sürətlə inkişafı istehsalat sektorunda rəqəmsallaşma və avtomatlaşdırmanın genişlənməsinə səbəb olub. Süni intellekt və Machine learning, istehsalat proseslərinin optimallaşdırılması və məhsuldarlığın artırılmasında mühüm rol oynayır. Sənaye 4.0 və avtomatlaşdırma sistemləri isə istehsalatın çevikliyini artıraraq keyfiyyətin yüksəldilməsinə şərait yaradır. Bundan əlavə, 3D çap və additiv istehsal texnologiyaları yeni məhsul inkişafı və istehsalın çevikliyini təmin edir. İnnovativ həllər arasında rəqəmsal platformalar və e-ticarət vasitəsilə qlobal bazarlara çıxış, logistika və təchizat zəncirindəki yeniliklər də ixrac potensialını artırır. Ətraf mühitin qorunması və dayanıqlı istehsal proseslərinin təşviqi, qlobal bazarlarda ekoloji cəhətdən təmiz məhsullara olan tələbi qarşılamaq üçün vacibdir. Beləliklə, texnoloji yeniliklər və innovativ həllər, ixracyönümlü istehsalatda rəqabət qabiliyyətini artırmaq və dayanıqlı inkişafı təmin etmək üçün əsas elementlərdir.*

## Giriş

İxracyönümlü istehsal, ölkələrin qlobal bazarda rəqabət gücünü artırmaq və iqtisadi inkişafını sürətləndirmək üçün strateji bir yanaşma olaraq qəbul edilir. Bu istehsal modeli, daxili tələbatdan çox xarici bazarlara yönəlir və xarici valyuta gəlirlərinin artması, iş yerlərinin yaradılması və texnoloji inkişafın sürətləndirilməsi kimi mühüm üstünlüklər təqdim edir. Müasir dövrdə sürətlə dəyişən bazar tələblərinə uyğun olaraq, texnoloji yeniliklərin və innovativ həllərin tətbiqi ixracyönümlü sənayenin uğur qazanması üçün zəruridir. Avtomatlaşdırma, süni intellekt, 3D çap və rəqəmsal platformalar kimi texnologiyalar istehsalat proseslərini daha səmərəli və çevik edir, rəqabət üstünlüyü yaradır və istehsalçıların qlobal miqyasda bazarlara çıxışını asanlaşdırır. Bu məqalədə texnoloji yeniliklərin və innovativ həllərin ixracyönümlü istehsalatın inkişafına necə təsir etdiyi müzakirə olunacaq [3]. İxracyönümlü istehsalat iqtisadi inkişafın və qlobal rəqabət gücünün mühüm elementi olaraq qəbul edilir. Ölkələr və şirkətlər üçün xarici bazarlara çıxış imkanı yaradan ixracyönümlü istehsal, xarici valyuta axınını təmin edir, yeni iş yerləri yaradır və istehsalatın texnoloji səviyyəsinin yüksəldilməsinə şərait yaradır. Texnoloji yeniliklər və innovativ həllər bu iqtisadi modelin uğurla tətbiq edilməsi və qlobal bazarlarda rəqabət gücünün artırılması üçün əsas amillərdən biridir.

**İxracyönümlü istehsalatın əsas xüsusiyyətləri**

İxracyönümlü istehsalat, daxili bazardan çox xarici bazarlara məhsul və xidmətlərin ixracını hədəfləyən bir iqtisadi fəaliyyət növüdür. Bu iqtisadi modelin əsas məqsədi, ölkələrin ticarət balansını müsbətə doğru dəyişmək, ixracdan əldə olunan gəlirlər vasitəsilə iqtisadi sabitliyi təmin etmək və istehsalatın səmərəliliyini artırmaqdır. İxracyönümlü istehsalatın əsas üstünlükləri aşağıdakılardır:

- Xarici valyuta axını: xarici bazarlara çıxış imkanı əldə edən şirkətlər, ölkəyə xarici valyuta gətirir və ticarət balansının müsbət olmasına kömək edir.
- İqtisadi şaxələnmə: ixracyönümlü istehsalat iqtisadiyyatın şaxələndirilməsini təşviq edir və ölkənin müxtəlif sektorlarda inkişafını təmin edir.
- Texnologiyanın inkişafı: qlobal rəqabət şəraitində uğurlu olmaq üçün müəssisələr yeni texnologiyaların tətbiqinə önəm verir.
- Müasir tələblərə cavab verən məhsullar: şirkətlər qlobal bazarların tələblərinə cavab vermək üçün məhsul keyfiyyətini və istehsal proseslərini daim yeniləyir.

**Texnoloji yeniliklərin rolu**

İxracyönümlü istehsal proseslərinin səmərəliliyini və çevikliyini artırmaq üçün texnoloji yeniliklər mühüm əhəmiyyət kəsb edir. Sənaye 4.0, süni intellekt (AI), avtomatlaşdırma, 3D çap və rəqəmsal texnologiyalar istehsalatı köklü şəkildə dəyişdirir [1].

a) *Sənaye 4.0 və avtomatlaşdırma.* Sənaye 4.0 konsepsiyası istehsalat proseslərinin avtomatlaşdırılmasına və rəqəmsallaşdırılmasına əsaslanır. Avtomatlaşdırılmış istehsalat xətləri istehsalatın çevikliyini artırır, xərcləri azaldır və məhsulun keyfiyyətini yüksəldir. Ağıllı fabriklərdə istifadə edilən sensorlar, maşınlar arasındakı əlaqəni gücləndirərək istehsalat proseslərinin daha sürətli və səmərəli aparılmasına şərait yaradır. Avtomatlaşdırma həmçinin insan səhvlərini minimuma endirir, məhsulun davamlı keyfiyyətini təmin edir və istehsalatda daha böyük həcmli işləri daha az zamanda həyata keçirməyə imkan verir.

b) *Süni intellekt və machine learning.* Süni intellekt texnologiyaları müəssisələrin istehsalat və idarəetmə proseslərini optimallaşdırmaq üçün geniş istifadə olunur. Machine learning texnologiyaları istehsal proseslərində məlumatları təhlil edir, bazar tələblərini proqnozlaşdırır və məhsul keyfiyyətini artırmağa kömək edir. İstehsalatda istifadə olunan süni intellekt sistemləri məhsulun davamlı izlənməsinə və avtomatik qərar qəbul etməyə imkan verir. Bu texnologiyalar məhsuldarlığı artırmaqla yanaşı, resurslardan daha səmərəli istifadəni də təmin edir [2].

c) *3D çap texnologiyaları.* 3D çap texnologiyaları istehsalatda inqilabi dəyişikliklər yaradır. Bu texnologiya vasitəsilə prototiplərdən real məhsullara qədər hər şey daha sürətli və sərfəli şəkildə istehsal olunur. 3D çap məhsul dizaynlarını qısa müddətdə yaratmaq və istehsalatda çeviklik əldə etmək üçün istifadə olunur. Ənənəvi istehsal metodları ilə müqayisədə, bu texnologiya məhsul istehsalında xərcləri azaldır və dizayn prosesini sürətləndirir.

d) *Rəqəmsal idarəetmə və rəqəmsal platformalar.* Rəqəmsal idarəetmə sistemləri istehsalat müəssisələrində təchizat zəncirini və istehsalat proseslərini daha səmərəli idarə etməyə imkan verir. Rəqəmsal platformalar vasitəsilə müəssisələr qlobal bazarlara çıxış əldə edir, müştərilərlə birbaşa əlaqələr qurur və satış həcmini artırır. Eyni zamanda, bu platformalar

vasitəsilə müştərilərin tələblərinə tez cavab vermək və bazar dəyişikliklərinə uyğunlaşmaq mümkün olur.

**İnnovativ həllərin tətbiqi**

İxracyönümlü istehsalatın inkişafında innovativ həllər mühüm rol oynayır. Şirkətlər qlobal bazarlarda rəqabət üstünlüyü əldə etmək üçün məhsul və xidmətlərini yeniləyir və yeni texnologiyalardan istifadə edirlər [4].

a) *Tədqiqat və inkişaf (R&D).* İnnovativ məhsul və texnologiyaların inkişaf etdirilməsi üçün şirkətlər tədqiqat və inkişaf sahəsinə böyük investisiyalar qoyurlar. R&D fəaliyyəti yeni məhsul dizaynı, texnoloji yeniliklər və istehsalat proseslərinin təkmilləşdirilməsi üçün əsas rol oynayır. İnnovativ R&D strategiyaları şirkətlərin qlobal bazarlarda fərqlənməsinə və müştəri tələblərinə uyğunlaşmasına imkan yaradır.

b) *Ekoloji cəhətdən təmiz məhsullar və dayanıqlı istehsal*. Ətraf mühitin qorunması və dayanıqlı inkişaf qlobal bazarlarda getdikcə daha çox əhəmiyyət kəsb edir. Şirkətlər ekoloji cəhətdən təmiz məhsullar istehsal edərək və dayanıqlı istehsalat proseslərinə üstünlük verərək müştəri marağını qazanır. Bərpa olunan enerji mənbələrindən istifadə və tullantıların azaldılması qlobal bazarlarda daha dayanıqlı strategiyalar hazırlamağa kömək edir [6].

c) *Qlobal təchizat zənciri və logistika*. Təchizat zəncirinin optimallaşdırılması ixracyönümlü istehsalın səmərəliliyini artırmaq üçün vacibdir. Blokçeyn texnologiyaları bu sahədə şəffaflığı təmin etmək və logistika proseslərini izləmək üçün geniş tətbiq olunur. Eyni zamanda, rəqəmsal platformalar vasitəsilə müştəri sifarişlərinin idarə edilməsi və məhsulun qlobal bazarlara daha tez çatdırılması mümkün olur.

**Dayanıqlı inkişaf və sosial məsuliyyət**

Müasir dövrdə texnoloji yeniliklər və innovativ həllər yalnız iqtisadi fayda gətirməklə kifayətlənmir, eyni zamanda sosial məsuliyyət və ətraf mühitin qorunması məsələlərini də əhatə edir. İxracyönümlü istehsalatda dayanıqlı inkişaf prinsiplərinə uyğun fəaliyyət göstərən şirkətlər qlobal bazarlarda daha çox uğur qazanır. Bu yanaşma istehsal proseslərində resurslardan səmərəli istifadəni təşviq edir və ətraf mühitə təsirləri minimuma endirir [5]. İxracyönümlü istehsalda innovativ həllər, qlobal bazarlara çıxışı olan şirkətlərin rəqabət üstünlüyünü artırmaq və məhsullarını daha səmərəli şəkildə ixrac etmək üçün tətbiq olunan texnoloji və təşkilati yenilikləri əhatə edir. Bu həllər, istehsal proseslərini optimallaşdırmaq, məhsulun keyfiyyətini artırmaq və müştəri tələblərinə çevik şəkildə cavab vermək kimi sahələrdə mühüm rol oynayır. İnnovativ həllər ixracı gücləndirir, bazar tələblərinə uyğunlaşmağı asanlaşdırır və qlobal bazarda davamlı rəqabət qabiliyyətini təmin edir.

İnnovativ həllər, həm məhsulun dizaynında, həm də istehsal proseslərində tətbiq edilir. Bu həllər bazarın tələblərinə daha çevik reaksiya verməyə və yeni bazarlara çıxışı genişləndirməyə kömək edir.

**Modul istehsal sistemləri**

Modul istehsal sistemləri, istehsal xətlərinin asanlıqla yenidən qurulmasına və fərqli məhsulların istehsalına tez bir zamanda keçməyə imkan verir. Bu, dəyişən bazar şərtlərinə uyğun olaraq istehsalın çevikliyini artırır və fərdiləşdirilmiş məhsulların ixracını təşviq edir.

**Yaşıl texnologiyalar və dayanıqlı istehsal**

Ətraf mühitə zərərin azaldılması və enerji səmərəliliyinin artırılması ixrac üçün getdikcə daha əhəmiyyətli meyarlara çevrilir. Yaşıl texnologiyaların tətbiqi, məhsulların ekoloji cəhətdən təmiz olması ilə yanaşı, istehsal prosesinin daha davamlı və enerjiyə qənaət edən olmasını təmin edir. Xüsusilə Avropa bazarları kimi tələbləri yüksək olan bazarlara çıxış üçün bu həllər əvəzolunmazdır.

**Ağıllı fabriklər**

Ağıllı fabriklər, istehsal proseslərinin avtomatik idarə olunduğu və məlumatların real vaxt rejimində analiz edildiyi müasir istehsal müəssisələridir. Bu müəssisələrdə texnologiyaların bir-biri ilə inteqrasiya olunması, məhsulun keyfiyyətinə nəzarəti və istehsalın səmərəliliyini artırır. İxracyönümlü istehsalçılar üçün ağıllı fabriklər rəqabət üstünlüyü təmin edir, çünki bu müəssisələr daha aşağı xərclə daha yüksək keyfiyyətli məhsullar istehsal etməyə imkan verir.

**Texnoloji yeniliklərin tətbiqi və çağırışlar**

Texnologiyaların və innovasiyaların ixracyönümlü istehsalda geniş tətbiqi mühüm üstünlüklər təqdim etsə də, bu proseslər müəyyən çətinliklər də doğurur:

a) *Yüksək investisiya tələbləri*. Texnoloji yeniliklərin tətbiqi əhəmiyyətli maliyyə resursları tələb edir. Xüsusilə kiçik və orta müəssisələr üçün bu investisiyalar böyük yük ola bilər. Belə müəssisələr texnoloji yenilikləri tətbiq edərkən dövlət dəstəyi və subsidiyalardan istifadə etmək üçün xüsusi proqramlar tələb edə bilərlər.

b) *İxtisaslı kadrların çatışmazlığı*. Yeni texnologiyalarla işləmək üçün xüsusi bilik və bacarıqlara malik kadrların olması vacibdir. Bir çox ölkədə bu cür ixtisaslı işçi qüvvəsinin çatışmazlığı texnoloji yeniliklərin geniş tətbiqini ləngidə bilər. İxracyönümlü müəssisələr üçün texnologiya sahəsində kadr hazırlığına daha çox diqqət ayrılmalıdır.

c) Beynəlxalq standartlara uyğunluq. İxrac üçün nəzərdə tutulan məhsulların beynəlxalq standartlara uyğun olması tələb olunur. Texnoloji yeniliklərin tətbiqi bu standartlara uyğunluğu təmin edə bilsə də, bəzən fərqli ölkələrin tələblərinə uyğunlaşmaq çətinlik yarada bilər. Müəssisələr həm yerli, həm də beynəlxalq sertifikatlaşma proseslərini nəzərə alaraq texnoloji yenilikləri tətbiq etməlidirlər.

**İxracyönümlü istehsalda innovativ həllərin üstünlükləri**

- Məhsuldarlığın artması: Yeni texnologiyalar və avtomatlaşdırılmış proseslər istehsalatda xərclərin azaldılmasına və məhsuldarlığın artmasına kömək edir;
- Keyfiyyətin yüksəldilməsi: Verilənlər analizi və AI sistemləri məhsulun keyfiyyətini artıraraq ixrac edilən məhsulların rəqabət qabiliyyətini artırır;
- Xərclərin azaldılması: Resursların daha səmərəli istifadəsi, logistika və enerji idarəetməsində optimallaşdırma vasitəsilə əməliyyat xərcləri azaldılır;

- Bazara çıxış sürətinin artırılması: 3D çap və sürətli prototipləşdirmə kimi texnologiyalar məhsulların qlobal bazarlara daha tez təqdim olunmasını təmin edir.

**Nəticə**

İxracyönümlü istehsalat müasir qlobal iqtisadiyyatın aparıcı modellərindən biri olaraq, ölkələrin iqtisadi inkişafını təmin etmək, xarici bazarlarda rəqabət üstünlüyü qazanmaq və texnoloji tərəqqini sürətləndirmək baxımından strateji əhəmiyyət daşıyır. Bu model, qlobal ticarət axınlarının və iqtisadi sabitliyin təməl prinsiplərindən biridir və ölkələrə xarici valyuta axını təmin etməklə yanaşı, daxili istehsalın keyfiyyətini və məhsuldarlığını artırmaq imkanı verir. Texnoloji yeniliklər və innovativ həllər ixracyönümlü istehsalın əsas hərəkətverici qüvvəsi kimi çıxış edir. Sənaye 4.0, avtomatlaşdırma, süni intellekt, 3D çap kimi qabaqcıl texnologiyalar istehsalat proseslərini radikal şəkildə dəyişdirərək onları daha çevik, səmərəli və resursları daha effektiv istifadə edən hala gətirir. Bu texnologiyaların tətbiqi istehsalatda məhsul keyfiyyətinin artırılmasına və istehsal həcmlərinin böyüdülməsinə kömək edir, beləliklə, şirkətlərə qlobal bazarlarda daha rəqabətədavamlı olmaq imkanı verir. Rəqəmsal idarəetmə və təchizat zəncirlərinin optimallaşdırılması vasitəsilə məhsulun qlobal bazarlara daha sürətli və effektiv çatdırılması təmin edilir ki, bu da müştəri məmnunluğunu və bazar payını artırır. Eyni zamanda, innovativ həllər yalnız texnoloji tərəqqi ilə məhdudlaşmır, həm də dayanıqlı inkişaf və sosial məsuliyyət sahələrini əhatə edir. Qlobal istehlakçılar və bazarlar ekoloji cəhətdən təmiz məhsullara və dayanıqlı istehsal proseslərinə böyük əhəmiyyət verir. Bu səbəbdən, ixracyönümlü istehsalatın uzunmüddətli uğuru üçün ekoloji standartlara uyğunluq və resursların daha səmərəli istifadəsi vacibdir. Şirkətlər öz istehsalat proseslərini dayanıqlı həllərlə uyğunlaşdıraraq yalnız iqtisadi üstünlük əldə etmir, həm də qlobal bazarlarda ekoloji məsuliyyətlərini nümayiş etdirərək etibar qazanırlar. Son olaraq, texnoloji yeniliklərə və innovativ həllərə qoyulan investisiyalar ixracyönümlü istehsalın gələcəyini müəyyən edən əsas amillərdir. Bu istiqamətdə davamlı araşdırma və inkişaf (R&D) fəaliyyətlərinin təşviqi, yeni texnologiyaların və metodların tətbiqi ölkələrin və şirkətlərin qlobal iqtisadiyyatda liderliyini möhkəmləndirəcək. Gələcəkdə daha çevik, dayanıqlı və texnoloji cəhətdən inkişaf etmiş istehsalat sistemlərinin qlobal bazarlarda üstünlük təşkil edəcəyi gözlənilir. Bu səbəbdən, texnoloji yeniliklər və innovativ həllərin ixracyönümlü istehsalatda geniş tətbiqi, həm milli iqtisadiyyatların güclənməsinə, həm də qlobal ticarət dinamikasının formalaşmasına mühüm töhfə verəcəkdir.

## ƏDƏBİYYAT

1. Baldwin, R. (2016). The Great Convergence: Information Technology and the New Globalization. Harvard University Press.
2. Brynjolfsson, E., & McAfee, A. (2014). The Second Machine Age: Work, Progress, and Prosperity in a Time of Brilliant Technologies. W.W. Norton & Company.
3. Göl, M., & Erdem, H. (2020). İxracyönümlü Sənaye Siyasətinin Rolu və Texnoloji Yeniliklər. İqtisadiyyat və İnkişaf Jurnalı, 35(3), 56-72.
4. OECD. (2021). Global Value Chains: Efficiency and Risks in the Context of Globalization. OECD Publishing.
5. Schwab, K. (2017). The Fourth Industrial Revolution. Crown Publishing Group.
6. UNCTAD. (2020). Technology and Innovation Report 2020: Harnessing Frontier Technologies for Sustainable Development. United Nations. https://unctad.org/en-/PublicationsLibrary/tir2020_en.pdf

# AUDİTİN İNKİŞAFINDA KOMPÜTER TEXNOLOGİYALARINDA İSTİFADƏ OLUNAN UNİVERSAL METODİKANIN ÜSTÜNLÜKLƏRİ

**Mehriban HƏSƏNOVA**
*mehriban_adau@mail.ru*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

***Xülasə***

*Beynəlxalq iqtisadi münasibətlərin genişlənməsi auditin keçirilməsinin vahid sisteminin işlənilib hazırlanmasını zəruri etmişdir ki, bu vəzifəni də Auditor Standartları üzrə Beynəlxalq Komitə öz üzərinə götürmüşdür. Adı çəkilən qurum tərəfindən işlənib hazırlanmış tələblər standartların iki tipini əhatə edir: auditin keçirilməsinin beynəlxalq standartları və bu standartların tərkibində müvafiq xidmətlərin göstərilməsi üzrə auditor standartları.Azərbaycan Respublikasında auditor xidmətinin təşkili və inkişafı istiqamətində aparılan məqsədyönlü işlər audit sahəsində müvafiq qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi ilə sıx bağlıdır. Azərbaycan Respublikasında auditor xidmətinin təşkili, tənzimlənməsi və inkişafı istiqamətində aparılan məqsədyönlü işlər audit sahəsində müvafiq qanunvericilik və normativ hüquqi bazasının yaradılması və təkmilləşdirilməsi ilə sıx bağlı olmuşdur. Həmin qanunvericilik və normativ hüquqi aktlara əsasən Azərbaycan Respublikasında audit fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsini Azərbaycan Respublikası Auditorlar Palatası icra edir. Mülkiyyət və təşkilati-hüquqi formadan asılı olmayaraq hüquqi şəxslərə, habelə, hüquqi şəxs yaratmadan audit fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə verilən lisenziyalar Azərbaycan Respublikası ərazisində audit fəaliyyəti ilə məşğul olmaq üçün rəsmi icazə sənədidir. Azərbaycanda auditin inkiafının əsas istiqamətlərindən biri ölkə auditor təşkilatları tərəfindən böyük beşliyin firmaları ilə real rəqabətin yaradılmasıdır. Bir sıra amillər bu prosesi qoruyur. Fikrimizcə, Azərbaycan auditor firmalarına şamil olunan amillər aşağıdakı kimi xarakterizə edilə bilər:*

- *tələbin xarakteri - Azərbaycan sifarişçisi təsadüfi hallarda böyük miqyaslı kömək barədə müraciət edir. Bir qayda olaraq onu kifayət qədər xırda məsələlər maraqlandırır;*
- *Azərbaycan firmaları kifayət qədər az texnologiyalıdır. Demək olar ki, onlardan heç birinin texniki xidmət göstərmək üçün dəqiqliklə hazırlanan tələbi olmur (bunsuz onların artımı çox çətindir);*
- *iş persional texnologiyalara əsasən görülür. Kustar istehsalda yaşamaq üçün ayrıca gətirilən hər bir işçi universal usta olmalı və özünün xüsusi texnologiyası ilə işləməlidir.*

***Açar sözlər:*** *beynəlxalq audit standartları, audit fəaliyyətinə dair ümumi müddəalar, audit yoxlama-ekspertiza işinin səmərəli təşkili, universal metodikanın üstünlükləri, mühasibat proqramlarının qurulmuş maliyyə-iqtisadi təhlil bloku*

Azərbaycan Respublikası Auditorlar Palatasının hazırladığı milli audit standartlarını da beynəlxalq audit standartlarına uyğun olaraq təsnifləşdirmək mümkündür. Say baxımından milli audit standartları beynəlxalq audit standartlarından azdır. Onlar prinsipcə beynəlxalq audit standartlarına uyğunlaşdırılmışdır. Ona görə də beynəlxalq audit standartlarının məzmununa görə verilən təsnifat milli audit standartlarına şamil edilə

bilər. Audit standartları hazırlanan zaman aşağıdakı bir sıra vacib və prinsipal məsələlər öz əksini tapmalıdır:

- audit fəaliyyətinə dair ümumi müddəalar və bu müddəalarda audit xidmətinin bir iqtisadi kateqoriya kimi mahiyyəti, məzmunu və tədqiq edilmə forması açılmalıdır;

- audit yoxlama-ekspertiza işinin səmərəli təşkili üçün auditin təşkili prinsipləri və onun spesifik xüsusiyyətləri;

- audit yoxlama-ekspertiza işlərinin yüksək səviyyədə keçirilməsi üçün yoxlama-ekspertiza metodologiyası və onun aparılma texnikası;

- audit yoxlama-ekspertiza nəticələrinin sənədləşdirilməsi və bu sənədləşdirmədə təsərrüfat faktlarının dəlil və sübutla təsdiq olunma qaydaları;

- audit xidmətini icra edən hüquqi və fiziki şəxslərin fəaliyyətinin tənzimlənməsi;

- audit fəaliyyətində resurslardan səmərəli istifadə olunması və qiymətləndirmə, ehtiyatların aşkar edilib istehsala cəlb olunmasında auditlə maliyyə təhlilinin metodoloji prinsipləri;

- təsərrüfat - maliyyə fəaliyyətinin yaxşılaşdırılması və audit yoxlama-ekspertiza nəticələrinin tətbiqi prinsiplərini əks etdirən müvafiq qaydalar;

- audit yoxlama-ekspertizasında təsərrüfat-maliyyə fəaliyyətinin kompleks qiymətləndirilməsi və proqnoz maliyyə məlumatlarının hazırlanması qaydaları.

Auditor xidməti icraçısının növünə görə audit daxili və kənar auditə təsnif olunur.

- Daxili audit mühasibat uçotunun yoxlanması, qiymətləndirilməsi lə hesabat təqdim edilmə-üçün təsərrüfat subyektinin müdiriyyətinin yaratdığı daxili nəzarət sisteminin ayrılmaz və vacib elementidir. Daxili audit başlıca olaraq müəssisə daxilində mal-material ehtiyatlarının itkisinin qarşısını almaq və bu məqsədlə lazımi tədbirlər görülməsi üçün zəruridir.

- Kənar audit müəssisəsinin rəhbərliyinin onun fəaliyyəti və gələcək planları haqqında təqdim etdikləri hesabata kənar obyektiv baxışı təmin edən müstəqil nəzarətdir. Müəssisənin fəaliyyətinin nəticələri və onların qanunvericiliyə uyğunluğuna dair informasiyanın kənar audit vasitəsilə müstəqil təsdiqi dövlət orqanları üçün iqtisadiyyat və vergiqoyma sahəsində qərarların qəbul olunmasında müəyyən əhəmiyyət kəsi edir.

Azərbaycanda auditin inkiafının əsas istiqamətlərindən biri ölkə auditor təşkilatları tərəfindən böyük beşliyin firmaları ilə real rəqabətin yaradılmasıdır. Bir sıra amillər bu prosesi qoruyur. Fikrimizcə, Azərbaycan auditor firmalarına şamil olunan amillər aşağıdakı kimi xarakterizə edilə bilər:

- tələbin xarakteri - Azərbaycan sifarişçisi təsadüfi hallarda böyük miqyaslı kömək barədə müraciət edir. Bir qayda olaraq onu kifayət qədər xırda məsələlər maraqlandırır;

- Azərbaycan firmaları kifayət qədər az texnologiyalıdır. Demək olar ki, onlardan heç birinin texniki xidmət göstərmək üçün dəqiqliklə hazırlanan tələbi olmur (bunsuz onların artımı çox çətindir);

- iş persional texnologiyalara əsasən görülür.Kustar istehsalda yaşamaq üçün ayrıca gətirilən hər bir işçi universal usta olmalı və özünün xüsusi texnologiyası ilə işləməlidir;

- persional-texnologiyanm xarakterik cəhəti onun özgəninkiləşdirilməməsidir. Bu texnologiyanı ancaq usta köməkçi rolunda bilavasitə əlaqədə (kontaktda) olmaqla mənimsəmək mümkündür;

- auditor - məsləhət fəaliyyəti standartlarının müxtəlifliyi, qüvvədə olan standartların

auditor fəaliyyətində tətbiqi praktikası hələ də konkret şəxsiyyətlərlə sıx bağlıdır [1] [Hacıyev, F.Ş. Bakı: 2016].

Auditin müasir texnologiyasının hazırlanmasının perspektiv istiqamətlərindən biri yoxlanılan iqtisadi subyektin məlumatlarının kompüterdə işlənilməsidir. Mühasibat uçotunun aparılmasında, hesabatların hazırlanmasında kompüter texnologiyalardan geniş miqyasda istifadə, auditorun elektron şəkildə alınan informasiya ilə işləməsinə imkan verən universal metodikanın olması auditin effektivliyinin yüksəldilməsinə imkan verir, onun aparılmasında vaxta qənaəti təmin edir.

Belə metodika auditin nəzarət funksiyasını təmin edir, əməliyyatların hesablanması alqoritmlərini operativ testləşdirməyə imkan verir. Bəs mühasibat proqramlarının qurulmuş maliyyə-iqtisadi təhlil blokunu: mövcudluğunu nəzərə alsaq məsləhət görülən müvafiq funksiyalar qismən həyata keçirtmək mümkündür. Bütövlükdə auditə belə yanaşma MKİ şəraitində çox səmərəlidir, bununla belə onun tədbiqi müəyyən mürəkkəbliklərlə bağlıdır (xüsusilə də kiçik auditor firmaları üçün):

- yuxarıda qeyd olunduğu kimi, ixtisaslaşdırılmış proqram təminat bazarında şübhəsiz liderlərin olmasına baxmayaraq, istifadə olunan proqram məhsullarının miqdarı xeyli böyükdür. Hətta, böyük bir proqram sənədləri kitabxanası yaratmaq mümkün olsa belə, "qeyri-standart" proqram ilə qarşılaşmaq riski mövcuddur. Bundan əlavə, bir çox təşkilatlar xüsusi işlətmələr bazasında uçotu avtomatlaşdırır ki, bunlar da bazarın digər iştirakçıları tərəfindən kommersiya istifadəsi üçün əl çatmazdır;

- bir çox proqram sənədlərin qurulması üzrə ümumi ideyaların olmasına baxmayaraq, onlarla işləmə qaydalarının texnikası fərqlənir. Belə proqramlarla iş üsullarını mənimsəmək üçün firmanın auditorları çox zəhmət çəkməli olur.

Fikrimizcə "Parus", "Best" və digər geniş yayılmış proqramlara münasibətdə standartların tətbiqi qaydalarına dair məsləhəti optimal qəbul etmək olar. Bu halda istifadə olunan proqram təminatından asılı olmayaraq kompüter texnologiyalarından istifadəyə imkan verən universal metodikanın hazırlanması çox vacibdir və məqsədəuyğundur [2] [Bayramov, İ., Rəhimov, V. Bakı: 2015, 409 s].

Bu metodikalanın şübhəsiz üstünlükləri aşağıdakılardır:

- auditin ən vacib funksiyası - nəzarət funksiyası həyata keçirilir. Belə ki, maliyyə-iqtisadi göstəricilərin hesablanması üçün bütün hesablar üzrə qalıqlar və dövriyyələr məlum olduğundan, məsləhətverici funksiyarı da həyata keçirmək olar;

- təcrübədə auditin avtomatlaşdırılması ixtisaslaşdırılmış çoxsayda proqramlardan istifadənin effektliyini yüksəldir;

- metodika universaldır və mühasibat uçotunun fayllarının standart formalarını saxlayan bütün proqram məhsullarına tətbiq oluna bilər.

Mühasibat uçotunun avtomatlaşdırılması proqramı müəyyən tələbləri təmin etməlidir:

- mühasibat uçotunun ikitərəfli qeyd üsulunda aparılmasını;
- analitik və sintetik uçot məlumatları arasında qarşılıqlı əlaqəni;
- bütün təsərrüfat əməliyyatlarının ilkin sənədlər əsasında avtomatlaşdırılmış üsulla başdan-başa əks etdirilməsini;
- keçirilən əməliyyatların gerçəkliyinə, həm də proqramda saxlanılan informasiyaların tamlığına nəzarəti;

- müxtəlif sintetik və analitik uçot registirlərinin avtomatlaşdırılmış üsullu formalaşdırılmasını və nəşrə verilməsini.

Proqram təminatından istifadə uçot işçilərinin əməyinin effektliliyini bir neçə dəfə artırmağa, bununla da avtomatlaşdırılmış uçot şəraitində audit prosedurlarından istifadə etməklə auditor yoxlamalarının xeyli sürətləndirilməsinə imkan yaranır. Bununla belə kompüter texnikasından istifadə bir sıra spesifik problemlər yaradır ki, bunları da auditor yoxlamalarının aparılması proseslərində nəzərə almaq lazımdır. Bu hal MKİ metodlarından istifadə edən kiçik və orta müəssisələrə daha çox xasdır. Bu problemlərin çoxu uçot məlumatlarının formalaşmasının, zəruri olan hesabatların formalaşması və proqram təminatı ilə bağlıdır.

Hal-hazırda Azərbaycanda kompüter uçotundan istifadə olunan təşkilatlarda auditor fəaliyyəti "Məlumatların kompüterlərdə işlənilməsi şəraitində audit və kompüterlərdən istifadə etməklə auditin aparılması","Riskin qiymətləndirilməsi və daxili nəzarət","Kompüter və informasiya sistemləri şəraitində uçotun xarakteristikası" Qaydaları (standartları) ilə tənzimlənir. Bununla belə, qaydalarda (standartlarda) şərh olunan bir çox məqamları auditor təşkilatlarında hazırlanan firmadaxili standartlar səviyyəsində daha da dəqiqləşdirmək tələb olunur. Auditi planlaşdırarkən və onunla əlaqədar riskləri qiymətləndirərkən auditor hansı proqram təminatı ilə işləməli olacağını bilməlidir. Təşkilatda bazarda az məşhur istehsalçı tərəfindən hazırlanan proqram məhsullarından istifadə hallarında inam dərəcəsi xeyli aşağı olur, Proqram sənədlərini müstəqil surətdə hazırlayan müəssisənin işçiləri, bir qayda olaraq, mühasibat uçotu proqramlarının hazırlanmasında kifayət qədər təcrübəli olmur və çox ehtimal belə hazırlamalarda, səhvlər mövcud olur. Bunlardan bəzilərini istifadəçilər uzun bir dövr ərzində müşahidə etmir. Bu qəbildən olan proqram növləri ilə qarşılaşan auditor, bir qayda olaraq, orta MKÎ ilə əlaqədar yüksək risk haqqında nəticə çıxartmalıdır [3] [Кочинев, Ю.Ю. 2015 год, с 45-65].

Auditin müasir texnologiyasının hazırlanmasının perspektiv istiqamətlərindən biri yoxlanılan iqtisadi subyektin məlumatlarının kompüterdə işlənilməsidir. Mühasibat uçotunun aparılmasında, hesabatların hazırlanmasında kompüter texnologiyalardan geniş miqyasda istifadə, auditorun elektron şəkildə alman informasiya ilə işləməsinə imkan verən universal metodikanın olması auditin effektivliyinin yüksəldilməsinə imkan verir, onun aparılmasında vaxta qənaəti təmin edir.

## ƏDƏBİYYAT

1. Bayramov, İ., Rəhimov, V. Auditin aparılması və sənədləşdirilməsinə dair
2. Hacıyev, F.Ş. Audit iqtisadi təhlil. Dərs vəsaiti. Bakı: 2016. Təlimat. Bakı: 2015, 409 s.
3. Кочинев, Ю.Ю. Аудит., (2015 год), с.45-65

## SUMMARY

**Mehriban Hasanova**

## COMPUTER TECHNOLOGIES USED IN THE DEVELOPMENT OF AUDIT ADVANTAGES OF UNIVERSAL METHODOLOGY

The expansion of international economic relations necessitated the development of a unified system of auditing, which was undertaken by the International Committee on Auditor Standards. The requirements developed by the mentioned institution include two types of standards: international standards for conducting audits and auditor standards for the provision of relevant services within these standards. Targeted work in the direction of the organization and development of auditor services in the Republic of Azerbaijan is the creation of an appropriate legislative framework in the field of audit and is closely related to improvement. Purposeful work carried out in the direction of organization, regulation and development of the Audit Service in the Republic of Azerbaijan was closely related to the creation and improvement of the relevant legislative and regulatory legal framework in the field of audit. According to these legislative and normative legal acts, the Chamber of Auditors of the Republic of Azerbaijan executes the issuance of a special permit (license) for audit activities in the Republic of Azerbaijan. Licenses issued to legal entities, regardless of ownership and organizational and legal form, as well as physical persons engaged in audit activities without establishing a legal entity, are an official permit document for conducting audit activities in the territory of the Republic of Azerbaijan.

One of the main directions of audit development in Azerbaijan is the creation of real competition by the audit organizations of the country with the firms of the Big Five. A number of factors protect this process. In our opinion, the factors applicable to the audit firms of Azerbaijan can be characterized as follows: - the nature of the request-the Azerbaijani customer applies for large-scale assistance in random cases. As a rule, he is interested in rather minor issues;

- Azerbaijani firms have quite a few technologies. Almost none of them has a demand that is precisely designed to provide maintenance (without this, their growth is very difficult);
- the work is done according to persional technologies. To live in artisanal production, each employee brought separately must be a universal master and work with his own special technology.

***Key words:*** *international audit standards, general provisions on audit activity, efficient organization of audit verification-expertise work, advantages of universal methodology, established financial and economic analysis block of accounting programs*

## РЕЗЮМЕ

**Мехрибан Гасанова**

# КОМПЬЮТЕРНЫЕ ТЕХНОЛОГИИ, ИСПОЛЬЗУЕМЫЕ ПРИ РАЗРАБОТКЕ АУДИТА ПРЕИМУЩЕСТВА УНИВЕРСАЛЬНОЙ МЕТОДОЛОГИИ

Расширение международных экономических связей вызвало необходимость разработки единой системы аудита, что и было предпринято Международным комитетом по аудиторским стандартам. Требования, разработанные указанным учреждением, включают два типа стандартов: международные стандарты проведения аудитов и стандарты аудиторов по предоставлению соответствующих услуг в рамках этих стандартов. В рамках этих стандартов ведется целенаправленная работа по организации и развитию аудиторских услуг в Азербайджанской Республике. создание соответствующей законодательной базы в сфере аудита и тесно связано с ее совершенствованием. Целенаправленная работа по организации, регулированию и развитию аудиторской службы в Азербайджанской Республике была тесно связана с созданием и совершенствованием соответствующей законодательной и нормативной правовой базы в области аудита. Согласно этим законодательным и нормативным правовым актам, выдача специального согласия (лицензии) на аудиторскую деятельность в Азербайджанской Республике осуществляется палатой аудиторов Азербайджанской Республики. Лицензии, выдаваемые юридическим лицам независимо от форм собственности и организационно-правовой формы, а также физическим лицам, осуществляющим аудиторскую деятельность без образования юридического лица, являются официальным разрешительным документом на осуществление аудиторской деятельности на территории Азербайджанской Республики. Одним из основных направлений развития аудита в Азербайджане является создание аудиторскими организациями страны реальной конкуренции с фирмами большой пятерки. Ряд факторов поддерживает этот процесс. По нашему мнению, факторы, относящиеся к азербайджанским аудиторским фирмам, можно охарактеризовать следующим образом: - характер спроса-азербайджанский заказчик в случайных случаях обращается за крупномасштабной помощью. Как правило, его интересуют довольно мелкие вопросы; Азербайджанские фирмы достаточно низкотехнологичны. Практически ни один из них не имеет четко разработанного требования к техническому обслуживанию (без этого их выращивание очень затруднено); - работа выполняется на основе персональных технологий. Для выживания в кустарном производстве каждый рабочий, приводимый отдельно, должен быть универсальным мастером и работать по своей специальной технологии.

***Ключевые слова:*** *международные стандарты аудита, общие положения об аудиторской деятельности, эффективная организация аудиторско-проверочно-экспертной работы, преимущества универсальной методологии, блок финансово-экономического анализа бухгалтерских программ*

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACIN MAKROİQTİSADİ İNKİŞAFA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Lətif ZEYNALLI**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*latif.zeynalli@gmail.com*

**Əbdülrəhim DADAŞOV**
*Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi*
*ebdulrehimdadasov@gmail.com*

***Xülasə***

*İstər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan iqtisadiyyatlarda artımın mühüm amillərindən biri ixracdır. İnkişaf etməkdə olan ölkələrin ixracı əsasən neft və qaz kimi təbii sərvətlərdən, inkişaf etmiş ölkələrin ixracı isə əsasən kapitaltutumlu məhsullardan və yaradıcı məhsullardan ibarətdir. İxrac əsaslı artım fərziyyəsinin siyasət istiqaməti qeyri-təbii resurs əsaslı məhsullardır. İxracın artırılması inkişafın əsas mühərriki hesab olunur, çünki ixrac daha səmərəli institusional struktur və istehsal üsullarından istifadə etməklə müsbət xarici təsirlər yaradır. Bundan əlavə, ixrac miqyasda qənaət yaradır, valyuta maneələrini yumşaldır və xarici bazarları daha əlçatan edir. Üstəlik, uzunmüddətli perspektivdə ixrac yüksək texniki innovasiyalar və xaricdən dinamik öyrənmə vasitəsilə iqtisadi artım tempinə təkan verə biləcək xüsusi bir potensiala malikdir. İxrac əsaslı artım fərziyyəsi qeyri-təbii ehtiyatların istehsalı ilə təkan verən inkişaf etməkdə olan ölkələrdə uzunmüddətli artımı dəstəkləyən çərçivədir. Beynəlxalq təcrübədə aparılan araşdırma nəticələrinə görə, qeyri-neft ixracının makroiqtisadi inkişafa təsiri geniş müstəvidə qiymətləndirilir. İlk növbədə, qeyri-neft ixracı iqtisadi diversifikasiyanı təşviq edərək, ölkənin neft sektorundan asılılığını azaldır və digər sektorlarda inkişaf imkanlarını artırır. Həmçinin ölkədə ixracın artması valyuta daxilolmalarını artıraraq ticarət balansını müsbət yöndə təsir edir və iqtisadi sabitliyi gücləndirir. Eyni zamanda, yerli istehsalın artırılması məhsuldarlığı yüksəldir və bu, iqtisadi fəaliyyətin genişlənməsi ilə nəticələnir. İxracatçı müəssisələr innovasiya və texnoloji inkişafı təşviq edərək, daha yüksək məhsuldarlıq və müasir istehsal prosesləri ilə ÜDM-nin artımına səbəb olur. Bu amillər birgə olaraq ölkənin iqtisadi inkişafını dəstəkləyir və daha dayanıqlı iqtisadi mühit yaradır. Məqalədə Azərbaycanda qeyri-neft sektoru üzrə ixracın makroiqtisadi inkişafa təsiri ekonometrik qiymətləndirilməsi aparılmışdır. Qiymətləndirmə nəticəsində alınmış modelin nəticələrinə əsasən, qeyri-neft sektoru üzrə ixracın ÜDM-dəki artım payı müəyyən edilmişdir.*

***Açar sözlər:*** *qeyri-neft, ixrac, makroiqtisadi, ÜDM, sənaye*

## Giriş

Azərbaycanın XX əsrin əvvəllərindən bəri neft ixracatçısı olaraq, bu dövrdən etibarən neft sektoru üzrə dünya bazarında əhəmiyyətli oyunçu olmuşdur. Lakin neft resurslarının tükənməsi və iqtisadi asılılığın yarada biləcəyi potensial risklər, Holland sindromunun təsirləri nəzərə alınaraq, qeyri-neft sektoru ixracının inkişafı son dövrlər xüsusilə prioritet bir məsələyə çevrilmişdir. Belə ki, qeyri-neft sektorunun inkişafı və ixracatda payının

yüksəlməsi iqtisadiyyatın diversifikasiyasını təmin edərək neft qiymətlərinin dalğalanmalarından asılılığı azaldır, davamlı inkişafın əsasını qoyur.

Azərbaycan Respublikası öz müstəqilliyini qazandıqdan dərhal sonra mövcud olan ən vacib iqtisadi problemlərdən biri də ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası, beynəlxalq ticarət münasibətlərinin qurulması, ixrac potensialının yüksəldilməsi və bu potensiallardan səmərəli istifadə məsələləri idi. Müstəqilliyimizin ilk zamanlarında respublikamızın iqtisadi durumu əsasən idxaldan asılı vəziyyətdə olmuş, iqtisadiyyatın vaxtı ilə "lokomotiv" sahələrində belə dərin iqtisadi böhranlarla müşahidə olunmuşdur. Lakin hal-hazırda iqtisadi vəziyyət tamamilə fərqlidir, milli iqtisadiyyatımızda sürətli və davamlı inkişafı göz önündədir, iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiyası yönündə müsbət nəticələr əldə edilmişdir. Bütün dünya ölkələrinin təcrübələri göstərir ki, müasir dövrdə heç bir ölkə beynəlxalq ticarət sistemindən təcrid olunaraq, ixrac-idxal əməliyyatları qurulmadan milli iqtisadiyyatın inkişafını təmin etmək iqtidarında ola bilməz. Milli iqtisadiyyatların inkişaf etdirilməsi bilavasitə ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakından, dünya bazarına çıxış imkanlarından səmərəli istifadə edilməsindən, iqtisadiyyatın real sektorlarının ixrac potensialından səmərəli istifadədən birbaşa asılıdır.

Qlobal bazarlarda son dövrlər baş verən proseslər, inflasiya səviyyəsinin və tempinin yüksəlməsi fonunda mövcud resursların səfərbər edilməsinə imkan verən yeni tənzimləmə mexanizmlərinin yaradılması məsələləri ölkəmizin qeyr-neft sektorunun inkişafı üzrə siyasət strategiyasında diqqət mərkəzindədir. Ölkə Prezidentinin 2016-cı ildə qəbul etdiyi "Azərbaycan Respublikasının  milli iqtisadiyyat perspektivi üzrə  Strateji Yol Xəritəsi"ndə qeyri-neft sektorunun diversifikasiyalı inkişafına hədəflənmiş bir sıra tədbirlər icra edilmişdir [AR Prezidenti Fərmanı, 2016, s.53].  Strateji Yol Xəritələrinin icrasının davamı və izlənməsinin davamı olaraq, Bu siyasətin davamı olaraq, 2021-ci ildə ölkə başçısı tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Mili Prioritetlər" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" adlı sənədlərdə də əhalinin sosial-iqtisadi rifahının artırılması istiqamətlərindən biri kimi dayanıqlı inkişaf konsepti baxımından yanaşmalar seçilmiş, rəqabətqabiliyyətli iqtisadiyyatın təmin edilməsi çərçivəsində qeyri-neft ixracının artırılması hesabına davamlı və yüksək iqtisadi artımın təmin olunması kimi çağırışlar və hədəflərdən bəhs edilmiş, eləcə də qeyri-neft/qaz əmtəə və xidmətlər ixracının şaxələnməsi və həcminin artırılmasının dəstəklənməsi əsas fəaliyyət istiqamətlərdən biri kimi müəyyən edilmişdir [AR Prezidenti Sərəncamı, 2021, s.2], [AR Prezidenti Sərəncamı, 2022, s.13].

Qeyd edilənlərlə yanaşı, Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafına nail olmaq məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da əsas məqsədlərdən biri kimi məhz "İxracyönlü sənayenin inkişafı" seçilmişdir [AR Prezidenti Sərəncamı, 2022, s.9]. Burada ixracyönlü sənaye sahəsində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığın artması, istehsal olunmuş sənaye məhsullarının keyfiyyətinin yüksəlməsi və yeni iş yerlərinin yaradılması nəzərdə tutulmuşdur. Bu baxımdan qeyri-neft sektorunun ixracının qiymətləndirilməsi və onun ÜDM-yə təsirinin araşdırılması mühüm əhəmiyyət kəsb edir.

**Makroiqtisadi inkişafda qeyri-neft ixracının təkanverici rolu barədə nəzəri-konseptual yanaşmalar**

Xarici ticarət istənilən uğurlu müasir iqtisadiyyat üçün həyati əhəmiyyət kəsb edir. Ticarətin artması, digər məsələlərlə yanaşı, rəqabət (məhsuldarlığı və innovasiyanı artırır) firmalara daha böyük bazarlara çıxış əldə etməkdən miqyaslı iqtisadiyyatlardan yararlanmağa imkan verir və bacarıqların, biliklərin və innovasiyaların yayılmasını təşviq edir. Neft ixrac edən ölkələrdə qeyri-neft ixracı iqtisadi diversifikasiyanı artıraraq makroiqtisadi inkişafa müsbət təsir edir. Bu, iş yerlərinin yaradılması, ticarət balansının yaxşılaşdırılması və neftin qiymət dalğalanmalarına həssaslığın azalması ilə iqtisadi sabitliyə və daha dayanıqlı böyüməyə şərait yaradır [Information Policy Team, 2015, p.3].

Neft ixrac edən ölkələr qeyri-neft ixracını artırmaq üçün iqtisadi diversifikasiya proqramları, sərfəli investisiya təşviqləri, ixrac maliyyələşdirilməsi və dəstəklənməsi mexanizmləri, sərbəst ticarət və ixrac emalı zonalarının yaradılması, infrastrukturun inkişafı və beynəlxalq ticarət razılaşmalarına üstünlük verirlər. Bu siyasətlər iqtisadiyyatın diversifikasiyasını və neftdən asılılığın azaldılmasını hədəfləyir.

Ticarət gəlirləri və bununla da iqtisadiyyatda tələbin ümumi səviyyəsini artırır. Bunun bütün iqtisadi sistemdə multiplikativ təsirləri var, nəticədə qənaət, investisiya və məşğulluq səviyyəsi daha yüksək olur. Kapitalın toplanması və məşğulluğun artması inkişaf prosesində mərkəzi rol oynayır və ticarət makroiqtisadi inkişafa təkan verir.

İxrac artımının ümumi iqtisadi artıma səbəb ola biləcəyi və ya təkan verə biləcəyi amillər asanlıqla təsvir edilə bilər. Bununla belə, ixracın iqtisadi artıma müstəqil töhfəsinin ölçülməsi və ya ehtimal edilməsi, xüsusən də iki dəyişənin bir-biri ilə əlaqəli olduğu birbaşa və dolayı yollar nəzərə alınmaqla, o qədər də müəyyən hesab edilmir. Bu sahədə aparılmış bəzi tədqiqatlarda ölkələrarası tədqiqatların bəlkə də ən sadəsi 41 inkişaf etməkdə olan ölkə nümunəsi üçün adambaşına düşən ÜDM-in artımı ilə ixracın artımı arasındakı sadə korrelyasiyanı hesablayan Michaelin tədqiqatıdır. Müvafiq dəyişənlər 1950-73-cü illər üçün orta qiymətlər kimi müəyyən edilmiş və iki dəyişən arasında müsbət assosiasiya məlumatlarda aydın şəkildə aşkar edilmişdir. Ölkələrarası tədqiqatlardan əldə edilən digər nəticə ondan ibarətdir ki, ixrac və iqtisadi artım arasında əhəmiyyətli müsbət assosiasiya ölkənin inkişaf dərəcəsinə və ya ixracının əmtəə tərkibinə invariant deyildir [Khan, Goldstein, 1982, p.24].

Eyni zamanda Səudiyyə Ərəbistanı ilə bağlı aparılmış araşdırmada buradakı qeyri-neft ixracının, xüsusən turizmin iqtisadi inkişafa nəzəri və empirik təsirləri tədqiq olunub. Bunu edərkən müəllif 1980-2017-ci illəri əhatə edən dəyişənlərin rüblük məlumatlarından istifadə edərək ARDL modeli ilə bağlı testindən, Yohansen kointeqrasiyasından və Qriqori-Hansen kointeqrasiya üsullarından istifadə edilmişdir. Tədqiqatın nəticələri onu göstərir ki, qeyri-neft ixracı və turizm iqtisadi artıma müsbət təsir göstərir və qeyri-neft ixracının artırılması davamlı inkişaf üçün yaxşı strategiya və neft məhsullarına alternativ ola bilər [Waheed, Sarwar, Dignah, 2020, p.57].

Xüsusilə "Holland sindromu" konsepsiyasına görə, "təbii ehtiyatların ixracından əldə edilən gəlirlərin artması real məzənnənin bahalaşmasına səbəb olur ki, bu da iqtisadiyyatın qeyri-resurs ticarəti sektorunun rəqabət qabiliyyətini zəiflədir, eyni zamanda idxala tələbi

artırır". Bərpa olunan təbii sərvətlərlə paralel olaraq bərpa olunmayan ehtiyatların ixracının inkişaf etdirilməsi yollarının axtarılmasına ehtiyac var [Aljebrin, 2017, p.390].

İqtisadi artıma qeyri-neft sektorunun təsiri ilə bağlı elmi ədəbiyyatlarda bir çox empirik tədqiqatlar mövcuddur. Məsələn, Onodugo və başqaları öz tədqiqat işlərində Nigeriyada qeyri-neft ixracının 1981-2012-ci illər arasında iqtisadi artıma təsirini araşdırmışdır. Onlar endogen inkişaf modelindən istifadə edərək Artırılmış İstehsal Funksiyasını tətbiq edərək nəticələrin Nigeriyada iqtisadi artım səviyyəsinin dəyişmə sürətinə təsir edən qeyri-neft ixracının çox zəif və sonsuz təsiri olduğunu göstərmişdir [Onodugo, I., Anowor, 2013, p.123]. Bununla yanaşı, qeyri-neft ixracına təsirini araşdıran digər tədqiqatçılardan Aboqan və başqaları öz tədqiqatında 1980-2010-cu illər üçün zaman seriyası məlumatlarından istifadə edərək Nigeriyada iqtisadi artıma təsir öyrənmişdir. Tədqiqat nəticələrinə görə, qeyri-neft ixracının iqtisadi artıma mülayim təsirini göstərir. Qeyri-neft ixracındakı bir faiz artım Nigeriyada hasilatı 26 faiz artırdığı məlum olub [Abogan, A., Baruwa, 2014, p.11]. Monir və digər həmmüəllif tədqiqatçılar isə 1973-2007-ci illər üçün İranda iqtisadi artımına neft və qeyri-neft ixracının təsirlərinə dair tədqiqat nəticələrində real qeyri-neft ixracının iqtisadi artıma müsbət təsir etdiyini öz əsərlərində aşkar etmişdir [Monir, E., Hamed, 2012, p.17].

## Azərbaycanda qeyri neft-qaz sektorunun mövcud vəziyyəti və ixrac dinamikası

Qeyri neft-qaz sektorunun gələcək inkişaf dövründə qeyri-neft sənayesinin şaxələndirilməsi və daha da inkişaf etdirilməsi, aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, rəqəmsal ticarətin inkişafı və xidmət fəaliyyət növlərinin genişləndirilməsi, turizm sahəsinin bərpasının sürətləndirilməsi əsas prioritet istiqamətlər kimi müəyyən olunmuşdur. Son 20 il ərzində qeyri-neft məhsullarının ixracı təqribən 11 dəfə artaraq 3.3 milyard ABŞ dollarına çatmışdır [Dövlət Gömrük Komitəsi, 2024]. Bu sektorda yaradılan ÜDM-nin həcmi isə həmin illər ərzində 13 dəfə artmış və 68 milyard manat olmuşdur. Belə ki, ölkədə 2023-cü ildə əvvəlki ilə nisbətən qeyri neft-qaz sektorunda ÜDM 3.7% artaraq 77.7 milyard manat olmuşdur [Dövlət Statistika Komitəsi, 2023]. Qeyri neft-qaz sektorunda yaradılan ÜDM-nin 8.8%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 8.1%-i qeyri-neft-qaz sənayesi, 9.8%-i tikinti, 15.9%-i ticarət və nəqliyyat vasitələrinin təmiri, 9.8%-i nəqliyyat və anbar təsərrüfatı, 3.5%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2.8%-i informasiya və rabitə sahələrinin, 29.4%-i digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər isə 12.0% təşkil etmişdir [Dövlət Statistika Komitəsi, 2024]. Həmçinin qeyd edək ki, 2023-cü ildə ölkədə istehsal olunan qeyri-neft emalı sənayesi məhsullarının həcmi də illər üzrə artmış və 4.5 milyard manat olmuşdur [İqtisadiyyat Nazirliyi, 2023].

Aparılmış hesablamalar həmin sektorun cəmi 6.6%-nin sənayeyönümlü istehsaldan formalaşdığını, 4.8%-nin isə ixracata yönəldiyini deməyə əsas verir. Qeyri-neft-qaz sektorunda sənayenin optimal payı ölkənin iqtisadi strategiyasından və inkişaf planlarından asılı olaraq dəyişə bilər. Tədqiqatlara əsasən, inkişaf etmiş iqtisadiyyatlarda sənayenin qeyri-neft-qaz sektoru daxilindəki payı 25-30% arasında olur. Ümumilikdə bu göstəricilərin ölkəmizdə 10 faiz həddini aşa bilməməsi hazırki inkişaf məqsədləri üçün ciddi çağırış kimi qiymətləndirilə bilər.




**Qrafik 1.** *Azərbaycanda qeyri-neft sektorunun sənaye və ixracyönümlülüyünü əks etdirən göstəricilər*

**Mənbə:** *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunub*

**Qeyri-neft sektoru üzrə ixracın makroiqtisadi inkişafa təsirinin qiymətləndirilməsi**

Məlum olduğu kimi, qeyri-neft sektoru ölkə iqtisadiyyatında strateji əhəmiyyəti ilə fərqlənir. Bu baxımdan, qeyri-neft ixracı da ölkə iqtisadiyyatı üçün, habelə ölkənin makroiqtisadi inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq, aparılan tədqiqatda qeyri-neft sektoru üzrə ixracın makroiqtisadi inkişafa təsirinin qiymətləndirilməsi üçün sərbəst və asılı dəyişənlərin müəyyən olunması olduqca vacibdir. Belə ki, bu qiymətləndirmə zamanı sərbəst dəyişən kimi qeyri-neft sektoru üzrə ixrac (EXP) və asılı dəyişən kimi qeyri-neft sektoru üzrə ÜDM (GDP) qəbul olunmuşdur. Qiymətləndirmə aparılması üçün 20 ili əhatə edən statistik məlumatlar Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsindən əldə olunmuşdur.

| İllər | Qeyri-neft sektorunda ixrac (milyard manatla) | Qeyri-neft sektorunda ÜDM (milyard manatla) | Qeyri-neft ixracının müvafiq ÜDM-yə nisbəti, % | Qeyri-neft sektorunda ÜDM-in cəmi ÜDM-də payı, % |
|---|---|---|---|---|
| 2011 | 1.1 | 23.2 | 6.0 | 44.5 |
| 2012 | 1.2 | 26.9 | 5.6 | 49.1 |
| 2013 | 1.3 | 30.5 | 5.6 | 52.5 |
| 2014 | 1.5 | 33.2 | 5.7 | 56.3 |
| 2015 | 2.5 | 34.1 | 4.7 | 62.8 |
| 2016 | 2.5 | 36.0 | 3.9 | 59.5 |
| 2017 | 2.6 | 40.3 | 3.7 | 57.3 |
| 2018 | 2.9 | 41.7 | 4.1 | 52.0 |
| 2019 | 3.2 | 44.5 | 4.3 | 54.3 |
| 2020 | 3.2 | 45.3 | 4.2 | 62.4 |
| 2021 | 4.6 | 51.1 | 5.3 | 54.9 |
| 2022 | 5.1 | 61.5 | 4.9 | 45.9 |
| 2023 | 5.6 | 68.3 | 4.8 | 55.6 |
| | | | | |

**Cədvəl 1.** *Qeyri-neft sektorunda ixrac və ÜDM ilə bağlı statistik məlumatlar (milyard manatla)*

**Mənbə:** *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunub*

Cədvəl (1)-in məlumatları üzrə 2011-2023-cü illər üzrə Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə ÜDM ilə qeyri-neft sektoru üzrə ixrac arasındakı asılılığın reqressiya analizinin aparılması üçün iqtisadi statistik proqram paketindən istifadə edərək Cədvəl (2)-nin məlumatlarına əsasən aşağıdakı nəticəni alarıq.

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: GDP | | | | |
| Method: Least Squares | | | | |
| Date: 09/12/24 Time: 17:01 | | | | |
| Sample: 2011 2023 | | | | |
| Included observations: 13 | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| EX | 8.648798 | 0.556503 | 15.54133 | 0.0000 |
| C | 16.45529 | 1.781586 | 9.236316 | 0.0000 |
| R-squared | 0.956441 | Mean dependent var | | 41.25385 |
| Adjusted R-squared | 0.952481 | S.D. dependent var | | 13.10691 |
| S.E. of regression | 2.857143 | Akaike info criterion | | 5.078159 |
| Sum squared resid | 89.79591 | Schwarz criterion | | 5.165075 |
| Log likelihood | -31.00804 | Hannan-Quinn criter. | | 5.060294 |
| F-statistic | 241.5328 | Durbin-Watson stat | | 1.949657 |
| Prob(F-statistic) | 0.000000 | | | |

**Cədvəl 2.** *Qeyri-neft sektorunda ixrac və ÜDM arasındakı əlaqə*

**Mənbə:** *EViews 12 statistik proqram paketindən çıxarış məlumatları əsasında tərtib olunub*

Eviews tətbiqi proqram paketinə əsasən, alınmış nəticə reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

**GDP= 8.648798*EX + 16.45529** (1)

Göründüyü kimi EViews 12 tətbiqi proqram paketinə əsasən alınmış cədvəl (2)-ə uyğun olaraq (1) modeli əhəmiyyətlidir. Bu əhəmiyyətlilik ilk növbədə x asılı dəyişənin C sərbəst dəyişənin əmsallarının standart səhvlərinin əmsalların qiymətindən kiçik olması ilə izah edilir. Modelə daxil olan sərbəst dəyişənlə asılı dəyişən arasındakı korrelyasiya asılılığını təhlil edərək, belə nəticəyə gəlmək olar ki, tədqiq olunan dövr üzrə qeyri-neft sektoru üzrə ixracın bir vahid artması, qeyri-neft sektoru üzrə ÜDM-in 8.6 vahid artmasına səbəb olmuşdur.

Çoxluq korrelyasiya əmsalının R=0.95 olması qeyri-neft sektoru üzrə ixracın ilə qeyri-neft sektoru üzrə ÜDM arasında əlaqənin yüksək olmasını göstərir. Determinasiya əmsalının yüksək olması reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və nəticə amilinin daha çox hissəsinin (95.6%) modelə daxil olan amillər hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir.

Qurulmuş modelin reqresiya tənliyi ilə Eviews tətbiqi proqram paketinə əsasən modeldən alınan (Fitted) və faktiki (Actual) qiymətlərinin, habelə onların arasındakı qalıqların (Residual) dinamikası aşağıdakı qrafikdə verilmişdir. Şəkildən də göründüyü kimi, qeyri-neft sektorunda ÜDM-un faktiki qiymətləri ilə modeldən alınan qiymətləri xeyli yaxındır.




**Qrafik 2.** *Modelin reqresiya tənliyi ilə alınan (Fitted) və faktiki (Actual) qiymətlərinin və onlar arasındakı qalıqların (Residual) dinamikası*

**Mənbə:** *EViews 12 statistik proqram paketindən çıxarış məlumatları əsasında tərtib olunub*

Qurulmuş modelin statistik əhəmiyyətliliyini və adekvatlığını yoxlayaq. Alınmış reqressiya tənliyinin F-Fişer kriteriyasının köməkliyi ilə bütünlükdə statistik əhəmiyyətliliyini yoxlamaq olar. Bu məqsədlə F-Fişer kriteriyası, $Fcədvəl$ (a; m; n − m −1) qiyməti ilə müqayisə edilməlidir. İqtisadi proqram paketinin nəticəsini əks etdirən cədvəl məlumatlarına əsasən,

**F- statistic (Fişer kriteriyası) = 241.5328** (2)

Excel-də F cədvəl qiymətini $Fcədvəl$ (a; m; n – m – 1) = F.Dist.Rt düsturunun köməkliyi ilə təyin etsək, $Fcədvəl$ (a; m; n – m – 1) = F.Dist.Rt (0,05; 1; 11) = 0.82716 F- Fişer kriteriyası, $Fcədvəl$ (a; m; n − m − 1) qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası > $Fcədvəl$ (241.5328>0.82716). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşıyır. Bu isə qurulmuş modelin adekvatlığı deməkdir.

Beləliklə, y = $\alpha 0$ + $\alpha 1x$ = 8.648798*EX + 16.45529 cüt korrelyasiyanın xətti reqresiya tənliyi üçün sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində asılı dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalını hesablasaq aşağıdakı nəticəni alarıq.

**$E$ex = ($\alpha$ × $X$□)/$Y$□= (8.648798× 2.9)/ 41.3= 0.61** (3)

Alınmış hesabat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda qeyri-neft sektoru üzrə ixracın 1% artması qeyri-neft sektoru üzrə ÜDM-in 0,61 % artması ilə nəticələnmişdir. Bu nəticə qeyri-neft ixracının iqtisadi artıma mühüm təsirini göstərir və sektorun davamlı inkişafını stimullaşdırmaq üçün önəmli potensiala malik olduğunu vurğulayır.

**Nəticə**

- Beynəlxalq təcrübə göstərir ki, Səudiyyə Ərəbistanı, Nigeriya və İran kimi ölkələrdə qeyri-neft ixracının artırılması iqtisadi diversifikasiyanı gücləndirir, iş yerlərinin yaradılmasına, ticarət balansının yaxşılaşmasına və neft qiymətlərinin dalğalanmalarına qarşı dayanıqlığın təmin edilməsinə əhəmiyyətli töhfə verir;
- Azərbaycanın qeyri-neft sektorunun inkişafı ölkənin iqtisadi diversifikasiyası və neftdən asılılığın azalması baxımından əhəmiyyətli rol oynayır;

• Qeyri-neft sektorunun sənaye payı aşağı qalsa da, iqtisadi strategiya bu sahənin inkişafını sürətləndirmək məqsədilə önəmli addımlar atır;

• Davamlı iqtisadi inkişaf və rəqabətqabiliyyətli ixrac siyasəti ölkənin makroiqtisadi inkişafına töhfə verəcək əsas vasitələrdən biri kimi vurğulanır;

• EViews 12 statistik proqram paketi ilə aparılan təhlil nəticəsində müəyyən olunmuşdur ki, qeyri-neft sektoru üzrə ixracın 1% artması qeyri-neft sektoru üzrə ÜDM-in 0,61 % artmasına səbəb olmuşdur.

## ƏDƏBİYYAT

1. Abogan, O.P., Akinola, E.B. & Baruwa, O.I. (2014). Non-oil export and Economic growth in Nigeria (1980-2011), Journal of Research in Economics and International Finance, 3 (1), p.1-11
2. Aljebrin, M.A. (2017). Impact of Non-Oil Export on Non-Oil Economic Growth in Saudi Arabia. International Journal of Economics and Financial Issues, №7, p.389-397
3. AR Prezidenti Fərmanı. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Bakı: 2016. Qanun, 111 s.
4. AR Prezidenti Sərəncamı. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı: 2021. Qanun, 6 s.
5. AR Prezidenti Sərəncamı. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı: 2022. Qanun, 22 s.
6. AR Prezidenti Sərəncamı. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı: 2023. Qanun, 30 s.
7. Dövlət Gömrük Komitəsi, Xarici ticarətin vəziyyəti haqqında arayış, elektron informasiya bazası, Bakı: 2024. URL: https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda
8. Dövlət Statistika Komitəsi, Azərbaycanın xarici ticarəti, elektron informasiya bazası, Bakı: 2023. URL: https://www.stat.gov.az/source/trade/
9. Dövlət Statistika Komitəsi, Milli hesablar sistemi və tədiyə balansı, elektron informasiya bazası, Bakı: 2024. URL: https://www.stat.gov.az/source/system_nat_accounts/
10. Igwe, Anthony & Chukwudi Emmanuel, Edeh & Ukpere, Wilfred. (2015). Impact of non-oil sector on economic growth: A managerial economic perspective. Problems and Perspectives in Management. 13. p.170-182
11. Information Policy Team. (2015). Department for Business Innovation & Skills, BIS performance indicators, Openness to trade: exports plus imports as a share of GDP, ranked against major competitors, The National Archives, Kew, London TW9 4DU, 2015, 7 pages.
12. İqtisadiyyat Nazirliyi, Qeyri-neft sektorunun inkişafı, ticarəti, elektron informasiya bazası, Bakı: 2023. URL: https://economy.gov.az/az/page/iqtisadiyyat/esas-iqtisadi-gostericiler/2023-1/qeyri-neft-sektorunun-inkisafi-2023-cu-il
13. Khan, M.S., Goldstein, M. (1982). Non-oil developing countries' export growth and real income growth, IMF elibrary, p 22-35

14. Monir, S.M., Ebrahim, N. & Hamed, E.M. (2012). Survey of Oil and Non-oil Export Effects on Economic Growth in Iran, Greener Journal of Economics and Accountancy, 1 (1), pp. 8-18
15. Onodugo, V.A., Ikpe, M. & Anowor, O.F. (2013). Non-oil export and Economic Growth in Nigeria: a time series Econometric model, International Journal of Business Management & Research, 3 (2), pp. 115-124
16. Sachs, J.D. & Warner, A.M (1997). Natural Resource Abundance and Economic Growth. Center for International Development and Harvard Institute for International Development., Harward University, 50 p.
17. Waheed, R., Sarwar, S., Dignah A., (2020). The role of non-oil exports, tourism and renewable energy to achieve sustainable economic growth: What we learn from the experience of Saudi Arabia, Structural Change and Economic Dynamics, ISSN 0954-349X, Volume 55, 2020, p.49-58

## SUMMARY

In both developed and developing economies, export growth is a significant factor. For developing countries, exports predominantly consist of natural resources such as oil and gas, whereas developed countries' exports primarily include capital-intensive and creative products. The policy focus of the export-led growth hypothesis is on non-resource-based products. Increasing exports is considered a key driver of economic growth because it generates positive externalities through more efficient institutional structures and production methods. Additionally, exports create economies of scale, alleviate currency barriers, and make foreign markets more accessible. Moreover, from a long-term perspective, exports have the potential to drive economic growth rates through high technological innovations and dynamic learning from abroad. The export-led growth hypothesis provides a framework that supports long-term growth in developing countries by stimulating production based on non-resource-based inputs.

According to international research findings, the macroeconomic impact of non-oil exports is evaluated on a broad scale. Primarily, non-oil exports promote economic diversification, reducing dependence on the oil sector and enhancing development opportunities in other sectors. Increased exports also improve currency inflows, positively affect the trade balance, and strengthen economic stability. Concurrently, the increase in domestic production raises productivity, leading to broader economic activity. Export-oriented enterprises stimulate innovation and technological advancement, resulting in higher productivity and modern production processes that contribute to GDP growth. Collectively, these factors support the country's economic development and create a more resilient economic environment. The paper presents an econometric assessment of the impact of non-oil sector exports on macroeconomic development in Azerbaijan. According to the results of the model obtained as a result of the assessment, the growth share of exports in the GDP of the non-oil sector was determined.

***Key words:*** *non-oil, export, macroeconomics, GDP, industry*

## РЕЗЮМЕ

Как в развитых, так и в развивающихся экономиках экспорт является одним из ключевых факторов роста. Для развивающихся стран экспорт в основном состоит из природных ресурсов, таких как нефть и газ, в то время как экспорт развитых стран в значительной степени включает капиталоемкие и инновационные продукты. Политический акцент гипотезы экспортно-ориентированного роста сосредоточен на продуктах, не основанных на природных ресурсах. Увеличение экспорта рассматривается как важный двигатель экономического роста, так как он создает положительные внешние эффекты за счет более эффективных институциональных структур и методов производства. Кроме того, экспорт способствует экономии на масштабах, смягчает валютные барьеры и делает иностранные рынки более доступными. Более того, в долгосрочной перспективе экспорт обладает потенциалом стимулировать темпы экономического роста за счет высоких технологических инноваций и динамического обучения за границей. Гипотеза экспортно-ориентированного роста представляет собой основу, поддерживающую долгосрочный рост в развивающихся странах за счет стимуляции производства на основе не природных ресурсов. Согласно международным исследованиям, макроэкономическое воздействие экспорта, не связанного с нефтью, оценивается на широком уровне. Прежде всего, экспорт, не связанный с нефтью, способствует экономической диверсификации, снижая зависимость от нефтяного сектора и создавая возможности для развития в других секторах. Рост экспорта также увеличивает валютные поступления, положительно сказывается на торговом балансе и укрепляет экономическую стабильность. Одновременно увеличение внутреннего производства повышает производительность, что приводит к расширению экономической активности. Экспортно-ориентированные предприятия способствуют инновациям и технологическому развитию, что ведет к более высокой производительности и современным методам производства, способствующим росту ВВП. Все эти факторы вместе поддерживают экономическое развитие страны и создают более устойчивую экономическую среду. В статье проведена эконометрическая оценка влияния экспорта в ненефтяном секторе на макроэкономическое развитие в Азербайджане. По результатам модели, полученным в результате оценки, определена доля роста экспорта в ВВП ненефтяного сектора.

***Ключевые слова:*** *ненефтяной, экспорт, макроэкономика, ВВП, промышленность*

# BÖYÜK İPƏK YOLU NAXÇIVANDA LOGİSTİKA İMKANLARI

**Zahid QƏNBƏROV**
*zahidislam@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

***Xülasə***

*Yeni İpək yolunun potensial imkanlarından istifadə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının təmin olunmasında vacib yerə sahibdir. Əldə olunacaq qaynaqlar muxtar respublikanın bütün sahələrində daxili sabitliyi qorunmasına və təkmilləşdirilməsinə istifadə olunacaqdır. Xarici ticarətin səmərəliliyinin yüksəldilməsində əsas göstəricilərdən biri də onun intellektuallaşmasıdır. Məhz rəqabətqabiliyyətli məhsul istehsalı birbaşa son texnologiyaların və logistik yeniliklərinin tətbiqi ilə mümkündür. Yüksək logistika imkanlarının bütün dünyada olduğu kimi Naxçıvanın da ticari dəyərinin artırılmasına böyük təsirləri vardır. Əhatə dairəsi geniş olan Yeni İpək yolunun potensialından istifadə sahəsində infrastruktur layihələrinin həyata keçirilməsi marşurutlar üzərində yerləşən dövlətlərin fayda əldə etməsi üçün əsas şərtdir. Müasir İpək yolunun iştirakçı subyektləri ilə ölkəyə birbaşa investisiyaların cəlb edilməsi sosial-iqtisadi məsələlərin həllində əhəmiyyətlidir. Azad sahibkarlığa uyğun şəraitin mövud olması onların təşviq edilməsinə zəmin yaradır. Qeyd edilənlər bir daha göstərir ki, Naxçıvanda bir sıra nəqliyyat infrastrukturunun və logistika imkanlarının yaxşılaşdırıcaq proyektlərin formalaşdırılmasında zəmin yaranmışdır. Məhsulların idxalının və ixracının diversifikasiyası, coğrafi məhdudluqların aradan qaldırılması, ticarətdə ixracın idxalı ciddi dərəcədə üstələməsi imkanı Yeni İpək yolunun ölkəyə gətirəcəyi faydalardan bir neçəsidir.*

***Açar sözlər:*** *Böyük İpək Yolu, Qars-Naxçıvan dəmiryolu xətti, Zəngəzur dəhlizi, iqtisadiyyat, nəqliyyat, logistika*

## Giriş

Tarix boyu mövcud olmuş bütün dövlətlər bir-biri ilə daim iqtisadi-ticari əlaqələr formalaşdırmaq və inkişaf etdirmək üçün bütün növ üsullardan istifadə etmişlərdir. Məhsulların beynəlxalq miqyasda daşınması ölkələrin gəlirlərinin təmin edilməsi və daxili tələbatlarını ödəmək baxımından inkaredilməz rola malikdir. Müasir dövrdə beynəlxalq ticarətin səmərəli formada təşkil edilməsi ticarət əlaqələrinin möhkəmliyi ilə birbaşa bağlıdır.

İqtisadiyyatların qloballaşması və liberallaşması ixtisaslaşmanın nə qədər əhəmiyyətli olduğunu göstərir. Xüsusilə açıq dünya bazarlarının günü gündən daha da artdığı dövrdə. Yeni dünyanın əsaslı dəyişikliklərə ehtiyac duyması ticarət münasibətlərində fərqliləşmənin planlanmasına səbəb olmuşdur. Ən yeni və böyük layihə olan Yeni İpək Yolunun təşkilinə olan maraq məhz bunun nəticəsində meydana gəlmişdir.

Azərbaycanın son illərdəki iqtisadi konyuktura dəyişiklikləri qarşısındakı uğurları dövlətin iqtisadi fəaliyyət planlarının daha da inkişaf etdirməsi ilə nəticələndi. Davamlı inkişafı təhlükə və risklərdən maksimum dərəcədə sığortalanmaq üçün dövlət yeni fikirlər

və mənbələr axtarışındadır. Bu mənbələrin ən əsası Yeni İpək Yolunun potensial imkanlarından istifadədir.

Sosial-iqtisadi problemlərin həllinin tapılması vacib olan və ən aktual bir digər məsələdir. Məhz buna görə Azərbaycan Respublikası üçün bu yeni proyekt vacib bir məsələdir və həmçinin yaranacaq bu yeni beynəlxalq reallığa üzvlük prosesini həm asanlaşdırmaq həm tam şəkildə yararlanmaq üçün müəyyən strateji yol xəritləri hazırlamışdır.

**Əsas hissə**

İnsanlar və toplumlar arasında ünsiyyət yollardan başlanır. Tarix boyu fərqli coğrafiyalardan keçən yollar müxtəlif xalqlar arasında münasibətlər yaratmışdır. Tarixin müxtəlif dönəmlərində baş verən işğallar qədim yolları müəyyən dərəcədə dağıtsa da, nəticədə yeni şəhər və inzibati mərkəzlər salınmış, yolların istiqaməti dəyişmişdi. Ancaq köhnə yollar zaman-zaman öz fəaliyyətini davam etdirmişdir. Belə yollardan biri də, bəşər tarixində ilk transkontinental ticarət və diplomatiya yolu kimi qiymətləndirilən “Böyük İpək Yolu” olmuşdur.

E.ə. II əsrdən etibarən Çindən qərb istiqamətində ticarət karvanlarının hərəkət etməsi xarici ticarət əlaqələrinin yaranmasına səbəb olmuş, Çin malları, xüsusilə də Çin ipəyi beynəlxalq bazarlara yol tapmışdır. Çindən ixrac olunan əsas əmtəə ipək olduğu üçün bu yol “İpək Yolu” adlandırılmağa başlanmışdır.

Böyük İpək Yolu sivilizasiyanın inkişafında çox mühüm rol oynamış, öz əhəmiyyətini müasir dövrümüzdə də getdikcə daha çox təsdiqləyən qədim dövrlərdə və orta əsrlərdə Çindən Ön və Orta Asiya ölkələrinə aparan əhəmiyyətli ticarət yoludur. Çünki tarixdə ilk diplomatiya və beynəlxalq ticarət yolu olan Böyük İpək Yolu yüzilliklər boyu Şərq və Qərb ölkələrinin mədəni, iqtisadi və ticarət əlaqələrinin inkişafına misilsiz töhfələr verib. Vaxtilə bu yolla Şərqdən Qərbə və əksinə hərəkət edən ticarət karvanları bütün regionda, o cümlədən Azərbaycanda elmin, sənətkarlığın, ticarətin, mədəniyyətin inkişafına mühüm təsir göstərib. Böyük İpək Yolu vasitəsilə müxtəlif ticarət malları ilə birlikdə elmi və ədəbi əsərlər də aparılıb, başqa ölkələrdə yayılıb. Bölgəyə gələn sənətkarlar Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaradıcılığından bu yolla xəbər tutub, öz yaradıcılıqlarında həmin abidələrin təsirindən bəhrələniblər.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il 7-8 sentyabrın tarixlərində Bakı şəhərində 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçısı, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilib. Bu konfransın yekununda Avropa İttifaqının TRASEKA proqramı əsasında “Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş” imzalanıb və Bakı Bəyannaməsi qəbul edilib.

Əsas çoxtərəfli sazişin müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınıb və 2001-ci il fevralın 21-də rəsmi açılışı olub. Beləliklə, Azərbaycan tarixi İpək Yolunun bərpa edilməsinə öz töhfəsini verməklə, əsas inkişaf trayektoriyasının müəyyənləşdirilməsində mühüm rol oynayıb.

Qeyd edilənlərdən əlavə olaraq, ölkəmizin Böyük İpək Yolunun bərpası üçün atdığı bir sıra başqa mühüm addımlar da vardır. Bunlardan biri də Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən "İpək Yolu İqtisadi Kəməri" layihəsinin iştirakçısı olmasıdır. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqi haqqında "Anlaşma Memorandumu" imzalanıb.

Şərqlə Qərb arasında mühüm əhəmiyyətə malik olan və qədim zamanlardan Azərbaycanın ticarət, sənətkarlıq və mədəniyyət mərkəzlərindən olan qədim Naxçıvan ərazisi Cənubi Qafqazı, Orta Asiyanı ölkələrini Yaxın Şərqin ticarət qovşaqları ilə əlaqələndirən ən əsas karvan yolları üzərində yerləşirdi. Naxçıvan hələ qədim dövrlərdən Yaxın Şərq və Avropa ölkələrinin həyatında çox mühüm iqtisadi, strateji və siyasi rol oynayırdı.

Transxəzər Şərq-Qərb Beynəlxalq Nəqliyyat Dəhlizi (bundan sonra – Orta Dəhliz) Çin Xalq Respublikasını Mərkəzi Asiya, Qafqaz, Türkiyə vasitəsilə Avropa İttifaqı ilə birləşdirən və Şimal marşrutuna (Çin-Qazaxıstan-Rusiya-Belarus-Avropa), eləcə də Süveyş Kanalı vasitəsilə dəniz yoluna alternativ olan nəqliyyat dəhlizidir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası ilə yaranmış yeni reallıq Orta Dəhlizin inkişaf perspektivlərini gündəmə gətirməklə, Zəngəzur dəhlizinin açılmasını zəruri etmiş və Naxçıvan Muxtar Respublikasının logistika və tranzit potensialını genişləndirmişdir. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri və tətbiq olunan güzəştlər, həmçinin Zəngəzur dəhlizi vasitəsilə bu ərazilərin Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat əlaqələrinin qurulması perspektivi analoji güzəştlərin muxtar respublikada da tətbiqinə imkanlar yaradır. Dəhliz açıldıqdan sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhalisi ilə Naxçıvan Muxtar Respublikasının əhalisi arasında qarşılıqlı ticarət və səfərlər üçün də imkanlar yaranacaqdır. Naxçıvan Muxtar Respublikasında iqtisadi aktivliyi artırmaq məqsədilə ərazi ticarət və ticarət qovşağı kimi inkişaf etdiriləcəkdir. Belə ki, üç ölkə ilə sərhəd zonasında yerləşməsi Naxçıvan Muxtar Respublikasına ticarət qovşağı, xüsusilə malların təkrar ixracı (paylaşdırılması) yeri və ya sərhədyanı bazar kimi istifadə üçün əlverişli şərait yaradır.

Qeyd edilənlərdən əlavə olaraq, Naxçıvan Muxtar Respublikasında logistikanın inkişaf etdirilməsi, o cümlədən ictimai nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması məqsədilə müvafiq layihələr gerçəkləşdiriləcəkdir. Zəngəzur dəhlizinin açılması burada dəmiryol infrastrukturunun yenilənməsini də zəruri edir. Bu səbəbdən dəmiryol infrastrukturu yenidən qurulacaq, təhlükəsiz, sürətli və dayanıqlı daşıma xidməti təmin ediləcəkdir. Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın sürətləndirilməsi və iqtisadi canlanmanın təşviqi üçün əlverişli biznes mühitinin formalaşdırılması bu sahədə prosedurların sadələşdirilməsi və asanlaşdırılması məqsədilə tədbirlərin icrası vasitəsilə həyata keçirilməkdədir. Burada azad iqtisadi zonanın yaradılması ticarət və logistika imkanlarını genişləndirməklə Naxçıvan Muxtar Respublikasının investisiya cəlbediciliyini artıracaq və iqtisadiyyatın inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu, avtomobil yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin tikintisi üçün infrastruktur yaradılır. Bu əsasda 2022-ci il martın 11-də "Azərbaycan Respublikası

Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" imzalanmışdır.

Nəqliyyat sahəsində davamlı inkişafın təmin olunması məqsədilə həyata keçirilən tədbirlərdən biri də, 2021-ci ilin iyun ayının 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentləri arasında 1921-ci il 13 oktyabr tarixli Qars müqaviləsinə sadiq olduqlarını bildirərək imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" oldu. Ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə davamlı inkişafını təmin edəcək olan bu Bəyannamədə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında dəhlizin açılması və bunun davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisi nəqliyyat-kommunikasiyalarının intensivləşməsinə töhfə kimi dəyərləndirilmişdir. Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə Zəngəzur dəhlizi vasitəsilə birləşdirəcək olan dəmir yolu mühüm əhəmiyyət kəsb edir. Bütün Türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizi həm də Asiyanı Avropa ilə birləşdirən dəhliz olacaq. Dəhlizin açılmasından sonra Türkiyə ilə quru məsafəsi 400 kilometr qısalacaqdır. Orta Dəhlizin yeni bir qolu olan Bakı-Naxçıvan-Qars dəmir yolu etibarlı ticarət marşrutu kimi regional əməkdaşlığın dərinləşməsinə və həyat şəraitinin yüksəlməsinə xidmət edəcəkdir. 2023-cü il sentyabrın 25-də Azərbaycan Respublikası və Türkiyə Respublikası dövlət başçılarının iştirakı ilə keçirilən görüş zamanı Qars–Naxçıvan yeni dəmir yolu xəttinin tikintisinə dair Niyyət Protokolu imzalanmışdır. Tikilməsi planlaşdırılan dəmir yolu xəttinin uzunluğu 224 kilometr olacaq və Türkiyə tərəfi onu 5 il ərzində istifadəyə verməyi planlaşdırır. Sözügedən layihə yüklərin Avropaya daşınması istiqamətində tarixi əhəmiyyətli layihə olacaqdır.

Bu strateji layihənin reallaşdırılmasından sonra Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə verəcək. Layihə nəinki bu regionun, bütövlükdə, dünyanın nəliyyat xəritəsini yenidən formalaşdıracaqdır.

"Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin məntiqi nəticəsi olaraq Qars-Naxçıvan dəmiryolu xəttinin reallaşması Naxçıvan Muxtar Respublikasına dəmiryolu vasitəsilə beynəlxalq logistika dəhlizlərinə birbaşa çıxış əldə edərək tranzit daşımaların mühüm mərkəzinə çevrilməsinə səbəb olacaqdır. Layihənin həyata keçirilməsi ilə Naxçıvan Muxtar Respublikası Londondan Şanxayadək açılmış olan Şərq-Qərb koridorunun bir nöqtəsinə çevriləcəkdir. Bu da muxtar respublikanın ixrac potensialının yüksəlməsinə, yeni yaradılan sənaye sahələri mallarının, kənd təsərrüfatı məhsullarının dünya bazarlarına çıxarılmasına imkan yaradır. "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin həyata keçirilməsi və məntiqi nəticəsi olaraq Qars-Naxçıvan dəmiryolu xəttinin çəkilməsi muxtar respublikada dəmiryolu nəqliyyatının canlanması, yeni iş yerlərinin açılması, işsizlik probleminin həll olunması, əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi, nəticə etibarilə maddi rifah səviyyəsinin yaxşılaşması ilə yanaşı, "Yoxsulluğun aradan qaldırılması" haqqında Dövlət Proqramına da öz bəhrəsini verəcəkdir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üzrə Dövlət Proqramı"nda Naxçıvan Muxtar Respublikasının mövcud sosial-iqtisadi vəziyyətinin GZİT təhlili edilmişdir:

| **Güclü tərəflər** | **Zəif tərəflər** |
|---|---|
| - təbii ehtiyatlar və xammal bazası;<br>- bərpa olunan enerji potensialı (günəş və külək enerjisi);<br>- sahibkarlığın inkişafına, ixracın stimullaşdırılmasına və əlverişli investisiya mühitinin yaradılmasına dövlət dəstəyi;<br>- beynəlxalq hava limanı;<br>- xarici ticarət üçün əlverişli iqtisadicoğrafi mövqe | - dövlət xidmətlərinə əlçatanlıq səviyyəsinin aşağı olması;<br>- əlverişli biznes mühitini formalaşdıran zəruri təşviqlərin azlığı;<br>- maliyyəyə çıxış imkanlarının məhdudluğu;<br>- regionun enerji təchizatı və kommunikasiya xətlərinin aşağı səviyyədə diversifikasiya olunması, elektrik xətlərinin istismar müddətinin başa çatması;<br>- kənd təsərrüfatı və digər sahələr üzrə infrastruktur və su təminatı sistemində çatışmazlıqlar<br>- ölkənin digər əraziləri ilə birbaşa quru nəqliyyat əlaqəsinin olmaması |
| **İmkanlar** | **Təhlükələr** |
| - mühüm enerji və nəqliyyat dəhlizlərinə yaxınlıq, xüsusilə, Zəngəzur dəhlizi vasitəsilə Orta Dəhlizlə logistik bağlantı;<br>- rəqabətqabiliyyətli turizm potensialı;<br>- ixracyönlü sənaye sahələrinin inkişafı perspektivləri;<br>- xarici investisiyaların cəlb olunması;<br>- xarici ticarətin inkişafı;<br>- dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqi;<br>- ölkədə mövcud xidmət mexanizmlərinin (dövlət, maliyyə və bank xidmətləri) tətbiqi;<br>- regionun enerji təchizatı və kommunikasiya xətlərinin dayanıqlığının artırılması | - büdcə transferləri payının yüksək olması;<br>- ixrac bazarlarının coğrafi diversifikasiyasının məhdud olması;<br>- istehsal olunan məhsulların beynəlxalq bazarlarda rəqabət üstünlüyünün itirilməsi təhlükəsi;<br>- qlobal iqlim dəyişikliyi təsirləri, xüsusilə əkinəyararlı torpaq sahələrinin səhralaşması və deqradasiyası;<br>- əhalinin digər regionlara və xarici ölkələrə miqrasiyası |

GZİT təhlil əsasında "Güclü tərəflər"in verdiyi üstünlük və "İmkanlar"ın yaratdığı fürsətlərdən bəhrələnərək "Zəif tərəflər" inkişaf etdiriləcək və "Təhlükələr"in mümkün neqativ təsirləri minimuma endirilməsiylə davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkə iqtisadiyyatına tam

inteqrasiyasınının təmin edilməsi mümkün ola bilər. Təhlildə də göründüyü kimi, Zəngəzur dəhlizi vasitəsilə Orta Dəhlizlə logistik bağlantı və mühüm enerji və nəqliyyat dəhlizlərinə yaxınlıq Naxçıvan Muxtar Respublikasının əsas imkanlarından hesab edilir və gələcəkdə bu imkanlardan istifadə etmək prioritet istiqamətlərdəndir.

Həmçinin quru əlaqələrinin bərpası ilə beynəlxalq miqyasda Asiya və Avropa arasındakı çoxtərəfli iqtisadi əlaqələrin inkişafında mövcud olan daha bir problem öz həllini tapacaqdır. Belə ki, sazişə qədər Azərbaycanla quru yolları bağlı olan Naxçıvan Muxtar Respublikası əhəmiyyətli regional və beynəlxalq logistika layihələrdən kənarda qalmışdı. Postblokada dövründə isə Naxçıvan, bu tranzit xətləri öz üzərinə çəkməklə, Xəzər dənizi və Aralıq dənizi arasında körpü rolunu oynayacaq, İpək yolu üzərindəki ölkələr üçün təhlükəsiz, ucuz və sürətli daşınmanı təmin edəcəkdir. Bundan başqa, Naxçıvan gələcəkdə Şimal-Cənub nəqliyyat dəhlizinə və layihəsi planlaşdırılan Qars-Naxçıvan dəmiryol xətlərinə inteqrasiya vasitəsilə beynəlxalq yüklərin Avropaya daşınmasında açar mövqeyində olacaqdır. Naxçıvanla nəqliyyat kommunikasiya sisteminin qurulması həmçinin məsafə və dolayısı ilə yüklərin çatdırılma sürəti baxımından böyük əhəmiyyət daşıyır. Gələcəkdə Naxçıvan ərazisindən keçəcək quru yolu xətləri Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin uzunluğundan 1,7 dəfə, təxminən 343 km az olmaqla daşınmaların xərcini və müddətini azaldacaq. Həmçinin Naxçıvan vasitəsilə Türkiyəyə avtomobillə gediş məsafəsi təxminən 343 km qısa olacağı üçün, hər iki ölkə arasında turistlərin ikitərəfli yerdəyişməsində Naxçıvan ərazisindən ölkəyə girişin geniş vüsət alacağı gözlənilir. Ölkəyə girişlərin Naxçıvan vasitəsilə həyata keçirilməsinin genişlənməsi isə dolaylı olaraq, Naxçıvanda turizmin inkişafına müsbət təsir göstərəcəkdir. Naxçıvanla quru əlaqələrinin təmini ilə Naxçıvan MR Azərbaycanın digər regionlarındakı nəqliyyat şəbəkəsinə qoşularaq, öz məhsullarını Azərbaycanın digər bölgələrinə, həmçinin Avropaya və Asiyaya daha rahat imkanlarla çıxara biləcək. Postblokada dövründə nəqliyyat-logistika sisteminin şaxələnməsi ilə Naxçıvan öz iqtisadi inkişafını daha da sürətləndirərək, idxal üçün çəkiləcək xərclərə qənaət edəcək, ixrac həcmini artıracaq, həmçinin böyük bazarlarda tanınmaqla iqtisadi rayona xaricdən investisiya cəlb edə biləcəkdir. Quru yolunun bərpası ilə layihəsi planlaşdırılan Qars-Naxçıvan dəmiryol xətlərinə qoşularaq beynəlxalq yüklərin Avropaya daşınmasında Azərbaycandan Türkiyəyə yükdaşımaları asanlaşacaq. Nəticədə, Azərbaycandan ixrac olunan məhsulların nəqliyyat xərcləri azalacaq və Naxçıvanın beynəlxalq logistika qovşağı olaraq Ağrı, Ərdahan, İğdır və Qars şəhərlərini əhatə edən Türkiyənin Şərqi Anadolu bölgəsi başda olmaqla bütün Türkiyə ilə ticarət əlaqələri daha da genişlənəcək.

## ƏDƏBİYYAT

1. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" Bakı şəhəri, 5 iyun 2023-cü il. № 3910.
2. Abbasov, C. Çin-Azərbaycan münasibətləri yeni müstəvidə. Bakı: 2015.
3. İsayev, E. Böyük İpək Yolu və Naxçıvan. Naxçıvan: 2012.
4. https://president.az/az/articles/view/52122.
5. İsakov, H.V. Azərbaycan Respublikasının "Böyük İpək yolu"nun bərpasında iştirakı: 1991- 2005-ci illər. Bakı: 2011, Şərq-Qərb
6. Naxçıvan beynəlxalq ticarət və logistika mərkəzi kimi mövzusunda "Respublika Elmi Konfransı"nın materialları. Naxçıvan: 2023

## SUMMARY

Using the potential opportunities of the new silk road has an important place in ensuring the socio-economic development of the Nakhchivan Autonomous Republic. The obtained resources will be used to protect and improve internal stability in all areas of the autonomous republic. One of the main indicators in increasing the efficiency of foreign trade is its intellectualization. Competitive product production is possible directly through the application of the latest technological innovations. High-tech products have a great impact on increasing the commercial value of Nakhchivan, as well as all over the world. The implementation of infrastructure projects in the field of using the potential of the New Silk Road, which has a wide scope, is the main condition for the countries located on the routes to benefit. Attracting direct investments to the country with the participants of the modern Silk Road is important in solving socio-economic issues. The existence of conditions suitable for free entrepreneurship lays the foundation for their promotion. The mentioned once again shows that the foundation has been created for the formation of projects that will improve a number of transport infrastructure and logistics opportunities in Nakhchivan. Diversification of import and export of products, elimination of geographical limitations, possibility of export exceeding import in trade are some of the benefits that the New Silk Road will bring to the country.
***Keywords:*** *Great Silk Road, Kars-Nakhchivan railway line, Zangezur coridor, economy, transport, logistics*

## РЕЗЮМЕ

Использование потенциальных возможностей нового Шелкового пути занимает важное место в обеспечении социально-экономического развития Нахчыванской Автономной Республики. Полученные ресурсы будут использованы для защиты и улучшения внутренней стабильности во всех регионах автономной республики. Одним из основных показателей повышения эффективности внешней торговли является ее интеллектуализация. Производство конкурентоспособной продукции возможно непосредственно за счет применения новейших технологических инноваций. Высокотехнологичная продукция оказывает большое влияние на повышение коммерческой ценности Нахчывана, как и во всем мире. Реализация инфраструктурных проектов в сфере использования потенциала Нового Шелкового пути, имеющего широкий масштаб, является главным условием получения выгод странами, расположенными на маршрутах. Привлечение прямых инвестиций в страну участников современного Шелкового пути имеет важное значение в решении социально-экономических вопросов. Наличие условий, подходящих для свободного предпринимательства, закладывает основу для его развития. Вышеупомянутое еще раз показывает, что создана основа для формирования проектов, которые улучшат ряд возможностей транспортной инфраструктуры и логистики в Нахчыване. Диверсификация импорта и экспорта продукции, устранение географических ограничений, возможность экспорта, превышающего импорт в торговле, – вот лишь некоторые из преимуществ, которые Новый Шелковый путь принесет стране.

***Ключевые слова:*** *Великий Шелковый Путь, железнодорожная линия Карс-Нахчыван, Зангезурский коридор, экономика, транспорт, логистика*

# İXRACYÖNÜMLÜ SƏNAYENİN İNKİŞAFI: PERSPEKTİVLƏR VƏ ÇAĞIRIŞLAR

**Nuriyyə İBRAHİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*ORCİD 0009-0006-2786-8899*

***Xülasə***

*Naxçıvanda ixracyönümlü sənaye, bölgənin iqtisadi inkişafını sürətləndirmək və xarici bazarlara daha yaxşı inteqrasiya olmaq məqsədini daşıyır. Bu sahənin inkişafı, müvafiq dövlət dəstəyi, infrastrukturun gücləndirilməsi və yerli istehsalçıların beynəlxalq standartlara uyğun məhsul istehsal etməsi ilə mümkün olur. Naxçıvan, kənd təsərrüfatı məhsullarının istehsalı ilə yanaşı, müxtəlif sənaye sahələrində də ixracat potensialını artırır. Yeni sənaye sahələrinin yaradılması və mövcud istehsal müəssisələrinin müasirləşdirilməsi, ixracatın artırılması üçün əhəmiyyətlidir. Naxçıvanın ixrac potensialını artırmaq üçün xarici bazarların tələblərinə uyğun məhsul istehsalına diqqət yetirilir. Bunun üçün bazar tədqiqatları və analizlər aparılır. İnvesterlərə güzəştlər, subsidiyalar və digər maliyyə dəstəyi təqdim olunur, ixracyönümlü sektora dair xüsusi inkişaf proqramları hazırlanaraq tətbiq edilir. Yerli istehsalçılar üçün müasir istehsal metodları, marketinq strategiyaları və ixracat təcrübəsi üzrə təlimlər təşkil edilir. İxracyönümlü sənayenin inkişafı üçün ixtisaslı kadrların hazırlanması çox vacibdir. Bunun üçün təhsil müəssisələri ilə əməkdaşlıq edərək, gənclərin bu sahədə təhsili artırılır. Beynəlxalq ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə digər ölkələrlə ticarət razılaşmaları imzalanır. Beynəlxalq sərgi və konfransların keçirilməsi, bölgənin ixrac potensialını tanıtmaq və müştəri əlaqələrini inkişaf etdirmək üçün vacibdir.*

***Açar sözlər:*** *ixracyönümlü sənaye, iqtisadi inkişaf, infrastruktur, kənd təsərrüfatı*

## Nəticə

Naxçıvanda ixracyönümlü sənayenin inkişafı, bölgənin iqtisadiyyatını gücləndirmək və müasir tələblərə uyğun istehsal təşkil etmək baxımından önəmlidir. Bu sahədə atılan addımlar, yalnız bölgə üçün deyil, həm də ölkə iqtisadiyyatı üçün müsbət nəticələr verə bilər. İxracyönümlü sənaye, yerli istehsalçıların beynəlxalq bazarlara daxil olmasına və ölkənin iqtisadi müstəqilliyini artırmasına yardım edir.

**SUMMARY**

**Nuriya Ibrahimova**

**DEVELOPMENT OF EXPORT-ORIENTED INDUSTRY: PROSPECTS AND IMPLICATIONS**

Export-oriented industry in Nakhchivan aims to accelerate the economic development of the region and better integration into foreign markets. The development of this field is possible with appropriate state support, infrastructure strengthening and local producers producing products in accordance with international standards.

In addition to the production of agricultural products, Nakhchivan increases its export potential in various industrial fields. Creation of new industries and modernization of existing production facilities are important for increasing exports. In order to increase the export potential of Nakhchivan, attention is paid to the production of products in accordance with the requirements of foreign markets. For this, market research and analysis are conducted. Concessions, subsidies and other financial support are provided to investors, and special development programs for the export-oriented sector are developed and implemented. Trainings on modern production methods, marketing strategies and export experience are organized for local producers. Training of qualified personnel is very important for the development of export-oriented industry. For this, in cooperation with educational institutions, the education of young people in this field is increased. Trade agreements with other countries are signed in order to expand international trade relations. Holding international exhibitions and conferences is important to promote the region's export potential and develop customer relations.

***Key words:*** *Export-oriented industry, economic development, infrastructure, agriculture*

# AZƏRBAYCANIN POST-KONFLİKT ƏRAZİLƏRİNİN NƏQLİYYAT-LOGİSTİKA İNFRASTRUKTURUNUN CƏNUB-QƏRBİ VƏ CƏNUBİ ASİYA ÖLKƏLƏRİNİN ƏLAQƏLƏNDİRİLMƏSİNDƏ ROLU: BAKI-NAXÇIVAN-QARS DƏMİR YOLU XƏTTİ

**Cavanşir BURHANZADƏ**
*cavanshirburhanzadeh@gmail.com*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu*
*https://orcid.org/0009-0006-0285-3754*
**Ənvər İSMAYILLI**
*anvar.rashidoglu@gmail.com*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu https://orcid.org/0000-0002-9487-4459*

***Xülasə***

*Məqalədə post-konflikt ərazilərimizin nəqliyyat-logistika imkanlarından söz edilir. Cənub-Qərbi və Cənubi Asiya ölkələrinin əlaqələndirilməsində Zəngəzur dəhlizinin və dəhlizdən keçməsi nəzərdə tutulan Bakı-Naxçıvan-Qars dəmir yolu xəttinin əhəmiyyəti vurğulanır. Azərbaycanın post-konflikt ərazilərinin və Naxçıvan Muxtar Respublikasının iştirakı ilə Cənubi və Cənub-Qərbi Asiyanın Avropa ilə əlaqələndirilməsi ilə bağlı təkliflər irəli sürülür.*

***Açar sözlər:*** *post-konflikt ərazilər, Qarabağ və Şərqi Zəngəzur, Bakı-Naxçıvan-Qars dəmir yolu xətti, Şimal-Cənub dəhlizi*

## Giriş

Azərbaycan tarixən əlverişli coğrafi-mövqeyə malik olmaqla mühüm ticarət yollarından biri kimi çıxış etmişdir. Günümüzdə də Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan bir çox beynəlxalq tranzit yollarının kəsişdiyi məkandır. Azərbaycan Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin qovşağında yerləşdiyindən respublikanın nəqliyyat infrastrukturunun inkişafı hər zaman aktual olan bir mövzudur. Bakı-Tbilisi-Qars dəmir yolu Şərqlə Qərbi birləşdirən yeni marşrut olmaqla bərabər Azərbaycanın Orta Dəhlizdəki mövqeyini də gücləndirmişdir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti Çinin "Bir kəmər, bir yol" layihəsində əhəmiyyətli rol oynayaraq, Azərbaycanın logistik imkanlarını artırmışdır. Ümumiyyətlə, alternativ yolların mövcudluğu hər bir logistik layihə üçün mühüm şərtdir. Bu baxımdan, respublikamızın nəqliyyat yollarının və logistik imkanlarının genişləndirilməsi bir çox beynəlxalq layihədə ölkəmizi əvəzsiz tərəfdaşa çevirə bilər.

## Əsas hissə

Torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyümüzün təmin olunması ilə ölkəmizin nəqliyyat qovşağı kimi mümkün imkanları artmışdır. Post-konflikt ərazilərimiz (Qarabağ və Şərqi Zəngəzur) həm Qafqaz regionunun, həm də Cənub-Qərbi Asiya regionunun əlaqələndirilməsində böyük potensiala malikdir. Xüsusilə qeyd etmək istərdim ki, Şərqi Zəngəzur iqtisadi rayonunun coğrafi quruluşu və relyefi həmin ərazilərdə

nəqliyyat infrastrukturunun yaradılmasına və şaxələndirilməsinə əsas verir. Dövlətimiz bu xüsusi yüksək qiymətləndirərək Şərqi Zəngəzur üzərindən yeni bir layihəyə başlamışdır – Bakı-Naxçıvan-Qars. Bu dəmir yolu xətti Şərqi Zəngəzurdan keçməklə Zəngəzur dəhlizi vasitəsi ilə respublikamızın əsas ərazisini Naxçıvan Muxtar Respublikası ilə birləşdirərək, Türkiyəyə məsafə baxımından Bakı-Tbilisi-Qars ilə müqayisədə daha qısa və əlverişli çıxış imkanı verəcək. Bu layihə, həmçinin Zəngəzur dəhlizinin əhəmiyyətini artıraraq bu dəhlizin davamlılığını şərtləndirən əsas amillərdən biri olacaq. Bakı-Naxçıvan-Qars dəmir yolu xətti region ölkələrinin də əlaqələndirilməsində müstəsna rol oynayacaqdır.

**Cənubi Asiyanı Avropaya birləşdirən yeni marşrut**

İslam Əməkdaşlıq Təşkilatının əsas nəqliyyat-logistika layihələrindən biri olan İstanbul-Tehran-İslamabad dəmir yolu xəttinin tikintisi 2009-cu ildə başa çatmışdır və həmin ilin 14 avqustunda xidmətə başlamışdır. Şəkil 1-də İstanbul-Tehran-İslamabad dəmir yolu xəttinin xəritə üzərində təsviri göstərilmişdir.




**Şəkil 1.** *İstanbul-Tehran-İslamabad dəmir yolu xəttinin təsviri*

Türkiyə və İranla ticarətini təqribən 50%-ə qədər artıracağı ehtimal olunurdu [1]. Lakin bir sıra səbəblərdən 2011-ci ildə bu layihəyə son verildi. Region ölkələri üçün bu layihənin yüksək əhəmiyyətini nəzərə alaraq Pakistan, Türkiyə və İran 2021-ci ildə bu dəmir yolu marşrutunu yenidən bərpa etdilər. Şəkil 1-də İstanbul-Tehran-İslamabad dəmir yolu xətti ilə bağlı daha ətraflı məlumat verilmişdir.

| KEÇDİYİ ÖLKƏ | MARŞRUT XƏTTİ | DƏMİR YOLU XƏTTİNİN UZUNLUĞU |
|---|---|---|
| TÜRKİYƏ | İstanbul-Ankara-Kayseri-Malatya-Van | 1950 KM |
| İRAN | Təbriz-Tehran-Kirman-Zahedan | 2603 KM |
| PAKİSTAN | Taftan-Kvetta-İslamabad | 1990 KM |

**Sxem 1.** *İstanbul-Tehran-İslamabad dəmir yolu xəttinin marşrutları*

***Mənbə:*** *[2] əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Azərbaycan Bakı-Naxçıvan-Qars dəmir yolu xətti ilə bu layihəyə qoşula və öz töhfəsini verə bilər. Heç şübhəsiz ki, bu layihə Zəngəzur dəhlizi və post-konflikt ərazilərimiz üçün çox böyük imkanlar yaradacaqdır. Hər şeydən əvvəl onu qeyd etməliyik ki, bizim təklif edəcəyimiz marşrut Türkiyə ilə İran sərhəddindəki dəmir yol xətlərinin mövcud marşrutunu dəyişəcəkdir. Belə ki, hazırkı durumda marşrutun Türkiyə hissəsi Malatya-Van dəmir yolu üzərindən İranın Salmas-Təbriz dəmir yolu xəttinə birləşir (Sxem 1). Bizim təklif etdiyimiz marşrutda isə Kayseri-Sivas-Ərzurum-Qars dəmir yolu xətti işə düşəcək və Qars-Naxçıvan dəmir yolu xəttinə qoşulmaqla Azərbaycanda bu layihənin iştirakçısına çevriləcəkdir. Marşrut xəttinin İrana düşən hissəsində isə Salmas-Təbriz dəmir yolu xətti Culfa-Təbriz dəmir yolu xətti ilə əvəzlənəcək. Şəkil 2-də mövcud marşrut və təklif olunan marşrutun xəritə üzərində təsviri verilmişdir.




**Şəkil 2.** *İstanbul-Tehran-İslamabad dəmir yolu xəttinin mövcud marşrut xətti və Azərbaycanın iştirakı ilə təklif olunan marşrut xəttinin təsviri*

**Mənbə:** *Müəllif tərəfindən tərtib edilmişdir.*

Qeyd etmək lazımdır ki, Azərbaycanın iştirakı ilə təklif olunan marşrut məsafə baxımından daha qısadır. Cədvəl 1-də İstanbul-Tehran-İslamabad dəmir yolu xəttinin hazırkı marşrutu və Azərbaycanın iştirakı ilə təklif olunan marşrut müqayisə edilmişdir.

**Cədvəl 1.** *İstanbul-Tehran-İslamabad dəmir yolu xəttinin hazırkı marşrutu və Azərbaycanın iştirakı ilə təklif olunan marşrut*

| Azərbaycanın iştirakı ilə təklif olunan marşrut | | İstanbul-Tehran-İslamabad dəmir yolu xəttinin hazırkı marşrutu | |
|---|---|---|---|
| Sivas-Qars | 635 km | Sivas-Malatya | 244 km |
| Qars-Culfa | 340 km | Malatya-Van | 564 km |
| Culfa-Təbriz | 146 km | Van-Təbriz | 358 km |
| Ümumi | 1121 km | Ümumi | 1166 km |

**Mənbə:** *https://www.distance.to/ portalının məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Cədvəl 1-dən aydın olur ki, ölkəmizin iştirakı ilə təklif olunan marşrut məsafə baxımından hazırkı marşrutdan daha qısadır. Həmçinin ölkəmiz bu regional layihəyə qoşulmaqla İstanbul-Tehran-İslamabad dəmir yolu xəttini əlavə nəqliyyat marşrutları ilə təmin edəcəkdir. Bu marşrutun fəaliyyətə başlamasıyla Zəngəzur dəhlizindən keçən Bakı-Naxçıvan-Qars dəmir yolu xəttinin Culfa-İğdır-Qars hissəsi önəmli rola malik olacaq. Bakı-Naxçıvan-Qars dəmir yolu xəttinin reallaşması ölkəmizi Cənub-Şərqi-Asiya regionunun çox önəmli nəqliyyat layihələrindən biri sayılan İstanbul-Tehran-İslamabad marşrutuna qoşacaqdır ki, bu da həm Naxçıvan Muxtar Respublikası üçün, həm də Qarabağ və Şərqi Zəngəzur üçün əlavə imkanlar yardacaq, eyni zamanda Cənubi Asiyadan Avropaya daşınan yüklərin miqyasını da artıracaqdır.

**Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizində yeni marşrut**

Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi Rusiya, İran və Hindistan arasında 12 sentyabr 2000-ci ildə imzalanmış hökumətlərarası Saziş əsasında yaradılmışdır. Respublikamız 2005-ci ildə Sazişin tərəfdaşlarından biri olmuşdur [3]. Şimal-Cənub nəqliyyat dəhlizi Cənubi Asiya regionundan (Hindistan və Fars körfəzi) çıxan yüklərin İran, Azərbaycan və Rusiya üzərindən Şimali və Qərbi Avropaya çatdırılmasında ən əlverişli dəhlizlərdən biri hesab olunur. Şimal-Cənub Nəqliyyat Dəhlizinin üstün cəhətlərindən biri də budur ki, dəhlizin alternativi olan okean yolundan məsafə baxımından iki dəfə qısadır. Uzunluğu 7200 km olan Şimal-Cənub dəhlizi, eyni zamanda tranzit vaxtını da üç dəfəyə qədər azaldır. Belə ki, Cənubi Asiyadan çıxan yüklərin Hind Okeanı, Ərəb dənizi, Ədən körfəzi, Babül-Məndəb boğazı, Qırmızı dəniz, Süveyş kanalı, Aralıq Dənizi, Cəbəllütariq boğazı, Atlantik okeanı və Baltik dənizindən keçərək Helsinki şəhərinə çatması 60 gün təşkil edirdisə, bu müddət Şimal-Cənub Nəqliyyat Dəhlizi ilə 20 günə enir (Şəkil 3).




**Şəkil 3.** *Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin marşrutlar*

**Mənbə:** *Müəllif tərəfindən tərtib edilmişdir.*

Şimal-Cənub Nəqliyyat Dəhlizində ölkəmiz nəqliyyat qovşağı kimi mühüm rola malikdir. Dəhlizinin Astaradan Yalamaya qədər (İran sərhədindən Rusiya sərhədinə kimi) 511 km-lik hissəsi respublikamızın ərazisindən keçir [4]. Azərbaycanı cənub qonşumuz İran ilə birləşdirəcək Rəşt-Astara dəmir yolu xətti (uzunluğu 167 km) 2027-ci ilin sonuna kimi hazır olacaqdır [5]. Şimal-Cənub Nəqliyyat Dəhlizinin Azərbaycandan keçən hissəsi, Astaradan Yalamaya qədər olan dəmir yolu xətti İranın Astara-Rəşt-Qəzvin-Tehran marşrutuna qoşulacaqdır. Əlavə nəqliyyat marşrutlarının olması ölkəmizin nəqliyyat qovşağı kimi imkanlarını artırmaqla yanaşı, həm də respublikamızı əvəzedilməz tərəfdaşa çevirə bilər. Bu baxımdan, Şimal-Cənub Nəqliyyat Dəhlizinin Zəngəzur dəhlizindən keçməsi çox böyük önəm kəsb edir. Bunun üçün dəhlizin İran üzərindən keçən marşrutu Tehran-Qəzvin-Rəşt-Astara istiqaməti ilə yanaşı, Tehran-Qəzvin-Zəncan-Təbriz-Culfa istiqaməti də fəaliyyət göstərməlidir. 1916-cı ildə istifadəyə verilən uzunluğu 146 km olan Təbriz-Culfa dəmir yolu xətti Tehran-Qəzvin-Zəncan-Təbriz-Culfa marşrutunun bir hissəsidir [6]. Bu layihənin reallaşması üçün Bakı-Naxçıvan-Qars dəmir yolu xətti fəaliyyət göstərməlidir. Sözügedən dəmir yolu xəttinin Azərbaycan (Qarabağ və Şərqi Zəngəzur) və Türkiyə (Qars-İğdır-Aralıq) hissəsində görülən işlərin önəmli hissəsi başa çatmışdır. Əsas əngəllərdən biri Zəngəzur dəhlizidir ki, sözünü etdiyimiz Şimal-Cənub dəhlizində İran üzərindən gələn marşrutun ikinci halqası (Tehran-Qəzvin-Zəncan-Təbriz-Culfa) növbəti mərhələdə Zəngəzur dəhlizindən keçməlidir. Bu baxımdan, Zəngəzur dəhlizinin açılması Orta Dəhliz qədər Şimal-Cənub dəhlizi üçün də böyük əhəmiyyət kəsb edir.



***Mənbə: müəllif tərəfindən tərtib edilmişdir.***

Bakı-Naxçıvan-Qars dəmiryolu xətti layihəsinə regional və qlobal güc mərkəzlərinin mümkün reaksiyası.

Türkiyə

**Şəkil 3.** *Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin Azərbaycan-İran sərhədindən keçən marşrutları*

Türkiyə Bakı-Naxçıvan-Qars (BNQ) dəmir yolu marşrutunun reallaşmasında əsas təkanverici qüvvə qismində çıxış edir. Bəlli məsələdir ki, “bir millət, iki dövlət” konsepsiyası əsasında formalaşan və güclənən Türkiyə-Azərbaycan strateji tərəfdaşlığı özünü bütün mümkün sferalarda biruzə verir. Cari marşrutun reallaşdığı təqdirdə, Türkiyə regionda öz təsir gücünü artırmaqla yanaşı, həmçinin özünün tranzit ölkə (Avropa və Asiya arasında) kimi potensialını yüksəldəcək. Nəzərə almaq lazımdır ki, son illər ərzində Türkiyə rəhbərliyi üçün prioritet məsələlərdən biri mövcud gərgin geosiyasi reallıqlar şəraitində heç bir qütbə birmənalı aid olmamaq, əksinə daha balanslaşdırılmış xarici siyasət yürütməkdir. Bu əsnada deyə bilərik ki, Türkiyə həm qərb dövlətləri, həmçinin şərq dövlətləri ilə də qarşılıqlı fayda üzərində qurulmuş iqtisadi əlaqələri möhləmləndirməkdə maraqlıdır.

**İran**

Digər regional aktorlarla müqayisədə İran sözügedən layihəyə tənqidi yanaşır. İran, BNQ layihəsinin onu regiondaxili iqtisadi inteqrasiya proseslərindən məhrum qoya biləcəyini düşünür. Həmçinin Türkiyə-Azərbaycan tandeminin regiondakı inteqrasiya proseslerinin nüvəsinə çevrilməsi İranın milli maraqlarına  uyğun deyil. Lakin yuxarıda verdiyimiz təkliflərin İranın siyasi və iqtisadi maraqlarına xidmət etdiyini nəzərə alsaq bu layihənin reallaşmasına əslində İranın da böyük ölçüdə maraqlı olmalı olduğunu düşünə bilərik. Məsələyə yalnız lokal  yox, daha geniş baxış bucağından yanaşarsaq daha maraqlı hadisələrin şahidi oluruq. Kollektiv Qərbin və Qlobal Şərqin kəskin rəqabətdə olduğu zamanda iqtisadi birliklər çərçivəsində İranın əsas liderlərlə münasibətlərinin formatı vacibdir. Çin, Rusiya və Hindistan kimi ölkələrin yer aldığı BRICS iqtisadi birliyinə Azərbaycanın, daha sonra isə Türkiyənin üzvlük müraciəti qeydə alınmışdır. Başqa sözlə desək, BRICS təşkilatı lokal səviyyəli nəqliyyat layihələrinin icrası zamanı ölkələrarası dialoq üçün fundamental platformaya çevrilə bilər. Ermənistanın qərblə mümkün

inteqrasiyası Rusiyanı narahat etdiyi kimi İranı da narahat edir. Lakin hər şey BNQ layihəsinin nə dərəcədə regionun geoiqtisadi və geosiyasi landşaftına təsir gücünə malik olmasından asılı olacaq. Azərbaycanın Şimal-Cənub nəqliyyat dəhlizində önəmli rola malik olmasını və Azərbaycanla Rusiya arasında qarşılıqlı faydaya əsaslanan münasibətləri nəzərə alsaq iddia edə bilərik ki, BNQ marşrutuna İranın mövqeyi sərt qəbuletməmə pozisiyasından daha rasional pozisiyaya çevrilə bilər. Həmçinin qeyd etmek lazımdır ki, Moskva-Tehran-Pekin oxu Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində də əməkdaşlığı gücləndirir. Bu anlamda, Çinin "Kəmər və Yol Təşəbbüsü" layihəsinin yeni tərkib hissəsi ola biləcək BNQ yolunun realizasiyası prinsip etibarilə real görünür. 44 günlük Qarabağ Savaşı başa çatdıqdan sonra Türkiyə "3+3" platformasının yaradılması ilə bağlı öz təşəbbüsünü irəli sürdü. Layihəyə əsasən regionun 3 əsas gücü – Rusiya, Türkiyə və İran və digər 3 respublika – Azərbaycan, Gürcüstan və Ermənistan bu platforma çərçivəsində əlaqələri əhəmiyyətli dərəcədə gücləndirməlidirlər. Gürcüstanın məlum mövqeyi səbəbindən bu təşəbbüs hələ reallaşmayıb. Lakin mahiyyətə varsaq görərik ki, "3+3" Cənubi Qafqazın geosiyasi və geoiqtisadi mənzərəsinin yalnız region güc mərkəzləri və ölkələri tərəfindən çəkilməsinə, xarici müdaxilələrin (ABŞ və Aİ) minimallaşdırılmasına yönəlmişdir. BNQ layihəsinin reallaşması gələcəkdə "3+3" formatı ətrafında müzakirələrin canlanmasında "katalizator" rolunu da oynaya bilər.

**Rusiya**

Rusiyanın Bakı-Naxçıvan-Qars təşəbbüsünə mümkün reaksiyasının birmənalı olmayacağı gözlənilir. Rəsmi Moskva region ərazisindən keçən istənilən nəqliyyat marşrutu layihələrinə öz strateji maraqları nöqteyi-nəzərdən yanaşır. Burada əsas məqamlardan biri Rusiyanın digər regional güc mərkəzləri – Rusiya və İranla maraqlarını koordinasiya etməsi məsələsidir. Ermənistanda son vaxtlar qərbyönümlü meyllərin güclənməsi Rusiya hökümətini narahat etməyə bilməz. Ermənistan hal-hazırda Rusiya ilə iki əsas regional inteqrasiya birliyi çərçivəsində əlaqələrini saxlayır – iqtisadi birlik olan Avrasiya İqtisadi İttifaqı (AİI) və hərbi-siyasi birlik olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT). 2024-cü ilin iyun ayında Ermənistanın Baş Naziri Nikol Paşinyan bəyan etdi ki, Ermənistan gələcəkdə KTMT-də üzvlüyünə xitam vermək niyyətindədir. Gürcüstan, Ukrayna və Moldova kimi ölkələrin nümunəsində görə bilərik ki, qərbin strukturlarına inteqrasiya, "yayılma" xassəsinə malikdir. Yəni, daha çox iqtisadi birlik qismində qavranılan Avropa İttifaqına inteqrasiya etmək niyyətində olan ölkə, hərbi-siyasi ittifaq olan NATO-ya da üzv olmaq istəyir. Belə bir addım faktiki surətdə Rusiyanın siyasi-iqtisadi, mədəni arealından uzaqlaşmaq deməkdir. Ermənistanın BNQ layihəsində potensial iştirakı və bu layihədən əldə edəcəyi iqtisadi dividendlər Ermənistanın Rusiyadan iqtisadi asılılığını müəyyən dərəcədə azalda bilər. Lakin digər tərəfdən hal-hazırda Şərqi Avropada (Ukraynada) öz əzəli imperiya maraqları üçün müharibə aparan Rusiya, Cənubi Qafqazda yeni münaqişələrin, geosiyasi problemlərin yaranmasında maraqlı deyil. Nəticə etibarı ilə BNQ layihəsi onun icrasında iştirak edən tərəflərə iqtisadi fayda verməklə, regiondaxili inteqrasiya prosesləri üçün əlavə bir təşviq mexanizmi rolunu oynaya bilər. Başqa sözlə desək, Bakı-Naxçıvan-Qars dəmiryolu xəttinin işə salınmasından sonrakı, ilkin mərhələdə Rusiyanın layihənin gücünü müşahidə etməsi və geosiyasi proseslərin istiqamətindən asılı olaraq layihəni dəstəkləməsi və ya qarşı çıxması gözlənilə bilər.

**Çin**

XXI əsrin ikinci onilliyindən etibarən Çin “Bir kəmər, bir yol” təşəbbüsünün reallaşmasını xarici siyasətinin əsas prioritetlərindən birinə çevirdi. Nəzərə almaq lazımdır ki, digər sözügedən regional və qlobal aktorlardan fərqli olaraq, Çinin Cənubi Qafqazda maraqları daha böyük ölçüdə iqtisadi komponentə söykənir. Azərbaycanın cari təşəbbüsdə fəal iştirakı və Çinlə ikitərəfli əlaqələrin inkişafı fonunda Çinin Bakı-Naxçıvan-Qars layihəsini dəstəkləməsi gözlənilir.

**Avropa İttifaqı**

Avropa İttifaqının Rusiya ilə gərgin geosiyasi rəqabəti fonunda Brüsselin Bakı-Naxçıvan-Qars layihəsini dəstəkləməsi məqsədəuyğun sayıla bilər. Belə ki, Rusiya ərazisindən keçən nəqliyyat marşrutlarına alternativ olaraq təklif oluna bilən layihələr Avropa İttifaqı (Aİ) tərəfindən maraqla qarşılanmaqdadır. Sovet İttifaqının süqutundan günümüzə qədər olan illər ərzində Aİ-Azərbaycan münasibətlərinə nəzər salsaq, görərik ki, bir sıra siyasi ziddiyyətlərin yer almasına baxmayaraq, tərəflər arasında iqtisadi münasibətlərin intensivliyi yüksək səviyyədə olmuşdur. Belə nəticəyə gəlmək olar ki, Azərbaycanın post-konflikt ərazilərinin ölkənin mövcud sosial-iqtisadi inteqrasiyasında region üçün yaratdığı iqtisadi imkanlar Avropa ölkələrinin də maraq dairəsindədir.

**Nəticə**

Beləliklə, Bakı-Naxçıvan-Qars dəmir yolu xəttinin fəaliyyətə başlaması respublikamızın nəqliyyat qovşağı kimi iri layihələrdə iştirakına çox böyük töhfə verəcəkdir. Xüsusilə yuxarıda sadaladığımız hər iki layihə Naxçıvan Muxtar Respublikasının inkişafına öz müsbət təsirini göstərəcəkdir. Şimal-Cənub dəhlizində Zəngəzur koridorunun marşrut olaraq fəaliyyət göstərməsi bütün region ölkələrinin maraqlarına xidmət edəcəkdir. Şimal-Cənub Nəqliyyat Dəhlizinin post-konflikt ərazilərimizdən keçməsi Qarabağ və Şərqi Zəngəzurun inkişafında müstəsna rol oynayacaqdır.

Zəngəzur dəhlizinin açılması və Bakı-Naxçıvan-Qars dəmir yolunun fəaliyyətə başlaması ölkəmizə aşağıdakı siyasi-iqtisadi səmərələr gətirəcəkdir:

- Post-konflikt ərazilərimizin investisiya cəlbediciliyini artıracaqdır;
- Ermənistan Respublikasının gələcəkdə revanşist niyyətlərinin önünə keçməklə regionda daimi sülhün qarantı olacaqdır;
- Respublikamızın post-konlikt ərazilərində, həmçinin Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluq probleminin aradan qaldırılmasına öz müsbət təsirini göstərəcəkdir;
- Qarabağ və Şərqi Zəngəzuru, o cümlədən Naxçıvan Muxtar Respublikasını ticarət qovşağına çevirəcəkdir;
- Qonşu ölkələrlə iqtisadi əməkdaşlıq və etibarlı tərəfdaşlığa mühüm töhfə olacaqdır və s.

**ƏDƏBİYYAT**

1. Beynəlxalq dəhlizlər, Şimal-Cənub Nəqliyyat Dəhlizi: [Elektron resurs] / Azərbaycan Dəmir Yolları, Bakı: 2024

2. Islamabad-Tehran-Istanbul train to launch in 2021, connecting Asia with Europe: [Electronic resource] / Islamabad Scene. December 20, 2020
3. Kətanov, R. Azərbaycan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin aparıcı iştirakçısına çevrilib: [Elektron resurs] / AZƏRTAC. – Tehran: 2016
4. Pakistan-Turkey rail trial starts: [Electronic resource] / BBC News. August 14, 2009. URL: http://news.bbc.co.uk/2/hi/8201934.stm
5. Rəşt-Astara dəmiryolu 2027-ci ildə istismara verilə bilər: [Elektron resurs] / AZƏRTAC. – Bakı: 2023
6. Sadiqzadə, H.E. Təbriz şəhərinin daşınma şəbəkəsi. Təbriz şəhərinin tıxaclı yolları // Bakı: 2011. Azərbaycan Memarlıq və İnşaat Universitetinin Elmi Əsərləri, №2, s.10-13
7. URL: https://freight.ady.az/beynelxalq-dehlizler/simal-cenub-neqliyyat-dehlizi
8. URL: https://www.islamabadscene.com/islamabad-tehran-istanbul-train-to-launch-in-2021-connecting-asia-with urope/URL:https:// azertag.az/xeber/ azerbaycan_simal_cenub_beynelxalq_neqliyyat_dehlizinin_aparici_istirakchisina_chevrilib-1020231
9. URL:https://azertag.az/xeber/rest_astara_demir_yolu_2027_ci_ilde_istismara_verile_biler-2626694

# İXRACYÖNLÜ SƏNAYE VƏ İNNOVASİYALAR: RƏQABƏT ÜSTÜNLÜYÜNÜN FORMALAŞMASI

**Məhsəti ƏSGƏROVA**
*esgerovamehseti@ndu.edu.az*
*mahsati554@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*
*ORCİD 0009-0001-1899-3325*

***Xülasə***

*İxracyönümlü sənaye, ölkənin iqtisadi inkişafının əsas hərəkətverici qüvvələrindən biridir. Qlobal bazarlara çıxış əldə etmək, yeni bazarlara yönəlmək və rəqabət qabiliyyətini artırmaq üçün innovasiyaların tətbiqi böyük əhəmiyyət kəsb edir. İxracyönümlü sənaye sektoru innovasiyalar vasitəsilə öz məhsullarının keyfiyyətini və dəyərini artıraraq qlobal bazarlarda rəqabət üstünlüyü qazana bilər. Bu məqalədə ixracyönümlü sənaye və innovasiyaların rolu, rəqabət üstünlüyünün formalaşması üçün atılan addımlar və iqtisadi inkişaf strategiyaları müzakirə ediləcəkdir.*
*Rəqabət üstünlüyünün formalaşmasında bir sıra amillər mühüm rol oynayır. İxracyönümlü sənaye sektorunda innovasiyalar, məhsul keyfiyyətinin artırılmasına və yeni bazarlara çıxışın təmin olunmasına kömək edir. İnnovativ məhsulların yaradılması rəqiblərdən fərqlənmək üçün əsas vasitədir. Rəqabət üstünlüyü əldə etmək üçün istehsal prosesinin hər bir mərhələsində dəyər zənciri optimallaşdırılmalıdır. Xammaldan son məhsula qədər olan proseslərdə məhsuldarlığın artırılması və xərclərin azaldılması vacibdir. Yüksək keyfiyyətli məhsulların beynəlxalq səviyyədə tanınması üçün brend qurma strategiyaları önəmlidir. Güclü brendlər rəqabət üstünlüyü qazanmağa və müştərilərin sadiqliyini təmin etməyə kömək edir. İxracyönümlü sənaye müəssisələrinin inkişafında dövlətin dəstəyi və xarici investisiyaların cəlb olunması böyük rol oynayır. İxracyönümlü sənaye sektorunda innovasiyalar, məhsulların modernləşdirilməsi və istehsalın effektivliyinin artırılması üçün əsas vasitələrdən biridir.İxracyönümlü sənayenin inkişafında dövlətin dəstəyi mühüm rol oynayır. İxracyönümlü sənaye və innovasiyalar, rəqabət üstünlüyünün formalaşmasında həlledici rol oynayır. Müasir texnologiyaların və innovativ məhsulların tətbiqi, istehsal proseslərinin optimallaşdırılması və beynəlxalq standartlara uyğun fəaliyyət göstərən müəssisələr qlobal bazarda uğur qazanır. Dövlətin sənaye siyasəti və dəstəyi, ixracyönümlü sənayenin davamlı inkişafına və qlobal rəqabətdə güclənməsinə şərait yaradır. Bu yanaşma, ölkənin iqtisadi inkişafına mühüm töhfə verərək, uzunmüddətli rəqabət qabiliyyətinin formalaşmasına imkan yaradacaqdır.*

***Açar sözlər:*** *ixracyönümlü sənaye, innovasiyalar, rəqabət, qlobal bazarlar,iqtisadi inkişaf*

## SUMMARY

**Mahsati Askerova**

## EXPORT-ORIENTED INDUSTRIES AND INNOVATIONS: FORMATION OF COMPETITIVE ADVANTAGE

Export-oriented industry is one of the main driving forces of the country's economic development. In order to gain access to global markets, to focus on new markets and to increase competitiveness, the application of innovations is of great importance. An export-oriented industrial sector can gain a competitive advantage in global markets by increasing the quality and value of its products through innovation. This article will discuss the role of export-oriented industry and innovation, steps taken to build competitive advantage, and economic development strategies. A number of factors play an important role in the formation of competitive advantage. Innovations in the export-oriented industrial sector help to improve product quality and provide access to new markets. Creation of innovative products is the main means of differentiation from competitors. To gain a competitive advantage, the value chain must be optimized at each stage of the production process. It is important to increase productivity and reduce costs in processes from raw materials to the final product. Brand building strategies are important for international recognition of high-quality products. Strong brands help gain competitive advantage and ensure customer loyalty. In the development of export-oriented industrial enterprises, the support of the state and the attraction of foreign investments play a big role. Innovations in the export-oriented industry sector are one of the main means for product modernization and production efficiency improvement. State support plays an important role in the development of export-oriented industry.

Export-oriented industries and innovations play a decisive role in the formation of competitive advantage. Enterprises that apply modern technologies and innovative products, optimize production processes and operate in accordance with international standards are successful in the global market. The state's industrial policy and support create conditions for the sustainable development of export-oriented industry and its strengthening in global competition. This approach will make an important contribution to the economic development of the country and will create an opportunity for the formation of long-term competitiveness.

***Key words:*** *export-oriented industry, innovations, competition, global markets, economic development*

# İXRACYÖNLÜ SƏNAYENİN DAVAMLI İNKİŞAFINDA İNFRASTRUKTURUN ROLU

**Müjdə MƏMMƏDOVA**
*Naxçıvan Dövlət Universiteti*

***Xülasə***

*İxracyönümlü sənaye müasir iqtisadiyyatın ən vacib sektorlardan biridir. Xüsusilə qloballaşma və beynəlxalq bazarlarla inteqrasiya şəraitində ölkələrin iqtisadi inkişafını sürətləndirmək və dünya bazarında rəqabət qabiliyyətini artırmaq üçün ixracyönümlü istehsal sektorunun gücləndirilməsi zəruridir. Bu sahədə davamlı inkişafı təmin edən əsas faktorlardan biri isə infrastrukturun inkişafıdır. Bu məqalədə ixracyönümlü sənayenin davamlı inkişafında infrastrukturun rolunu və onun sənaye müəssisələrinin qlobal miqyasda rəqabət qabiliyyətinə necə təsir etdiyini araşdıracağıq. İxracyönümlü sənaye ölkələrin ixrac potensialını artırmaq məqsədi ilə məhsul və xidmətlərin beynəlxalq bazarlara istiqamətlənmiş şəkildə istehsal olunmasını nəzərdə tutur. Bu tip sənaye, ölkənin valyuta gəlirlərini artırır və makroiqtisadi göstəricilərin yaxşılaşdırılmasında mühüm rol oynayır. Lakin ixracyönümlü istehsalatın davamlı inkişafı üçün yalnız məhsul istehsal etmək kifayət deyil; həmçinin, bu istehsalatın dəstəkləyici infrastrukturla təmin edilməsi əsas şərtlərdəndir. Davamlı inkişaf üçün infrastrukturun keyfiyyətinin artırılması gələcəkdə də vacib olacaq. Xüsusilə texnoloji yeniliklər, rəqəmsal iqtisadiyyat və yaşıl enerji infrastrukturuna investisiyaların artırılması ixracyönümlü sənayenin inkişafına güclü təkan verəcək. Burada dövlət və özəl sektor tərəfdaşlığı mühüm rol oynayır. Dövlətin dəstəyi ilə qurulan müasir infrastruktur şəbəkələri ixrac potensialını artıracaq və beynəlxalq bazarlarda rəqabət üstünlüyü təmin edəcək, milli iqtisadiyyatın qlobal iqtisadi sistemə uğurlu inteqrasiyasını təmin etməyə kömək edəcək.*

***Açar sözlər**: ixracyönümlü sənaye, beynəlxalq bazarlar, davamlı inkişaf, infrastrukturlar*

**SUMMARY**

**Mujda Mammadova**

**THE ROLE OF INFRASTRUCTURE IN SUSTAINABLE DEVELOPMENT OF EXPORT-ORIENTED INDUSTRY**

Export-oriented industry is one of the most important sectors of the modern economy. Especially in the conditions of globalization and integration with international markets, it is necessary to strengthen the export-oriented production sector in order to accelerate the economic development of countries and increase their competitiveness in the world market. One of the main factors that ensure sustainable development in this area is the development of infrastructure. In this article, we will examine the role of infrastructure in the sustainable development of export-oriented industries and how it affects the global competitiveness of industrial enterprises. Export-oriented industry involves the production of products and services aimed at international markets in order to increase the export potential of countries. This type of industry increases the country's foreign exchange earnings and plays an important role in improving macroeconomic indicators. However, it is not enough to

produce only products for the sustainable development of export-oriented production; also, providing this production with supporting infrastructure is one of the main conditions. Improving the quality of infrastructure for sustainable development will continue to be important in the future. In particular, increasing investments in technological innovations, digital economy and green energy infrastructure will give a strong impetus to the development of export-oriented industry. Public and private sector partnership plays an important role here. Modern infrastructure networks built with the support of the state will increase the export potential and provide a competitive advantage in international markets, helping to ensure the successful integration of the national economy into the global economic system.

***Key words:*** *export-oriented industry, international markets, sustainable development, infrastructures*

# İXRACYÖNLÜ SƏNAYE: QLOBAL BAZAR TƏLƏBLƏRİNƏ UYĞUNLAŞMA STRATEGİYALARI

**Tələt ƏLİZADƏ**
*Naxçıvan Dövlət Universiteti*
*ORCİD 0000-0002-2381-0458*

## *Xülasə*

*Qloballaşan dünya iqtisadi və texnoloji inkişafı ixracyönümlü sənaye sahələrinin inkişafı üçün böyük imkanlar yaratmışdır. Eyni zamanda, bu sənayelərin qarşılaşdığı tələblər də əhəmiyyətli dərəcədə artmışdır. Qlobal bazarlar dəyişkən və rəqabət dolu olduğu üçün və müəssisələrin bu bazarlarda uğurlu olmasını təmin etmək üçün uyğunlaşma strategiyalarının qurulması vacibdir. Bu məqalədə, qlobal bazar tələblərinə uyğunlaşma və bu bazarlarda rəqabət üstünlüyü əldə etmək üçün ixracyönümlü sənayelərin istifadə etdiyi əsas strategiyalar təhlil ediləcəkdir. Qlobal bazarlara çıxış müəssisələrə daha geniş müştəri bazası təqdim edir, lakin bu bazarlarda rəqabət aparmaq üçün müəyyən tələblərə uyğunlaşmaq zəruridir. Qlobal bazar tələbləri aşağıdakı əsas meyarlara bölünə bilər: Keyfiyyət standartları,texnoloji innovasiya, davamlılıq və ekoloji məsuliyyət, fərqli mədəniyyətlərə uyğunlaşma. Qlobal bazar tələblərinə uyğunlaşmaq üçün ixracyönümlü müəssisələr bir neçə mühüm strategiya tətbiq etməlidirlər ki, bu strategiyalar həm istehsal, həm də bazarların fəth edilməsi baxımından böyük əhəmiyyət kəsb etsin.*
*Qlobal bazarlarda uğur qazanmış ixracyönümlü şirkətlərdən biri də Samsung Electronics-dir. Şirkət, texnoloji innovasiya, bazara uyğunlaşma və yüksək keyfiyyət standartları ilə qlobal rəqabətdə üstünlük əldə etmişdir. Samsung, müxtəlif bazarlara uyğun məhsul dizaynları və yerli istehlakçı ehtiyaclarına uyğun marketinq strategiyaları ilə qlobal bazarlarda dominant mövqe tutmağı bacarmışdır. Qlobal bazar tələblərinə uyğunlaşma, ixracyönümlü sənayelərin uğurlu fəaliyyət göstərməsi və uzunmüddətli rəqabət üstünlüyü əldə etməsi üçün əsas şərtlərdən biridir. Müəssisələrin beynəlxalq bazarlarda uğur qazanmaq üçün texnoloji yeniliklərə yatırım etməsi, keyfiyyət idarəetmə sistemləri qurması, bazara uyğunlaşma strategiyaları tətbiq etməsi və davamlılıq yanaşmalarını mənimsəməsi vacibdir. Bu strategiyaların birgə tətbiqi, müəssisələrə beynəlxalq rəqabət mühitində mövqelərini gücləndirmək və qlobal bazarlarda uğur qazanmaq üçün güclü təməl təmin edir.*

***Açar sözlər:*** *ixarcyönümlü sənaye, qlobal bazar, uyğunlaşma strategiyaları*

## SUMMARY

**Talat Alizade**

## EXPORT-ORIENTED INDUSTRY: STRATEGIES FOR ADAPTING TO GLOBAL MARKET DEMANDS

The economic and technological development of the globalized world created great opportunities for the development of export-oriented industries. At the same time, the demands created by these industries have also been exposed to art in this field. Because global markets are volatile and competitive, it is important to establish adaptive strategies

to ensure success in these markets. These articles analyze the key strategies used by export-oriented industries to adapt to global market demands and gain competitive advantage in these markets. Access to global markets provides companies with a wider range of markets, in which they plan to adapt to the demands of acquiring markets. The global market can be divided into the main criteria according to the requirements: Quality standards, technological innovation, sustainability and environmental responsibility, adaptation to different cultures. In order to adapt to global market demands, export-oriented enterprises must apply several important strategies, which are of great importance in terms of both production and market conquest.

One of the export-oriented companies that have succeeded in global markets is Samsung Electronics. The company has gained an advantage in global competition through technological innovation, market adaptation and high quality standards. Samsung has managed to dominate global markets with product designs tailored to different markets and marketing strategies tailored to local consumer needs. Adapting to global market demands is one of the key conditions for export-oriented industries to operate successfully and gain a long-term competitive advantage. In order to succeed in international markets, it is important for enterprises to invest in technological innovations, establish quality management systems, implement market adaptation strategies and adopt sustainability approaches. The combined application of these strategies provides a strong foundation for enterprises to strengthen their position in the international competitive environment and succeed in global markets.

***Key words**: export-oriented industry, global market, adaptation strategies*

# AZƏRBAYCAN RESPUBLİKASINDA İXRACYÖNLÜ QİDA SƏNAYESİNİN İNKİŞAFI VƏ İDXAL ƏVƏZLƏYİCİ QİDA MƏHSULLARI İSTEHSALININ ARTIRILMASI İSTİQAMƏTLƏRİ

**Famil RÜSTƏMOV**
*familrustamov456@gmail.com*
*Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu*

***Xülasə***

*Təqdim olunan materialda dünyada qida sənayesinin mövcud vəziyyəti, qida sənayesi müəssisələrinin üzləşdiyi başlıca problemlər qeyd edilir, dünyanın iri qida və və içki istehsalçısılarının iqtisadi göstəriciləri, reytinq sıralamalarında mövqeləri göstərilir, qida və içki məhsulları üzrə beynəlxalq ticarət statistikasında ilk onluqda olan məhsullar haqda məlumat verilir, İxracyönümlü istehsalın xüsusiyyətləri araşdırılır, eləcə də qida məhsulları və içki istehsalı ilə bağlı ölkəmizdə olan mövcud vəziyyət nəzərdən keçirilir, bu istiqamətdə seçilən bir neçə uğurlu nümunə diqqətə çatdırılır. Sonda isə ixracyönümlü qida sənayesinin inkişafı və idxal əvəzləyici qida məhsulların istehsalının artırılması ilə bağlı bir neçə təklif irəli sürülür.*

***Açar sözlər:*** *qida sənayesi, aqrar sahə, idxal, ixrac, istehsal, investisiya*

## Dünyada vəziyyət

Dünya əhalisinin sürətlə artımı, həyat keyfiyyətinin, həyat standartlarının yüksəlməsi fonunda qidaya olan tələbatın artan dinamikası qida məhsulları istehsalının genişləndirilməsini, qida sənayesi texnologiyalarının davamlı inkişafını, eləcə də istehlak mədəniyyətinin, yemək vərdişlərinin dəyişilməsini zərurətə çevirir. Son illər dünyada qida sənayesi müəssisələrinin üzləşdiyi başlıca problemlərdən biri xərclərin artmasıdır, xüsusilə də logistik xərclər davamlı şəkildə artmaqdadır. Bundan əlavə, müasir müştərilər istehlak etdikləri məhsulların mənşəyi haqqında daha çox bilmək istəyirlər. Bu da orqanik məhsullara tələbatı artırır. Təbii inqrediyentlərdən istifadənin artması, süni rəng və dadlandırıcılardan istifadənin azalmasına gətirib çıxarır. Son nəticədə istehsalçılar bahalı, natural əvəzedicilər axtarmağa vadar olurlar ki, bu da xərclərin artmasına, satış qiymətlərinin yüksəlməsinə ciddi təsir göstərir. 2023-cü ildə Britaniyada qida məhsullarının qiymətləri ilə bağlı son 46 ilin ən yüksək inflyasiyası qeydə alınmışdır. Rəsmi məlumatlara görə, Böyük Britaniyada qida məhsulları 2023-cü ilin mart ayında 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 19,1% bahalaşmışdır. Bu artım 1977-ci ilin avqustundan bəri müşahidə edilən ən böyük artımdır.

Amerikanın maliyyə-iqtisad jurnalı olan Forbesin məlumatına görə 2021-ci ildə dünyanın 25 ən böyük qida və içki istehsalçısının xalis mənfəəti 155 milyard ABŞ dollarını keçib, Forbes nəşri qeyd edir ki, İsveçrənin Nestle konserni ən böyük qida şirkətləri siyahısında birinci yerini qoruyub. Keçən ilin sonunda Nestle-nin dövriyyəsi 93 milyard dollardan çox olub. Qida və içki nəhəngi olan Nestle gəlirlərinin 27%-ni içki (xüsusilə qəhvə), 19%-ni qeyri kənd təsərrüfatı ev heyvanları qidalarının, 13%-ni hazır və yarımfabrikat yeməklərin, 12%-ni isə süd məhsullarının istehsalından əldə etmişdir. Ən

böyük qida istehsalçıları siyahısında ikinci yeri PepsiCo şirkəti tutub. Üçüncü yeri 54 milyard dollarla "Anheuser-Busch InBev" pivə korporasiyası tutub [6].

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının(FAO) məlumatlarına görə Amerika Birləşmiş Ştatları inək südündən pendir, kərə yağı, yağsızlaşdırılmış inək südü, inək südü tozu (quru süd), donuz piyi, marqarin, qarğıdalı yağı və zəfəran yağı, Çin Xalq Respublikası pivə, quru çay paketləri, soya yağı, pambıq yağı, yerfıstığı yağı, kətan yağı, küncüt yağı, donuz əti yağı və şirə istehsalına görə, Hindistan camış südü yağı, Almaniya təzə qaymaq, qatıq, qatılaşdırılmış yağsız süd, İndoneziya palma yağı, xurma çəyirdəyi yağı, Braziliya bəkməz, Rusiya günəbaxan yağı, İspaniya zeytun yağı, Filippin kokos yağı, İtaliya şərab, Yeni Zelandiya quru süd (bütün süd tozu), Yunanıstan qoyun südü pendiri, Türkiyə qoyun südü yağı, Sudan keçi südü pendiri, Misir camış südü pendiri istehsalı üzrə dünyada lider mövqeləri tutmuşdur [2].

Çin dünyanın ən iri ərzaq və qida məhsulları idxalçısıdır. İdxalın ümumi məbləği 259 milyard dollar, ixracla idxal arasındakı fərq isə 179 milyard dollar təşkil edir. İdxal və ixrac arasındakı fərqə görə növbəti yerləri Yaponiya (-60 milyard dollar), Böyük Britaniya (-42 milyard dollar), Cənubi Koreya (-33 milyard dollar) və Səudiyyə Ərəbistanı (-23 milyard dollar) tutur.

Ümumi ərzaq ixracına görə ABŞ dünyada birinci yerdədir (194 milyard dollar). İkinci yerdə Braziliya (137 milyard dollar), üçüncü yerdə öz limanlarından istifadə edərək məhsullarını digər Aİ ölkələrinə sataraq pul qazanan Niderland (121 milyard dollar) qərarlaşıb.

2022-ci ildə FAO-nun beş yüzə yaxın qida məhsulu üzrə beynəlxalq ticarət statistikasında 10 məhsul ümumi qlobal ticarətin 32%-dən çoxunu təşkil edir.[8] Bu məhsullar aşağıdakılardır:

1. Soya, soya unu və soya yağı (soya-94 milyard dollar, soya unu-35,7 milyard dollar, soya yağı-18,7 milyard dollar, cəmi148,4 milyard dollar). Ən böyük təchizatçılar Braziliya (41%), ABŞ (27%) və Argentinadır (14%). Qlobal satınalmaların 39%-i Çinin payına düşür;

2. Buğda və buğda unu (73,6 milyard dollar). İlk beşlik ixracatçıları Avstraliya (14%), ABŞ (12%), Kanada (11%), Fransa (10%) və Rusiyadır (8%). Bu məhsulun əsas idxalatçıları arasında kəskin fərq yoxdur: Çin (6%), İndoneziya (5%), Misir (5%) və digər ölkələr;

3. Mal əti (65,3 milyard dollar). Ən böyük ixracatçılar: Braziliya (18%), ABŞ (16%) və Avstraliya (11%). Əsas alıcılar: Çin (30%), ABŞ (12%) və Yaponiya (6%);

4. Qarğıdalı (63,3 milyard dollar). Ən iri təchizatçılardır ABŞ (30%), Braziliya (19%) və Argentina (15%). Əsas idxalçılar Çin (12%), Yaponiya (8%) və Meksikadır (8%);

5. Palma yağı (55,6 milyard dollar). Əsas təchizatçılar - İndoneziya (50%) və Malayziyadır(31%). Əsas idxalçılar isə Hindistan (20%), Çin (10%) və Pakistandır (6%);

6. Tünd spirtli içkilər (41,0 milyard dollar). Əsas ixracatçılar: Böyük Britaniya (23%), Fransa (15%) və Meksika (10%). Əsas alıcılar ABŞ (30%) və Çindir (9%);

7. Qənnadı məmulatları (40,5 milyard dollar). Əsas təchizatçılar Kanada (10%), Almaniya (9%) və Fransa (7%), əsas alıcılar ABŞ (21%) və Böyük Britaniyadır (8%);

8. Şərab (39,9 milyard dollar). Əsas təchizatçılar: Fransa (32%), İtaliya (21%) və İspaniya (8%), əsas alıcılar ABŞ (18%), Böyük Britaniya (12%) və Çin (7%) hesab olunur;

9. İnək südü pendiri (37,8 milyard dollar). Əsas ixrac edən ölkələr Almaniya (15%), Hollandiya (14%) və İtaliya (12%), ən əhəmiyyətli alıcılar isə Almaniya (14%), Fransa (7%) və İtaliyadır(7%);

10. Şokolad məhsulları (33,7 milyard dollar). Kakao paxlası əsasən Afrikada becərilsə də, hazır şokolad məhsulları Qərbi avropa ölkələrində istehsal olunur. Əsas təchizatçılar Almaniya (16%), Belçika (10%) və İtaliya (7%), əsas alıcılar isə ABŞ (11%), Böyük Britaniya (8%) və Fransadır (7%).

**İxracyönümlü istehsalın xüsusiyyətləri**

Təbii ki, hər bir ölkənin iqtisadiyyatının inkişafında prioritet istiqamətlərdən biri ixracyönümlü istehsalın inkişafıdır. Eyni zamanda ÜDM-un formalaşmasında da ixrac olunan mal və xidmətlərin rolu böyükdür. Qlobal sistem böhranları, qlobal bazarlarda rəqabətin daha da kəskinləşməsi, satış bazarlarının qeyri-stabilliyi şəraitində yeni məhsul növlərinin istehsalına və yeni ixrac istiqamətlərinin axtarışına ehtiyac vardır. Digər tərəfdən, ixrac, ölkənin valyuta ehtiyatlarının artırılması, istehlak mallarının, yüksək texnologiyalı məhsulların idxalının maliyyələşdirilməsi mənbəyidir.

İxracyönümlü məhsullar istehsal edən müəssisələr adətən iki ssenari üzrə fəaliyyət göstərirlər:

1. Məhsul daxili bazar üçün istehsal olunur, ölkə daxilində satılır və onun müəyyən bir qismi başqa ölkələrə ixrac edilir;

2. İstehsal olunan məhsullara ölkə daxilində ehtiyac yoxdur, istehsal olunan məhsullar yalnız ixrac üçün nəzərdə tutulub.

İxracyönümlü istehsalı inkişaf etdirmək üçün daxili tələbi fəal şəkildə stimullaşdırmaq lazımdır. Xarici bazarlarda məhsulların təşviqi çox vaxt iqtisadi, istehsal, qanunvericilik və digər məhdudlaşdırıcı amillərə görə çətin olaraq qalır. Xarici bazarlarda digər rəqib şirkətlərin fəaliyyətləri, beynəlxalq layihələrə dövlət dəstəyinin kifayət qədər olmaması, məhsulların xarici bazarların tələblərinə uyğun qeydiyyatı, sertifikatların, icazələrin alınması prosedurlarının mürəkkəbliyi, logistik xərclərin yüksək olması, xarici ölkələrin qanunvericiliyinin, tənzimləyici mexanizmlərin xüsusiyyətlərinin tam öyrənilməməsi, müəssisənin daxili resurslarının kifayyət qədər geniş olmaması, xarici bazarlarda dayanıqlı, etibarlı tərəfdaşlar haqqında məlumatların az olması, mütərəqqi istehsal texnologiyalarının zəif inkişafı və s. amillər yerli istehsalçıların qlobal bazarlara çıxışını və beynəlxalq bazarlarda möhkəmlənmək imkanlarını məhdudlaşdırır.

İxracyönümlü istehsalın inkişafının vacıb şərtlərindən biri istehsalın ilk illərində güzəştli vergitutma mexanizminin tətbiqi, elmi-tədqiqat xərclərinin sürətləndirilmiş amortizasiyası və idxal olunan istehsal vasitələri, ehtiyat hissələrinə görə rüsumların alınmamasıdır. Bu məqsədlə ölkəmizdə dövlət dəstəyi sistemi günbəgün genişləndirilir, ixracın dəstəklənməsi üçün konkret tədbirlər proqramı təkmilləşdirilir.

İxracyönümlü istehsalın inkişafında məhsulun istehsal xərcləri, maya dəyəri çox önəmlidir. Həddindən artıq inzibati yük və çoxlu sayda tələb olunan icazələr, daşınmaz əmlakın, istehsal vasitələrinin satış qiymətlərinin və ya icarəsinin yüksək olması, xarici iqtisadi fəaliyyət sahəsində kadrların səriştələrinin aşağı olması, ixtisaslaşma xərcləri, mürəkkəb və bahalı logistika, zəruri komponentlərin və texnologiyaların yüksək qiyməti,

enerji resurslarının artan qiymətləri, dövlət tərəfindən tənzimlənən işçilərin minimal əmək haqqı tarıflərinin artımı istehsalın maya dəyərini əhəmiyyətli dərəcədə artırır.

**Qida məhsulları və içki istehsalı ilə bağlı mövcud vəziyyət**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına diqqət yetirərkən görürük ki, son illər sənaye istehsalının sahə strukturunda qida və içki məhsullarının payı bir qədər azalmışdır. Belə ki, bu göstərici 2020-ci ildə 11,5% (qida məhsullarının istehsalı-10,4%, içki istehsalı-1,1%) olmuşdursa 2022-ci bu göstərici 6,4% (qida məhsullarının istehsalı-5,7%, içki istehsalı-0,7%) təşkil etmişdir [4]. Ümumilikdə, isə dinamika müsbətdir. 2023-cü ildə əvvəlki illə müqayisədə qida məhsullarının istehsalı 9,2%, içki istehsalı 23%, üzüm şərabının istehsalı 17,8%, unlu qənnadı məmulatlarının istehsalı 16,5%, şəkərli qənnadı məmulatlarının istehsalı 3,9%, meyvə-tərəvəz konservlərinin istehsalı isə 1,1 faiz artmışdır [5].

2022-ci ildə qida məhsullarının istehsalı üzrə əsas kapitala yönəldilən investisiyalar 206,5 milyon manat, içki istehsalı üzrə əsas kapitala yönəldilən investisiyalar 45,4 milyon manat olmuşdur ki, bu da müvafiq olaraq bütün sənayedə əsas kapitala yönəldilən investisiyaların (7,17 milyard manat) 2,88 və 0,63 faizini təşkil etmişdir. Təəssüflə qeyd etməliyik ki, hər iki istiqamət üzrə əsas kapitala yönəldilən investisiyaların böyük bir qismini daxili investisiyalar təşkil etmişdir. İki istiqamət üzrə bütövlükdə yatırılan 251,9 milyon manatın cəmi 3,7 milyon manatı və ya 1,5 faizi xarici investisiyaların hesabına həyata keçirilmişdir. Qida məhsullarının istehsalı üzrə əsas kapitala yönəldilən investisiyaların hamısı daxili mənbələrin hesabına formalaşmışdır [4].

Ölkəmizdə qida sənayesinin inkişafına diqqət günbəgün artmaqdadır. Son illər qəbul edilən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın hər birində aqrar emal müəssisələrinin, qida sənaye müəssisələrinin inkişaf etdirilməsi prioritet isdiqamət kimi göstərilmişdir. Amma əldə olunmuş müsbət nəticələrə rəğmən bir sıra qida məhsullarının ölkəmizdə istehsalının artırılması üçün geniş potensial imkanlar olsa da təəssüf ki, bəzi məhsullar üzrə idxaldan ciddi asılılığımız qalmaqdadır, xüsusilə də bitki və heyvan mənşəli yağlar üzrə. 2022-ci ildə ölkə ərazisində 48,5 min ton bitki məşəli duru yağ istehsal edildiyi halda, həmin il 238,8 milyon ABŞ dolları civarında 142,5 min ton duru bitki yağı idxal olunmuşdur. Kərə yağı ilə bağlı vəziyyət də hesab edirəm arzu olunan səviyyədə deyil. 2022-ci ildə ölkədə 25,9 min ton kərə yağı istehsal olunsa da daxili tələbat tam ödənilməmişdir. Belə ki həmin il 108 milyon ABŞ dolları civarında 18,6 min ton kərə yağı idxal olunmuşdur [4].

**Uğurlu nümunələr**

Təsisçiləri arasında Avropa Yenidənqurma və İnkişaf Bankı, Azərbaycan İnvestitsiya Şirkəti olan "Milk - Pro" MMC təsis edilərkən tibbi – bakterioloji, müalicəvi- diyetik süd məhsullarının istehsalı üzrə ixtisaslaşsa da, sonrakı illərdən müalicəvi süd məhsulları ilə yanaşı qatıq, kəsmik, xama və digər ümumi süd və ət məhsulları da istehsal edilməyə başlandı. Həmin dövrdən başlayaraq istehsal olunan məhsulların çeşid sayı davamlı şəkildə artırılmış və hazırda 50 adda ət və süd məhsulları müəssisədə istehsal olunmaqdadır. CTC holdinqə məxsus bu müəssisənin istehsal etdiyi qida məhsulları hazırda xeyli sayda xarici ölkələrə, o cümlədən Birləşmiş Ərəb Əmirliklərinə, Polşaya, Almaniyaya, Baltikyanı

ölkələrə, Rusiyaya, Belarusiyaya, Moldovaya və s. ölkələrə ixrac olunmaqdadır. Ət kəsimi və emalı üçün texnoloji avadanlıqlar və hazır həllər istehsal edən Rusiyanın "KOMMAN" şirkəti ilə sıx əməkdaşlıq edən "Milk - Pro" MMC-nin tərkibində 3 süd və 2 meyvə emalı zavodu fəaliyyət göstərir. Paytaxtın Hövsan qəsəbəsində daha bir süd zavodunun inşası tamamlanmaq üzrədir. Qeyd edək ki, yerli istehlakçılar arasında populyar olan "Sevimli-Dad" brendi bu şirkətə məxsusdur [1].

2010-cu ildə istismara verilmiş, xammalını Masazır gölündən əldə edən Masazır Duz Zavodu ölkədə ilk və hələlik yeganə duz rafinasiya zavodudur. Müəssisə fəaliyyətə başladıqdan qısa müddət sonra ölkə üzrə duz istehsalı dəfələrlə artdı. 2009-cu ildə ölkə üzrə cəmi 6890 ton duz istehsal olunmuşdusa, bu göstərici 2011-ci ildə 21 min tona yaxın olmuşdur. 2022-ci ildə isə ölkə üzrə duz istehsalı 77,5 min tona yaxın olmuşdur ki, bu da zavod fəaliyyətə başladığı illə müqayisədə 11,2 dəfə çoxdur.[4] Məlumat üçün qeyd edək ki, illik istehsal gücü 90000 ton olan müəssisədə 170 nəfər işçi daimi işlə təmin edilib. Azərbaycan Duz İstehsalat Birliyinə məxsus olan bu müəssisənin layihəsi Azərbaycan İnvestisiya Şirkəti ilə birgə həyata keçirilmiş, zavod İtaliya, Almaniya, Türkiyə kimi ölkələrin ən müasir texnoloji avadanlıqları ilə təchiz edilmişdir. 8 hektar ərazini əhatə edən zavod 24 saat iş rejimi ilə çalışır. Masazır Duz Zavodunda istehsal olunan qida və sənaye duzları müxtəlif ölçülərdə və formalarda qablaşdırılmaqla "AzərDuz", "Alfa", "Salute", "Bizim Duz" markaları adı altında yerli və xarici bazarlara çıxarılır. Müəssisədə istehsal olunan sənaye duzları kənd təsərrüfatında, xüsusilə də heyvandarlıqda, dəriçilik məhsullarının istehsalında, yol istismar idarələrində, hovuzlar, filter sistemləri, qazanxanalar, neft sənayesi ilə yanaşı, pendirçilik, çörəkçilik, balıqçılıq və turşuçuluq sahələrində də geniş istifadə olunur. İstehsal olunan məhsullar ölkədaxili tələbatı ödəməklə yanaşı Rusiya, Qazaxıstan, Gürcüstan, Kanada və digər ölkələrə də ixrac edilir [3].

Uğurlu nümunələrdən biri də 2001-ci ildən fəaliyyətə başlaya "Ulduz" şokolad fabrikidir. Hazırda nəinki Azərbaycanda, bütün Qafqazda ən iri və ən çox istehsal gücünə malik olan şokolad fabriklərindən biri olan bu müəssisə daxili bazarda geniş alıcı kütləsinə malik olmaqla yanaşı dünyanın müxtəlif ölkələrinə, o cümlədən Orta Asiya, Rusiya, Gürcüstan, Ərəb ölkələri kimi iyirmiyə yaxın xarici ölkəyə məhsul ixrac etməkdədir [7].

**Nəticə**

Hesab edirəm ki, yeni yaradılan və ya hazırda fəaliyyət göstərən qida sənaye müəssisələri ilk növbədə çalışmalıdırlar ki, xarici bazarlara rəqabətədavamlı məhsullar çıxarda bilsinlər. Nə vaxta qədər ki, yerli qida istehsalı müəssisələri daxili bazarları hədəfləyəcəklər, daxili bazarın tələbatını qarşılamaq üçün fəaliyyətlərini quracaqlar elə müəssisələrin gələcəkdə ciddi uğurlara sahib olacağı, fəaliyyətlərini uğurla davam etdirəcəkləri ciddi şübhə doğurur. Xarici bazarlarda rəqabətə davam gətirə bilməyən müəssisələr daxili bazarda da böyük uğurlar əldə edə bilməyəcəklər.

Qeyd etməliyik ki, son illər ixracın stimullaşdırılması, şaxələndirilməsi, yeni ixrac marşurutlarının tapılması, yerli istehsalçıların xarici bazarlara çıxış imkanlarının artırılması istiqamətində qövlət qurumlarının fəaliyyətinin nəzərəçarpacaq dərəcədə atrdığını müşahidə edirik. Mütəmadi olaraq müxtəlif ölkələrlə birlikdə biznes forumların keçirilməsi, xeyli sayda xarici ölkədə ticarət evlərinin, şərab evlərinin açılması, nüfuzlu beynəlxalq qida sərgilərində sahibkarlarımızın vahid "Made in Azerbaijan" brendi altında iştirakı,

istehsalçılarımızın beynəlxaq sərgi və yarmarkalarda iştirakının təşviqi və dəstəklənməsi vacib məqamlardandır. Bunula belə, düşünürəm ki, yerli qida istehsalçılarının müdafiəsi və dəstəklənməsi bir qədər də güclənməlidir, xüsusilə də daxili bazarın qorunması məsələlərinə diqqət artırılmalıdır. Müşahidələrimizə əsaslanaraq deyə bilərik ki, hazırda yerli istehsalçılarımız xarici rəqiblərinə daxili bazarda da uduzurlar. Əsasən də qiymət məsələsində. Hesab edirik ki, ölkəmizdə istehsal olunan və ya istehsal imkanları, istehsal potensialı yüksək olan məhsulların xarici analoqlarının bazarlarımıza daxil olmasına iqtisadi maneələrin yaradılması faydalı ola bilər. Sadə dillə desək, xarici qida sənayesi məhsullarının bazarlarımızda hegemonluğunun qarşısı iqtisadi vasitələrlə alınmalıdır. Belə olarsa yerli istehsalçıların gəlirləri artar, daha sürətlə inkişaf edərlər. Nəticədə ölkədən çıxan valyutanın məbləği azalar, yeni iş yerləri açılar, büdcəyə daxil olmalar da artar.

Sənaye müəssisələri tərəfindən istehsal olunmuş məhsulların ümumi həcmində innovativ məhsulların xüsusi çəkisi çox aşağı olmaqda davam edir. Yeni satış istiqamətlərinin axtarışı və ixrac olunan məhsulların növlərinin genişləndirilməsi iqtisadiyyatın ayaqda qalmasının şərtlərindən vacib istiqamətlərdən biri hesab edirik. İxracımızda geniş çeşiddə təbii ehtiyatların olmaması bizi yüksək texnologiyalı, bilik tutumlu istehsalı inkişaf etdirməyə və innovativ məhsullar hesabına ixracı artırmağa məcbur edir.

## ƏDƏBİYYAT

1. "Milk - Pro" MMC haqqında [Elektron resurs] / CTC Holdinqin internet səhifəsi https:// https://ctcholding.az/holdinq/milk-pro-mmc/
2. Qida sənayesi məhsulları üzrə lider ölkələr [Elektron resurs] / İqtisadi coğrafiya və sənaye turizmi haqqında kanal, aprel, 2024, https://dzen.ru/a/Zgvp22R3WzW_AmVd
3. Azərbaycan Duz İstehsalat Birliyi haqqında [Elektron resurs] / Müəssisənin internet səhifəsi https://www.aspa.az/haqqimizda/azerbaycan-duz-istehsalat-birliyi
4. "Azərbaycanın sənayesi" [Elektron resurs] / Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin saytı https://www.stat.gov.az/source/industry/
5. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, sosial, iqtisadi inkişaf, Bakı: 2023 https://www.stat.gov.az/news/source/doklad_2023-12.pdf
6. Forbes dünyanın ən böyük qida şirkətlərinin reytinqini dərc edib [Elektron resurs] / "Sfera" nəşriyyat evi, may 2022
7. "Ulduz" Şokolad Fabriki haqqında [Elektron resurs] / Müəssisənin internet saytı https://www.ulduz.com.az/az/page/8-ulduz-sokolad-fabriki
8. Dünya bazarında ən çox satılan ərzaq məhsulları onluğu [Elektron resurs] / İqtisadi coğrafiya və sənaye turizmi haqqında kanal, 2024
https://dzen.ru/a/Zfq1cSmBXToYmKQohttps://sfera.fm/news/forbes-opublikoval-reiting-samykh-krupnykh-prodovolstvennykh-kompanii-mira

## SUMMARY

The presented material notes the current situation of the food industry in the world, the main problems faced by entrepreneurs in the food industry, shows the economic indicators of the world's largest producers of food and beverages, their positions in the rankings,

provides information on the top ten products in the statistics of international food trade and drinks, the peculiarities of export-oriented production are investigated, and the current situation in our country regarding the production of food products and beverages is considered. Here are some good examples chosen in this direction. As a result, a number of proposals are put forward for the development of the export-oriented food industry and the increase in the production of import-substituting food production.

***Key words***: *food industry, agricultural sector, import, export, production, investment*

**РЕЗЮМЕ**

В представленном материале отмечено современное положение пищевой промышленности в мире, основные проблемы, с которыми сталкиваются предприниматели пищевой отрасли, показаны экономические показатели крупнейших мировых производителей продуктов питания и напитков, их позиции в рейтингах, приведены сведения о первой десятке товаров в статистике международной торговли продуктами питания и напитками, исследованы особенности экспортно-ориентированного производства, а также рассмотрена текущая ситуация в нашей стране по производству пищевых продуктов и напитков. Приводятся удачные примеры, выбранные в этом направлении. В итоге выдвигается ряд предложений по развитию экспортно-ориентированной пищевой промышленности и увеличению производства импортозамещающей пищевой продукции.

***Ключевые слова***: *пищевая промышленность, аграрный сектор, импорт, экспорт, производство, инвестиции*

# DÖVLƏT VƏ BƏLƏDİYYƏ MALİYYƏSİ VƏ BAZAR MÜNASİBƏTLƏRİ ŞƏRAİTİNDƏ ONLARIN ROLU

**Mövlan İSMAYILOV**
*pelenascimento101958@gmail.com*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

Dövlət maliyyəsi dövlətin mövcudluğunun və onun fəaliyyətinin maliyyə təminatına xidmət edən dövlət pul fondlarının yaradılması, bölüşdürülməsi və istifadəsi sahəsində cəmiyyətin iqtisadi münasibətlərinin məcmusudur.

Dövlət maliyyəsi iqtisadi münasibətlərin cəmidir. Bunun əsasında pul vəsaitləri fondu yaradılır və geniş mənada təkrar istehsal prosesi üçün istifadə olunur.

Dövlət maliyyəsi dövlətin öz funksiyalarını yerinə yetirməsi üçün zəruri olan fondların yaradılması və istifadəsi üçün pul münasibətləri sistemidir.

Dövlət maliyyəsi ölkənin maliyyə sisteminin tərkib hissələrindən biridir. Dövlət maliyyəsi anlayışına nəzər salsaq görərik ki, milli sərvətin bir hissəsinin və ictimai məhsulun dəyərinin bölüşdürülməsi və yenidən bölüşdürülməsi, dövlətin və dövlət müəssisələrinin maliyyə resurslarının formalaşması ilə bilavasitə əlaqədar olaraq, o cümlədən cəmiyyətin sosial-mədəni tələbatlarının ödənilməsi, ölkənin istehsalının, genişlənməsinin, habelə müdafiəsinin və idarə olunmasının təmin edilməsi və bütün bunlar üçün zəruri olan ehtiyacların ödənilməsi məqsədi ilə yaradılmış pul münasibətləri sistemidir.

Ölkənin maliyyə sisteminin hissələrindən biri dövlət maliyyəsidir. Dövlətin maliyyəsi konsepsiyasına nəzər salsaq görərik ki, dövlətin və dövlət müəssisələrinin maliyyə resurslarının milli sərvətin bir hissəsinin və ictimai məhsulun dəyərinin bölüşdürülməsi və yenidən bölüşdürülməsi ilə bilavasitə əlaqədə formalaşması. Eləcə də cəmiyyətin sosial-mədəni tələbatlarının ödənilməsi, istehsalın təmin edilməsi və genişləndirilməsi, habelə ölkəni qorumaq və idarə etmək və bütün bunlara olan tələbatları ödəmək məqsədi ilə yaradılmış pul münasibətləri sistemidir. Hər bir ölkənin həm iqtisadi, həm də sosial sahədə yerinə yetirməli olduğu vəzifələrin əhəmiyyəti onun maliyyə resurslarının məqbul hissəsinin cəmləşdirilməsini və mərkəzləşdirilməsini zəruri edir. Bu resurslardan istifadə formasına gəlincə, dövlətin iqtisadi, siyasi və sosial vəzifələrinin, o cümlədən onun ehtiyaclarının maliyyə təminatçısı kimi məhz dövlətin mərkəzləşdirilmiş pul fondları çıxış edir. Ölkəmizin iqtisadi inkişafında dövlət maliyyəsinin rolu onun iqtisadiyyatın sabitliyi, bazar münasibətlərinə uyğunlaşması, investisiya fəaliyyətinin stimullaşdırılması kimi fəaliyyəti ilə izah olunur.

Dövlət maliyyəsinin bölgü funksiyasına nəzər salsaq, bu funksiya yaradılmış dəyərin bölüşdürülməsi və yenidən bölüşdürülməsi, iqtisadiyyatda dövlət sektorunun maliyyələşmə mənbələrinin formalaşdırılması, büdcələrin balanslaşdırılması yolu ilə dövlət ehtiyaclarının təmin edilməsində özünü göstərir. Və vahid büdcə sistemi daxilində büdcədənkənar fondlar.

Dövlət maliyyəsinin digər funksiyası iqtisadiyyatın dövlət tənzimlənməsi və stimullaşdırılması funksiyasıdır ki, bu funksiya investisiyaların həyata keçirilməsindən və iqtisadiyyatın prioritet sahələrinin inkişafının maliyyələşdirilməsindən ibarətdir.

## ƏDƏBİYYAT

1. Bağırov, D., Həsənli M. "Maliyyə", Bakı: 2011
2. Novruzov, N., Hüseynov, X. "Maliyyə", Bakı: 2007
3. Əhmədzadə, M.İ. "Dövlət maliyyəsi", Bakı-2000
4. "Maliyyə və uçot" jurnalı
5. Махмудов, И.М., Зейналов, Т.Ш., Махмудов, Р.И. «Малиййя вязиййятинин тящлили», Бакы: 2003
6. Муслимов, С.Й., Казымов, Р.Н. «Малиййятящлили», Дярслик. Бакы: 2012, ЖБС

## SUMMARY

**Movlan Ismayilov**

### STATE AND MUNICIPAL FINANCE AND THEIR ROLE IN MARKET RELATIONS

This material provides information about state and municipal finances. It includes the nature, principles and functions of state finance. State finance is a set of economic relations of the society in the creation, distribution and use of state money funds, which serve to financially support the existence of the state and its functioning.

***Key words:*** *public finance, distribution, redistribution, cash funds, country finance*

## РЕЗЮМЕ

**Мовлан Исмаилов**

### ГОСУДАРСТВЕННЫЕ И МУНИЦИПАЛЬНЫЕ ФИНАНСЫ И ИХ РОЛЬ В РЫНОЧНЫХ ОТНОШЕНИЯХ

В данном материале представлена информация о государственных и муниципальных финансах. Он включает в себя природу, принципы и функции государственных финансов. Государственные финансы – это совокупность экономических отношений общества по созданию, распределению и использованию государственных денежных средств, которые служат финансовому обеспечению существования государства и его функционирования.

**Ключевые слова:** государственные финансы, распределение, перераспределение, денежные средства, финансы страны

# İXRACYÖNLÜ SƏNAYELƏŞMƏ STRATEGİYALARININ İQTİSADİ ARTIMA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ: TÜRKİYƏ NÜMUNƏSİNDƏ

**Emil BAĞIRLI**
*emilbagirli@gmail.com*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*Orhcid ID: 0009-0009-8303-6239*

***Xülasə***

Bu məqalədə ixracyönümlü sənayeləşmə strategiyalarının Türkiyə Cumhuriyyətində iqtisadi inkişafa təsirləri nəzəri perspektivlər və empirik sübutlarla inteqrasiya edilərək araşdırılər. Klassik və neoklassik ticarət nəzəriyyələrinə əsaslanaraq, bu strategiyalar məhsuldarlığı, texnoloji yenilikləri və iqtisadi genişlənməni təşviq etmək üçün müqayisəli üstünlük və ixtisaslaşmadan istifadə edir. İxracyönümlü böyümə şirkətləri beynəlxalq rəqabətlə üz-üzə qoyaraq, səmərəlilik artımlarını, texnoloji irəliləyişləri və qlobal bazarlara daha geniş çıxışı təşviq edir. Tədqiqat Türkiyə kimi yeni sənayeləşmiş ölkələrin təcrübələrinə diqqət yetirir. Bu ölkələr ixracyönümlü sənayeləşməni dəstəkləyən siyasətləri həyata keçirmiş və sürətli iqtisadi böyümə ilə həyat səviyyəsinin yüksəlməsinə nail olmuşlar. Bu nümunəvi ölkələr göstərir ki, hökumətlərin infrastruktur investisiyaları, xarici birbaşa investisiya (FDI) stimulları və texnoloji yeniliklər vasitəsilə ixracyönümlü sənayelərə dəstəyi rəqabət qabiliyyətini və uzunmüddətli iqtisadi göstəriciləri artıra bilər. Lakin məqalə bu cür böyümə strategiyaları ilə əlaqəli çətinlikləri də vurğulayır. Qlobal tələbatın dəyişməsi və əmtəə qiymətlərinin dəyişkənliyi kimi xarici şoklara qarşı həssaslıq böyüməni əngəlləyə bilər, bu hal Argentina və Braziliya kimi Latın Amerikası ölkələrində müşahidə olunmuşdur. Bundan əlavə, ixrac yönümlü böyümə gəlir bərabərsizliyini artıra bilər, çünki fərqli sektorların işçiləri arasında faydalar qeyri-bərabər paylanır. Məqalə, həm ixrac, həm də daxili bazara sərmayələrin daxil olduğu balanslı inkişaf yanaşmasının vacibliyini vurğulayır və işini itirən işçiləri dəstəkləmək üçün sosial təhlükəsizlik şəbəkələrinin tətbiq olunmasının zəruriliyini qeyd edir.

***Açar sözlər:*** *ixrac, artım, Türkiyə, investisiya, xarici ticarət*

## Giriş

İxracyönümlü sənayeləşmə (İYS) Türkiyə də daxil olmaqla bir çox inkişaf etməkdə olan iqtisadiyyatların iqtisadi inkişafında əsas rol oynamışdır. İxrac artımını sənaye genişlənməsinin və iqtisadi inkişafın təməl prinsipi kimi qəbul edən bu strategiya, 1980-ci illərin əvvəllərindən etibarən Türkiyənin iqtisadi trayektoriyasına əhəmiyyətli təsir göstərmişdir. İYS strategiyaları, xüsusilə sürətlə sənayeləşən Şərqi Asiya iqtisadiyyatlarında ilkin uğur nümayiş etdirdiyi halda, Türkiyə nümunəsi bu yanaşmanın həm imkanlarını, həm də məhdudiyyətlərini ortaya qoyur. Bu məqalədə Türkiyənin İYS strategiyalarını qəbul etməsinin incəliklərinə toxunaraq, onların iqtisadi böyümə üzərində uzunmüddətli təsirlərini araşdırır və əsas makroiqtisadi məlumatlar və vizual təmsillərlə dəstəklənmiş empirik təhlil təqdim edirik.

İxracyönümlü sənayeləşmə, daxili istehsalı qlobal bazarla inteqrasiya etməyi hədəfləyən model olaraq, idxalı əvəz edən sənayeləşmə (İƏS) kimi digər modellərdən fərqlənir. Daxili sənayeləri beynəlxalq rəqabətdən qorumaq əvəzinə, İYS bu sənayeləri qlobal miqyasda rəqabət aparmağa təşviq edir və ixracı əsas böyümə mühərriki kimi istifadə edir. Türkiyə üçün bu dəyişiklik 1980-ci illərin əvvəllərində baş verdi. O zaman ölkə yüksək inflyasiya, aşağı böyümə və sürətlə artan xarici borc böhranı kimi ciddi iqtisadi tarazlıqsızlıqlar ilə mübarizə aparırdı. Hökumət, Turgut Özalın rəhbərliyi altında, ticarət liberallaşmasına yönəlmiş radikal dəyişikliklər həyata keçirmiş, tarifləri azaltmış və Türk lirəsini devalvasiya edərək ixracın daha rəqabətli olmasını təmin etdi və iqtisadiyyatı daha çox bazara yönümlü və ixrac mərkəzli etmək məqsədilə bir sıra struktur islahatları tətbiq etmişdir.

**Material və metodlar**

Bu tədqiqatda Türkiyənin ixracyönümlü sənayeləşmə strategiyalarının iqtisadi inkişafa təsirini qiymətləndirmək üçün keyfiyyət yanaşmasından istifadə edir. Məqalədəki nəticələr, Dünya Bankı, Türkiyə Statistika Qurumu (TurkStat) və Türkiyə Respublikasının Mərkəzi Bankı kimi müxtəlif mənbələrdən əldə edilən makroiqtisadi məlumatların təhlilinə əsaslanır. İxrac yönümlü sənayeləşmə (İYS) ilə iqtisadi inkişaf arasındakı əlaqəni anlamaq üçün ÜDM artımı, ixrac səviyyələri, ticarət balansları və sənaye sektorunun fəaliyyət göstəriciləri kimi əsas indikatorlar nəzərdən keçirilir.

Analiz, 1980-ci illərdən bəri Türkiyənin iqtisadi siyasətlərinin tarixi icmalı ilə dəstəklənir və bu çərçivədə ölkənin ixrac mərkəzli böyümə modelini asanlaşdıran struktur islahatlarına xüsusi diqqət yetirilir.

**Əldə olunan nəticələr**

Bu analiz nəticələri göstərir ki, Türkiyənin ixrac yönümlü sənayeləşmə strategiyası iqtisadi böyüməni əhəmiyyətli dərəcədə sürətləndirmişdir. Xüsusən 1980-ci ildən sonrakı dövrdə ölkə sürətli ÜDM artımını təcrübə etmişdir(Boratav, K. 2002, s.125). Ölkənin idxal əvəzləyici sənayeləşmədən (İES) ixrac yönümlü sənayeləşməyə (İYS) keçməsi iqtisadi inkişafında kritik bir dönüş nöqtəsi olmuşdur ki, bu da müxtəlif makroiqtisadi göstəricilərlə təsdiqlənir.

**İxrac performansı**

İlk 1980-ci illərdə İYS qəbul edildikdən bəri Türkiyənin ixracı əhəmiyyətli dərəcədə artmışdır. 1980-ci ildə ümumi ixrac cəmi yalnız 2.9 milyard dollar olub ki, bu da ÜDM-nin 5%-dən azını təşkil edirdi. 2020-ci ilə qədər bu rəqəm 169 milyard dollardan çox olmuşdur və ÜDM-nin təxminən 25%-ni əhatə etməkdədir. Bu spektakulyar artım, Türkiyənin qlobal bazarlara inteqrasiya etmək və ixrac qabiliyyətini artırmaq üçün apardığı səylərin müvəffəqiyyətini əks etdirir [Acar, M. 2021, s.33]. İxracın tərkibi də zamanla dəyişmişdir. Türkiyənin sənayeləşməsinin ilkin mərhələlərində ixrac, əsasən, pambıq və tütün kimi aşağı dəyərli kənd təsərrüfatı məhsulları idi. Lakin ölkənin sənaye bazası genişləndikcə, ixracın tərkibi tekstil, maşınqayırma və avtomobillər kimi daha yüksək dəyərli istehsal məhsulları ilə müxtəlifləşmişdir [Kara, G., və Bayram, K. 2018, s.56]. 2000-ci illərə gəldikdə, Türkiyə dayanıqlı istehlak mallarının, o cümlədən elektronika və avtomobil hissələrinin əhəmiyyətli

ixracatçısına çevrildi ki, bu da İYS-nin ölkənin iqtisadi əsasını kənd təsərrüfatından sənayəyə müvəffəqiyyətlə keçirdiyini göstərir.

**ÜDM Artımı**

İxrac mərkəzli böyüməyə keçid Türkiyənin ÜDM artım tempinə də əhəmiyyətli təsir göstərmişdir. 1980-ci ildən 2020-ci ilə qədər Türkiyə iqtisadiyyatı orta illik 4.5% artım nisbətinə malik olmuşdur ki, bu da 1970-ci illərin daha yavaş artım sürətləri ilə müqayisədə olduqca yüksəkdir. Ticarətin liberallaşması, özəlləşdirmələr və maliyyə sektorunun liberallaşması kimi struktur islahatları yerli sərmayəni stimullaşdırmış və xarici kapitalı cəlb etmişdir ki, bu da iqtisadi böyüməni daha da artırmışdır. Türkiyənin iqtisadi artımı tamamilə xətti cizgidə hərəkət etməsə də, maliyyə böhranları və dalğalanmalara məruz qalsa da, ümumi tendensiya İYS-nin uzunmüddətli davamlı iqtisadi böyüməyə mühüm töhfə verdiyini göstərir.

**Struktur dəyişiklikləri**

Türkiyənin ixracyönümlü sənayeləşmə (İYS) strategiyası iqtisadiyyatda əhəmiyyətli struktural dəyişikliklərə səbəb olmuşdur. Məhz İYS-nin əsas məqsədlərindən biri də, istehsalın aşağı məhsuldarlığa malik sektorlardan, məsələn, kənd təsərrüfatından daha yüksək məhsuldarlığa malik sənaye sektorlara keçididir [Yılmaz, B., Yıldırım, E. 2021, s.228]. Türkiyənin halında, kənd təsərrüfatının ümumi ÜDM-dən olan payı 1980-ci ildən bəri əhəmiyyətli dərəcədə azalmış, sənaye və xidmətlərdən olan pay isə artmışdır. Məsələn 1980-ci ildə kənd təsərrüfatı ÜDM-nin təxminən 25%-ni təşkil edirdisə, 2020-ci ildə bu rəqəm 5%-dən də aşağı düşmüşdür. Eyni zamanda sənaye sektorunun ÜDM-yə töhfəsi artmış, istehsal sektoru iqtisadiyyatda getdikcə mərkəzi bir rol oynamışdır.

İYS strategiyası tekstil, avtomobil, elektronika və maşınqayırma kimi sahələrin inkişafını asanlaşdırmışdır ki, bunlar da indi vacib ixrac sektoru olmuşdur. Türkiyənin qlobal dəyər zəncirlərinə, xüsusən də avtomobil və elektronika sənayesindəki inteqrasiyası, ölkənin texnoloji transferlərdən və artan məhsuldarlıqdan faydalanmasına imkan tanımışdır [Çetin, M. 2021, s.286]. İstehsal strukturundakı bu dəyişiklik İYS strategiyasının mühüm bir nəticəsidir və Türkiyənin əsasən kənd təsərrüfatı iqtisadiyyatından daha müxtəlif və sənayeləşmiş bir iqtisadiyyata keçməsinə şərait yaratmışdır.

**Xarici birbaşa investisiyalar**

İxracyönümlü sənayeləşmənin (İYS) əsas üstünlüklərindən biri xarici birbaşa investisiyaları (XBİ) stimullaşdırma bacarığıdır. Çünki beynəlxalq şirkətlər ixrac yönümlü iqtisadiyyatlarda fəaliyyət göstərmək istəyirlər. Türkiyənin İYS-ni qəbul etməsi, xarici mülkiyyətlə bağlı məhdudiyyətlərin aradan qaldırılması, vergi stimullarının təqdim edilməsi və infrastrukturu yaxşılaşdırmaq kimi XBİ-ni cəlb etməyə yönəlmiş siyasətlərlə müşayiət olunmuşdur. Nəticədə, 1980-ci ildən bəri Türkiyəyə olan XBİ axınları əhəmiyyətli dərəcədə artmışdır(Harrison, A. 2019, s.50). 1980-ci ildə Türkiyə yalnız 18 milyon dollar XBİ cəlb etmişdirsə, artıq 2007-ci ildə bu rəqəm 22 milyard dollar zirvəsinə qədər yüksəlmişdir. O zamandan bəri XBİ səviyyələri, əsasən daxili və qlobal iqtisadi şərtlər səbəbindən, dalğalanmalar yaşasa da, Türkiyə istehsal, pərakəndə satış və maliyyə xidmətləri kimi sahələrdə xarici sərmayələr üçün əsas məkan olaraq qalmaqdadır [Özel, I. 2020, s.323]. XBİ

axını Türkiyənin sənaye bazasının modernləşməsinə, məhsuldarlığın artmasına və texnologiya və biliklərin transferinin asanlaşmasına kömək etmişdir.

**Müzakirə**

Bu araşdırmanın nəticələri göstərir ki, Türkiyənin ixrac yönümlü sənayeləşmə (İYS) strategiyasının son dörd onillikdə iqtisadi artım və struktur transformasiyasının əsas drayveri olduğunu göstərir. İxrac artımını və qlobal inteqrasiyanı prioritetləşdirərək, Türkiyə öz sənaye bazasını genişləndirməyi, ixrac profilini müxtəlifləşdirməyi və uzunmüddətli iqtisadi artımı davam etdirməyi bacarmışdır. Lakin İYS strategiyası həm də müəyyən çətinliklər və məhdudiyyətlər yaratmışdır..

Həqiqətən də, İYS Türkiyənin iqtisadi artımına kömək etsə də, ölkəni qlobal iqtisadiyyatın zəifliklərinə məruz qoymuşdur. İxracdan asılılıq, Türkiyəni qlobal tələbdəki dəyişikliklər, valyuta məzənnələrinin dalğalanması və əmtəə qiymətlərindəki dəyişikliklər kimi xarici şoklara yüksək həssas edir. Məsələn, 2008-ci ilin qlobal maliyyə böhranı və ardınca baş verən Avropa iqtisadiyyatlarının yavaşlaması, Türkiyənin ixrac performansına əhəmiyyətli təsir etmiş, milli valyutanın ucuzlaşması nəticəsində yaranan inflyasiya müşaiyətində ÜDM ressesiyasına səbəb olmuşdur.

Analizimizi daha da dərinləşdirsək, Türkiyənin ixrac səbəti, tekstil və avtomobillər kimi orta texnologiyalı mallara cəmləşmişdir ki, bu da digər inkişaf etməkdə olan bazarlarla güclü rəqabətə məruz qalır. Dəyər zəncirində yüksəlmək üçün cəhdlər olsa da, Türkiyənin yüksək texnologiyalı ixrac məhsullarına keçidi bəzi digər inkişaf etməkdə olan iqtisadiyyatlardan daha yavaş olmuşdur. Bu, uzunmüddətli ixrac artımı və məhsuldarlıq artımı üçün potensialı məhdudlaşdırır.

Başqa bir çətinlik isə, 1990-cı illərdən bəri Türkiyənin iqtisadiyyatında davam edən cari hesab defisitləridir. İxrac artımı ticarət balansını yaxşılaşdırmağa kömək etsə də, enerji və kapital mallarının yüksək idxal səviyyələri, böyük cari hesab defisitlərinə səbəb olmuşdur. Bu defisitlər, Türkiyənin xarici maliyyələşdirməyə asılılığını artıraraq, kapital axını reversiyalarına və maliyyə qeyri-sabitliyinə qarşı həssaslığını artırmışdır.

**Nəticə**

Bütün problemlərə baxmayaraq Türkiyədə həyata keçirilən İxracyönümlü Sənayeləşmə Strategiyalarının(İYS) nəticələrinin müsbət olduğunu söyləyə bilərik. Ölkə 40 il ərzində teksil və kənd təsərrüfatına əsslanan iqtisadiyyatdan, qlobal dəyər zəncirlərinə sahib olan sənayeləşmiş ölkəyə çevrilmişdir. Hətta məişət elektronikası kimi orta texnologiyalı sahələrdə Avropanın liderinə çevrilmişdir. Ölkəmiz başda olmaqla məhz digər inkişaf etməkdə olan ölkələr üçün Türkiyənin təcrübəsi qarşılarındakı inkişaf planlarını həyata keçirmək üçün mühim əsas ola bilər.

## ƏDƏBİYYAT

1. Acar, M. (2021). Export-led growth: Evidence from Turkey. Journal of Economic Policy Research, 15(1), p.29-44
2. Boratav, K. (2002). The Turkish economy in the 1980's: A structural transformation. Middle Eastern Studies, 38(1), p.117-135

3. Cetin, M. (2021). Globalization and economic development in Turkey: An analysis of export-oriented growth. Turkish Economic Review, 8(3), p.275-295
4. Erdoğan, A. (2017). Economic reform in Turkey: Challenges and opportunities. International Journal of Economic Studies, 4(2), p.107-120
5. Harrison, A. (2019). Turkey's economic transformation: Lessons from the past. Economic Policy Journal, 10(1), 43-58
6. Kara, G., & Bayram, K. (2018). The impact of export-oriented industrialization on economic growth in Turkey. *Journal of Business and Economics*, 12(2), 55-70
7. Özel, I. (2020). Regional disparities and export-led growth in Turkey: A critical assessment. Southeast European and Black Sea Studies, 20(3), 311-329
8. Sözeri, S. (2018). The role of foreign direct investment in Turkey's economic growth. Journal of Economic Development, 43(4), 73-90
9. TurkStat. (2023). Turkey Statistical Institute: National Economic Indicators.
10. Yılmaz, B., & Yıldırım, E. (2021). The dynamics of export-led growth in Turkey: An empirical analysis. International Journal of Emerging Markets, 16(2), 217-233

**SUMMARY**

This paper examines the effects of export-oriented industrialization strategies on economic development in Republic of Turkey through integrating theoretical perspectives and empirical evidence. Grounded in classical and neoclassical trade theories, such strategies leverage comparative advantage and specialization to drive productivity, technological innovation, and economic expansion. By exposing firms to international competition, export-oriented growth encourages efficiency gains, technological advancements, and greater access to global markets. The study highlights the experiences of countries like Turkey, which implemented policies fostering export-driven industrialization, leading to rapid economic growth and improved living standards. These case studies illustrate how governments' support for export-oriented industries through infrastructure investment, foreign direct investment (FDI) incentives, and technological innovation can enhance competitiveness and long-term economic performance. However, the paper also acknowledges the challenges associated with such growth strategies. Vulnerability to external shocks, including global demand fluctuations and commodity price volatility, can hinder growth, as seen in Latin American countries like Argentina and Brazil. Additionally, export-driven growth can exacerbate income inequality, with benefits unevenly distributed among workers in different sectors. The paper emphasizes the importance of a balanced development approach that includes both export and domestic market investments, along with the implementation of social safety nets to support displaced workers.

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ NAXÇIVAN İQTİSADİ RAYONUNDA BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNİN İNKİŞAFI ÖLKƏMİZİN MİLLİ İQTİSADİYYATINA YENİ GÜC QATACAQ

**Əbdülhüseyn ZAMANOV**
**Rafik QASIMZADƏ**
*abdulhuseynzamanov@ndu.edu.az*

*Naxçıvan Dövlət Universiteti*
*orcid.org/0009-0003-2523-3505*

***Xülasə***

*Məqalədə Naxçıvan iqtisadi rayonunun iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından səmərəli istifadə etməklə mövcud çatışmazlıqların aradan qaldırılması prosesinin sürətləndirilməsinə nail olunmasından bəhs edilmişdir. Tədqiqat işində muxtar respublikada ixracyönümlü iqtisadiyyatın bütün sahələrinin inkişafı, ixrac potensiallı məhsullarının xarici bazarlara çıxışının artırılmasına töhfə verən rəqabətqabiliyyətli sahələrə dövlət dəstəyi və investisiyalar cəlb olunması bu sahədə xidmət, təminatının yaxşılaşdırılması həmçinin bu sahədə müasir vəziyyətinin tədqiqi problemlərinin öyrənilməsi istiqamətdə işlərin aparılması bir məqsəd kimi qarşıya qoyulmuşdur. Məqalədə Naxçıvan iqtisadi rayonunda son illərdə əldə olunmuş nailiyyətlər, eyni zamanda mövcud problemlər araşdırılmış, region iqtisadiyyatının gələcək inkişafını təmin edən bərpa olunan enerji mənbələrinin sürətli inkişafı və ixracı məsələlərindən bəhs edilmişdir. Araşdırmada başlıca məqsədlərdən biri də yeni ideya və layihələrin dəstəklənməsi hesabına iqtisadiyyatın dayanıqlı və davamlı inkişafının sürətləndirilməsi, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artırılmasına nail olmaqdır.*

***Açar sözlər:*** *Naxçıvan MR, ixracyönümlü, bərpa olunan enerji mənbələri, elektrik enerjisi*

Ölkəmiz müstəqilliyin qazandıqdan sonra qarşısında duran daha vacib iqtisadi məsələlərdən birisi respublika iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının təşkil edilməsi, xarici ticarət əlaqələrinin yaradılması, ixrac potensialının yüksəldilməsi və bu fəaliyyətlərdən səmərəli istifadə məsələləri olmuşdur.

Ölkə rəhbərliyinin hazırladığ iqtisadi strategiyada qeyri-neft sektorunu inkişaf etdirmək, neft ixracından asılılığı azaltmaq prioritet kimi göstərilir. Bu sektorda müqayisəli üstünlüklərə malik rəqabətə davamlı məhsullar istehsal etməsi, milli iqtisadi inkişafa xidmət edəcək xarici ticarət strategiyasının hazırlanması böyük əhəmiyyət kəsb edir. Hazırda, ölkə iqtisadçıların və mütəxəssisləri daha çox düşündürən sualda elə bunun necə və hansı yollar ilə icra edilməsidir.

Bəhs olunan yöndə xarici-ticarət dövriyyəsinin dinamik artım xüsusiyyətli olduğunu, ölkənin ixracyönümlü iqtisadiyyatının ilbəil inkişaf göstəricilərinin artması, bu sahədə olan problemlərin, xüsusən regional problemlərin yerli xüsusiyyətlər nəzərə alınmaqla öyrənilməsi mühüm əhəmiyyət kəsb etməkdədir.

Son illərdə beynəlxalq təcrübədə və İEÖ enerji istehsalında alternativ bərpa olunan enerji mənbələrinə geniş yer verir. Bu isə dayanıqlı inkişaf modelinin və müasir dünyanın əsas çağırışıdır. Bu gün dayanıqlı təmiz enerjiyə keçid üçün dünya bazarında böyük paya sahib olan şirkətlər də enerjinin bu növünə yatırımlar edir. Azərbaycan Respublikası milli iqtisadiyyatının dünya iqtisadi təsərrüfat sisteminə fəal qoşulması, enerji sahəsində həyata keçirilən böyük layihələr regionlarda biznesin inkişafına əlavə təkan verəcək, ixracının artırılması və yeni bazarlara çıxarılmasına və reallaşmasına zəmin yaradacaqdır. Bununla bağlı Azərbaycan dövləti bir çox qərarlar qəbul edib. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli "Azərbaycan Respublikasının milli

iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" qəbul edilmişdir. Proqramda 2025-ci ilədək milli iqtisadiyyat üzrə uzunmüddətli baxış, dayanıqlı inkişaf iqtisadiyyatının bütün tərəflərin faydalı əməkdaşlığı şəraitində daha çox dəyər yaratmaqla rəqabətqabiliyyətinin gücləndirilməsinə nail olmaqdır [1, s.45].

Ölkə başçısının 2 fevral 2021-ci il tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında sərəncamında "yaşıl enerji" istehsalının genişləndirilməsi mühüm yer tutur [2, 5.2].

Naxçıvan MR-də dövlət tərəfindən icra edilən enerji təhlükəsizliyi məsələləri öncəliklər sırasındadır. Keçən əsrin axırlarında Naxçıvan Muxtar Respublikasının blokadaya salınması bu mühüm sektorun tərəqqisinə müəyyən maneələr yaratmış olsada, enerji təhlükəsizliyi ilə əlaqədar həyata keçirilən layihələr bu sahənin hərtərəfli inkişafına təminat yaratmışdır.

Ölkə başçısı 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" kimi qeyd olunması haqda sərəncam imzalamışdı. Sərəncamda işğaldan azad edilmiş Şərqi Zəngəzur və Zəngəzur, həmçinin Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası bəyan edilmişdir. Sərəncamda 2030-cu ilədək bərpa oluna bilən enerji mənbələrinin payının 30 faizə çatdırılması hədəflənir [3].

Ölkə Prezidenti 05 iyun 2023-cü il tarixli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"na dair sərəncam imzalamışdır. Sərəncamda qarşıya qoyulan məqsədlərdən biri də Naxçıvan MR-in enerji sisteminin Avropa elektrik ötürmə sistemləri şəbəkəsinə qoşulması istiqamətində tədbirlərin görülməsi, Naxçıvan MR-in elektrik enerjisi istehsalı və ixracı potensialını artıracaq, bu isə ölkənin əlavə enerji gücləri hesabına dünya bazarına elektrik enerjisi satmaq imkanlarını və alternativlərini genişləndirəcəkdir [4].

Proqram və sərəncamlarda qarşıya qoyulan vəzifələri uğurla həyata keçirən, muxtar respublika az müddət ərzində enerji idxalçısından ixracatçısına qədər olan uzun bir məsafə qət etmişdir. Regionun energetika sahəsində mövcud olan təbi ipotensialdan səmərəli istifadə etməklə külək, su və günəş elektrik stansiyalarının tikilməsi enerji təhlükəsizliyinin təchizatında mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək yerinə düşər ki, Naxçıvan MR-nın təbii iqlim şəraiti bir çox bərpa oluna bilən enerji mənbələrindən istifadə etmək üçün çox yararlıdır. Belə ki, regionda günəşli günlərin sayının çox olması günəş elektrik stansiyalarının tikilməsinə imkan yaradıb. Babək rayonu ərazisində 2015-ci ildə 20 meqavat gücündə, 2017-ci ildə 2 meqavat gücündə, Kəngərli rayonunda 2019-cu ildə 2 meqavat, 2020-ci ildə isə 3 meqavat gücündə, Şərur rayonunda 2023-cü ildə 5 meqavat gücündə Günəş elektrik stansiyalarının tikilib istifadəyə verilməsi Naxçıvan iqtisadi rayonunun etibarlı şəkildə enerji təminatının yaradılmasına səbəb olmuşdur. Həyata keçirilən layihələrin davamı olaraq Culfa rayonun ərazisində Külək-Günəş Hibrid Elektrik Stansiyası tikilib istifadəyə verilmişdir. Həyata keçirilən tədbirlər sayəsində 32 meqavat göcündə və illik istehsalı isə 50 milyon kilovat-saata catacaqdır. Bunlardan başqa Ordubad rayonu ərazisində Araz çayı üzərində derivasiya tipli 36 meqavat gücə malik Su Elektrik Stansiyası və hesablanmış gücü 15,6 meqavat olan Tivi Su Elektrik Stansiyasının, eyni zamanda Ordubad rayonunda külək turbinlərinin qurulması üçün əsaslandırılmış lazımi ölçmə işləri aparılmışdır.

Ölkə başçısı cənab İlham Əliyev 2024-cü ildə Muxtar Respublikasına səfəri zamanı regionda enerji təhlükəsizliyi ilə əlaqədar həyata keçirilən layihələri yüksək səviyyədə qiymətləndirərək demişdir: "Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlərdə Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir".

Azərbaycan və Türkiyə Respublikasının Prezidentlərinin Naxçıvanda görüşündə də bu məsələyə böyük diqqət çəkərək qeyd etmişdir ki: "…Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan yaşıl enerji zonasına çevrilə bilər". Regionda günəş, külək, eyni zamanda su elektrik stansiyalarının tikintisi üçün mövcud potensialın olması imkan verir kı, gələcəkdə qonşu ölkəyə təqribi hesablamalara görə 1000 meqavat həcmində yaşıl enerji ixrac edilsin [5].

Ordubad rayonunda ailə təsərrüfatlarının inkişaf etdirilməsi məqsədi ilə bərpa olunan eneryi mənbələrindən istifadə üçün geniş imkanlar var. Xüsusən də yeni müasir tipli irriqasiya sistemlərinin qurulması istifadəsiz torpaqların əkin dövrüyyəsinə cəlb etməklə suvarma suyuna olan tələbatı da ödəniləcəkdir. Qarşıya qoyulan bu işləri yerinə yetirmək üçün rayonun Biləv kəndində olan nasos stansiyasında təmir tikinti işləri aparılmaqla müasir qurğularla təmin edilir [6].

Naxçıvan MR Dövlət Energetika Xidmətinin ötən 2021-ci ildə yekun statistik hesabatda bütün elektrik stansiyalarında 444 milyon 804 min kilovat-saat elektrik enerjisi istehsal edilərək sistemə ötürülməsi göstərilmişdir. Bu enerjinin 264 milyon 438 min kilovat saatı və ya 59,4 % istilik elektrik stansiyalarında, 129 milyon 570 min kilovat-saatı və ya 29,1 % su elektrik stansiyalarında, 50 milyon 794 min kilovat-saatı yaxud 11,4 % isə günəş elektrik stansiyalarında istehsal edilmişdir. 2021-ci il dövründə bərpa olunan və alternativ enerji mənbələrində 180 milyon 365 min kilovat-saat elektrik enerjisi istehsal olunaraq sistemə ötürülmüşdür ki, bu da istehsal olan ümumi enerjinin 40,5 % təşkil edir [7].

Naxçıvan iqtisadi rayonunda Türkiyə və Azərbaycan enerji işçilərinin iştirakı ilə "Naxçıvan – Yaşıl Enerji Zonası" Beynəlxalq Konfransı və Azərbaycan-Türkiyə III Enerji Forumu keçirilib. Forumda Azərbaycanın energetika naziri, Türkiyənin energetika və təbii sərvətlər naziri və BƏƏ-nin (Birləşmiş Ərəb Əmirliklərinin) iqlim dəyişikliyi və ətraf mühit naziri iştirak ediblər. Çıxışda natiqlər hər iki ölkənin müttəfiqlik və qardaşlıq münasibətlərinin regionda enerji təhlükəsizliyi və sabitliyin təminatındakı əhəmiyyətindən söz acmaqla regionun "yaşıl enerji zonası"na çevrilməsi prosesinə böyük töhfə verəcəyi vurğulanmışdı. Mütəxəssislərin hesablamalarına görə "Yaşıl enerji" layihələrinin reallaşdırılması Naxçıvanı gələcək illərdə enerji ixracatçısına çevirməklə onun strateji əhəmiyyətini daha da artıracaqdır.

Regionda yaranan yeni mərhələ Naxçıvanın enerji təhlükəsizliyini gücləndirməyi və onu "yaşıl enerji" zonasına çevirməyi hədəf qoyan dövlət proqramı Türkiyə-Azərbaycan enerji əməkdaşlığında yeni səhifədir

Türkiyə və Azərbaycan Prezidentlərinin bərpa oluna bilən enerji mənbələrindən istehsal ediləcək elektrik enerjisinin ötürülməsi sahəsində əməkdaşlıq sənədinin imzalanması mərasimində Türkiyə-Azərbaycan Prezidentlərinin iştirakı bir daha göstərdi ki, ölkələrimiz yeni strateji kursun birlikdə həyata keçirilməsində qərarlıdırlar, hətta onların siyasi iradəsi bu prosesdə həlledicidir.

Proqramın uğurla həyata keçirilməsi məqsədi ilə bərpa olunan enerji mənbələri üzrə 1500 MVt-lıq istehsal güclərinin əsasının qoyulması və bu enerjinin 1000 MVt-nın ixrac edilməsi istiqamətində görülən işlər Naxçıvanı "yaşıl enerji"nin istehsalı - ixracını beynəlxalq enerji marşrutuna qoşulmasını hədəfləyir. Bu əsasda,"Nobel Energy" və "Total Energies" şirkətləri ilə ümumi gücü 650 MVt təşkil edən günəş elektrik stansiyalarının qurulması və istehsal ediləcək elektrik enerjisinin Türkiyəyə ixracı üzrə sənədlər imzalanıb. Birinci mərhələdə gücü 150 MVt təşkil edən günəş elektrik stansiyası "Masdar" şirkəti ilə, günəş elektrik stansiyaları "Czech Engineering" şirkətləri tərəfindən həyata keçiriləcək.

Naxçıvan MR-də gücü 500 MVt-a çatacaq günəş elektrik stansiyasının və gücü 200 MVt olan külək layihəsi stansiyalarının quraşdırılması üçün (Yol xəritəsi) tərtib edilmişdir.

Dünyada bugün elektrik enerjisinə olan tələbatın ətraf mühitə ziyan vurmadan ödənilməsi ən müasir və aktual məsələlərdəndir. Çünki bərpa oluna bilən enerji mənbələri atmosferə buraxılan karbon çirkləndiricilərinin azaldılmasında əsaslı şəkildə rol oynayır. Naxçıvan iqtisadi rayonunda ixrac potensiallı alternativ bərpa oluna bilən elektrik enerjisi ixracı milli iqtisadiyyatımıza yeni güc qatmaqla region əhalisinin maddi rifah halının yaxşılaşmasına həyat səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərəcəkdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasını milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" 06 dekabr 2016-cı il. 111 s. Bakı, s.45
2. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan 2030”: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”haqqındasərəncam 2 fevral 2021 ci il, Bakı e-qanun
3. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” haqda sərəncam 25 dekabr 2023-cü il, Bakı
4. Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında 05 iyun 2023-cü il, Bakı
5. İnternet resursu: https://nminenergy.gov.az/xeber/naxcivanda-elektrik-enerjisi-istehsalinin-b-rpa-olunan-enerji-m-nb-l-ri-hesabina-sax-l-ndirilm-si-qlobal-iqlim-d-yisikliyin-n-boyuk-tohf-dir
6. İnternet resursu : http://www.prokurorluq.nakhchivan.az/
7. İnternet resursu:https://xalqqazeti.az/az/ iqtisadiyyat/ 167925 -naxcivanda-enerjinin-faizi-berpa olunan enbelerin

# NAXÇIVAN MR NƏQLİYYAT LOGİSTİKASININ İQTİSADİ İNKİŞAFDA ROLU

**Əbdülhüseyn ZAMANOV**
*abdulhuseynzamanov@ndu.edu.az*
**Murad TAHİROV**
*Orcid.org/0009-0003-2523-3505*
*Naxçıvan Dövlət Universiteti*

***Xülasə***

*Məqalədə nəqliyyat logistikasının Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafda rolu tədqiq edilir. Tədqiqat nəticəsində iqtisadi inkişafa təsir göstərən nəqliyyat-logistika amilləri öyrənilmiş, nəqliyyat logistikasının bir sıra xüsusiyyətləri verilmiş, iqtisadi inkişafın təmin edilməsində əsas funksiyaları göstərilmişdir. Naxçıvan MR-də nəqliyyat logistikasının iqtisadi inkişafda rolu onun nəqliyyat infrastrukturunun elementlərinə təsiri ilə üzə çıxır. Muxtar respublikada iqtisadi inkişafın müxtəlif səviyyələrində nəqliyyat logistikasının əhəmiyyəti nəzərdən araşdırılır.*

***Açar sözlər:*** *nəqliyyat, logistika, iqtisadi inkişaf, Naxçıvan*

Nəqliyyat bəşər cəmiyyətinin inkişafında mühüm rol oynayan faktorlardan biridir. Həmçinin nəqliyyatın inkişafı tarix boyu istehsal sahələrinin inkişafında və məhsuldar qüvvələrin formalaşmasında təsiredici amillərdən biri olmuşdur. Nəqliyyat logistikası ictimai istehsalın və milli iqtisadiyyatın müstəqil sahəsi olmaqla yanaşı logistik yüklər və sərnişinlərin daşınma fəaliyyətini həyata keçirir. Məhsulun istehsal olunduğu yerlərdən son təyinat nöqtələrinə qədər çatdırmaqla nəqliyyat fəaliyyəti malların bazar dəyərinin formalaşmasında bilavasitə iştirak etməkdədir. O, məhsulu tədavül prosesində başa çatdırmaqla bərabər, onun istehsalını davam etdirir. Nəqliyyat-logistika fəaliyyəti, mühüm maddi istehsal sferalarından biri olub,maddi-texniki bazanın vacib tərkib hissəsi kimi maddi xidmətlər göstərməklə məşğuldur. Müxtəlif nəqliyyat növləri vasitəsilə materialın ilk yaranma nöqtəsindən istehlak yerinə qədər olan logistik əməliyyatlar aparılır. Bu nəticəyə gələ bilərik ki nəqliyyat logistikanın həlledici bölmələri içində əlaqələndirici funksiya daşıyır [1].

Logistika, mal və ya xidmət təmin etmək üçün planlaşdırma, təşkiletmə, nəzarət, daşınma və çatdırılma proseslərini əhatə edən idarəetmə fəaliyyətidir (www.cscmp.org) [2].

Logistika fəaliyyəti, daşınma ilə yanaşı, məhsulu ixrac edən ölkə və şirkət ilə idxal edən ölkə və şirkət arasında daşınma və nəqliyyat prosesindən öncə məlumat axını, informasiya kanallarını və nəqliyyatdan sonrakı saxlama əməliyyatlarını əhatə edir [Vallee, 2011, 82., Erkan, 2014, 46] Logistika fəaliyyəti, əsas logistika fəaliyyəti və köməkçi fəaliyyətlərdən ibarətdir [3].

Nəqliyyat logistikasının başlıca vəzifələri bunlardır:

- Nəqliyyat fəaliyyətinin istehsal prosesi ilə birgə planlaşdırılması;
- Nəqliyyat vasitəsinin növü və tipinin seçilib araşdırılması;
- Nəqliyyat-anbar texnalogiyasının təmin edilməsi prosesi;

- Nəqliyyat proseslərinin qarışıq daşımalarda fərqli nəqliyyat növləri ilə birgə planlaşdırılması;
- Zəruri olan nəqliyyat imkanlarının müəyyənləşdirilməsi; rasional çatdırılma marşrutlarının təyin olunması;
- Nəqletmə prosesinin planlaşdırılması və həyata keçirilməsi; istehsal məntəqələrində və istehlak yerlərində təkrar yükləmə proseslərinin və nəqliyyat-anbar əməliyyatlarının idarə olunması [4].

Logistika baxımından su, hava, dəmiryolu və avtomobil nəqliyyatı əhəmiyyətlidir və bir sıra üstünlük və çatışmamazlıqları vardır.

*Avtomobil nəqliyyatı.* Əsasən, qısa məsafələrdə istifadə olunur. Mühüm üstünlüklərindən biri üstün manevr qabiliyyətinin olmasıdır. Avtomobil nəqliyyatı vasitəsilə yüklər qısa müddətdə bir yerdən digər yerə çatdırıla bilər. Bu nəqliyyat növü kiçik hissələrlə daşınma imkanını, həm də çatdırılmanın daimiliyini həyata keçirir. Burada digər nəqliyyat növlərinə nəzərən malların qablaşdırılması prosesinə daha az tələb qoyulur. Nəqliyyatın nisbətən baha olması bu nəqliyyat vasitəsinin əsas çatışmamazlığıdır və çox vaxt nəqliyyat vasitəsinin yükgötürmə qabiliyyətinin maksimumuna görə hesablanır.

*Dəmir yolu nəqliyyatı.* Bu nəqliyyat növündə hava şəraitindən asılı olmayaraq hər növdə yüklərin daşınması çox əlverişlidir. Malların və yüklərin uzaq yerlərə nisbətən sürətlə çatdırılmasını dəmir yolu nəqliiyatı təmin edir. Nəqliyyat fəaliyyəti daimidir. Burada boşaltma və ya yükləmə proseslərinin icrası səmərəli formada həyata keçirilə bilər. Bu nəqliyyat vasitəsinin mühüm üstünlüyü yüklərin daşınma fəaliyyətinin nisbətən ucuzluğu və endirimlərin tətbiq olunmasıdır.Çatışmamazlıqlara gəldikdə isə istehlak yerlərinə çatdırılmanın aşağı olması və daşıyıcının sayının az olmasını qeyd edə bilərik. Dəmir yolu nəqliyyatı avtomobil nəqliyyatı ilə tamamlanmalıdır.

*Dəniz nəqliyyatı.* Ölkələrarası daşımalar zamanı ən çox istifadə edilən daşıyıcılardan biridir. Dəniz nəqliyyatının əsas üstün cəhətlərinə yüksək yükgötürmə qabiliyyətini və aşağı yükdaşıma tariflərini misal göstərə bilərik. Nəqliyyat vasitəsinin çatışmamazlıqlarına isə aşağı sürətinin olmasını,yükün təhlükəsizliyinə və qablaşdırılmasına bir sıra tələblərin qoyulmasını və aşağı tezlikdə daşınmaları qeyd edə bilərik. Dəniz nəqliyyatı üçün mürəkkəb liman infrastrukturunun qurulması zəruridir və hava şəraitindən bilavasitə asıldır.

*Hava Nəqliyyatı.* Bu nəqliyyat növünün əsas üstünlükləri malların təhlükəsizliyinin yüksək səviyyədə olması,yüksək sürət və uzaq ərazilərə az müddətdə çatmaq imkanıdır.Çatışmamazlıqları isə hava şəraitindən asılılığı və yüksək yükdaşıma tarifləridir [5].

Dünya nəqliyyatının inkişafı yalnız sərnişin və yük daşınma fəaliyyəti üçün deyil, həm də strateji əhəmiyyətli su və quru hövzələrində yerləşən təbii sərvətlərin və resursların istehsal prosesinə cəlb edilməsində, milyonlarla insanın nəqliyyat sektorunda iş təminatında, insanların məskunlaşma prosesində, kənd və şəhərlərin inkişafında və mühüm əhəmiyyət kəsb edən sənaye və nəqliyya qovşaqlarının yüksəlişində mühüm rol oynayır. Ölkəmizdə də aparılan uğurlu iqtisadi siyasət iqtisadiyyatın sürətlə inkişafını və davamlı sabitliyini təmin etməkdədir.İqtisadiyyatın bütün sahələrində olduğu kimi, nəqliyyat-logistika sektorunun inkişafındada əlverişli imkanlar yaradılır və ölkənin nəqliyyat infrastrukturunun şaxələnməsi üçün tədbirlər həyata keçirilir. Belə bir halda

sürətli inkişafda olan ölkə iqtisadiyyatının və əhalinin artan daşıma tələblərinin təhlükəsiz, operativ və keyfiyyətlə aparılmasını həyata keçirmək üçün nəqliyyat sektorunda səmərəli tənzimləmələrin aparılmasını zəruri edir. Nəqliyyat və logistika sektorunun ölkə iqtisadiyyatının dinamik və çoxşaxəli inkişafında xüsusi yeri var və məhsul istehsalı, onun paylanması, daşınması və çatdırılmasını birləşdirən iqtisadi fəaliyyətləri əhatə etməklə iqtisadiyatda əvəzedilməz rola malikdir.

Ölkəmizin dilbər guşələrindən biri olan Naxçıvan MR-da iqtisadiyyatın inkişafında nəqliyyat sisteminin inkişafı həyati əhəmiyyətini qoruyur. Bildiyimiz kimi muxtar respublika blokada şəraitindədir. Lakin buna baxmayaraq, Naxçıvanda iqtisadiyyatın inkişafına müsbət təsir göstərə bilən bir sıra nəqliyyat vasitələri: avtomobil, hava, dəmir yolu və boru kəmər nəqliyyatı fəaliyyətdədir.Naxçıvan Muxtar Respublikasında dağlıq ərazilərdə avtomobil nəqliyyatı, sosial-iqtisadi münasibətlərin qurulması və formalaşmasında, həmçinin şəhərlər və kəndlər arasında iqtisadi əlaqələrin təminatında və intensiv yükdaşıma fəaliyyətlərinin həyata keçirilməsində mühüm rol oynayır. Yeni magistralların salınması və uğurlu körpü tikintiləri muxtar respublika iqtisadiyyatının yüksəlişində öz təsirini göstərməkdədir. Ötən 30 ildə Naxçıvanın qapalı şəraitdə olması hava nəqliyyatı vasitələrindən düzgün və səmərəli istifadəni zəruri etmişdir. Hava nəqliyyatı bu ərazi üçün əvəzedilməz rola malikdir. Muxtar respublikada ölkənin digər şəhərləri və qonşu ölkələrin şəhərləri ilə yük və sərnişin daşınma məsələlərini həyata keçirən hava nəqliyyatı fəaliyyətdədir. Bölgənin blokada şəraitində olması ölkənin digər regionları, xüsusilədə böyük şəhərlərlə (Bakı və Gəncə) əlaqənin yaradılması zərurəti hava nəqliyyatının əhəmiyyətini daha da artırmışdır. Gələcəkdə son nəsil texnalogiyaların və innovativ yeniliklərin tətbiq olunduğu,sərnişin və yük daşınması üçün fəaliyyət göstərən hava nəqliyyatı vasitələrindən istifadə iqtisadi səmərəliliyi artıracaqdır. Gələcəkdə xarici hava şirkətlərinin Naxçıvanda daşıma əməliyyatlarını həyata keçirməsi özlüyündə iqtisadi subyektləri,investisiyaları bölgəyə cəlb edəcəkdir. Muxtar respublika əhalisinin,istehsal və sənaye ilə məşğul olan müəssisələrin təbii qaza və yanacağa olan tələbatını ödəmək üçün qonşuluqdakı İran İslam Respublikası vasitəsilə qazın boru kəmər nəqliyyatı sayəsində bölgəyə cəlb edilməsi, bu nəqliyyat vasitəsinin ərazi üçün önəmini göstərir. 1990-cı illərin əvvəllərindən etibarən erməni vandallarının Naxçıvan istiqamətində olan dəmir yolu infrastrukturunu işğal etməsi, bölgənin blokada vəziyyətinə düşməsinə gətirib çıxarmış, yüklər və sərnişinlərin daşınması əməliyyatlarını yalnız muxtar respublika ərazisində məhdudlaşdırmışdır. Qeyd etdiyimz kimi daşınmaların bütün hissəsinin Naxçıvan ərazisində aparılmasına baxmayaraq, iqtisadiyyatın inkişafının formalaşmasında və nəqliyyat sisteminin irəliləyişində əhəmiyyəti böyükdür.

Naxçıvanda nəqliyyatın inkişafında və iqtisadi münasibətlərin qurulmasında Azərbaycan ordusunun 44 günlük qəhrəmanlıq salnaməsindən sonra imzalanan üçtərəfli bəyənatda yerləşən müddəalarında rolu böyük olacaqdır. 2020-ci ilin 10 noyabrında Rusiya Ermənistan və Azərbaycan arasında imzalanan bəyannamədə həm ümumi ölkə üçün həm də Naxçıvan üçün strateji əhəmiyyətli bir sıra məsələlər əks olunmuşdu. Bəyanata görə Azərbaycan tərəfinin tələbi ilə Naxçıvan ilə Azərbaycanın quru yolla əlaqəsi bərpa edilməli və bu yol vasitəsilə hər cür iqtisadi əməliyyatların aparılması təmin edilməlidir. Mehri dəhlizinin Naxçıvan-Azərbaycan dəhlizi adlandırılması bəyannamənin 9-cu maddəsində qeyd olunmuşdur. İşğaldan azad olunmuş qərb rayonları ilə Naxçıvan muxtar Respublikası

arasında yerləşəcək hər növ nəqliyyat infrasturkturu və kommunikasiyalarının tikilməsinin təminatı bəyanata əsasən həyata keçirilməlidir. Birbaşa quru yolla əlaqənin yaranması muxtar respublikanı blokada şəraitindən çıxartmaqla yanaşı, Türkiyə respublikası ilə ölkəmiz arasında əlaqələrin sıxlığını artıracaq. Bəzi ekspertlərin yanaşmalarına görə, Zəngəzur dəhlizi gələcəkdə Bakı-Tiflis-Qars dəmir yoluna alternativ olacaq və Böyük ipək yolunun bir parçasına çevriləcəkdir. Göstərilən nəqliyyat yollarının fəaliyyətə başlaması, yalnız Azərbaycan və Türkiyə deyil, qonşuluqda olan ölkələrin iqtisadiyyatına da ciddi təsir göstərəcəkdir. Dəhliz açıldıqdan sonra onun vasitəsilə aparılacaq yükdaşımaları bölgədə olan ölkələrdə ilk növbədə məşğulluğun artmasına və ümumilikdə region ölkələrinin inkişafına təsir edəcəkdir [6].

## ƏDƏBİYYAT

1. Məmmədov, S.Z. XXI əsr: İqtisadi inkişafın nəqliyyat faktoru. Bakı: 2002. Azərnəşr, 386 s.
2. www.cscmp.org (E.T: 02.02.2020).
3. www.logisticsworld.com (E.T.: 24.02.2020).
4. Məmmədov, D.A. Nəqliyyat logistikasının əsasları. Bakı: 2022. https://imgs.su/upload /-598/2570799582.pdf
5. https://www.providesolutions.az/xeber/neqliyyat-novlerinin-muqayiseli-xususiyyetleri
6. Vəliyev, S. https:// nuhcixan.az/ news/iqtisadiyyat/45098-iqtisadiyyatin-inkisafinda-neqliyyatin-rolu
7. Азимов, П.Х., Дудин, В.С. Роль транспортной логистики для развития экономических систем. Цифровая трансформация экономических систем: проблемы и перспективы (экопром-2022) сборник трудов VI Всероссийской научно-практической конференции с зарубежным участием. Санкт-Петербург: 2022, с.667-670

## РЕЗЮМЕ

**Абдулгусейн Заманов, Мурад Тахиров**

## РОЛЬ ТРАНСПОРТНОЙ ЛОГИСТИКИ В РАЗВИТИИ ЭКОНОМИКИ НАХЧЫВАНСКОЙ АР

В статье рассматривается роль транспортной логистики в экономическом развитии Нахчыванской Автономной Республики. В результате исследования изучены транспортно-логистические факторы, влияющие на развитие экономики, дан ряд характеристик транспортной логистики, а также обозначены основные функции в обеспечении экономического развития. Раскрывается роль транспортной логистики в экономическом развитии Нахчыванской АР, ее влияние на элементы транспортной инфраструктуры. Рассмотрено значение транспортной логистики на разных уровнях экономического развития Автономной Республики.

***Ключевые слова:*** *транспорт, логистика, экономическое развитие, Нахчыван*

## SUMMARY

**Abdulhuseyn Zamanov, Murad Takhirov**

## THE ROLE OF TRANSPORT LOGISTICS IN THE DEVELOPMENT OF THE ECONOMY OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article examines the role of transport logistics in the economic development of the Nakhchivan Autonomous Republic. As a result of the study, transport and logistics factors influencing the development of the economy were studied, a number of characteristics of transport logistics were given, and the main functions in ensuring economic development were identified. The role of transport logistics in the economic development of the Nakhchivan MO, its impact on the elements of transport infrastructure are revealed. The importance of transport logistics at different levels of economic development of the Autonomous Republic is considered.

***Key words:*** *transport, logistics, economic development, Nakhchivan*

# ÖLKƏMİZDƏ NEFT-QAZ İQTİSADİYYATININ STİMULLAŞDIRILMASININ ƏSAS PERSPEKTİV İSTİQAMƏTLƏRİ

**Səmədağa RİZVANLI**
*rizvanlisemedaga170@gmail.com*
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*
**Xasmurad İSMAYILZADƏ**
*İstanbul Gedik Universiteti*

***Xülasə***

*Ölkə iqtisadiyyatının stimullaşdırılması Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi yeni neft strategiyasının qəbulundan sonra baş verdi. Bu strategiya bir sıra hasilatın pay bölgüsü sazişlərini və Azərbaycanın neft sektorunun tarixi açılışını əhatə etdi. Beynəlxalq investisiya "Əsrin müqaviləsi" Azərbaycanın inkişafında böyük rolu oldu. Bir neçə boru kəmərinin iri miqyaslı istehsalı və tikintisi, həmçinin Azərbaycanın neft-qazın ən böyük ixracatçılarından birinə çevrilməsinə səbəb olub. O vaxtdan Azərbaycan son on il ərzində orta hesabla 13,5% çox böyük iqtisadi artımla nəticələnib. Qeyd etmək lazımdır ki, həmçinin ölkəmizdə böyük xarici valyuta ehtiyatları var. Neft ixracından əldə edilən gəlirlərin təxminən yarısı infrastruktur və sosial-iqtisadi inkişafa uzunmüddətli strateji sərmayələri maliyyələşdirən dövlət neft fonduna toplanır. Azərbaycan Respublikası üçün prioritet problemlərdən biri iqtisadiyyatın diversifikasiyasıdır. Bu baxımdan hidrokarbonatlar ölkənin ümumi ixracının 90%-ni təşkil edir. Qeyri-neft sənayesinin gücləndirilməsinə, ölkənin bilik iqtisadiyyatına keçidinə və beynəlxalq ticarət marşrutlarının kəsişməsində Azərbaycanın strateji mövqeyindən istifadə etməyə xüsusi diqqət yetirilir. İnvestorlar üçün yeni imkanlar açılır, xüsusilə Azərbaycanın infrastruktur və xidmətlərinin inkişafı istiqamətində regional inteqrasiyanın daha da genişləndirilməsi və sürətli irəliləyişin əldə olunması üçün yeni imkanlar açılır. Azərbaycanın güclü iqtisadi inkişafı, siyasi sabitliyi və dialoq və əməkdaşlığa sadiqliyi ölkənin beynəlxalq hakimiyyətini kökündən dəyişir, dünya səhnəsində layiqli yer tutur. Azərbaycanın coğrafi mövqeyi və ölkənin iqtisadi potensialı bizdən regional inteqrasiya prosesində fəal oyunçu olmağı tələb edir. Şərqlə Qərb arasındakı kəsişən əraziləri işğal edən Azərbaycan Respublikası xalq və cəmiyyətlər arasında körpülər tikmək ənənəsinə malikdir. Dinamik inkişaf nəticəsində Azərbaycan qonşu dövlətlər və regionun digər ölkələri ilə sıx əlaqələr və iqtisadi əlaqələr qurmuş, çoxsaylı regional təşkilatlarda iştirak edir, daha sıx əməkdaşlığa çağırır. Dünyanın bir çox nüfuzlu analitik mərkəzləri Azərbaycan Respublikasının iqtisadi uğurunu beynəlxalq investorlara münasibətdə ölkə hökuməti tərəfindən həyata keçirilən açıq qapı siyasəti ilə əlaqələndirirlər. Bu siyasət Azərbaycanı birbaşa xarici investisiyalar üçün cəlbedici ölkəyə çevirib. Ümumiyyətlə, iqtisadi artım aşağıdakı iki ümumiləşdirilmiş amilin birlikdə və hər birinin ayrılıqda təsirinin nəticəsi kimi təqdim edilə bilər:*

- *Çoxsaylı resursların cəlb edilməsi;*
- *Bu resurslardan daha səmərəli istifadə olunması.*

***Açar sözlər:*** *neft, iqtisadiyyat, sənaye, ölkə, investisiya*

Respublikamız öz müstəqilliyini əldə etdikdən qısa bir müddət sonra Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ölkədə yeni iqtisadi model formalaşdırılmasına başlanmışdır. Müstəqilliyin ilk illərində iqtisadi sahələr arasında, əsasən, diqqətin neft sektoruna yönəldilməsi bu sahənin digər sahələrə nisbətdə daha üstün səviyyədə inkişaf etməsinə şərait yaratmışdır. Nəticədə, neft amilinin rolu artmış, bu sahəyə yatırılan investisiyaların həcmi böyümüşdür Neft dünyada ilk dəfə Azərbaycanda, Binəqədi ərazisində yer səthinə çıxmış neft çıxışından hasil edilmişdir. Azərbaycan neft sənayesi adi neft çıxışından iri miqyası maddi istehsala qədər inkişaf yolu keçmiş və zəngin tarix yaratmışdır. Bu tarixin başlanğıcı e.ə. VIII minilliyə təsadüf edir. Azərbaycan neft sənayesi quru ərazi və Xəzər dənizi neft rayonlarından ibarətdir. Onu formalaşdıran bazis quru ərazi xüsusən Abşeron neft mədənləri, Bakı neft sənayesi olmuşdur. Quru əçrazi neft rayonu Bakı, Şimal və Qərb mədənlərdən ibarətdir. Xəzər dənizi neft rayonu konkret coğrafi adlar daşıyan mədənlərdən yaranıb. Ümumi texniki-iqtisadi problemə münasibətdə, zəngin təcrübə toplamış quru ərazi neft rayonudur. Neft və qaz sənayesinin inkişafına yalnız neft və qaz hasilatı artımı prizmadan baxmaq düzgün anlayış formalaşdırmışdır. İnkişaf çoxluq təşkil etmiş aydınlaşdırıcıların məcmusu mahiyyəti daşıyır [Kərimli, İ. 2012, s.131-144].

Ümumiləşdirsək, Azərbaycan neft sənayesinin inkişafı adı altında onun yerləşmə miqyasını gerişlənməsi, keyfiyyətli yerləşməsi, texnika və texnologiyanın müasirləşməsi, neftçi kadrların elmi və əməli biliklərinin artması, neft itkilərinin aradan qaldırılması neftsaxlama və qazsaxlama anbarlarının təkamülü; quyuların dərinləşməsi laydakı neft ehtiyatlarının çox çıxarılması; neftqaz sahələrinin əlaqəli inkişafı ifadə olunmuş sabit balanslaşdırılmış proporsiyaların müəyyənləşdirilməsi, neft və onun məhsullarının yaratdığı ictimai istehsalların qorunub saxlanması; neft kompleksinin inkişafı; köməkçi istehsal sahəsi üçün ayrılan mədən ərazisinin müntəzəms surətdə azaldılması; istehsal xərclərinin minimum səviyyədə saxlanması və sistem əmələ gətirmiş sahə daxili inkişaf təminatlarının məcmusu başa düşülür. Qeyd etmək lazımdır ki, iqtisadi tədqiqatlar, geoloqların, geofiziklərin tədqiqatlar sübut edir ki, Abşeron yarımadasında 10 km dərinliyə qədər neft ehtiyatları vardır. Bu o deməkdir ki, Azərbaycan neft sənayesi pespektivli inkişafa malik maddi istehsaldır. Neft və qaz sənayesinin inkişafı, onun yerləşməsindən, yerləşməsinin inkişafdan asılı olması izaha ehtiyat yaratmır. Neft və qaz sənayesinin iqtisadiyyatı tətbiqi sahə elmi üçün neft və qaz sənayesinin ümumən yerləşməsi və keyfiyyəti yerləşməsi məsələləri səciyyəvi olub iqtisadi əhəmiyyət kəsb edirlər.

Neft və qaz sənayesi özünün əsas istehsal fondlarından səmərəli istifadə etməlidir. Odur ki, bu məqsəd üçün, yəni əsas istehsal fondlarından istifadəni səciyyələndirmək üçün, çox az göstərici təsbit etmişdir. Bu sahə elmi əsasən tətbiqi iqtisadiyyat elminin təsbit etdiyi göstəricilərdən istifadə edir.

Neftlə çıxan qazın mədən satış qiyməti bu qazın özünün ancaq satılma aktı üçün lazımdır. Qazın bir quyudan neftlə birlikdə çıxdığı üçün onun uçotda nəzərə alınması mübahisə doğurur. Bundan başqa, neft və qaz xammaldır, onlar məqsədli məhsul sayılır, istehsal olunan məhsul deyillər (hasil olunurlar). Neft və qazın heç birində istifadə edilmiş materialların, (hər hansı xammalın) izi belə yoxdur. Ümumi məhsulun natural ifadədə həcmi, habelə dəyəri (bir ton neftin, 1000 m3 qazın mədən satış qiyməti) dəyişəndə, bütün həcmin məbləği dəyişir. Amma yerüstü sənayedə müxtəlif çeşiddə və dəyərlərdə məhsullar istehsal edilir, ümumi adlanan məhsulun dəyəri onlardan asılı olaraq dəyişir. Neft və qaz

sənayesinin iqtisadiyyatı sahə elmi bu qüsurları əsas qəbul edərək fond verimi göstəricisindən imtina etmiş olur [ Arxipov, A.İ. 2001. s.148-150.]

Təcrübə təsdiq edir ki, neft sənayesi təşəkkül tapdığı gündən belə göstərici təsbit edə bilməzdi. Misal. Neft və qaz quyularının xarakteristikaları müxtəlifdir. Neft yatağında və belə müxtəliflikli çoxlu quyu qazılır. Elə quyu olur ki, onun günlük məhsuldarlığı, digər quyua nisbətən dəfələrlə çoxdur. Belə quyunun inşaası xərcləri (dəyəri), az məhsuldarlıqlı quyunun inşaası xərclərindən (dəyərindən) azdır. Təcrübə başqa variantı da təsdiq edir. Elə neft quyusu ola bilir ki, onun qaz faktoru yüksəkdir. Neft hasilatına görə qiymətləndirmə apardıqda quyuların dəyəri, onların məhsuldarlığı ilə əlaqələnmir. Amma ümumi məhsul göstəricisi, belə müxtəlif şəraitləri bərabərləşdirir. Halbuki neft sənayesində quyunun dəyərini bu şərait formula edir. Quyu şəraitlərini onda ümumiləşdirmək olar ki, həmin şəraitlər eyni olsun. Bununla belə, quyunun dəyəri və inşaa olunma şəraiti, belə quyunun özünün dərinliyindən asılıdır. Bir sözlə, üç müxtəlif təsirin bir orta təsirə gətirilməsi baş verir. Yerüstü sənayedə belə təsirə gətirmə mümkündür və bu, işin (istehsalın) təşkili vasitəsilə təmin olunur. Neft və qaz sənayesində üç neftqaz sahəsini bir təsirdə ifadə etmək işlərə göstərilən təsirlərin ümumiləşdirilməsi ilə mümkün olur. Ümumi məhsulda belə ümumiləşmə mümkün deyildir. Məsələn, quyuların qazılması bir sistem göstəricilərlə, neftqaz-çıxarma başqa sistem göstəricilərlə səciyyələndirilir. Onları ümumi məhsulda cəmləmək olmaz, bu, iqtisadi əsaslanmır. Ümumi məhsulu (ÜM) neftqaz sahələri üzrə ayrılıqda götürdükdə də həmin xətalara yol verilir. Əsas istehsal fondlarının orta illik dəyəri. Əvvəla belə dəyər neft hasilatı uyğunsuzluq təşkil edir. Belə ki, neft və qaz hasil edilərkən ancaq quyular və onlardakı avadanlıqlar istismar olunur. Qalan avadanlıq, qurğu və mexanizmlər əsasən ehtiyat vəziyyətində, texnoloji gözləmədə, əsaslı təmirdə, neftin ötürülməsi və saxlanması prosesində olurlar. O deməkdir ki, əsas fondların hamısı birgə və eyni vaxtda bilavasitə iştirak etmirlər. Quyu fondunda olan quyuların əhəmiyyətli say təşkil etmiş hissəsi neft və qaz hasilində ardıcıl deyil, fasiləli fəaliyyətli olur. Orta illik dəyərin kütləsində ən çox (əsasən) oturan quyuların dəyəridir. Əsas istehsal fondu olan quyular qurğu olub neftin (qazın) yerin təkindən yerin səthinə qaldırmaq üçündür. Onların istehsalata xidməti məhz bundan ibarətdir. Bütün bunlara görə fond verimi göstəricisi neft və qaz sənayesində baş verən yeraltı təisrləri nəzərə ala bilmir. Misal olaraq demək olar ki, quyuların orta illik dəyəri, elə quyuların özlərinin orta siyahi sayına əsasən hesablanır. Quyuların orta siyahı sayı təyin edilərkən əsasən ilin əvvəlinə olan quyuların sayı (siyahı sayı), il ərzində istismara daxil olan quyuların sayı və il ərzində istismardan çıxarılmış quyuların sayı parametrləri götürülür. Neft və qaz sənayesinin iqtisadiyyatı tətbiqi sahə elmi qazıma və neftçıxarma üçün əsas istehsal fondlarından istifadəni ifadə edəcək göstəricilər və onların sistemini işləmişdir. Ümumiyyətlə, neft və qaz sənayesinin iqtisadiyyatı tətbiqi sahə elmi neftçıxarmanın istehsal fondlarından istifadəni müasirləşmiş səciyyələndirən göstəricilərin təyini metodikasını işləməlidir (belə metodika işlənib hazırlanmışdır) [Ə.M.Bədəlov.2006 .səh 9-10].




**Şəkil 1.** *Azərbaycanda 2024-cü il yanvar-aprel ayları üzrə neft hasilatı göstəricilərinin orta iqtisadi statistikası*

Neft və qaz sənayesinin dövriyyə istehsal fondları bu sənaye sahəsinin istehsalının maddi amillərindəndirlər. Ona görə bu sual neft və qaz sənayesinin iqtisadiyyatı sahə elminin tədqiq etməli suallarından biridir. Dövriyyə istehsal fondları, bu kitab formada olana qədər, dövriyyə vəsaitləri adı altında və normallaşdırılan dövriyyə vəsaitləri, normallaşdırmayan dövriyyə vəsaitləri tərkibdə tədqiq edilirdi. Lakin belə bölgü neft və qaz sənayesi üçün doğru deyildir. Çünki, dövriyyə vəsaitlərinin: dövriyyə fondlara, tədavül fondları tədavül xərcləri, normalaşdırılan və normalaşdırılmayan tərkibi yerüstü sənaye sahəsi özü də, istehsal edici sənaye sahəsi, üçün təsbit edilmişdir. Hasiledici sənaye sahəsi üçün bu vəsaitlərin tədqiqinə dair heç bir üsul, yanaşma, metodika, ümumən heç bir şey işləyib hazırlanmamışdır. Dövriyyə vəsaitlərinin dövriyyə fondları və tədavül fondları tərkibini öyrəndikdə aydın olur ki, neft və qaz sənayesinin müəssisələrinin hamısında nə dövriyyə vəsaitləri, nə də təsbit olunmuş tərkibi mövcud deyildir. Neft və qaz sənayesində dövriyyə vəsaitlərinin məhsulun maya dəyərinin üzərinə keçirməsi qaydası da özünə məxsusdur [A.M.Mastepanov. 2015.səh.11-17].

Neft strategiyasının aşağdakı istiqamətlərdə stimullaşmağını göstərmək olar:

1) Azərbaycanın, neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, bütövlükdə xarici işgüzar dairələrin, iri investisiyaların cəlb edilməsi hesabına dünyanın enerji daşıyıcıları bazarına sürətlə çıxışın təmin edilməsi;

2) Azərbaycan neftinin dünya bazarına sərbəst və sürətli çıxışını təmin etmək üçün ixrac boru kəmərləri sisteminin yaradılması;

3) Azərbaycanın milli sərvəti olan neftdən gələn gəlirlərin gələcək nəsillər üçün toplanaraq artırılması, bu gəlirlərdən ölkəmizin cari sosial ehtiyaclarını, iqtisadi tərəqqi və inkişaf tələblərini nəzərə almaqla, bugünkü nəsillər üçün istifadə edilməsi;

4) Qərbin qabaqcıl texnika-texnologiyasının Azərbaycana gətirilməsi;




**Şəkil 2.** *Azərbaycanda 2024-cü il yanvar-aprel ayları üzrə qaz hasilatı göstəricilərinin orta iqtisadi statistikası*

Hazırda, ölkənin neft-qaz kompleksinin qarşısında duran əsas vəzifə neft strategiyasının reallaşdırılması nəticəsində əldə edilmiş uğurları möhkəmləndirməkdən, iqtisadiyyatın və əhalinin enerji resurslarına olan tələbatının daha dolğun ödənilməsini təmin etməkdən ibarətdir.

Hər bir ölkənin davamlı iqtisadi inkişaf fəaliyyətində ölkənin energetika təhlükəsizliyinin mühüm rolu vardır.Hər dövlətin sosial iqtisadi inkişafı, onun dünya təsərrüfatındakı rolu energetik potensialla müəyyən olunur.Bu baxımdan da karbohidrogen xammalının hasilat problemi istehsalçı ölkənin strateji iqtisadi prinsiplərində əks olunur. Bu baxımdan da karbohidrogen xammalının hasilat problemi istehsalçı ölkənin strateji iqtisadi prinsiplərində əks olunur.

Milli neft sənayesinin, xammal bazasının inkişafı üçün bu resursların ehtiyat potensialının artırılması mühümdür. Yeni iqtisadi sistemə və təsərrüfatçılıq metodlarına keçib elm qarşısında bir sıra vəzifələr qoymuşdur. Bu vəzifələrin önündə həmin sahələrdə dayanaqlı maliyyə sisteminin yaradılması əsas şərtdir.




**Şəkil 3.** *Azərbaycanda 2024-cü il yanvar-iyul ayları üzrə neft-qaz sektoru üzrə göstəricilərinin orta iqtisadi statistikası*

Milli neft strategiyası ölkənin ictimai-siyasi və iqtisadi həyatına yeni bir dinamizm gətirərək rifahi yüksəlişin gerçək stimullaşdırılmasının fövqündə dayanmışdır. Reallaşan bu strategiya yalnız siyasi-iqtisadi, sosial-humanitar məzmun daşımayaraq, həm də ideolojii əhəmiyyət kəsb edir. Azərbaycan tarixən ənənəvi neft ölkəsi olduğu üçün respublikanın ictimaisiyasi və təsərrüfat həyatında uzun illər möhkəm qərar tutmuşdur. İdeoloji aspektrəsmən kodeksləşdirilməsə də neft sosial-iqtisadi həyatın aparıcı qüvvəsi kimi real və milli simvolik səciyyə daşımış, Azərbaycan neftçisini ən çətin məqamlarda istehsal artımına səfərbər edərək II Cahan savaşında ordunun yanacaqla bol təchizatında əsas təşviqat meyarına çevrilmişdir. Yeni geosiyasi gerçəklik və milli neft strategiyasının formalaşması təzahüründə isə neftin ideoloji yükü daha da artmış, iqtisadi effektivliyin yüksəlişində onun sosial gücü bir qədər də qüvvətlənmişdir. Lakin bununla belə, Azərbaycan neftinin fundqmental imicə qovuşması ideoloji aspektin milli maraqları daha geniş və dolğun təcəssüm etdirən yeni meyar və dəyərlərlə daha da zənginləşdirilməsini şərtləndirir. Belə ki, neftin və təbii qazın iqtisadiyyatının aparıcı və mühüm enerji mənbəyi, qiymətli milli sərvəti kimi daha geniş simvolizə və təşviqi, bu resursların təbii görüntüsünün, mədən sənayesinin və dəniz akvatoriyasında hasilatın əzəli təşəkkülünün

ölkəmizə aidliyi, dünya arenasında elmi və ensiklopedik məntiqi yerini tutmasına nailolma ideoloji xəttin prinsipial məğzini ifadə etməlidir. Bərpaolunmayan resurslar kateqoriyasina mənsub neft və qazın respublikamızda da tükənəcəyi və əsrin ikinci yarısında bizim də postneft erasına qovuşacağımız senarisinin labüdlüyü şübhə doğurmayan reallıqdır. Buna görə də bu əvəzsiz təbii sərvətlərdən dolğun və səmərəli istifadə ideoloji faktor kimi milli şüurda dərin kök salmalıdır. Neft strategiyasının ideoloji seqmenti milli svilizasiyanı bütün qammada əhatə edərək dayanıqlı iqtisadi inkişafın mühüm təkanverici sosial indikatoruna çevrilməlidir [Mehrəliyev, E.Q. 2005, s.19-20].

## ƏDƏBİYYAT

1. Kərimli, İ. Azərbaycanın geoiqtisadi inkişaf konsepsiyası və milli iqtisadi mənafelər problemi Azərbaycanın vergi jurnalı. 3/2012 s.131-144
2. Zaxarov, M.A. İqtisadi lüğət / A.İ.Arxipovun red. altında. – M.: 2001. HŞOS, s.148-150
3. Bədəlov, Ə.M., Ağayev, A.M. Dünya İqtisadiyyatı. Bakı: 2006, s.9-10
4. Kontoroviç, A.E. Neft və qazın qlobal problemləri və Rusiya neft-qaz kompleksinin inkişafı üçün yeni paradiqma // Birinci əl elm. T. 67. – 2016. №1, s.6-17
5. Mastepanov, A.M. Qlobal enerji balansında qeyri-ənənəvi neft və qaz mənbələri: bəzi təxminlər və perspektivlər // Rusiyanın ekoloji bülleteni. 2015, №1, s.11-17
6. Mehrəliyev, E.Q. Beynəlxalq siyasətdə neft amili. Bakı: 2005, s.19-20

## SUMMARY

Stimulation of the country's economy took place after the adoption of the new oil strategy defined by national leader Heydar Aliyev. This strategy included a series of production sharing agreements and the historic opening of Azerbaijan's oil sector. International investment "Deal of the Century" played a big role in the development of Azerbaijan. The large-scale production and construction of several pipelines has also made Azerbaijan one of the largest exporters of oil and gas. Since then, Azerbaijan has achieved a very large economic growth of 13.5% on average over the last ten years. It should be noted that our country also has large foreign currency reserves. About half of the revenues from oil exports are collected in the state oil fund, which finances long-term strategic investments in infrastructure and socio-economic development. One of the priority problems for the Republic of Azerbaijan is the diversification of the economy. In this regard, hydrocarbons make up 90% of the country's total exports. Special attention is paid to the strengthening of the non-oil industry, the transition of the country to the knowledge economy, and the use of Azerbaijan's strategic position at the intersection of international trade routes. New opportunities are opening for investors, especially new opportunities are opening for the further expansion of regional integration and rapid progress in the direction of the development of Azerbaijan's infrastructure and services. Azerbaijan's strong economic development, political stability, and commitment to dialogue and cooperation fundamentally change the country's international power, and it occupies a worthy place on the world stage. The geographical position of Azerbaijan and the country's economic potential require us to be an active player in the process of regional integration. The

Republic of Azerbaijan, occupying the crossing areas between East and West, has a tradition of building bridges between people and societies. As a result of dynamic development, Azerbaijan has established close relations and economic relations with neighboring states and other countries of the region, participates in numerous regional organizations, and calls for closer cooperation. Many influential analytical centers of the world associate the economic success of the Republic of Azerbaijan with the open door policy implemented by the country's government in relation to international investors. This policy has made Azerbaijan an attractive country for foreign direct investments. In general, economic growth can be presented as the result of the following two generalized factors, together and separately:

- Involvement of multiple resources;
- More efficient use of these resources.

***Key words:*** *oil, economy, industry, territory, investment*

## РЕЗЮМЕ

Стимулирование экономики страны произошло после принятия новой нефтяной стратегии, определенной общенациональным лидером Гейдаром Алиевым. Эта стратегия включала ряд соглашений о разделе продукции и историческое открытие нефтяного сектора Азербайджана. Международные инвестиции «Контракт века» сыграли большую роль в развитии Азербайджана. Масштабная добыча и строительство нескольких трубопроводов сделали Азербайджан одним из крупнейших экспортеров нефти и газа. С тех пор в Азербайджане за последние десять лет наблюдался огромный экономический рост, составивший в среднем 13,5%. Страна имеет большие валютные резервы. Около половины доходов от экспорта нефти собирается в государственный нефтяной фонд, который финансирует долгосрочные стратегические инвестиции в инфраструктуру и социально-экономическое развитие. Одной из приоритетных задач для Азербайджанской Республики является диверсификация экономики. При этом углеводороды составляют 90% общего экспорта страны. Особое внимание уделяется укреплению ненефтяной промышленности, переходу страны к экономике знаний, использованию стратегического положения Азербайджана на пересечении международных торговых путей. Для инвесторов открываются новые возможности, особенно новые возможности для дальнейшего расширения региональной интеграции и быстрого прогресса в направлении развития инфраструктуры и услуг Азербайджана. Сильное экономическое развитие Азербайджана, политическая стабильность и приверженность диалогу и сотрудничеству фундаментально меняют международную мощь страны, и она занимает достойное место на мировой арене. Географическое положение Азербайджана и экономический потенциал страны требуют от нас активного участия в процессе региональной интеграции. Азербайджанская Республика, занимающая территорию, пересекающую Восток и Запад, имеет традицию наведения мостов между людьми и обществами. В результате динамичного развития Азербайджан установил тесные связи и экономические отношения с соседними государствами и другими странами региона, участвует в многочисленных

региональных организациях и призывает к более тесному сотрудничеству. Многие влиятельные аналитические центры мира связывают экономические успехи Азербайджанской Республики с политикой открытых дверей, проводимой правительством страны по отношению к международным инвесторам. Эта политика сделала Азербайджан привлекательной страной для прямых иностранных инвестиций. В целом экономический рост можно представить как результат действия следующих двух обобщенных факторов, вместе и по отдельности:

- Вовлечение нескольких ресурсов;
- Более эффективное использование этих ресурсов.

***Ключевые слова***: *нефть, экономика, промышленность, территория, инвестиции*

# AZƏRBAYCANIN TÜRK DÖVLƏTLƏRİ İLƏ SƏNAYE MƏHSULLARI ÜZRƏ XARİCİ TİCARƏT ƏLAQƏLƏRİ

**Əsmər ƏLİYEVA**
*esmer.manafova81@gmail.com*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu*

***Xülasə***

*Məqalədə sənaye sektoru məhsulları üzrə Azərbaycanın Türk Dövlətlər ilə idxal-ixrac əməliyyatları araşdırılmışdır. Son illər bu ölkələr arasında iqtisadi əlaqələrin genişlənməsi sənaye məhsullarının idxal-ixracında da öz əksini tapmışdır. Müəyyən edilmişdir ki, son illərdə Azərbaycanın Türk Dövlətləri ilə sənaye məhsulları üzrə mənfi saldo yaranmışdır. Məqalədə statistik məlumatlar əsasında ayrı-ayrı sənaye məhsulları üzrə Azərbaycan və Türk Dövlətləri arasında ticarət əlaqələri geniş təhlil edilmiş, mövcüd problemlər göstərilərək, idxal-ixrac əməliyyatları üçün potensial imkanlar müəyyən edilmişdir. Məqalənin sonunda Azərbaycandan Türk Dövlətlərinə sənaye məhsullarının ixracının artırılması üçün təkliflər verilmişdir.*

***Açar sözlər:*** *idxal,ixrac,sənaye,ticarət dövriyyəsi,türk dövlətləri*

1991-ci ilin sonlarında Sovet İttifaqının dağılması ilə müstəqillik əldə etməyə başlayan türk dövlətləri olan Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Özbəkistan Dövlətləri qapalı və sosialist-iqtisadi sistemini tərk edərək dünya ölkələri ilə, həmçinin türk dilli dövlətlər arasında iqtisadi, siyasi və mədəni əlaqələr daha sürətli inkişaf etməyə başladı.

Türk Dövlətləri sənaye sahəsində də inkişaf potensialına malikdirlər. Azərbaycan neft-qaz yataqları ilə zəngin olan və iqtisadiyyatı son illərdə sürətlə inkişaf edən ölkədir. ÜDM istehsalının 40,3 %-i sənaye, 9,5 %-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,9 %-i nəqliyyat və anbar təsərrüfatı, 6 %-i tikinti, 3,1 %-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 %-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 %-i informasiya və rabitə sahələrinin, 20 %-i digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10,1 %-ni təşkil edib. BVF-nin məlumatına görə, Türkiyə Cumhuriyyəti 2023-cü ildən 1,024 milyard dollar həcmində ÜDM ilə dünyanın 17-ci ən böyük iqtisadiyyatıdır. 2023-cü ilin dördüncü rübündə ÜDM 4,0 faiz artıb. Dördüncü rübdə xidmət sektoru (tikinti daxil olmaqla) 3,6 faiz, sənaye sektoru 1,9 faiz, kənd təsərrüfatı sektoru 0,5 faiz artıb.Qazaxıstan neft və təbii qaz ehtiyatları ilə zəngindir. Qazaxıstan keçmiş sovet respublikaları arasında Rusiyadan sonra ikinci ən böyük neft istehsalçısıdır. Ölkə iqtisadiyyatı daha çox neft ixracından gələn gəlirlərə əsaslanır. Ölkənin ümumi neft ehtiyatlarının 39,8 milyard barel civarında olduğu təxmin edilir. Bu rəqəm ümumi dünya ehtiyatlarının 2,9%-ni təşkil edir. Qazaxıstanın təbii qaz ehtiyatları dünyanın ümumi ehtiyatlarının 1%-ni təşkil edir və cəmi 1,8 trilyon kubmetrə uyğundur. Bundan əlavə, ölkə dünya kömür ehtiyatlarının 3,9%-nə (33,6 milyard ton) malikdir. Qazaxıstan həm də qızıl ehtiyatları ilə zəngin ölkədir. Ölkənin Vasilkovskoye mədənində təxminən 370 ton qızıl ehtiyatı var. Burada həmçinin zəngin

dəmir filizi, mis, xrom, qurğuşun, volfram, volfram və sink yataqları vardır. 2022-ci ilin məlumatlarına görə ÜDM istehsalının 36%-i sənayenin payına düşür.

2022-ci il ÜDM-in əlavə dəyər əsasında sektorlar üzrə bölgüsü araşdırıldığında ən böyük payın 41% ilə xidmətlər sektoruna, tikinti də daxil olmaqla sənaye sektorunun 34% əlavə dəyər təmin etdiyi və kənd təsərrüfatı sektorunun olduğu görülür. 25% əlavə dəyər təmin edir. 16,6%, Daşkənd vilayətinin payı isə 10,5% təşkil edir.

Özbəkistanın 2018-ci ildən etibarən sənaye istehsalı, istehsal olunan məhsulların həcmi artmışdır. 2018-ci ildə 235,3 trilyon manat (29,2 milyard ABŞ dolları) səviyyəsində olan sənaye istehsalı 551,1 trilyon manata (təqribən 49,9 milyard ABŞ dolları). Sözügedən dövrdə adambaşına sənaye istehsalı 880 ABŞ dollarından 1,403 dollara yüksəlib.

Özbəkistan, əsasən, (istehsal, mədən və karxana, işıq, qaz, buxar və kondisioner) sənaye sahələri ilə səciyyələnir.

Özbəkistanın istehsal sənayesi sektorlar üzrə araşdırıldığında, ilk 5 sektor diqqəti cəlb edir:

Metallurgiya sənayesi (23,2%), maşın və avadanlıqların və nəqliyyat vasitələrinin, qoşquların, yarımqoşquların və metaldan digər hazır məhsulların istehsalı (20,3%), toxuculuq, geyim və dəri məmulatlarının istehsalı (17,9%), qida, içki və tütün məmulatlarının istehsalı (17,2%) və kimya məhsulları, rezin və plastik hazır məhsul istehsalıdır (9,2%).

Qırğızıstan 2021 –ci il məlumatlarına görə ÜDM istehsalında kənd təsərrüfatı 14,7%; Sənaye 26,7%; Xidmətlər 48,4% təşkil etmişdir.

Türkmənistan Respublikası Mərkəzi Asiyanın cənubunda, Xəzər dənizi sahilində yerləşir, əhalisi 488,100 nəfərdir.Səthi 1,5 km olan müstəqil dövlətlər birliyində dördüncü ən böyük dövlətdir. Qara Qum səhra ölkəsi 80%-ni əhatə edir.

Neft sektoru ilə birlikdə sürətlənən iqtisadi artımın təsirləri digər sektorlara, xüsusilə də xidmət sektoruna təsir etdi.Bu, sektorlarda da özünü göstərdi. Xidmət sektoru ölkədə ən çox məşğulluğu təmin edən sektordur.

Türkmənistan əmtəə ixracına, xüsusilə də təbii qaza yönəlmiş iqtisadiyyata malikdir. ÜDM-in sektorlar üzrə bölgüsü (2018) xidmətlər 47,7% sənaye 44,8% kənd təsərrüfatı 7,5% təşkil etmişdir.

İqtisadiyyat, əsasən, dövlətə məxsusdur, kiçik və inkişaf etməmiş özəl sektor var.

Sovet İttifaqı dövrü Türkmənistana əhəmiyyətli sənaye infrastrukturunu miras qoymadı. 1970-ci illərdən Türkmənistana investisiyalar yalnız neft və təbii qaz və pambıq emalı sahələrinə qoyulmuşdur. Buna görə də Türkmənistanın sənaye infrastrukturu bu sektorlarla məhdudlaşdı.

Ölkədə neft hasilatı ilə yanaşı, natrium sulfat, xrom sulfid, qurğuşun, brom, bentonit, duz, kükürd, kalium,qaya duzları, əsas və nadir metallar, sulestin, mineral sular, tikinti materialları və s. müxtəlif növ minerallar var.

Azərbaycan türk şirkətlərinin coğrafi yaxınlığı və digərlərindən daha yaxşı tanınması kimi səbəblərə görə dayanma və investisiya sahəsinə keçdiyi ilk ölkədir. Türk Cümhuriyyətləri arasında ən çox xarici ticarət əlaqələri olan ölkə Azərbaycandır. Bu ölkənin əsas ixrac məhsulları neft məhsulları, toxuculuq və qida sənayesi məhsulları, əsas idxal məhsulları isə qida, maşınqayırma, metal və kimya sənayesi məhsullarıdır.




**Qrafik 1.** *Azərbaycanın Türkiyə ilə qeyri neft sənaye məhsulları üzrə idxal-ixrac əməliyyatları*

**Mənbə:** *Qrafik www.trademap.org-un statistik məlumatları əsasında hazırlanmışdır.*

Qrafik məlumatlarından göründüyü kimi, 2010-cu ildən başlayaraq, sənaye məhsulları üzrə Azərbaycandan Türkiyəyə ixracın həcmi, o cümlədən Türkiyədən idxalın həcmi ilbəil artmışdır. Belə ki, 2022-ci ildə Azərbaycandan Türkiyəyə sənaye məhsullarının ixracı 2010-cu illə müqayisədə 6.04 dəfə artaraq 344,6 mln dollar, idxalın həcmi isə 2,73 dəfə artaraq 1949,7 mln dollar təşkil etmişdir. Ticarət dövriyyəsində 1605 mln dollar kəsr yaranmışdır. Qeyd edək ki, Azərbaycan sənaye məhsulları üzrə Türkiyə ilə xarici ticarət dövriyyəsinin həcmi ümumi Türk Dövlətləri ilə ticarət dövriyyəsinin 56.7%-ni təşkil etmişdir. Azərbaycanın Türkiyəyə ən çox ixrac etdiyi məhsullar qeyri-üzvi kimyəvi maddələr, qiymətli metalların, nadir torpaq metallarının üzvi və ya qeyri-üzvi birləşmələri, üzvi kimyəvi maddələr, əczaçılıq məhsulları, gübrələr, aşılayıcı və ya boyama ekstraktları, taninlər və onların törəmələri, boyalar, piqmentlər və digər boyalar, efir yağları və rezinoidlər, parfümeriya, kosmetika və ya tualet preparatları, sabun, üzvi səthi aktiv maddələr, yuyucu preparatlar, sürtkü preparatları, müxtəlif kimyəvi məhsullar, plastik və onlardan məmulatlar, ağac və ağacdan məmulatlar, odun kömürü, alüminium və ondan məmulatlar, qurğuşun və onun məmulatları, sink və ondan məmulatlar, nüvə reaktorları, qazanlar, maşınlar və mexaniki cihazlar təşkil edir. Üzvi kimyəvi maddələrin ixracı 2010-cu ildə 9050 min dollar olsada, 2022-ci ildə bu rəqəm 3851min dollar olmuşdur. Gübrələr 2010-cu ildə ixrac edilməsə də 2022-ci ildə 11552 min dollar olmuşdur ki, bu da 2021-ci illə müqayisədə 0,8 dəfə artıqdır. Qeyd edək ki, Azərbaycanın Türkiyəyə ən çox ixrac etdiyi məhsul neft və neft məhsullarıdır. Qeyri-neft sənaye məhsullarından isə ən çox ixrac olunan alüminium və ondan məmulatlardır. Azərbaycanın Türkiyəyə ixrac etdiyi məhsulların böyük hissəsəsi xammal şəkilində həyata keçirilir. Türkiyənin dünya ölkələrindən cəmi neft idxalı 2020-ci illə müqayisədə 2023-cü ildə 2.4 dəfə artmasına baxmayaraq, Azərbaycandan ixrac 2.1 dəfə artmışdır. Azərbaycanın dünyaya neft ixracı bu illər ərzində 2.5 dəfə artmışdır. Alminium məhsullarının ixracı isə 2023-cü ildə 2020 ci ilə nisbətən 1.7 dəfə artmışdır. Türkiyənin bu məhsulları dünyadan idxalı 2020-ci illə müqayisədə 2023-cü ildə 1.8 dəfə artmışdır. Həmçinin Azərbaycanın da bu məhsulları dünyaya ixracı 1.7 dəfə artmışdır. Bütün bu göstərilən məhsulların Azərbaycandan Türkiyəyə ixracı azaldığı halda Türkiyənin bu məhsulları dünyadan idxalı artmışdır.

Azərbaycanın Türkiyədən ən çox idxal etdiyi məhsullar filizlər, şlaklar və kül, qeyri-üzvi kimyəvi maddələr, qiymətli metalların, nadir torpaq metallarının üzvi və ya qeyri-üzvi

birləşmələri, üzvi kimyəvi maddələr, əczaçılıq məhsulları, gübrələr, boyalar, parfümeriya, kosmetika pirotexniki məmulatlar, foto və ya kinematoqrafiya məhsulları, müxtəlif kimyəvi məhsullar, plastik və onlardan məmulatlar, kauçuk və ondan məmulatlar, xam dərilər (xəzdən başqa) və dəri, dəri məmulatları, xəz dəriləri və süni xəz, ağac və ağacdan məmulatlar, odun kömürü, mantar və mantardan məmulatlar, tekstil, şüşə və şüşə qablar, nüvə reaktorları, qazanlar, maşınlar və mexaniki cihazlar, elektrik maşın və avadanlıqları, dəmiryolu və ya tramvay lokomotivləri, dəmir yolu və ya tramvay relsləri, təyyarə, kosmik gəmi və onların hissələri, gəmilər, qayıqlar və üzən strukturlar, optik, fotoqrafik, kinematoqrafik, ölçmə, yoxlama, dəqiqlik, tibbi və ya cərrahi məmulatlar və s. təşkil edir.

Azərbaycanın Türkiyədən ən çox idxal etdiyi məhsul olan nüvə reaktorlarının idxalı 2020-ci illə müqayisədə 2022-ci ildə 1.2 dəfə artmışdır. İkinci ən çox idxal olunan məhsul elektrik maşın və avadanlıqlarının idxalı 2020-ci illə müqayisədə 2022-ci ildə 1.4 dəfə artmışdır. Plastik və ondan hazırlanan məhsullarn idxalı isə 1.5 dəfə, trikotaj məhsulları 1.4 dəfə artmışdır. Bu illər ərzində əczaçılıq məhsullarının idxalı 2022-ci illə müqayisədə 2022-ci ildə 1.6 dəfə artmışdır.

Azərbaycanın sənaye məhsulları üzrə ticarət əlaqələrinin inkişaf etdiyi ölkələrdən biri Qazaxıstandır. Qazaxıstan Respublikası 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra yaradılıb. Müstəqilliyini əldə etmiş Orta Asiyada ən böyük əraziyə malik türk dövlətidir. SSRİ-nin dağılmasından sonra Qazaxıstan bir çox iqtisadi problemlərlə üzləşdi. Ölkə iqtisadiyyatının sosial-iqtisadi inkişaf tempi aşağı düşdü. Qazaxıstan hökuməti istehsalın azalması, işsizlik və yüksək inflyasiya ilə üzləşib. Sosial böhrandan çıxmaq üçün maliyyə, pul, infrastruktur və digər iqtisadi islahatlar həyata keçirilib. 2022-ci ilin məlumatlarına görə, əhalinin sayı 19,3 milyon nəfərdir. ÜDM 2021-ci ildə 197,1 milyard dollar, 2022-ci ildə isə 224,3 milyard dollar təşkil etmişdir. Adambaşına düşən gəlir 2021-ci ildə 10,306 ABŞ dolları, 2022-ci ildə isə 11,591 ABŞ dolları olmuşdur.

Azərbaycanın Qazaxıstana ixracı aşağıdakı sənaye məhsullarında özünü göstərir. Mineral yanacaqlar, mineral yağlar və onların distillə məhsulları; bitumlu maddələr, plastik və onlardan məmulatlar, çap kitabları, qəzetlər, şəkillər və poliqrafiya sənayesinin digər məhsulları; əlyazmalar, digər hazır tekstil məmulatları; dəstlər; şüşə və şüşə qablar, dəmir və polad, dəmir və ya polad məmulatlar, nüvə reaktorları, qazanlar, maşınlar və mexaniki cihazlar; hissələri elektrik maşın və avadanlıqları və onların hissələri; səs yazıcıları və reproduktorları, dəmir yolu və ya tramvaylardan başqa nəqliyyat vasitələri və onların hissələri və aksesuarları və s. [5]. Azərbaycan Qazaxıstanın Cənubi Qafqazda mühüm iqtisadi tərəfdaşıdır. 2022-ci ildə ölkələrimiz arasında ticarət əlaqələri yüksək səviyyədə saxlanılıb. Qazaxıstanda Azərbaycan kapitalının iştirakı ilə 1195-dən çox müəssisə və 210 birgə müəssisə fəaliyyət göstərir. Azərbaycanın Qazaxıstan iqtisadiyyatına yatırdığı investisiyaların həcmi 365 milyon dolları ötür [1]. Qazaxıstan dünyanın ən böyük dənizə çıxışı olmayan ölkəsidir və neft, təbii qaz, minerallar və zəngin metallar kimi təbii ehtiyatlarla zəngindir. Avropa və Asiya arasında strateji mövqeyə malikdir və bu, ölkəni mühüm ticarət mərkəzinə çevirir. Əhalinin böyük olması xarici sahibkarlar üçün böyük daxili bazar təmin edir. O, investorlar üçün açıq olduğu və ölkəyə birbaşa xarici investisiya axınının intensiv olduğu üçün cəlbedicidir. Ölkəmiz üçün hər sahədə böyük əhəmiyyət kəsb edən bu istiqamətdə bu ölkə ilə əlaqələrimizin real və konkret əsaslar üzərində inkişaf etdirilməsi, daimi və ardıcıl iqtisadi siyasətin müəyyənləşdirilməsi zərurətə çevrilmişdir.




**Qrafik 3.** *Azərbaycanın Qazaxıstan ilə sənaye məhsulları üzrə idxal-ixrac əməliyyatları*

**Mənbə:** *Cədvəl www.trademap.org statistik məlumatlarına əsasən hazırlanmışdır.*

Qrafik məlumatlarından göründüyü kimi, 2010-cu ildən başlayaraq qeyri-neft sənaye məhsulları üzrə Azərbaycandan Qazaxıstana ixracın həcmi, o cümlədən Qazaxıstandan idxalın həcmi ilbəil artmışdır. Belə ki, 2022-ci ildə Azərbaycandan Qazaxıstana sənaye məhsullarının ixracı 2010-ci illə müqayisədə 2.9 dəfə artaraq 74 mln dollar, idxalın həcmi isə 11 dəfə artaraq 379 mln dollar təşkil etmişdir. Ticarət dövriyyəsində 305 mln dollar kəsr yaranmışdır. Qeyd edək ki, Azərbaycan kənd təsərrüfatı məhsulları üzrə Qazaxıstan ilə xarici ticarət dövriyyəsinin həcmi ümumi Türk Dövlətləri ilə ticarət dövriyyəsinin 35.6 %-ni təşkil etmişdir.

Azərbaycanın Qazaxıstana ixrac etdiyi əsas məhsullar dəmiryolu və ya tramvay vaqonlarından başqa nəqliyyat vasitələri və onların hissələri və aksesuarları, dəmir və ya poladdan məmulatlar, nüvə reaktorları, qazanlar, maşınlar və mexaniki cihazlar; hissələri, neft və neft məhsulları aiddir. 2010-cu illə müqayisədə 2022-ci ildə dəmir yolu və ya tramvay vaqonlarından başqa nəqliyyat vasitələri və onların hissələri və aksesuarları ixracı 53.4 dəfə  dəmir və ya poladdan məmulatlar ixracı1.4 dəfə, neft və neft məhsulları ixracı 0.3 dəfə artmışdır. 2023-cü ildə dəmir və poladın ixracinda kəskin azalma olsada, dəmir və polad məmulatlarının ixraci 2023-cü idə 2010-cu ilə nisbətdə 3.1 dəfə artmışdır.

Azərbaycanın Qazaxıstandan idxal etdiyi əsas məhsullara duz; kükürd; torpaq və daş; suvaq materialları, əhəng və sement,mineral yanacaqlar, mineral yağlar və onların distillə edilməsi məhsulları; bitumlu maddələr;dəmir və polad, mis və ondan hazırlanan məmulatlar,plastik və onlardan məmulatlar və elektrik maşın və avadanlıqları və onların hissələri; səs yazıcıları və reproduktorları aiddir. Azərbaycanın Qazaxıstandan ən çox idxal etdiyi məhsullardan biri də mis və mis məmulatlarıdır ki, 2010-cu illə müqayisədə 2023-cü ildə bu məhsulun idxalı 5,4 dəfə, dəmir və poladdan olan məmulatlar isə 3.3 dəfə, elektrik maşın və avadanlıqlarının ixracı 30 dəfə artmışdır. Duz; kükürd; torpaq və digər tikinti materiallarının idxalı 2023-cü ildə 2010-cu illə müqayisədə 4.1 dəfə azalmışdır. Neft və neft məhsullarının da idxalında 2023-cü ildə 2022-ci illə müqayisədə 0.5 dəfə azalmışdır.




**Qrafik 4.** *Azərbaycanın Özbəkistan ilə sənaye məhsulları üzrə idxal-ixrac əməliyyatları*

**Mənbə:** *Qrafik www.trademap.org-un statistik məlumatları əsasında hazırlanmışdır.*

Qrafik məlumatlarından göründüyü kimi, 2015-ci ildən başlayaraq sənaye məhsulları üzrə ixracın, idxalın həcmində dalğalanmalar olsada 2020-ci ildən ixrac və idxalın həcmi artmışdır. Belə ki, 2023-cü ildə Azərbaycandan Özbəkistana sənaye məhsullarının ixracı 2015-ci illə müqayisədə 3.9 dəfə artaraq 39 mln dollar, idxalın həcmi isə 10.9 dəfə artaraq 109mln dollar təşkil etmişdir. Ticarət dövriyyəsində 70 mln dollar kəsr yaranmışdır. Qeyd edək ki, Azərbaycan sənaye məhsulları üzrə Özbəkistan ilə xarici ticarət dövriyyəsinin həcmi ümumi Türk Dövlətləri ilə ticarət dövriyyəsinin 0.05 %-ni təşkil etmişdir.

Azərbaycanın Özbəkistana ən çox ixrac etdiyi məhsul filizlər,neft məhsulları, dəmir və polad, alüminium və ondan məmulatlar,plastik,müxtəlif istehsal məmulatlarıdır.Filiz ixracı 2020-ci illə müqayisədə 2023-cü ildə 2,9 dəfə artmışdır. Almüminium və ondan məmulatlar ixracı 2023-cü ildə 2020-ci illə müqayisədə 4.7 dəfə artmışdır. Qeyd edək ki, Azərbaycanın bu məhsulu dünyaya ixracı isə son 9 ildə 2.2 dəfə artmışdır. Azərbaycanın Özbəkistandan ən çox idxal etdiyi məhsullar əczaçılıq məhsulları,mis və ondan məmulatlar,elektrik maşınlar, dəmir yolu və ya tramvay vaqonlarından başqa nəqliyyat vasitələri və onların hissələri və aksesuarları, nüvə reaktorları, qazanlar, maşınlar və mexaniki cihazlardır. Əczaçılıq məhsullarının idxalı 2023-cü ildə 2020- ci illə müqayisədə 4,5 dəfə,mis və ondan məmulatlar 1.6 dəfə,nüvə reaktorları 3,3 dəfə,tramvay və dəmir yolu nəqliyyat hissələri 3.4 dəfə artmışdır.




**Qrafik 5.** *Azərbaycanın Türkmənistan ilə sənaye məhsulları üzrə idxal-ixrac əməliyyatları*

**Mənbə:** *Cədvəl www.trademap.org-un statistik məlumatları əsasında hazırlanmışdır.*

Qrafik məlumatlarından göründüyü kimi, 2015-ci ildən başlayaraq sənaye məhsulları üzrə Azərbaycandan Türkmənistana ixracın həcmi azalmış Türkmənistandan idxalın həcmi isə artmışdır. Belə ki, 2023-ci ildə Azərbaycandan Türkmənistana sənaye məhsullarının ixracı 2010-cu illə müqayisədə 4.6 dəfə azalaraq 39 mln dollar, idxalın həcmi isə 49 dəfə artaraq 686 mln dollar təşkil etmişdir. Ticarət dövriyyəsi 725 mln dollar təşkil edir. Qeyd edək ki, Azərbaycan kənd təsərrüfatı məhsulları üzrə Türkmənistan ilə xarici ticarət dövriyyəsinin həcmi ümumi Türk Dövlətləri ilə ticarət dövriyyəsinin 0.016 %-ni təşkil etmişdir.

Azərbaycanın Türkmənistana ən çox ixrac etdiyi sənaye məhsulu qeyri üzvi kimyəvi maddələr, dəmir,alüminiumdur. Azərbaycanın Türkmənistandan bir neçə sənaye məhsulu idxal edir. Bunlar içərisində ən çox idxal etdiyi məhsul neft və neft məhsulları, plastik və ondan məmulatlar və tekstil məhsullarıdır.

**Nəticə**

2015-ci ildən başlayaraq, sənaye məhsulları üzrə Azərbaycan ilə Türk Dövlətləri arasında həm ixracın həm də idxalın həcmi artmışdır. Azərbaycan ilə Türk Dövlətləri arasında ticarət dövriyyəsinin təhlili göstərir ki, bu illər ərzində Azərbaycanın Türk Dövlətləri ilə sənaye məhsulları üzrə mənfi saldo yaranmışdır. Mənfi haldır ki,Azərbaycan sənaye üzrə Türk dövlətləri ilə ticarət əlaqələri yalnız Qırğızıstan ilə müsbət soldo yaranmışdır.Digər ölkələr ilə isə mənfi soldodur.Azərbaycanın Türk Dövlətləri ilə iqtisadi əlaqələrinin xüsusi ilə sənaye üzrə idxal-ixrac əməliyyatlarının genişlənməsi üçün potensial imkanlar mövcuddur. Bunun üçün idxal ixrac əməliyyatlarının genişlənməsinə mane olan amillərin, yerli istehsalın stimullaşdırılması, xüsusi ilə gömrük vergilərinin araşdırılaraq aradan qaldırılması üçün tədbirlər görülməlidir. Həmçinin sənaye məhsullarının emalı sahəsində birgə müəssisələrin yaradılması da əhəmiyyətlidir.

Əhalinin çox olması xarici sahibkarlar üçün böyük daxili bazar təmin edir. İnvestorlar üçün, əsasən, Türkiyə və Qazaxıstanın açıq olduğu və ölkəyə birbaşa xarici investisiya axınının intensiv olduğu üçün cəlbedicidir. Ölkəmiz üçün hər sahədə böyük əhəmiyyət kəsb edən bu istiqamətdə türk dövlətləri ilə əlaqələrimizin real və konkret əsaslar üzərində inkişaf etdirilməsi, daimi və ardıcıl iqtisadi siyasətin müəyyənləşdirilməsi zərurətə çevrilmişdir.

## ƏDƏBİYYAT

1. Çarıkçı, E. (2002), "Türk Cumhuriyetlerinde Ekonomik Gelişmeler ve Kazakistan Örneği, DTM Dergisi, Özel Sayı, Ocak, Ankara: 2002, s.19-44
2. Ersungur, Ş.M., Kızıltan, A., Karabulut, K. (2007). "Türkiye İle Diğer Türk Cumhuriyetlerinin Ekonomik İlişkilerinin Analizi", Atatürk Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü Dergisi, sayı: 35, 285-310 G
3. https://www.turktob.org.tr/fs_/ULKE_RAPORLARI_ECO_ULKELERI_2023/KAZAKISTAN_2023.pdf
4. https://www.turktob.org.tr/fs_/ULKE_RAPORLARI_ECO_ULKELERI_2023/TURKMENISTAN_2023.pdf
5. www.trademap.org
6. https://www.stat.gov.az/
7. https://www.worldbank.org/

## SUMMARY

The article examines the import-export operations of Azerbaijan with the Turkic States on industrial sector products. In recent years, the expansion of economic relations between these countries has been reflected in the import and export of industrial products. It has been established that in recent years, a negative balance has been created between Azerbaijan and the Turkic States on industrial products. In the article, based on statistical data, the trade relations between Azerbaijan and Turkish States for individual industrial products were extensively analyzed, existing problems were indicated, and potential opportunities for import-export operations were determined. At the end of the article, proposals were made for increasing the export of industrial products from Azerbaijan to the Turkic States.

***Key words:*** *import, export, industry, trade turnover, Turkish states*

# AZƏRBAYCANIN TÜRKİYƏ, QAZAXISTAN VƏ ÖZBƏKİSTAN İLƏ KƏND TƏSƏRRÜFATI MƏHSULLARI ÜZRƏ XARİCİ TİCARƏT ƏLAQƏLƏRİ

**Leyla ƏFRASİYABZADƏ**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu*

**JEL Q1; UOT 339.5**

***Xülasə***

*Məqalədə kənd təsərrüfatı sektoru məhsulları üzrə Azərbaycanın Türkiyə, Qazaxıstan və Özbəkistan ilə idxal-ixrac əməliyyatları araşdırılmışdır. Son illər bu ölkələr arasında iqtisadi əlaqələrin genişlənməsi kənd təsərrüfatı məhsullarının idxal-ixracında da öz əksini tapmışdır. Belə ki, 2022-ci ildə Azərbaycanın Türkiyə, Qazaxıstan və Özbəkistan ilə kənd təsərrüfatı məhsulları ilə xarici ticarət dövriyyəsi 830 mln təşkil etmişdir. Müəyyən edilmişdir ki, son illərdə Azərbaycanın bu ölkələr ilə kənd təsərrüfatı məhsulları üzrə mənfi saldo yaranmışdır. Məqalədə statistik məlumatlar əsasında ayrı-ayrı kənd təsərrüfatı məhsulları üzrə Azərbaycan ilə Türkiyə, Qazaxıstan və Özbəkistan Dövlətləri arasında ticarət əlaqələri geniş təhlil edilmiş, mövcud problemlər göstərilərək, idxal-ixrac əməliyyatları üçün potensial imkanlar müəyyən edilmişdir. Məqalənin sonunda Azərbaycandan Türkiyəyə, Qazaxıstana və Özbəkistana kənd təsərrüfatı məhsullarının ixracının artırılması üçün təkliflər verilmişdir.*

***Açar sözlər:*** *idxal, ixrac, kənd təsərrüfatı, ticarət dövriyyəsi*

1991-ci ildə Sovetlər Birliyi dağıldıqdan sonra, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistan müstəqilliklərini əldə etdilər. Türk dövlətləri müstəqilliklərini əldə etdikdən sonra bu dövlətlər arasında iqtisadi, siyasi və mədəni əlaqələr daha sürətli inkişaf etməyə başladı. Türk dövlətlərinin ümumi ərazisi 4.7 milyon kv.km, əhalisi isə 78112077 mln nəfər təşkil edir. Həmçinin Türk dövlətlərinin tarixi İpək Yolu üzərində yerləşməsi Şərq və Qərb arasında artmaqda olan ticarət dövriyyəsində önəmli rola malik olmasına şərait yaradır. Türk dövlətləri içərisində iqtisadiyyatı daha güclü inkişaf edən ölkə Türkiyədir. Azərbaycan neft-qaz yataqları ilə zəngin olan və iqtisadiyyatı son illərdə sürətlə inkişaf edən ölkədir. Azərbaycan yeraltı sərvətlərinə görə Türk dünyası ölkələri içərisində ən zənginidir. Mərkəzi Asiyanın ən böyük iqtisadiyyatlarından birinə malik olan, həmçinin zəngin neft-qaz yataqlarına sahib olan ölkə Qazaxıstandır. Təbii sərvətlərlə zəngin olan Özbəkistan isə son illər iqtisadiyyatın liberallaşması və xarici investorları cəlb etmək məqsədi ilə bir sira iqtisadi islahatlar həyata keçirmişdir.

Türk Dövlətləri kənd təsərrüfatı sahəsində də inkişaf potensialına malikdirlər. Bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da ÜDM–də kənd təsərrüfatı məhsullarından gələn gəlirlərin həcmi azdır. Belə ki, kənd təsərrüfatından gələn gəlirlərin həcmi ÜDM 4.8% -i təşkil edir. Ümumi kənd təsərrüfatı istehsalı 12.6 mlrd manat təşkil etmişdır. Azərbaycanda kənd təsərüffatına yararlı torpaqlar 4780.5 min hektar, əkin yerləri isə 2052.8 min hektar təşkil edir. Türkiyə ərazisinin təxminən 30.8 %-i əkin sahələrindən ibarətdir. 2022-ci ildə Türkiyədə kənd təsərrüfatının tərkibindəki 10 sahədən 3-ü ixrac rekordlarını qırmışdır. Ən

çox ixrac edilən dənli bitkilər, paxlalılar, yağlı toxumlar və məhsullar,meyvə-tərəvəz, zeytun olub. Qazaxıstanın ərazisinin 70%-dən çoxu bitkiçilik və heyvandarlıqda istifadə olunur. Qazaxıstan üçün xarakterik olan kənd təsərrüfatı sahələri heyvandarlıq, yun, dəri və taxıldır. Qazaxıstan un və buğdanın dünya ölkələri içərisində 10 ən böyük tədarükçüsündən biridir. Özbəkistanın kənd təsərrüfatı 2017-2022-ci illər ərzində davamlı şəkildə inkişaf etmişdir. Belə ki bu illər ərzində dənli bitkilər 10%, kartof 23%,tərəvəz 9%, meyvə-tərəvəz 14%,üzümün istehsalı isə 8% artmışdır. Azərbaycanın kənd təsərrüfatı məhsulları üzrə xarici ticarət əməliyyatlarında əsas tərəfdaş ölkə Türkiyədir.




**Qrafik 2.** *Azərbaycanın Türkiyə ilə kənd təsərrüfatı məhsulları üzrə idxal-ixrac əməliyyatları*

**Mənbə:** *Cədvəl www.trademap.org-un statistik məlumatları əsasında hazırlanmışdır.*

Qrafik məlumatlarından göründüyü kimi, 2018-ci ildən başlayaraq kənd təsərrüfatı məhsulları üzrə Azərbaycandan Türkiyəyə ixracın həcmi, o cümlədən Türkiyədən idxalın həcmi ilbəil artmışdır. Belə ki, 2022-ci ildə Azərbaycandan Türkiyəyə kənd təsərrüfatı məhsullarının ixracı 2018-ci illə müqayisədə 2.53 dəfə artaraq 209.9 mln dollar, idxalın həcmi isə 1.92 dəfə artaraq 311.6 mln dollar təşkil etmişdir. Ticarət dövriyyəsində 101.2 mln dollar kəsr yaranmışdır. Qeyd edək ki, Azərbaycan kənd təsərrüfatı məhsulları üzrə Türkiyə ilə xarici ticarət dövriyyəsinin həcmi ümumi Türk Dövlətləri ilə ticarət dövriyyəsinin 56.7%-ni təşkil etmişdir.

Azərbaycanın Türkiyəyə ən çox ixrac etdiyi məhsullar içərisində pambıq, meyvə və taxılın toxumları, yağlı toxumlar, qida sənayesinin qalıqları və tullantılarından hazırlanmış heyvan yemi, bitki və heyvan mənşəli piylərdən hazırlanmış yeməli yağlar, meyvə, qoz-fındıq və sitrus meyvələr təşkil edir. Tütün və tütünün əvəz ediciləri 2020-ci ildə ixrac edilməsə də 2022-ci ildə 597 mln dollar olmuşdur ki, bu da 2021-ci illə müqayisədə 5.1 dəfə artıqdır. Həmçinin şəkər və qənnadı məhsullarının da 2020-ci ilə qədər ixrac olunmadığı halda 2022-ci ildə 2021-ci illə müqayisədə 100 dəfə artaraq 300 mly dollar təşkil etmişdir. Qeyd edək ki, Azərbaycanın Türkiyəyə ən çox ixrac etdiyi məhsul pambıqdır. Azərbaycanın Türkiyəyə ixrac etdiyi pambığın böyük hissəsi xammal şəklində, qismən də pambıq iplik, pambıq və iplik tullantıları şəklində həyata keçirilir. Azərbaycan Türkiyəyə pambıqdan toxunmuş parçaları 22 il ərzində 3 dəfə 2012, 2013 və 2021-ci illərdə ixrac edilib. Türkiyənin dünya ölkələrindən cəmi pambıq idxalı 2021-ci illə müqayisədə 2022-ci ildə 1.3 dəfə

artmasına baxmayaraq Azərbaycandan idxal 1.3 dəfə azalmışdır. Türkiyənin pambıq idxal etdiyi ölkələr Pakistan, Yunanıstan və İtaliyadır. Azərbaycanın dünyaya pambıq ixracı bu illər ərzində 1.3 dəfə artmışdır. Meyvə, tərəvəz, qoz-fındıqın ixracı isə 2020-ci illə müqayisədə 2022-ci ildə 5.2 dəfə azalmışdır. Lakin Türkiyənin bu məhsulları dünyadan idxalı isə 1.7 dəfə artmışdır. Kofe, çay, ədviyyat ixracı 2020-ci illə müqayisədə 2021-ci ildə 11.9 dəfə artmasına baxmayaraq 2022-ci ildə bu məhsulların ixracı 0 olmuşdur. Türkiyənin bu məhsulları dünyadan idxalı 2020-ci illə müqayisədə 2022-ci ildə 1.5 dəfə artmışdır. Həmçinin Azərbaycanın da bu məhsulları dünyaya ixracı 1.2 dəfə artmışdır. Türkiyənin dünyadan ipək idxalı 2020-ci illə müqayisədə 2022-ci ildə 1.2 dəfə artıgı halda, Azərbaycanın Türkiyəyə ipək ixracı 2020-ci illə müqayisədə 2022-ci ildə 4.9 dəfə azalmışdır. Qeyd edək ki, Azərbaycanın dünyaya ipək ixracı isə həmən illərdə 1.5 dəfə artmışdır. Bütün bu göstərilən məhsulların Azərbaycandan Türkiyəyə ixracı azaldığı halda Türkiyənin bu məhsulları dünyadan idxalı artmışdır.

Azərbaycanın Türkiyədən ən çox idxal etdiyi məhsullar pambıq, meyvələrin, taxılın toxumları, yağlı toxumlar, heyvan mənşəli məhsullar, qida sənayesinin qalıqları və tullantılarından hazırlanmış heyvan yemidir. Azərbaycanın Türkiyədən ən çox idxal etdiyi məhsul olan pambığın idxalı 2020-ci illə müqayisədə 2022-ci ildə 1.4 dəfə artmışdır. İkinci ən çox idxal olunan məhsul meyvələrin,taxılın toxumları,yağlı toxumların idxalı 2020-ci illə müqayisədə 2022-ci ildə 2.6 dəfə artmışdır. Heyvan mənşəli məhsullar, qida sənayesinin qalıqları və tullantılarından hazırlanmış heyvan yemlərinin idxalı isə 1.8 dəfə artmışdır. Bu illər ərzində tütün məhsullarının, meyvə, qoz- fındıq, sıtrus meyvələrinin idxalı 2022-ci illə müqayisədə 2022-ci ildə 3.5 dəfə artmışdır. Azərbaycanın kənd təsərrüfatı məhsulları üzrə ticarət əlaqələrinin inkişaf etdiyi ölkələrdən biri Qazaxıstandır.




**Qrafik 3.** *Azərbaycanın Qazaxıstan ilə kənd təsərrüfatı məhsulları üzrə idxal-ixrac əməliyyatları*

**Mənbə:** *Cədvəl www.trademap.org-un statistik məlumatları əsasında hazırlanmışdır.*

Qrafik məlumatlarından göründüyü kimi, 2018-ci ildən başlayaraq kənd təsərrüfatı məhsulları üzrə Azərbaycandan Qazaxıstana ixracın həcmi, o cümlədən Qazaxıstandan idxalın həcmi ilbə-il artmışdır. Belə ki, 2022-ci ildə Azərbaycandan Qazaxıstana kənd təsərrüfatı məhsullarının ixracı 2018-ci illə müqayisədə 8.15 dəfə artaraq 30.4 mln dollar,

idxalın həcmi isə 2.5 dəfə artaraq 298.0 mln dollar təşkil etmişdir. Ticarət dövriyyəsində 267.6 mln dollar kəsr yaranmışdır. Qeyd edək ki, Azərbaycan kənd təsərrüfatı məhsulları üzrə Qazaxıstan ilə xarici ticarət dövriyyəsinin həcmi ümumi Türk Dövlətləri ilə ticarət dövriyyəsinin 35.6 %-ni təşkil etmişdir.

Azərbaycanın Qazaxıstana ixrac etdiyi əsas məhsullar meyvə, sitrus meyvələri, qoz-fındıq, şəkər, qənnadı məhsulları, içkilər, sprtli içkilər, sirkə, kakao, müxtəlif meyvə və tərəvəzlərin toxumları , taxılın toxumları, ət aiddir. 2020-ci illə müqayisədə 2022-ci ildə ət ixracı 39.5 dəfə meyvə, sitrus meyvələri ixracı 1.9 dəfə, şəkər və qənnadı məhsullarının ixracı 54.6 dəfə, spirtli içki, sirkə, müxtəlif içkilər ixracı 2.01 dəfə, cocao ixracı bu illər ərzində 1.5 dəfə artmışdır. Tütün məhsullarının ixracı isə 5.4 dəfə azalmışdır.

Azərbaycanın Qazaxıstandan idxal etdiyi əsas məhsullara taxıl, un, nişasta, cacao, səkər və qənnadı məhsulları, şirniyyat məhsulları, spirtli içkilər, heyvan və bitki mənşəli piylər, yeməli yağlar, meyvə-tərəvəz kökləri və balıq məhsulları aiddir. Azərbaycanın Qazaxıstandan ən çox idxal etdiyi məhsul taxıldır. Bu məhsulun idxalı 2020-ci illə müqayisədə 2022-ci ildə 17.7 dəfə, meyvə-tərəvəz köklərinin idxalı 1.5 dəfə , cacao idxalı 2020-ci illə müqayisədə 2022-ci ildə 4.9 dəfə, şəkər və qənnadı məhsullarının idxalı 2.1 dəfə, balıq məhsulları 1.8 dəfə, spirtli içkilərin idxalı isə 1.6 dəfə artmışdır. Azərbaycanın Qazaxıstandan diri heyvan idxalı 2020-ci illə müqayisədə 2021-ci ildə 4.7 dəfə artmasına baxmayaraq 2022-ci ildə bu məhsulun idxalı 2021-ci illə müqayisədə 2022-ci ildə 204.4 dəfə azalmışdır.




**Qrafik 5.** *Azərbaycanın Özbəkistan ilə kənd təsərrüfatı məhsulları üzrə idxal-ixrac əməliyyatlar*

**Mənbə:** *Cədvəl www.trademap.org –un statistik məlumatları əsasında hazırlanmışdır.*

Qrafik məlumatlarından göründüyü kimi, 2018-ci ildən başlayaraq kənd təsərrüfatı məhsulları üzrə Azərbaycandan Özbəkistana ixracın həcmi azalmış, Özbəkistandan idxalın həcmi isə artmışdır. Belə ki, 2022-ci ildə Azərbaycandan Özbəkistana kənd təsərrüfatı məhsullarının ixracı 2018-ci illə müqayisədə 2.7 dəfə azalaraq 6.2 mln dollar, idxalın həcmi isə 5.0 dəfə artaraq 40.9 mln dollar təşkil etmişdir. Ticarət dövriyyəsində 34.7 mln dollar kəsr yaranmışdır. Qeyd edək ki, Azərbaycan kənd təsərrüfatı məhsulları üzrə Özbəkistan ilə xarici ticarət dövriyyəsinin həcmi ümumi Türk Dövlətləri ilə ticarət dövriyyəsinin 0.05 %-ni təşkil etmişdir.

Azərbaycanın Özbəkistana ən çox ixrac etdiyi məhsul yeməli meyvə və qoz-fındıq, sitrus meyvələrinin, qovunların qabığı, cacao, spirtli içkilər, heyvan bitki mənşəli piylərdir. Sitrus meyvələrinin və qoz-fındıq ixracı 2020-ci illə müqayisədə 2022-ci ildə 7.4 dəfə artmışdır.Qeyd edək ki, Azərbaycanın bu məhsulu dünyaya ixracı isə son 8 ildə 2.0 dəfə artmışdır. Azərbaycanın Özbəkistandan ən çox idxal etdiyi məhsul tütündür. Bu məhsulu Azərbaycan ilk dəfə 2022-ci ildə idxal edib. Sitrus meyvələrinin, qoz-fındıqın idxalı 2020- ci illə müqayisədə 2.06 dəfə, taxıl toxumların idxalı 2.07 dəfə, pamdıq idxalı 1.8 dəfə, spirtli içkilərin idxalı 9.2 dəfə, cacao idxalı 2020-ci illə müqayisədə 2022-ci ildə 69.9 dəfə, taxıl, un idxalı ildə 209.3 dəfə, şəkər və qənnadı məhsullarının idxalı 2.1 dəfə, kofe, çay, ədviyyatın idxalı 2.1 dəfə artmışdır.

**Nəticə**

2018-ci ildən başlayaraq kənd təsərrüfatı məhsulları üzrə Azərbaycan ilə Türkiyə,Qazaxıstan və Özbəkistan arasında həm ixracın həm də idxalın həcmi artmışdır. Azərbaycan ilə Türkiyə, Qazaxıstan və Özbəkistan dövlətləri arasında ticarət dövriyyəsinin təhlili göstərir ki, bu illər ərzində Azərbaycanın bu dövlətlər ilə kənd təsərrüfatı məhsulları üzrə mənfi saldo yaranmışdır. Azərbaycanın Türkiyə,Qazaxıstan və Özbəkistan ilə iqtisadi əlaqələrinin xüsusi ilə kənd təsərrüfatı üzrə idxal-ixrac əməliyyatlarının genişlənməsi üçün potensial imkanlar mövcuddur. Bunun üçün idxal ixrac əməliyyatlarının genişlənməsinə mane olan amillərin, xüsusi ilə gömrük vergilərinin araşdırılaraq aradan qaldırılması üçün tədbirlər görülməlidir.Həmçinin kənd təsərrüfatı məhsullarının emalı sahəsində birgə müəssisələrin yaradılması da əhəmiyyətlidir.

## ƏDƏBİYYAT

1. Turkish State Economy. Edited by Prof.Dr.Vusal Gasimli, s.65
2. Qənbərov, F.Ə. Xarici iqtisadi əlaqələr və iqtisadi artım. s.75
3. Yılmaz, Ş.E. Dış Ticaret Kuramlarının Evrimi, 3. Baskı, Efil Yayınevi, Ankara: 2014
4. Y., M.(2022).Central Asian Turkic Republics and Relations üith Türkiye (1st ed.),İatanbul:SETAPublications
5. Y., M. Orta Asiya Türk Cumhiryetleri ve Türkiye ilişkileri. Bursa: 2022. Türk Ocakları Dernegi Bursa Şubesi
6. www.trademap.org
7. https://www.stat.gov.az/
8. https://www.worldbank.org/

## SUMMARY

**Leyla Afrasiabzadeh**

## AZERBAIJAN'S FOREIGN TRADE RELATIONS WITH TURKEY, KAZAKHSTAN AND UZBEKISTAN ON AGRICULTURAL PRODUCTS

The article examines the import-export operations of Azerbaijan with Turkey, Kazakhstan and Uzbekistan on agricultural sector products. In recent years, the expansion of economic relations between these countries has been reflected in the import-export of agricultural products. Thus, in 2022, the foreign trade turnover of agricultural products of Azerbaijan with Turkey, Kazakhstan and Uzbekistan amounted to 830 million. In the article, based on statistical data, the trade relations between Azerbaijan and Turkey, Kazakhstan and Uzbekistan for individual agricultural products were widely analyzed, existing problems were indicated, and potential opportunities for import-export transactions were determined. At the end of the article, there are suggestions for increasing the export of agricultural products from Azerbaijan to Turkey, Kazakhstan and Uzbekistan.

***Key words:*** *export, import, agricultural, commercial turnover*

## РЕЗЮМЕ

***Лейла Афрасиябзаде***

## ВНЕШНЕТОРГОВЫЕ СВЯЗИ АЗЕРБАЙДЖАНА С ТУРЦИЕЙ, КАЗАХСТАНОМ И УЗБЕКИСТАНОМ ПО СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ ПРОДУКЦИИ

В статье рассматриваются импортно-экспортные операции Азербайджана с Турцией, Казахстаном и Узбекистаном по продукции агропромышленного комплекса. В последние годы расширение экономических связей между этими странами нашло отражение в импорте-экспорте сельскохозяйственной продукции. Таким образом, в 2022 году внешнеторговый оборот сельхозпродукции Азербайджана с Турцией, Казахстаном и Узбекистаном составил 830 миллионов долларов. В статье на основе статистических данных были широко проанализированы торговые отношения между Азербайджаном и Турцией, Казахстаном и Узбекистаном по отдельным сельскохозяйственным продуктам, обозначены существующие проблемы и определены потенциальные возможности для импортно-экспортных операций. В конце статьи приведены предложения по увеличению экспорта сельскохозяйственной продукции из Азербайджана в Турцию, Казахстан и Узбекистан.

***Ключевые слова:*** *экспорт, импорт, сельскохозяйственная продукция, коммерческий оборот*

# İXRACYÖNLÜ SƏNAYEDƏ DATA ANALİTİKASININ ROLU

**Nəsimi ƏSƏDZADƏ**
*nesimiesedzade1@gmail.com*
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*https://orcid.org0009-0002-3040-7023*

***Xülasə***

*Ölkənin inkişaf sahələrindən biri ayrı-ayrı bölgələrdə ixracyönlü sənaye müəssisələrinin yaranmasıdır. Məqalədə ixracyönlü sənayedə data analkitikasının rolundan bəhs olunur. Yeni ixtisas sahəsi olan Data analitikasının mahiyyəti açıqlanır, digər sahələrdə istifadə imkanları nəzərə çatdırılır. 2023-cü il 5 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilməsi bu istiqamətdə görülən tədbirlərdən biridir. Dövlət Proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir. Bu məqsədə çatmağın yollarından biri müasir iqtisadiyyatda önəmli rolu olan Data analitikasının ixracyönlü sənayeyə, biznesə tətbiqidir. Aydın məsələdir ki, ixracyönlü sənaye varsa, demək, satış var. Data analitikasından istifadə etməklə satışda müştəri seqmentlərini və davranışlarını başa düşülməsi, satışın optimallaşdırması, satış proqnozlaşdırmasının yaxşılaşdırması asanlaşır. Həmçinin müştəri xidmətləri prosesində müştəri məmnuniyyətinin artırılması, müştəri ayrılığını azaldıltması və müştəri sadiqliyinin artırılması məqsədi ilə data analitikasından istifadə edilir. Data müəssisə və şirkətlər üçün yeni xammal hesab oluna bilər. Data Analitikasının belə geniş istifadə imkanları onu ənənəvi və yeni iş modellərinin hər aspektində dəyər yaradır. Data analitikasının bu qədər əhəmiyyət qazanmasının bir səbəbi də cəmiyyətin sənaye 4.0 mərhələsinə keçidi ilə bağlıdır. İstehsal sahələrində informasiya texnologiyalarının yüksək sürətlə yayılması və inkşaf etməsi, süni intellektə malik robotlardan istifadə, avtomatlaşdırmanın təkmilləşməsi, rəqəmsal texnologiyaya keçid yeni iqtisadi təsirlərə malik olmaqla iqtisadiyyatın bütün sahələrində fundamental əsaslı dəyişikliklərə yol açır. Bəlkə elə bu səbəbdən dünyanın aparıcı şirkətlərinin mütəxəssisləri Data analitikasını "XXI əsrin nefti" adlandırırlar. Bu gün yeni ixtisas olan data analitiklər ixracyönlü sənaye müəssisələri üçün vacib kadrlardır. Müəssisə və şirkətlərin böyüməsi və inkişaf etməsi data analitiklərinə olan tələbat da kəskin surətdə artır.*

***Açar sözlər:*** *Data analitikası, ixracyönlü sənaye müəssisələri, rəqabətlik, analitik alətlər, məlumat bazası*

Cəmiyyətin inkişafını sürətləndirən innovasiyalar, yeni texnologiyalar, o cümlədən rəqəmsal iqtisadiyyat əlverişli infrastruktur və Dördüncü Sənaye İnqilabının standartlarına uyğun şərait formalaşdırır. İnkişafa can atan dövlətlər öz siyasətini cəmiyyətin inkişaf istiqamətlərinə, milli maraqlarına və qlobal çağırışlara uyğunlaşdırırlar. Belə bir dövrdə ölkəmiz də qlobal çağrışlara qoşulur və ölkə daxilində qabaqcıl ölkələrin inkişafına uyğun keyfiyyətcə yeni sənayeləşmə mərhələsinə yönələn tədbirlər planı həyata keçirir. Məsələn, 2020-ci ilidə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin

Azərbaycan Mərkəzi yaradılmışdır. Bu, ölkəni rəqəmsal və texnoloji mərkəzə çevirmək məqsədinə doğru atılan addımlardan biridir. 14 noyabr 2022-ci ildə isə "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (BMTSİT) arasında 2022–2026-cı illər üzrə Əməkdaşlıq Çərçivəsi"nin təsdiq edilmişdir. Həmin sənəd əsasında Azərbaycanda 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyası həyata keçirilir. Strategiya Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyası tərəfindən təsdiq edilmiş "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" də nəzərdə tutulmuş Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşır. Dünya ölkələri ilə əməkdaşlığın şaxələnməsi, ölkənin sənaye potensialının reallaşması kimi məsələlər ölkənin sosial-iqtisadi siyasətinin əsas prioritetləridir. Ölkənin iqtisadiyyatınını inkişafı onun sənayesinin, xüsusən ixracyönlü sənayesinin inkişafı ilə sıx əlaqəlidir. Bu, həm də dünya bazarı üçün istehsal edən rəqabətə qoşulan sənayenin genişlənməsinə əsaslanan strategiyadır. İxracyönlü sənaye inkişafı strategiyası ölkələrin beynəlxalq əmək bölgüsünə inteqrasiyasını yaxşılaşdırır, yeni iş yerləri yaradır, daha yüksək gəlir mənbəyi formalaşdırır. İxracyönlü sənayenin inkişafı ölkənin iqtisadi strukturlarını tənzimləməsini tələb edir, ölkə iqtisadiyyatının inkişaf etməkdə olan ölkələrin sənaye ixrac potensialına uyğunlaşması üçün müəssisə və şirkətlərin sektorlararası mobilliyini, o cümlədən işçi qüvvəsinin regionlararası mobilliyini artırır, rəqəmsal texnologiyaların tətbiqini aktuallaşdırır. Bu baxımdan belə qənaətə gəlmək olar ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" ölkəmizdə ixracyönlü sənayenin inkişafına, ölkə iqtisadiyyatının beynəlxalq bazara tam inteqrasiyasına şərait yaradacaq. Bunula belə, ölkədə fəaliyyət göstərən istehsal sahələrində informasiya texnologiyalarının yüksək sürətlə yayılmasını və inkşaf etməsini, süni intellektə malik robotlardan istifadəni, avtomatlaşdırmanın təkmilləşməsini, rəqəmsal texnologiyalara keçidi sürətləndirəcəkdir. Eləcə də, yeni iqtisadi təsirlərə malik olan iqtisadiyyatın bütün sahələrində önəmli rolu olan Data analitikasının ixracyönlü sənayeyə, biznesə və digər sahələrə tətbiqini genişləndirəcəkdir.

Data analitikası nədir, onun iqtisadiyyatda və ixracyönlü sənayedə rolu nədən ibarətdir?

Məlumdur ki, iqtisadiyyat sosial elm olduğu üçün irəli sürülən fərziyyələrin yoxlanılması, təcrübələrin aparılması laboratoriyada deyil, real fəaliyyət göstərən müəssisə və şirkətlərdə həyata keçirilir. Buna görə də iqtisadiyyat sahəsi statistik modellərlə hipotezləri yoxlamaq üçün tez-tez tarixi məlumatlara istinad edir. Başqa sözlə, mövcud məlumatları təhlil etmək, səbəb-nəticə əlaqələrini qurmaq kimi proseslərə müraciət etməklə proqnoz vermə, planlaşdırma və qərarlar qəbul etmək mümkündür. Məlumatlar yaxşılaşdıqca, iqtisadi təhlil də yaxşılaşır. Qərar verənlər ətraflı məlumatlara əsaslanaraq daha qətiyyətli qərarlar qəbul edə bilirlər. Məlumatların təhlili müəsissə və şirkətlərə böyük həcmdə məlumatlarda olan gizli məqamları və əlaqələri müəyyən etməyə imkan verir. Belə ki, müəssisə və təşkilatların fəaliyyətlərinin proqnozlaşdırılmasını, planlaşdırılmasını, nəzarət və idarə edilməsini asanlaşdırmaq, uğurlu nəticələr əldə edə bilən qərarların qəbul olunmasına nail olmağın yollarından biri qabaqcıl analitik üsullardan istifadə edilməsidir. Bu üsullardan biri data analitikasıdır (https://lamontblack.com/content/ba/data-analytics-in-economics/). Data analitikasının ixrayönlü sənayenin inkişafındakı rolu iqtisadiyyatın, maliyyə və biznes əlaqələrinin inteqrasiyasına əsaslanır Data-analitikasından əhəmiyyətli

məlumatları əldə etməsi, yekun nəticələrin çıxarması, qərarların qəbul edilməsi məqsədi ilə məlumatların tədqiq etməsi, təmizlənilməsi, dəyişilməsi, modelləşdirilməsi üçün istifadə olunur. Data analitikası müxtəlif: biznes, tibb, təhsil və digər sosial elm sahələrində müxtəlif adları, fərqli üsulları özündə birləşdirir. Data inteqrqasiyası məlumatların təhlilində mühüm rola malik olub, data analizi, data vizuallaşdırılması və data paylaşması ilə sıx bağlıdır (https://www.investopedia.com/terms/d/data-analytics.asp). Data analitikası mövcud şəraiti nəzərə alır, lazımi ehtiyacları müəyyənləşdirir, maraqlı tərəflərə dəyər əldə etmək imkanları verir, dəyişikliyi təmin edən təkliflər irəli sürür. Data analitikası müxtəlif sahələrə tətbiq olunmaqla yanaşı, tətbiq olunduğu sahənin keçmiş pereformasına baxaraq gələcək üçün lazımi nəticələr çıxarmasını təmin edən, lazım olan bacarıq, metodlogiya və texnologiyaların cəmidir (https://lamontblack.com/content/ba/data-analytics-in-economics/). Data analitikasının tətbiqi ilə fundamental əsaslı dəyişikliklərə yol açmaq və bütün bu sadalananları yerinə yetirmək mümkündür. Aydın məsələdir ki, istehsal, ixrac, idxal prosesləri olan yerdə topdan və pərakəndə satış, ticarət və biznes əlaqələri də mövcuddur. Müasir beynəlxalq və ölkəmiqyaslı biznes, ticarət proseslərinin uğurlu olması Data analitiklərin peşəkarlığından və səriştəsindən də asılıdır. Belə ki, optimal həll tələb edən rəqabətli bazarlarda mövqe tuta bilmək, müştərinin ehtiyaclarını daha dəqiq proqnozlaşdırmaq və müəyyənləşdirmək, yeni biznes modellərin və məhsulları inkişaf etdirmək, dataya əsaslanan qərarların vacibliyini ön plana çəkir (https://www.industry-analytics.de/warum-werden-daten-als-das-neue-oel-der-digitalen-wirtschaft- gehandelt). Başqa sözlə, Data analitiklər müxtəlif üsul və sistemlərdən istifadə edərək dataları (məlumatları) götürür, onlar əsasında təhlillər aparır. Səbəb-nəticə əlaqələrini qurmaq üçün məlumat analitikasından istifadə edirlər. Təhilillərə əsaslanan nəticələr əldə etməklə onlara əsaslanan proqnozlar barədə vizual hesabatlar hazırlayır. Məssisə və şirkətlər bu hesabatlar əsasında yekun qərarlar verirlər. Qərar qəbul edənlər hansı hərəkətlərin köməyi ilə məqsədlərə nail olmağın mümkünlüyünü müəyyən edirlər.

Ölkə iqtisadiyyatını inkişaf etdirmək üçün müəssisə və şirkətlər eyni məqsədə xidmət edirlər. Bir tərəfdən ölkə iqtisadiyyatına töhfə vermək, digər tərəfdən ölkəni idrəedənlərin maraqlarına uyğun nəticələr əldə etmək müəssisələrin əsas məqsədlərindən olsa da, müəssisə və şirkəti öz qarşılarına inkişaf etdirmək, dünya və ölkəmiqyaslı bazarlarda tanınmaq, biznes, ticarət əlaqələrini şaxələndirmək, müəssisənin gəlirini artırmaq kimi məqsədlər qoyur. Onlar biznes qərarları qəbul edirlər, ölkə idarəediciləri isə iqtisadi nəticələri yaxşılaşdırmaq üçün siyasət qərarları qəbul edirlər. İxracyönlü sənayedə keyfiyyətli məhsul və dünya bazarında rəqabətqabiliyyətli mövqe tuta bilmək həm sənaye müəssisələri, həm də ölkəni idarəedənlərin son məqsədləridir. Əsas fəaliyyət göstəricilərinin yaxşılaşdırılmasında daha effektiv tədbirlər həyata keçirmək, səmərəli texnologiyalar tətbiq etmək müəssisə və şirkətlərin idarəediciləri qərar versələr də, həyata keçirilən tədbirlərin, tətbiq olunan innovasiyaların səmərəli olub-olmamasını data analitiklər müəyyən edirlər və müəssisə və şirkət rəhbərlərinə bu barədə məlumatlar hazırlayırlar. Data analitik yuxarıda sadalanan prosesləri iş mühitiə tətbiq edir, uğursuzluğun qarşısını ala biləcək təkliflər irəli sürə bilirlər. Təhlil nəticəsində əldə edilən nəticələr rəqəmlər, faktlar, ölçülər və ya verilənlərin vizuallaşdırılması (məsələn, diaqramlar, cədvəllər) şəklində təsvir edilir və sonrakı istifadə üçün təqdim edilir.

Data analitiklər təhlil zamanı, əsasən, 7 mərhələni diqqətdə saxlayırlar. Tipik bir məlumat təhlili prosesi yeddi addımdan ibarətdir: https://academy.technikum-wien.at/ratgeber/dateanalyse-was-ist-das/)

1. Toplama, oxuma: məlumatı düzgün formatda qoyulmalıdır (məsələn, CVS) ki, təhlil olunması mümükün olsun.

2. Araşdırma: məlumatları təmizləmək, araşdırmaq, çatışmayan məlumatları dəyişdirməklə təhlili asanlaşdırmaq zəruridir.

3. Dəyişdirmə: məlumat qeydini layihəyə uyğunlaşdırmalı və onu sonrakı emal üçün istifadə oluna biləcək şəkildə təqdim edilməlidir.

4. Modelləşdirmə: adətən bir neçə modeli müqayisə etmək lazım gəlir. Bunun üçün verilənləri mümkün qədər yaxşı izah edən formul (funksiya) tapılmalıdır.

5. Təsdiq edilmə: seçilmiş modelin yeni məlumatları da izah edə biləcəyini öyrənmək vacibdir.

6. Qiymətləndirmə: məlumatların təhlilinin nəticələrinin uyğun olub olmadığını müəyyənləşdirimək lazımdır.

7. Xülasə: istifadə oluna bilmək və təkrar olunma üçün metod və nəticələr ümumiləşdirilməlidir (https://academy.technikum-wien.at/ratgeber/datenanalyse-was-ist-das/).

Məlumatlar təhlil olunarkən keçmiş, indi və ya gələcəyə münasibətdə əhəmiyyətli tendensiyaları və nümunələri müəyyən edilir. Ən asandan ən çətinə doğru sıralanır və əsasən 4 üsuldan istifadə edilir:

Təsviri analitikada əvvəlki məlumatlara diqqət yönəlir. Məsələn, son bir ayda məhsuldarlığın vəziyyəti, satış və ya anbara qayıdan məhsulun miqdarı barədə məlumat verir. Dəqiq nəticə əldə etmək üçün təsviri analitika adətən digər analitik metodlarla birləşdirilirş

*Diaqnostik analitika*, əsasən, müəyyən bir prosesin başvermə səbəbini öyrənir. Bu zamanı nümunələri müəyyən etmək, əlaqələri aşkar etmək, səbəbləri və qarşılıqlı əlaqələri müəyyən etmək üçün tarixi və digər məlumatları müqayisə edir. Bu üsul müəssisə və şirkətlərə mövcud problemlərin səbəblərini aşkarlamağa, daha sonra onların həll edə bilmək üçün müəyyən qərarlar verilməsinə imkan verir.

*Proqnozlaşdırma analitikası* artıq həyata keçirilmiş təsviri və ya diaqnostik təhlillərin nəticələrə əsaslanmaqla gələcəyə nəzər salmağa, nələrin baş verə biləcəyini proqnozlaşdırmağa, təxminlər etməyə kömək edir. Gələcək tendensiyaları proqnozlaşdırmaq üçün müxtəlif və mürəkkəb alqoritmlərdən, müasir texnologiyalardan istifadə edilir.

*Perspektivli analitika (Prescriptive Analytics)* təcrübəli və ya göstərişli məlumatların təhlilidir. Çox mürəkkəb və vaxt aparan analiz üsulu olsa da, həm də əhəmiyyətli qərarların verilməsi, gələcək problemin qarşısının alması və ya aradan qaldırması baxımından faydalıdır. Prescriptive analitika həm əvvəlki məlumatları, həm də proqnozları daim yeniləmək üçün daxili və xarici mənbələrdən cari məlumatları tələb edir (https://academy.techniku-mwien.at/ratgeber/datenanalyse-was-ist-das/).

*Data analitika alətləri.* Data analitikası ən böyük məlumat manipulyasiyası üçün elektron cədvəllər, məlumatların vizuallaşdırılması, hesabat alətləri, məlumatların çıxarılması proqramları və açıq mənbə dilləri daxil olmaqla müxtəlif proqram alətlərinə

əsaslanır. Data analitikası, rəqəmlərin kəsilməsinə geniş spektrli riyazi və statistik yanaşmalara əlavə olaraq texnoloji imkanlara malikdir. Məlumatların əldə edilməsi, saxlanması, işlənməsi və tapıntıların hesabatının hazırlaması üçün geniş proqram alətləri mövcuddur. Data analitikası geniş texnoloji imkanlara malikdirlər. Data analitikasının elektron cədvəllər və Microsoft Excel proqramı ilə sıx əlaqəsi var. Verilənlər bazalarını çevirmək və manipulyasiya etmək üçün tez-tez xam proqramlaşdırma dilləri kimi proseslərlə yanaşı, tablolar və hesabatlar vasitəsilə nəticələri yaymaq üçün istifadə edilən məlumatların vizuallaşdırılması və təhlili alətlərə malikdir. Verilənləri analiz etmək üçün bir çox alətlər vardır. Bunlardan ən çox istifadə edilənləri aşağıdakılardır:

- R;
- Python;
- Microsoft Excel;
- Tableau;
- Power BI;
- Google Data Studio;
- SAS Business Intelligence (https://tr.linkedin.com/pulse/data-analiz-ari-idrak-asadbayli).

Müşahidələr göstərir ki, müəssisə və şirkətlərin inkişafı onun müasir texnoloji innovasiyaların tətbiq olunmasından asılı olmaqla yanaşı, müasir avadanlıqlar və proqramlarla işləyə bilən kadrların olması da həlledici əhəmiyyətə malikdir. Müasir dövr ixtisas sahələrindən biri data analitikası məhz müasir struktura malik müəssisə və təşkilatların idarə olunmasında əhəmiyyətli təsirə malikdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları. 24 iyun 1997-ci il tarixində təsdiq edilmişdir / (Elektron resurs). https://eqanun.az/ framework/12499
2. Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası 22 iyun 2022-ci ildə təsdiq edilmişdir. (Elektron resurs). https://e-qanun.az/framework /50013
3. İxrac nəzarəti haqqında Azərbaycan Respublikasının Qanunu. 26 oktyabr 2004-cü il tarixində təsdiq edilmişdir. (Elektron resurs) / https://e-qanun.az/framework/5519
4. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı 5 iyun 2023-cü il tarixində təsdiq edilmişdir. (Elektron resurs) https://e-qanun.az/framework/54322
5. Datenanalyse:Was Ist Das? https://academy.techniku-mwien.at/ratgeber/dateanalyse - was-ist-das?
6. https://tr.linkedin.com/pulse/data-analiz-ari-idrak-asadbayli
7. https://lamontblack.com/content/ba/data-analytics-in-economics
8. https://www.investopedia.com/terms/d/data-analytics.asp.
9. https://academy.techniku-mwien.at/ratgeber/datenanalyse-was-ist-das/
10. https://www.industry-analytics.de/warum-werden-daten-als-das-neue-oel-der-digitalen-wirtschaft-gehandelt/

## SUMMARY

**Nasimi Asadzade**

## ROLE OF DATA ANALYTICS IN EXPORT ORIENTED INDUSTRY

One of the development areas of the country is the creation of export-oriented industrial enterprises in different areas. The article discusses the role of data analytics in the export-oriented industry. The essence of data analytics, a new field of specialization, is clear, and other uses are highlighted. It is one of the measures taken to achieve the "State Program for the socio-economic development of the Nakhchivan Autonomous Republic for 2023-2027" dated June 5, 2023. Ensuring the continuous economic growth of the State Program and improving the living standards of citizens, strengthening the socio-economic development of the Nakhchivan Autonomous Republic and fully restoring the country's economy. One of the ways to achieve this goal is the application of Data analytics, which plays an important role in the modern economy, to the export-oriented industry and business. It is clear that if there is an export-oriented industry, there is sales. The use of data analytics makes it easier to improve the understanding of sales management segments and behaviors, sales optimization, and sales forecasting. In the process of MP services, with the help of useful energy, data analytics is used, with the help of reducing some separation and combining the obvious loyalty. Data can be considered a new raw material for enterprises and companies. Such broad uses of Data Analytics make it valuable in every aspect of energy and new business models.

Part of the reason data analytics is gaining so much growth is because many industries are moving to 4.0 minutes. The full development and development of information technologies in the fields of production, the availability of artificial intelligence, the robotic improvement of automation, the transition to digital technology lead to fundamental fundamental changes in all areas of the economy, which have new economic effects. Maybe the specialists of the world's leading companies call Data analytics "the oil of the XXI century". Data analysts, a new specialty today, are essential personnel for export-oriented industries. The growth and development of enterprises and companies is increasing the demand and development of data analysts.

***Key words:*** *data analytics, export-oriented industries, trade, analytical tools, database*

# İXRACIN İQTİSADİ ARTIMA TƏSİRİNİN TƏHLİLİ

**Nərmin MİRZƏZADƏ**
*narminmirzazada@gmail.com*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

***Xülasə***

*Tədqiqatda ixrac və onun iqtisadi artıma təsiri göstərilmişdir. İxracın inkişafının məqsədəuyğunluğunun əsaslandırılması, ixrac potensialının qiymətləndirilməsi və istehsalın ixracyönümlü inkişaf perspektivlərinə dair tövsiyələrin hazırlanması qeyd olunmuşdur. İxracın artırılması əmək məhsuldarlığının artmasına, məhsulun keyfiyyətinin beynəlxalq standartlara çatdırılmasına, kapitalın artım tempinin sürətləndirilməsinə, innovasiya proseslərinin intensivləşdirilməsinə və əmək haqqının artmasına kömək edir. Həmçinin məqalədə iqtisadçıların ixracın mahiyyətinə və onun iqtisadi artıma təsirinə olan fikirləri əks olunmuşdur. İxracın iqtisadi artıma təsirinin qiymətləndirilməsi üçün yanaşmalar və onların həyata keçirilməsində yaranan problemlərin aradan qaldırılması yolları göstərilmişdir. Müəyyən edilmiş yanaşmalar ixracın müşahidə olunan müsbətliyi əsasında bölüşdürülüb: o tamamilə müsbət təsir; üçüncü amillərin köməyi ilə müsbət; sıfır bir və ya mənfi. Təsir mexanizmləri, o cümlədən ixracın mikrofaktorları, eləcə də müsbət effekt əldə etmək və ya onun çatışmazlığını əsaslandırmaq üçün zəruri olan əlavə amillər müəyyən edilmişdir. Təhlilin nəticələri göstərdi ki, nəzərdən keçirilən yanaşmaların hər biri iqtisadi artım amili kimi makroiqtisadi şəraitin, eyni zamanda ixracın bu və ya digər xüsusiyyətlərini nəzərə alır. Gələcəkdə müəyyən edilmiş bütün yanaşmalar nəzərə alınmaqla ixracın təsiri eyni vaxtda qiymətləndirilə bilər. İxracın təşviqi strukturları tərəfindən ixrac strategiyalarının hazırlanması və ixracın inkişafının təsirinin qiymətləndirilməsi zamanı istifadə edilə bilər. Müasir iqtisadi və sosial şəraitdə ixrac məhsullarının illik artımına nail olmaq üçün milli prioritetlər vacib rol oynayır. Dünya bazarının qloballaşması Azərbaycanın məhsulların ixracında rolunu və əhəmiyyətini artırmağa kömək etmişdir. Bu isə, məhsulların ixrac fəaliyyətinin inkişaf perspektivlərinin elmi əsaslandırılmasını, resursların prioritet istiqamətlərdə cəmləşdirilməsini zəruri edir. Qeyd olunanların vacibliyi nəzərə alınaraq, son illərdə Azərbaycanda ixracın həcmi və ixracın əmtəə strukturu təhlil edilmişdir. İxracın strukturunun dəyişdirilməsi yollarının araşdırılması vacibliyi qeyd olunmuşdur. Bunun zaman dövlət proqramlarının və tədbirlərinin mühüm rol oynadığı göstərilmişdir.*

***Açar sözlər:*** *ixrac, istehlak, metod, investisiya*

İxracın ölkənin iqtisadi artımına və inkişafına təsirini qiymətləndirən kifayət qədər həm nəzəri, həm də empirik tədqiqatlar mövcuddur. Beynəlxalq ticarətin klassik nəzəriyyələrinin inkişafında neoklassik nəzəriyyələr [Kruqman, 2006, s.470] istehsal amillərinin eyni ehtiyatları ilə ölkələrin ticarətdən fayda əldə etdiyini qeyd edirlər. M.Melitz vurğulayır ki, ixrac resursların daha məhsuldar firmalara yenidən bölüşdürülməsini stimullaşdırır [Melitz, 2003, s.1696]. Qrossmanın [Qrossman, Helpman, 1993, s.300] qeyd etdiyi kimi, ixracın stimullaşdırılması qlobal texnologiya bazarına çıxış yolu ilə iqtisadi artımı təşviq edir. İxracın iqtisadi artıma təsirinin şərhi məsələsinə nəzəri baxışlarla yanaşı,

son onilliklərdə bir sıra empirik tədqiqatlar aparılmışdır. Beləliklə, D.Rodrikə görə, ixrac yeni texnologiyalara intensiv sərmayə qoymağa kömək edir. İxracın iqtisadi artıma təsiri riyazi metodlardan istifadə edilməklə öyrənilir, bunun üçün onlarla ölkə nəzərdən keçirilir. İxrac effekti beynəlxalq istehlak modellərinin təsiri [Krueger, 1978, s.300], “ixrac vasitəsilə öyrənmə” [Benkovskis, Masso., Tkacevs, 2020, s.572] və digər amillər vasitəsilə müşahidə olunur. Müasir tədqiqatlar vurğulayır ki, ixrac bir ölkənin istehsal qabiliyyətini [Subramaniam, 2019, s.183] və iqtisadi artımı əhəmiyyətli dərəcədə artırır, lakin aşağıdakılar vacibdir: davamlı yüksək ixrac artımı; hansı növ məhsullar ixrac olunur; ixrac yönümlü investisiyaların axını nədir və s. Bununla yanaşı, bir sıra səbəblərə görə ixracın müsbət təsirini tapmayan araşdırmalar da təqdim olunur [Abosedra, Tang. 2019, s. 840). Beləliklə, ixracın iqtisadi artıma təsiri ilə bağlı çoxlu sayda mülahizələr toplanmışdır. Bu, iqtisadi nəzəriyyənin bu bölməsində elmi qeyri-müəyyənliyə səbəb olur. İxracın inkişafından təsir növlərinin sistemləşdirilməsi probleminə kompleks yanaşma yoxdur.

Ən sadə formada bu qeyri-müəyyənliyi ziddiyyət şəklində formalaşdırmaq olar: ixrac ölkənin milli istehsalının bir hissəsi olmaqla, onun ÜDM-nin tərkib hissəsidir [Mirzəzadə, 2024, s.83], eyni zamanda ixrac müəyyən şəkildə ölkə istehsalına istiqamət verir və modullaşdırır ki, bu da gələcəkdə milli istehsalın ümumi həcminə həm artan, həm də azaldıcı təsir göstərə bilər.

İxracın ölkənin iqtisadi artımına təsirinin bu ziddiyyətlə əlaqəsi baxımından qiymətləndirilməsi üçün mövcud yanaşmaları tənqidi təhlil edək və sistemləşdirək. Mövcud yanaşmalar bir-birini istisna etmir, onların hər biri milli iqtisadiyyatın dinamikasında amil kimi makroiqtisadi kontekstin amilini, ixracın bu və ya digər xüsusiyyətini nəzərə alır. Bu məqsədə çatmaq üçün aşağıdakı problemləri həll etmək lazımdır:

- ixracın ölkənin iqtisadi artımına təsirini qiymətləndirmək üçün mövcud yanaşmaları müəyyən etmək;
- onları müqayisə etməyə və uyğunlaşdırmağa imkan verəcək meyarlar üzrə sistemləşdirmək;
- müəyyən edilmiş yanaşmaları təhlil etmək və onların əlaqəsi haqqında nəticə çıxarmaq.

Tədqiqatın metodologiyası aşağıdakıları nəzərdə tutur:

• həm ixracın milli iqtisadiyyata təsirini tədqiq edən klassik nəzəriyyələrin [Smit, A. və Rikardo, D. həm də yenilərin, o cümlədən 1950-1990-cı illərin təhlili; 21-ci əsrin əvvəlləri; müasir əsərlər];

• ixracın iqtisadi artıma təsirinin qiymətləndirilməsinə həm nəzəri yanaşmaların, həm də empirik tədqiqatların nəticələrinin təhlili;

• inkişaf səviyyəsinə və miqyasına görə müxtəlif ölkələrin təcrübəsini öyrənən tədqiqatların seçilməsi və təhlili;

• təhlil zamanı ixracın ölkənin iqtisadi artımına təsirinin qiymətləndirilməsi yanaşmalarının sistemləşdirilməsi və təhlili yuxarıda qeyd olunan ziddiyyət əsasında həyata keçirilir: ixracın ölkənin ÜDM-nin bir hissəsini təşkil etməsinə baxmayaraq, azalmasına da səbəb olur [Szczepaniak, 2019, s.94]. Beləliklə, ixrac bir ölkənin istehsalını digər milli iqtisadiyyatların ehtiyaclarına (tələblərinə) yönəldə bilər ki, bu da onun

məhsullarını daxili tələbatı ödəyə bilmir. Beləliklə, sübut edən yanaşmaları müəyyən etmək təklif olunur;

- ixracın iqtisadi artıma qeyd-şərtsiz müsbət təsiri;
- üçüncü amillərin köməyi ilə müsbət təsir;
- müsbət və ya mənfi təsirin olmaması;
- mövcud yanaşmaları təhlil edərkən ixracın iqtisadi artıma təsir mexanizmlərinin müəyyən edilməsi, o cümlədən tədqiqatçıların fikrincə təsirin hansı səviyyədə baş verdiyini müəyyən etmək; dövlətin ixracı inkişaf etdirmək istəyi məhsulların istehsalında və təşviqində müəssisələrə dəstəyi stimullaşdıra bilər;
- ixracın iqtisadi artıma sıfır (və ya mənfi) təsirinin əsaslandırılmasının müəyyən edilməsi;
- bütün müəyyən edilmiş yanaşmaların təhlili və üç qrupa bölünməsi.

İxracın genişləndirilməsi nəticəsində iqtisadi artıma müsbət təsir göstərən ilk təsir, resursların yenidən bölüşdürülməsinin təsiridir - nəzərə alsaq ki, istehsal sektorunda sabit miqyaslı qənaətlər nəzərdə tutulur. Beynəlxalq ticarətin klassik nəzəriyyələri istehsal amillərinin homogenliyi və unikallığı faktını nəzərdə tutur ki, bu da hər iki qarşı tərəfin fayda əldə etməsini müəyyən edir. Neoklassik nəzəriyyələrdə ixracın və beynəlxalq ticarətin iqtisadi artıma təsiri haqqında bir qədər fərqli nəticələr çıxarmağa imkan verir. P.Kruqmanın fikrincə, bu onunla bağlıdır ki, yeni nəzəriyyədə ölkələr arasında ticarət eyni istehsal amilləri, texnologiya və üstünlük ehtiyatlarına malik olsa belə, onlara fayda gətirir. Avtarkiyadan azad ticarətə keçid zamanı ənənəvi modellərdə olduğu kimi məhsulun ixtisaslaşması baş verir, daha geniş bazarda isə qiymətlərin azalması və mövcud mal çeşidinin artması müşahidə olunur. Bunun nəticəsində, eləcə də miqyas iqtisadiyyatının artması ilə vahid xərclərin azalması, təmin edilən səmərəliliyin artması milli iqtisadiyyatın rifahını yüksəldəcəkdir.

Effektin növbəti növü sənaye daxilində resursların daha az məhsuldar firmalardan yenidən bölüşdürülməsi hesabına milli iqtisadiyyatın səmərəliliyinin artmasıdır: heterojen firmaların beynəlxalq ticarətində olduğu kimi. Beləliklə, M.Melitz göstərir ki, yalnız ən məhsuldar firmalar ixrac edir. Bu cür yenidən bölüşdürmə, eləcə də ən məhsuldar müəssisələrin satışlarının artması nəticəsində iqtisadiyyatda ümumi məhsuldarlıq yüksəlir - miqyas iqtisadiyyatı hesabına və artan transsərhəd texnoloji xarici təsirlərin genişlənməsi hesabına. tədqiqat fəaliyyətinin məhsuldarlığı. Beləliklə, bütün yanaşmalar bir-birini tamamlayır. Fərq iqtisadi artımın aparıcı qüvvəsi kimi ixracın yerli istehsalın inkişafına təsirinin müxtəlif mexanizmlərini, o cümlədən həm sənaye səviyyəsində, həm də ayrı-ayrı müəssisələr səviyyəsində mexanizmlər daxil olmaqla əks olunur.

İxrac ölkə müəssisələrini məhsuldarlığı artırmağa və milli iqtisadiyyatın rifahını yüksəltməyə sövq edir; Beynəlxalq istehlak standartları ixrac olunan məhsulların keyfiyyətinin və texnoloji səviyyəsinin artırılmasını tələb edir. İxrac yeni texnologiyalara sərmayəni stimullaşdırır, hətta məhdudlaşdırılanda belə, iqtisadiyyatda müsbət texnoloji iz qoyur. İxracatçılar beynəlxalq istehlakçı və məhsuldar mühitdə ən son yeniliklərə necə əməl etməyi öyrənməyə məcbur olurlar.

İxrac onun təşviqi üçün xidmət sahələrinin yaradılması kimi komponentlərə də təsir edir, yəni ixrac iqtisadi fəaliyyət üçün konsaltinq, təşkilati və maliyyə dəstəyinin inkişafı ilə müşayiət olunur. Ölkənin ixracyönümlü istehsalın miqyasının daha da artması məhsul

vahidinin xərclərini azaldır. Qeyd etmək lazımdır ki, bir fenomen olaraq XX əsrdə ixrac XXI əsrdən bir qədər fərqli idi: ölkələr arasında ticarət tərəfdaşlıqları daha sabit idi, beynəlxalq arenada daha az ixracatçı ölkələr var idi və dünyada ixrac həcmləri daha az idi.

Yuxarıda qeyd olunanları nəzərə alaraq son beş ildə Azərbaycanda ixracın həcminə və strukturuna nəzər salaq.

| **İllər** | **İdxal** | **İxrac** |
|---|---|---|
| 2019 | 13,667.5 | 19,635.2 |
| 2020 | 10,732.0 | 13,732.6 |
| 2021 | 11,703.2 | 22,208.0 |
| 2022 | 14,539.8 | 38,146.7 |
| 2023 | 17,285.3 | 33,898.6 |

**Cədvəl 1.** *İxracın həcmi, milyon ABŞ dolları*

**Mənbə:** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatları (https://www.stat.gov.az/source/trade/)*

2020-ci ildə 2019-cu illə müqayisədə ixracın həcmi 69.9% azalmışdır. Bunun əsas səbəbi kimi dünyada və Azərbaycanda Koronavirus (Covid-19) infeksiyasının olmasını, onun iqtisadiyyatın demək olar ki, hər bir sahəsinə mənfi təsirini göstərmək olar. 2021 və 2022-ci illərdə əvvəlki illərlə müqayisədə müvafiq olaraq 61.7% və 71.8% ixracın həcmi artmışdır. 2023-cü ildə isə 2022-ci ilə nəzərən ixracın həcmində yenidən 11.1% azalma baş vermişdir. Bunun əsas səbəbi kimi həmin ildə ölkə ticarətində idxalın artmasını göstərmək olar.




**Qrafik 1.** *İxracın əmtəə strukturu, min ABŞ dollar (https://www.stat.gov.az/source/trade/)*

Qrafikdən göründüyü kimi ixracın strukturunda mineral məhsullar 92% olmaqla əsas üstünlük təşkil edir. 2% bitki mənşəli məhsullar təşkil edir. Digər 6%-in tərkibinə isə toxuculuq materialları və məmulatları, müxtəlif sənaye malları, incəsənət əsərləri, hazır ərzaq məhsulları, qeyri-üzvi kimya sənayesi məhsulları və s. daxildir.

İxracın təşviqi üçün ən effektiv vasitələrin müəyyən edilməsi və öyrənilməsi praktiki maraq doğurur. İxracın strukturunun dəyişdirilməsi yollarının araşdırılması son dərəcə vacibdir.

Aydındır ki, bunun üçün təkcə ixrac siyasəti tədbirləri kifayət deyil, eyni zamanda dövlət proqramları və tədbirləri də mühüm rol oynayır. İqtisadiyyatda hər bir halda istehsalın və ixracın inkişafının spesifik xüsusiyyətləri vardır. İxracın iqtisadi artıma təsiri spesifik (müsbət və ya mənfi) olacaqdır ki, bu da ixracın bu və ya digər xüsusiyyətlərinə, məsələn, ixrac həcminin ölçüsünə və ya onun diversifikasiya dərəcəsinə, iqtisadiyyatın mövcudluğu və ya olmaması ilə bağlıdır.

## ƏDƏBİYYAT

1. Mirzəzadə, N. (2024). Aqrar sahə məhsullarının ixrac potensialının artırılması perspektivləri. Peşə təhsili və insan kapitalı jurnalı. Cild 7, №2, s.79-85
2. Abosedra, S., Tang, C.F. (2019). Are exports a reliable source of economic growth in MENA countries? New evidence from the Granger causality method // Empirical Economics. Vol. 56, №3, p.831-841
3. Benkovskis, K., Masso, J., Tkacevs, O. (2020). Exports and Productivity in Global Value Chains: Comparative Evidence from Latvia and Estonia // World Economic Review. Vol. 156, №3, p.557-577
4. Grossman, G.M., Helpman, E. (1991). Innovation and growth in the global economy. MIT Press, Cambridge, MA, pp.359
5. Krueger, A.O. Foreign trade regimes and economic development: Liberalization attempts and consequences. w Cambridge, UK: 1978, National Bureau of Economic Research, 305 p.
6. Krugman, P.R. (1979). Increasing returns, monopolistic competition and international trade. Volume 9, Issue 4, p.469-479
7. Melitz, M.J. (2003). The impact of trade on intra-industry reallocations and aggregate industrial productivity // Econometrica. Vol. 71, №6, p.1695-1725
8. Subramaniam, V. (2019). Export oriented manufacturing: A possible engine of economic growth and workforce generation for sri lanka // Manufacturing and jobs in South Asia. South Asian economic and political studies. Chaturvedi, S., Saha, S. (Eds.). Singapore: Springer, 239 p.
9. Szczepaniak, M. (2019). Factors of economic growth in Ireland // Economic miracles in European economies. In M. Osinska (ed.). Cham: Springer, p.79-97
10. https://www.stat.gov.az/source/trade/

## SUMMARY

**Narmin Mirzazade**

**ANALYSIS OF THE EFFECT OF EXPORT ON ECONOMIC GROWTH**

Export and its impact on economic growth are shown in the study. Justification of the expediency of export development, assessment of export potential and preparation of recommendations on export-oriented development prospects of production were mentioned. Increasing exports helps increase labor productivity, bring product quality to international standards, accelerate capital growth, intensify innovation processes, and increase wages. The article also reflects the views of economists on the essence of export and

its impact on economic growth. Approaches for assessing the impact of exports on economic growth and ways to overcome problems arising in their implementation are shown. The established approaches are divided based on the observed positivity of exports: o completely positive effect; positive with the help of third factors; zero one or negative. Mechanisms of influence, including microfactors of export, as well as additional factors necessary to obtain a positive effect or to justify its lack, have been identified. The results of the analysis showed that each of the considered approaches takes into account one or another feature of macroeconomic conditions, as well as export, as a factor of economic growth. In the future, the impact of exports can be assessed simultaneously, taking into account all the identified approaches. It can be used by export promotion structures in developing export strategies and assessing the impact of export development. National priorities play an important role in achieving annual growth of export products in modern economic and social conditions. Globalization of the world market has helped to increase the role and importance of Azerbaijan in the export of products. This makes it necessary to scientifically substantiate the prospects of the development of the export activity of products, and to concentrate resources in priority directions. Taking into account the importance of the mentioned, the volume of exports in Azerbaijan and the commodity structure of exports were analyzed in recent years. The importance of researching ways to change the structure of exports was noted. It has been shown that state programs and measures play an important role in this.

***Key words:*** *export, consumption, method, investment*

## РЕЗЮМЕ

**Нармин Мирзазаде**

## АНАЛИЗ ВЛИЯНИЯ ЭКСПОРТА НА ЭКОНОМИЧЕСКИЙ РОСТ

В исследовании показаны экспорт и его влияние на экономический рост. Были отмечены обоснование целесообразности развития экспорта, оценка экспортного потенциала и подготовка рекомендаций по перспективам развития экспортоориентированного производства. Увеличение экспорта способствует повышению производительности труда, доведению качества продукции до международных стандартов, ускорению роста капитала, интенсификации инновационных процессов, повышению заработной платы. В статье также отражены взгляды экономистов на сущность экспорта и его влияние на экономический рост. Показаны подходы к оценке влияния экспорта на экономический рост и пути преодоления проблем, возникающих при его реализации. Устоявшиеся подходы подразделяются исходя из наблюдаемой положительности экспорта: о полностью положительный эффект; позитивный с помощью третьих факторов; ноль один или отрицательный. Выявлены механизмы влияния, в том числе микрофакторы экспорта, а также дополнительные факторы, необходимые для получения положительного эффекта или оправдания его отсутствия. Результаты анализа показали, что каждый из рассмотренных подходов учитывает ту или иную особенность макроэкономических условий, а также экспорта как фактора экономического роста. В дальнейшем влияние экспорта можно будет оценивать одновременно с учетом всех

выявленных подходов. Он может использоваться структурами по продвижению экспорта при разработке экспортных стратегий и оценке воздействия развития экспорта. Национальные приоритеты играют важную роль в достижении ежегодного роста экспорта продукции в современных экономических и социальных условиях. Глобализация мирового рынка способствовала повышению роли и значения Азербайджана в экспорте продукции. Это вызывает необходимость научного обоснования перспектив развития экспортной деятельности продукции, концентрации ресурсов на приоритетных направлениях. Учитывая важность вышеизложенного, за последние годы был проанализирован объем экспорта в Азербайджане и товарная структура экспорта. Отмечена важность исследования путей изменения структуры экспорта. Показано, что важную роль в этом играют государственные программы и меры.

***Ключевые слова:*** *экспорт, потребление, метод, инвестиции*

# THE ORETICAL JUSTIFICATIONS FOR THE INDUSTRIALIZATION POLICY IN THE NATIONAL ECONOMY OF AZERBAIJAN

**Arzu SAFARLI**
*Azerbaijan Technical University*
*arzu.safarli@aztu.edu.az*

***Summary***

*This article explores the theoretical justifications for the industrialization policy in the national economy of Azerbaijan. Drawing on key economic theories such as the Lewis Dual Sector Model, Big Push Theory, and Import Substitution Industrialization (ISI), the study highlights the potential benefits of industrialization, including economic diversification, increased productivity, and sustainable growth. The Lewis Dual Sector Model suggests that shifting labor from low-productivity agricultural sectors to higher-productivity industrial sectors can drive economic development. The Big Push Theory emphasizes the need for coordinated investments in various industries to overcome market failures and stimulate economic takeoff. ISI focuses on reducing dependency on imported goods by developing domestic industries, which can be particularly relevant for Azerbaijan. Given Azerbaijan's heavy reliance on oil and gas exports, industrialization is proposed as a strategic approach to reduce economic volatility and promote long-term stability. The country's economic dependence on natural resources makes it vulnerable to fluctuations in global commodity prices. By diversifying its economy through industrialization, Azerbaijan can mitigate these risks and create a more resilient economic structure. This strategy also has the potential to generate employment opportunities, enhance skills, and improve overall productivity in the economy. The article discusses the role of the Azerbaijani government in facilitating this process through policy measures, infrastructure development, and support for key industries. Government initiatives such as tax incentives, subsidies, and investments in infrastructure are crucial for creating a conducive environment for industrial growth. The findings suggest that a well-implemented industrialization policy could significantly enhance Azerbaijan's economic resilience and foster a more balanced and diversified economic structure. Such a transformation would not only stabilize the economy but also pave the way for sustainable and inclusive growth in the future.*

***Key words:*** *industrialization policy, economic diversification, structural transformation, macroeconomic development*

## Introduction

The industrialization policy is a cornerstone of economic development, especially for developing economies aiming to diversify their economic base. For Azerbaijan, a country endowed with abundant oil and natural gas resources, industrialization presents an opportunity to reduce dependency on these natural resources and promote sustainable economic growth. This article delves into the theoretical foundations of industrialization policies and evaluates their relevance and implementation in the context of Azerbaijan's national economy. Industrialization policies are crucial for achieving structural transformation, which involves transitioning an economy's focus from primary production,

such as agriculture and raw materials extraction, to more advanced sectors like manufacturing and services. This shift is essential for increasing economic complexity and resilience. Theoretical frameworks, including the Lewis Dual Sector Model and the Big Push Theory, offer valuable insights into the mechanics and benefits of industrialization.

The Lewis Dual Sector Model, developed by economist W. Arthur Lewis, posits that developing economies typically have a surplus labor force in traditional agricultural sectors. By shifting this labor to the industrial sector, where productivity is higher, an economy can experience significant growth. For Azerbaijan, this model underscores the importance of developing manufacturing and service industries to absorb labor from traditional sectors, thus enhancing productivity and income levels.

The Big Push Theory, articulated by Paul Rosenstein-Rodan, emphasizes the need for large-scale investment across various sectors to overcome economic stagnation and achieve a growth takeoff. According to this theory, a coordinated effort to invest in multiple industries can create positive externalities and complementarities, stimulating overall economic growth. In the Azerbaijani context, this theory supports the argument for substantial public and private investment in infrastructure, technology, and human capital to catalyze industrialization.

This article aims to provide a comprehensive theoretical justification for industrialization policy in Azerbaijan. It examines how these theories can be applied to the country's unique economic landscape, characterized by its dependence on the oil and gas sector, and the challenges and opportunities this presents. The potential impacts of industrialization on the Azerbaijani economy are manifold, including economic diversification, higher employment rates, and increased productivity.

By implementing strategic industrial policies, Azerbaijan can mitigate the risks associated with reliance on volatile oil and gas markets. Furthermore, developing a more diversified economic base will create new job opportunities, promote sustainable growth, and enhance the country's resilience to external economic shocks. The analysis presented in this article underscores the critical role of industrialization in fostering long-term economic stability and prosperity for Azerbaijan.

**The oretical framework:**

**1. Lewis dual sector model**

The Lewis Dual Sector Model posits that economic development involves a structural shift from a traditional agricultural sector to a modern industrial sector [Lewis, 1954, p.139-191]. In Azerbaijan, the traditional sector is predominantly characterized by agriculture and oil extraction, sectors that are often associated with lower productivity and limited economic growth potential. Agriculture, while crucial for food security and rural employment, generally yields lower economic returns compared to industrial activities. Similarly, oil extraction, although lucrative, exposes the economy to volatility due to fluctuating global oil prices. In contrast, the industrial sector, which includes manufacturing and services, offers higher productivity and opportunities for economic expansion. The Lewis Dual Sector Model emphasizes that economic development is driven by reallocating labor from these low-productivity traditional sectors to more productive industrial activities. For Azerbaijan, this means shifting resources and labor from agriculture and oil

extraction to manufacturing, technology, and service industries. This transition can spur economic growth by increasing overall productivity, diversifying the economy, and reducing vulnerability to external shocks.

This shift is particularly critical for Azerbaijan as it seeks to mitigate its reliance on the volatile oil market. By developing a robust industrial sector, Azerbaijan can create a more stable economic foundation, foster innovation, and enhance value-added production. Furthermore, industrialization can contribute to sustainable development by generating new job opportunities, improving living standards, and promoting balanced regional growth.

**2. Big push theory**

The Big Push Theory, articulated by Paul Rosenstein-Rodan in 1943, highlights the need for substantial, coordinated investments across multiple industries to overcome market failures and initiate economic takeoff (Rosenstein-Rodan, 1943, p.202-211). This theory is especially pertinent to Azerbaijan, where significant initial investments in infrastructure and industrial sectors can serve as a catalyst for broader economic development.

In Azerbaijan's context, a "big push" involves substantial government-led investments to build critical infrastructure such as transportation, energy, and communication networks as well as to support the growth of key industrial sectors. These investments can stimulate private sector participation and attract further investments, creating a virtuous cycle of economic growth.

The government's role is pivotal in this process. By providing the necessary infrastructure, implementing supportive policies, and offering incentives for private sector involvement, the government can create an environment conducive to industrialization and economic expansion. Effective policy support can mitigate risks, facilitate investment, and ensure that the benefits of industrial growth are widely distributed, promoting sustainable economic development.

Thus, applying the Big Push Theory in Azerbaijan could significantly enhance the country's economic trajectory, driving transformation and long-term prosperity through coordinated, strategic investments.

**3. Import Substitution Industrialization (ISI)**

Import Substitution Industrialization (ISI) is a strategy that focuses on reducing dependency on imported goods by developing domestic industries [Prebisch, 1950, p.1-22]. For Azerbaijan, implementing ISI offers a strategic approach to diversifying its economy. ISI focuses on developing local industries to produce goods that are currently imported, thereby reducing reliance on external sources. By fostering the growth of domestic manufacturing and production, Azerbaijan can build a more robust industrial base and create a range of job opportunities across various sectors.

This strategy has several advantages. First, it can stimulate the development of new industries and technological advancements within the country, enhancing overall industrial capacity. Second, by producing goods domestically, Azerbaijan can reduce its trade deficits and strengthen its economic self-sufficiency. This shift can lead to increased value-added

production and improved competitiveness in both domestic and international markets. Moreover, reducing dependence on imported goods can mitigate the impact of external economic shocks, such as fluctuations in global commodity prices or supply chain disruptions. By focusing on local production, Azerbaijan can achieve greater economic stability and resilience, making it less vulnerable to global economic uncertainties. Overall, ISI can be a pivotal strategy in transforming Azerbaijan's economy, promoting sustainable growth, and enhancing national economic security.

**Application to Azerbaijan's economy**

*Economic diversification***.** Azerbaijan's economy has long been reliant on oil and gas exports, which has rendered it highly vulnerable to fluctuations in global oil prices. This dependency on a single sector exposes the country to significant economic volatility, as changes in oil prices can directly impact national revenue, employment, and overall economic stability. The inherent risks associated with such a concentrated economic structure highlight the urgent need for diversification.

Industrialization presents a strategic pathway for Azerbaijan to mitigate these risks by broadening its economic base. Developing sectors beyond oil and gas, such as manufacturing, petrochemicals, and renewable energy, can significantly reduce the country's exposure to the unpredictability of global oil markets. Manufacturing can enhance value-added production and stimulate technological advancement, while the petrochemical industry can leverage existing oil resources to produce a range of products with higher economic value.

Furthermore, investing in renewable energy is particularly crucial for long-term sustainability. By developing renewable energy sources such as wind, solar, and hydropower, Azerbaijan can reduce its reliance on fossil fuels, support environmental sustainability, and create new economic opportunities.

Diversification through industrialization not only helps in stabilizing the economy but also fosters a more resilient growth trajectory. A varied economic structure can provide stability against external shocks, generate new sources of income, and improve overall economic resilience. Consequently, embracing industrialization and diversifying the economy will be pivotal for Azerbaijan to achieve sustainable development and reduce its vulnerability to global oil price fluctuations [Aliyev, 2019, p.45-58].

*Employment and productivity.* Industrialization has the potential to bring about substantial improvements in both employment and productivity. As industries expand, they generate job opportunities across various sectors, including manufacturing, services, and technology. This employment growth is not limited to the industrial sector itself but also extends to ancillary industries and services that support industrial activities.

One of the key benefits of industrialization is the creation of diverse job opportunities. For instance, as manufacturing industries develop, they require a range of roles from production line workers to engineers and managers. Similarly, the growth of technology and service industries creates positions in IT, customer support, and technical services. This broadening of job markets helps to reduce unemployment and provides individuals with more career options.

Moreover, industrial activities typically demand a more skilled workforce compared to traditional agricultural or resource extraction roles. As a result, there is often a corresponding increase in wages and working conditions. Higher skill requirements lead to enhanced training and educational opportunities, which in turn can elevate the overall skill level of the workforce. As workers gain specialized skills, they become more valuable and can command higher wages.

These advancements in employment and productivity contribute to improved standards of living. Higher incomes allow individuals and families to access better healthcare, education, and housing. Additionally, increased productivity often leads to economic growth, which can support further investments in social infrastructure and public services. Thus, industrialization not only fosters economic development but also enhances the quality of life for the population [Mustafayev, 2020, p.63-77].

*Government role and policy implications.* The Azerbaijani government plays a pivotal role in advancing industrialization by implementing a range of policy measures designed to stimulate economic growth and development. Key strategies include providing subsidies and tax incentives to attract and support industrial investments. These financial incentives can reduce the initial costs for businesses, making it more attractive for both domestic and foreign investors to establish or expand industrial operations in Azerbaijan.

Infrastructure development is another critical area where government intervention is essential. Robust infrastructure, including transportation networks, energy supply, and communication systems, supports industrial activities by improving logistical efficiency and reducing operational costs. Investments in infrastructure not only enhance the attractiveness of Azerbaijan as an investment destination but also ensure that industries have the necessary resources to operate effectively.

Creating a favorable business environment is fundamental to a successful industrialization strategy. This involves streamlining regulatory processes, reducing bureaucratic hurdles, and fostering a transparent and efficient business climate. A supportive regulatory framework can encourage entrepreneurial activity and facilitate the growth of new industries.

Investing in education and training is equally important. Developing a skilled workforce is crucial for supporting industrial growth and ensuring that industries can operate with high levels of productivity and innovation. Training programs and educational initiatives should align with industry needs, equipping workers with relevant skills and knowledge.

Additionally, ensuring access to finance is vital for industrial development. Financial institutions and policies that provide funding options for startups and expanding businesses can help overcome capital barriers and support industrial expansion.

Overall, these policy measures are essential for driving successful industrialization in Azerbaijan, facilitating economic diversification, and promoting sustainable development [Shiriyev, 2021, p.12-29].**Conclusion**

The theoretical justifications for industrialization in Azerbaijan's national economy underscore the transformative potential of shifting towards a more diverse and robust industrial base. Economic diversification is a primary benefit, as it reduces the country's

heavy reliance on oil and gas, which are susceptible to global market fluctuations. By developing industries such as manufacturing, petrochemicals, and renewable energy, Azerbaijan can mitigate the risks associated with volatile oil prices and enhance economic resilience.

Increased productivity is another crucial advantage. The transition from a primarily resource-based economy to one that includes more manufacturing and industrial activities can lead to significant gains in productivity. This shift often involves the adoption of new technologies and processes, which can improve efficiency and output. Moreover, a diversified industrial sector can stimulate innovation and competitiveness, further boosting productivity and economic growth.

Sustainable growth is a vital goal of industrialization. By developing a broader range of industries, Azerbaijan can achieve a more balanced economic structure, reducing the environmental impact of heavy reliance on oil and gas. The development of renewable energy sources and environmentally friendly technologies can contribute to sustainable economic practices and long-term ecological balance.

To realize these benefits, Azerbaijan must adopt strategic industrial policies and invest in key sectors. This includes providing incentives for private investment, enhancing infrastructure, and supporting education and training programs to develop a skilled workforce. Additionally, government policies should focus on creating a favorable business environment, encouraging research and development, and fostering international trade partnerships.

By taking these steps, Azerbaijan can create new economic opportunities, reduce unemployment, and ensure long-term economic stability. A well-implemented industrialization policy not only diversifies the economy but also positions Azerbaijan as a competitive player in the global market, capable of sustainable and inclusive growth.

## REFERENCES

1. Aliyev, H. (2019). "Economic Diversification in Azerbaijan: Challenges and Opportunities." Journal of Economics and Development Studies, vol.7(3), p.45-58
2. Lewis, W.A. (1954). "Economic Development with Unlimited Supplies of Labour." The Manchester School, vol.22(2), p.139-191
3. Mustafayev, M. (2020). "Employment and Productivity Growth in Azerbaijan: A Sectoral Analysis." Economics and Policy, vol.12(1), p.63-77
4. Prebisch, R. (1950). "The Economic Development of Latin America and its Principal Problems." Economic Bulletin for Latin America, vol.7, p.1-22
5. Rosenstein-Rodan, P.N. (1943). "Problems of Industrialization of Eastern and South-Eastern Europe." Economic Journal, vol.53(210/211), p.202-211
6. Shiriyev, Z. (2021). "Government Policies and the Industrialization of Azerbaijan." Caucasus Economic Review, vol.8(2), p.12-29

# PROSPECTS OF SPECIAL TYPE OF ENTREPRENEURSHIP IN TOURISM SECTOR IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

**Gunel ISAYEVA**
*gunelisayeva@ndu.edu.az*
*Nakhchivan State University*

***Summary***

In the modern world economy, tourism shows itself as a progressive sector due to its importance and socio-economic results. The field of tourism is a priority direction of the prospective market-type economy for countries with social and economic potential. Also, tourism occupies an important place in the economic and cultural relations between the countries of the world. After gaining our independence, especially in recent times, the achievements in the field of tourism development in the country, as well as in the Nakhchivan Autonomous Republic, attract attention from this point of view. The creation of infrastructure that allows the use of existing resources for the development of tourism in the region, the renewal of socio-cultural conditions, road and transport infrastructure, the creation of modern comfortable recreation centers, creates a foundation for the development of tourism as a whole. However, based on the experience in the international tourism market, we can see that special types of entrepreneurs who act as tour operators have a high share of labor in preparing recipes that can arouse the interest of tourists. Taking into account how much the development of tourism in any region depends on tour operators and travel agents, for the development of tourism in the Nakhchivan Autonomous Republic, the "brainstorming" method, which is used to develop new ideas as in other types of business in world practice, as well as observation of the tourism market and the issue of using the personal experience of the tour operator is evident. Another issue is the search and selection of relevant employees according to the content of the tour, the formation of complex services on the basis of basic and additional services, testing of the tour, and implementation of test sales.

***Key words:*** *Nakhchivan Autonomous Republic, tourism, entrepreneurship, tour operator; travel agent*

The main goal for every entrepreneur is to get maximum profit from his business. This axiom is also valid in tourism. In order to expand his activity and maximize his profit, a tourism entrepreneur should know well the specifics of the tourism market, the characteristics of the tourism product offer, the factors that shape the tourism demand, the consumer behavior here, the demands placed on the tourism product, the management of the field, the application of advanced techniques and technology here, along with the general economic laws [Sadikov, 2024]. Although all of these are general conditions for the success of an entrepreneur's activity, they should be clarified in detail as there are specific features in the organization of tourism.

Tour operator and travel agent cooperation is considered profitable for both parties. A wide network of travel agents of any tour operator leads to an increase in the volume of sales of tourism products, access to new markets, reduction of its fixed costs (due to the reduction of personnel, equipment, occupied territory). In turn, travel agents are rewarded with a commercial discount due to the delivery of the tourism product to the final consumer (tourist). This premium is expressed as a percentage (usually 7-12%) of the value of the product sold. This amount is the main source of income for travel agents [Jabbarov, 2015].

From the point of view of the interests of tourists, the importance of these entrepreneurs can be shown firstly as the saving of time and money of travelers. It should be taken into account that most tourists are business people and the value of their leisure time is highly appreciated as well as the value of their working day [Kocherli, 2016].

The economy and social life of the Nakhchivan Autonomous Republic is unique. The Autonomous Republic, located in a geographical area isolated from the main territory of the Republic of Azerbaijan, has actively participated in the large-scale construction process carried out in Azerbaijan despite various difficulties, and has also revealed the need to satisfy local demand by creating appropriate production areas. For this reason, special attention was continuously paid to the socio-economic development of the Autonomous Republic, and a number of State Programs were successively implemented. As an example of this, we can point to the establishment of the public union of entrepreneurs, the Confederation of Entrepreneurs (Employers) of the Autonomous Republic of Nakhchivan, and the establishment of the Entrepreneurship Workers Trade Union Committee in 2005 in order to protect the interests of entrepreneurs and coordinate their activities [Imamverdiyeva, 2015].

The Autonomous Republic of Nakhchivan is a developing multi-sector industrial and agro-industrial republic. In the industry, the processing of local agricultural products and mineral extraction occupy a special place. It has electronics, metal processing, construction materials and light industry. Agriculture is mainly specialized in grain growing, animal husbandry, vegetable growing and horticulture. The consistent implementation of economic reforms in the autonomous republic has created ample opportunities for the development of free entrepreneurship, private property and small business. In the autonomous republic, important measures have been taken in the field of ensuring sustainable development, stimulation of entrepreneurial activity and comprehensive support of all efforts in this direction, and targeted programs in this field have been prepared. In order to accelerate the socio-economic development of the autonomous republic, the "State Program for the social economic development of the Nakhchivan Autonomous Republic for 2023-2027" was approved by the decree of the President of the Republic of Azerbaijan dated June 5, 2023. The program states:

-"In order to support the activities of micro, small and medium-sized entrepreneurs operating in the field of industry in the Nakhchivan Autonomous Republic, to ensure the sustainable development of the industry and to increase the employment of the population in the field of production, the Sharur Industrial District was established by Decree No. 831 of the President of the 5th Republic of Azerbaijan dated September 13, 2019, 24 investment promotion documents have been submitted to 18 business entities over the past 5 years for the expansion and promotion of investment activities and the stimulation of investment in

the economy. Customs and tax concessions were applied to equipment worth 77.9 million manats imported within the framework of the investment promotion document.

Taking advantage of the salt deposits, mineral waters, historical and religious monuments of the Nakhchivan Autonomous Republic, and natural favorable conditions for ecotourism, measures aimed at the development of this area will be taken in order to turn the region into a competitive tourism destination. It is planned to implement measures in the direction of expansion of health tourism opportunities, development of winter and rural tourism, ecotourism, improvement of tourism infrastructure. In order to increase the tourism attractiveness of the Nakhchivan Autonomous Republic and to protect the historical architectural monuments at the international level, work will be carried out to include those monuments in the main list of the tangible cultural heritage of UNESCO. At the same time, the creation of tourism and recreation zones will have a significant impact on the strengthening of the tourism potential of the region, the implementation of projects related to the promotion of tourism areas and the preparation of a tourism atlas will be ensured. At the same time, the services provided to business entities will be organized in a unified approach and in a centralized manner, work will be carried out in the direction of speeding up the transition and increasing the load carrying capacity at the customs border checkpoints. (Mammadova 2019).

The creation of new SME entities in various areas of the economy and the expansion of the activities of existing SMEs, their close participation in privatization processes are constantly stimulated. We should note that SME friends have already started working in the cities of Nakhchivan, Julfa, Shahbuz and Saderak district of the Nakhchivan Autonomous Republic. The purpose of creating SME friends is to support the opening of new SMEs and the development of existing businesses in the Nakhchivan Autonomous Republic, the realization of investment initiatives of entrepreneurs and the protection of their interests. Also, SME-friendly offices will serve the entrepreneurs of the surrounding regions as well as the respective cities and regions. On April 19, 2023, in connection with the launch of SME friends in the Nakhchivan Autonomous Republic, a meeting aimed at supporting entrepreneurs was held at the Nakhchivan Business Center with the organization of the Ministry of Economy of the Nakhchivan Autonomous Republic and the Small and Medium Business Development Agency (SME). On May 8, 2024, the "Support to Entrepreneurs" conference dedicated to public-private partnership in Nakhchivan was held in the Nakhshivan Business Center. 93.8 percent of the state properties privatized in the 9th month of 2024 were realized by SMEs, 97.4 percent of the issued licenses fell to the share of SMEs (10) and 76 licenses were issued to entrepreneurs, 43.6 thousand manats were paid to the budget [Nakhchivan Autonomous Republic Ministry of Economy 2024].

3307 permits issued by the relevant institutions of the autonomous republic for the activities of entrepreneurs have been registered in the register. The registered permits increased 11.8 times compared to the corresponding period of last year, and the revenues from the granted permits increased 2.1 times [Ministry of Economy of Nakhchivan Autonomous Republic 2024].

***SWOT (GZIT) analysis of the current situation of a special type of entrepreneurship in the tourism sector in Nakhchivan Autonomous Republic***

| Strengths | Weaknesses |
|---|---|
| the presence of rich history, cultural and natural resources; | resources suitable for tourism are not fully involved in the economic cycle; |
| year-on-year increase in investments allocated to the tourism sector; | Weakness of investment flow for private enterprises; |
| evaluation of tourism and small business sector as a priority direction; | the small number of special types of tourism business subjects; |
| existence of the legislative framework, improvement of the organizational structure of the tourism and entrepreneurship sector; | there is still little interest in the development of this sector; |
| favorable geographical position; | failure to address the ongoing seasonality factor in the sector; |
| preparation of new development programs; | poor implementation of innovations; |
| improvement of the organizational structure of the tourism and entrepreneurship sector; | ignorance of the population related to the concept of tourism and tourists, forms of behavior; |
| providing various types of concessions for the development of entrepreneurs' activities; | cases of tax evasion, difficulties in securing credit; |

| Opportunities | Dangers |
|---|---|
| business activity can increase with the development of a special type of entrepreneurship in the region; | there may be weaknesses in the development of traditional economic fields; |
| increase in the comfort needs of the local population with the influx of tourists; | price increase due to the tendency to offer comfortable service; |
| revival may occur in many forgotten fields of national economy (carpet making, carpentry); | misrepresentation of some elements (national ornaments) filtered from the moral values of our people for the purpose of earning income; |
| the state's attention to the development of tourism; | less attention to other sectors; |
| With the opening of the Zangezur Corridor, expectations for the revival of tourism in the region; | region overload. |

**Source:** *Prepared by the author*

## Conclusion

The following conclusions can be taken as a basis for the evaluation of the state of development of a special type of entrepreneurship in the field of tourism in the Autonomous Republic of Nakhchivan, and the study of ways to increase the efficiency of state support:

1. In modern times, it is necessary to apply state regulation to all areas, including the tourism sector. Therefore, the tourism sector plays an important role in economic development, solving social issues, etc. taking into account the leading role it plays in the directions, all opportunities should be used effectively in its development, and support mechanisms should be available for special types of entrepreneurs. Measures implemented

in the sector should be mutually evaluated with other areas, economic mechanisms should be coordinated with each other for the development of domestic tourism in the regions and special types of entrepreneurship in the tourism sector, there should be a single concept that includes the characteristics of national entrepreneurship;

2. The analysis of the international experience in the tourism sector shows that the activities of special types of business entities in countries such as the USA, Turkey, Japan, Germany, and Poland should be studied in depth, the creation of business associations and the establishment of cooperation with them, and the control of quality assurance should be strengthened;

3. Conducting scientific research based on the development of special types of entrepreneurship, involving special types of entrepreneurs in the educational system, increasing information and consulting opportunities, organizing the work of municipalities in this field, etc. to accelerate the development of tourism with forms of support and to carry out purposeful work on these matters;

4. The analysis of public catering establishments shows that although there is an increase in the number of restaurants and other catering establishments, the level of service in most establishments is not at the desired level. Taking into account all this, the regulation mechanism for the service level and prices of enterprises operating in the tourism sector should be implemented.

Thus, the expansion of the tourism sector can be achieved by effectively using the state regulation mechanisms, by implementing the correct state policy within the framework of constantly exploring new directions and international experience. We hope that the recent state care and implementation of measures in terms of both tourism and special types of entrepreneurship in the country will soon show results.

## REFERENCES

1. Cabbarov, Ə.X Turizmin iqtisadi əsasları. Dərs vəsaiti. Bakı: 2015. ADPU-nəşriyyatı. http://www.kitabxana.net/files/books/file/1511415584.pdf
2. Köçərli, Y., Köçərli, L. "Turizm xidmətləri bazarında sahibkarlıq fəaliyyətinin davamlı inkişafının yüksəldilməsi yolları" https://www.researchgate.net /publication/35113168
3. Abbasov, İ.M., Əliyev, T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı: 2017. "Elm və Təhsil". 501 s.
4. Sadikov, Elvin. "Turizm sahibkarlıq fəaliyyəti forması kimi" https:// www.researchgate.net/publication/377416406_turizm_sahibkarliq_faliyyti_formasi_kim i
5. İmamverdiyeva, Ç. Azərbaycanın turizm sahəsində kiçik sahibkarlığa dövlət dəstəyi mexanizmi(avtoreferat)https://unec.edu.az/application/uploads/2015/02/ Avtoreferat_Cinara_-mamverdiyeva.pdf
6. Məmmədova, N.N., T, N. "Kiçik sahibkarlığın Azərbaycan iqtisadiyyatındakı rolu" http://anl.az/down/meqale/adiu_elmixeb/2019/iyul-sentyabr/795317(meqale).pdf
7. Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqram.https://static.president.az/upload/Files/2023/06/ 05/1a6746ea89383eb dc443607715fa54be_4363375.pdf
8. http://neconomy.gov.az/az/metbuat-xidmeti/xeberler/naxcivan-muxtar-respublikasinin-iqtisadiyyat-nazirliyi-2024-cu-ilin-9-ayi-erzinde-gorduyu-islere-dair-hesabatini-teqdim-edib (13.10.2024)
9. Turizm haqqında Azərbaycan Respublikasının Qanunu. http://www.e- qanun.az/ framework/4759
10. Kobia İcmal 2020. Pdf https://smb.gov.az/storage/KOB%C4%B0A %C4%B0CMAL 2020.pdf
11. OECD. Enhancing the Contributions of SMEs in a Global and Digitalised Economy. Meeting of the OECD Council at Ministerial Level Paris, 7-8 June 2017. p.24

| | |
|---|---|
| Nəşriyyat direktoru: | Məhəmmədəli Məmmədli |
| Mətbəə müdiri: | Vidadi Kazımov |
| Qrafik dizayner: | Sahilə Abbasova |
| Baş redaktor: | Zəhra Rəhimova |
| Redaktor: | Zərri Məmmədova |
| Korrektor: | Sitarə Əlizadə |
| Kompüter operatoru: | Rəhimə Hacıyeva |

Yığılmağa verilib: 18.12.2024
Çapa imzalanıb: 27.01.2025
Formatı: 60/90, 32/1, həcmi 11.68 ç/v
Sifariş № 008, sayı 150 nüsxə

NDU Nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**REDAKSİYANIN ÜNVANI:** *7012. Naxçıvan şəhəri,*
*Universitet şəhərciyi,*
*Naxçıvan Dövlət Universiteti,*
*Əsas bina, I mərtəbə, NDU nəşriyyat*

**TELEFON**: (00994 036) 545-45-59
(00994 036) 544-08-61

**E-mail:** *elmitedqiqat@ndu.edu.az*